**VÜQAR AĞAYEV**
**SƏYYAD MƏCİDOV**
**NİGAR ŞAHHÜSEYNBƏYOVA**

# PROBASİYA FƏALİYYƏTİNDƏ SOSİAL ADAPTASİYA VƏ REABİLİTASİYA: *NƏZƏRİ VƏ PRAKTİKİ MƏSƏLƏLƏR*

*Azərbaycan Universitetinin Elmi Şurasının*
*30.10.2025-ci il tarixli, 02 saylı protokolu ilə*
*dərs vəsaiti kimi çap edilməsi tövsiyə olunmuşdur*

**"Elm və təhsil"**
**Bakı – 2025**

*Elmi məsləhətçi və ön sözün müəllifi:* **M. H. Əhmədov,** Ədliyyə nazirinin müavini, III dərəcəli dövlət ədliyyə müşaviri

*Müəlliflər:* **V.T.Ağayev,** *Probasiya xidmətinin rəisi, baş probasiya məmuru, baş ədliyyə müşaviri*
**S.T. Məcidov,** *Probasiya xidmətinin Sosial adaptasiya və reabilitasiya şöbəsinin rəisi, h.e.f.d.,dos.*
**N.F.Şahhüseynbəyova,** *Azərbaycan Universitetinin "Sosial işin təşkili" kaferdasının müdiri, s.ü.f.d.*

*Elmi redaktor:* **M.P. Əsgərova,** *Ədliyyə Akademiyasının Cinayət prosesi, kriminalistika və məhkəmə ekspertizası kafedrasının müdiri, h.e.d., dos.*

*Rəyçilər:* **M.N. Əliyev,** hüquq elmləri doktoru, professor, Bakı Dövlət Universiteti
**A.R. Bünyatova,** psixologiya üzrə fəlsəfə doktoru, dosent, Azərbaycan Universiteti

Ağayev V.T., Məcidov S.T., Şahhüseynbəyova N.F. **Probasiya fəaliyyətində sosial adaptasiya və reabilitasiya: nəzəri və praktiki məsələlər,** Dərs vəsaiti, Bakı, "Elm və təhsil" nəşriyyatı, 2025. 374 s.

Kitabda probasiya nəzəriyyəsi və qanunvericiliyi, probasiya qeydiyyatında olan şəxslərin sosial adaptasiya, reabilitasiya və bərpaedici ədliyyə məsələləri beynəlxalq təcrübə nəzərə alınmaqla araşdırılıb. Vəsaitdə həmçinin, probasiya qeydiyyatında olan şəxslərin hüquq və vəzifələri milli qanunvericilik və beynəlxalq hüquq aspektindən təhlil olunub.

Kitab ümumilikdə hüquqi maarifləndirməyə xidmət etməklə, ilk növbədə probasiya məmurları, sosial işçilər, psixoloqlar, ədliyyə və digər hüquq-mühafizə orqanlarının əməkdaşları, akademik kontingent, hüquqşünaslar, habelə probasiya nəzarətində olan şəxslər və bu sahəyə maraq göstərən geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

3706000000 / N-98-2025 qrifli nəşr

**© "Elm və təhsil", 2025**

## KİTABIN İÇİNDƏKİLƏR

**ÖN SÖZ** ........................................................................ **6**
**I FƏSİL. PROBASİYANIN NƏZƏRİYYƏSİ VƏ TARİXİ**
1.1. Probasiyanın anlayışı və fəlsəfi mahiyyəti......................11
1.2. Probasiyanın növləri və prinsipləri.................................37
1.3. Probasiyanın tarixi inkişafı...............................................49
**II FƏSİL. PROBASİYA SAHƏSİNDƏ BEYNƏLXALQ HÜQUQ NORMALARI, BEYNƏLXALQ QURUMLARIN TÖVSİYƏ VƏ STANDARTLARI**
2.1. BMT-nin probasiya ilə bağlı standart və prinsipləri......58
2.2. AŞ-nın probasiya ilə bağlı tövsiyələri və hüquqi çərçivəsi ....................................................................64
2.3. Avropa Probasiya Konfederasiyası (CEP) və digər qurumların peşəkar standartları. ..................................74
**III FƏSİL. AZƏRBAYCANDA PROBASİYA FƏALİYYƏTİ VƏ QANUNVERİCİLİYİ**
3.1. Probasiya sahəsində normativ-hüquqi baza, prioritetlər, trendlər və həyata keçirilən islahatlar - multidissiplinar fəaliyyət.........................................................................83
3.2. AR Ədliyyə Nazirliyinin Probasiya xidmətinin funksiya və səlahiyyətləri......................................................100
3.3. Probasiya sahəsində rəqəmsallaşma və ya ENV-lərin tətbiqi problemləri. ...............................................................106
3.4. Probasiya nəzarətində olan şəxslərin hüquq və vəzifələri. ............................................................117
**IV FƏSİL. PROBASİYA NƏZARƏTİNDƏ OLAN ŞƏXSLƏRİN SOSİAL ADAPTASİYA MƏSƏLƏLƏRİ**
4.1. Sosial adaptasiyanın anlayışı və mahiyyəti. ...................125
4.2. Probasiya nəzarətində olan şəxslərin cəmiyyətə

yenidən uyğunlaşması üçün dəstək strategiyaları
və proqramları. ....................................................................145
4.3. Məhkumların cəmiyyətə reinteqrasiyası zamanı yaranan problemlər: stereotiplər və stiqmatizasiya (damğalama) problemi. ....................................................................157
4.4. Azərbaycan probasiya fəaliyyətində sosial adaptasiya yeni trend kimi ....................................................................173
**V FƏSİL. PROBASİYA FƏALİYYƏTİNDƏ REABİLİTASİYA PROSESİNİN ƏSAS ASPEKTLƏRİ**
5.1. Probasiya fəaliyyətində reabilitasiyanın anlayışı, məqsədləri və formaları....................................................177
5.2. Məhkumlara psixoloji dəstək və məsləhət xidmətlərinin əhəmiyyəti ....................................................190
5.3. İctimai dəstəyin reabilitasiyada rolu...............................201
5.4. Asılılığı olan şəxslərin reabilitasiyası: problemlər və onların aradan qaldırılması yolları ........................................211
5.5. Risk qiymətləndirilməsi və fərdi nəzarət planlarının hazırlanması....................................................226
5.6. Məhkəməyədək məruzənin xüsusiyyətləri və növləri..235
**VI FƏSİL. PROBASİYA SAHƏSİNDƏ BƏRPAEDİCİ ƏDLİYYƏNİN (RESTORATİVE JUSTİCE) ROLU VƏ ƏHƏMİYYƏTİ.**
6.1. Bərpaedici ədliyyənin tarixi və mahiyyəti. ....................242
6.2. Bərpaedici ədliyyənin anlayışı və növləri. ......................263
6.3. Zərərçəkmiş və cinayət törətmiş şəxslər arasında mediasiya (Victim/Offender Mediation): mahiyyəti, növləri və məqsədləri....................................................267
6.4. Azərbaycanda probasiya sahəsində bərpaedici ədliyyənin tətbiqi perspektivləri. ..........................................273
6.5. Azərbaycanda probasiya sahəsində bərpaedici ədliyyənin tətbiqi perspektivləri....................................276

**VII FƏSİL. PROBASİYA, SOSİAL ADAPTASİYA VƏ REABİLİTASİYA FƏALİYYƏTİ ÜZRƏ BƏZİ XARİCİ ÖLKƏLƏRİN TƏCRÜBƏSİ**
7.1. Niderland Krallığı ......299
7.2. ABŞ ......303
7.3. Böyük Britaniya ......310
7.4. Türkiyə ......319
7.5. Latviya ......327
7.6. Yaponiya ......337
**NƏTİCƏ ......344**
**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT VƏ MƏNBƏ SİYAHISI ......348**

# ÖN SÖZ

Son illər ölkəmizin məhkəmə-hüquq sistemində həyata keçirilən genişmiqyaslı islahatlar ədliyyə sahəsində, o cümlədən probasiya fəaliyyəti üzrə mühüm yenilikləri və innovativ dəyişiklikləri zəruri etmişdir. Bu sahədə normativ-hüquqi baza təkmilləşdirilmiş, dünyanın qabaqcıl dövlətlərinin təcrübəsi, habelə ixtisaslaşmış beynəlxalq qurumların standart və tövsiyələri nəzərə alınaraq probasiya ölkəmizdə yeni institut kimi formalaşmışdır.

Probasiya sistemində bu gün dünyada mövcud olan qlobal trendlər ölkəmizdə də konseptual, praktiki, institusional və kontent baxımından yeni çağırışlar doğurur.

**Ədalətli cəza siyasəti dövlətin humanizm simvolu sayılır.** Cəza fəlsəfəsinin ədalət prinsipi üzərində bərqərar olması hüquqi dövlətin təməl elementi kimi çıxış edir. Bu mənada **Ulu Öndər Heydər Əliyevin kəlamı ilə desək, "Ədalət iki halda pozulur, cinayət baş verib cəza verilməyəndə və cinayət olmayan halda cəza verildikdə".** Ona görə də ölkəmizdə həyata keçirilən məhkəmə-hüquq islahatlarının mərkəzində digər ümdə vəzifələrlə yanaşı, cəza siyasətinin daha da humanistləşdirilməsi, yüksək qayğıkeşlik, humanizm və xeyirxahlıq kimi dəyərləri özündə ehtiva edən ədalətli məhkəmə mexanizmlərinin müəyyən edilməsi, azadlıqdan məhrumetmə cəzasına alternativ cəzaların tətbiqinin genişləndirilməsi geniş yer almışdır.

Müasir dövrün tələbləri kontekstində **dövlət başçısı cənab İlham Əliyevin** imzaladığı konseptual sənədlərə və tapşırıqlarına müvafiq olaraq bütün sahələrdə olduğu kimi, məhkəmə-hüquq sistemində, o cümlədən cəza-icra, probasiya sahəsində də ardıcıl və məqsədyönlü islahatlar aparılır.

Xüsusi qeyd olunmalıdır ki, **Azərbaycan Respublikası Prezidentinin 10 fevral 2017-ci il tarixli** "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" Sərəncamı bu istiqamətdə yeni tendensiyaların ortaya qoyulmasına və fundamental dəyişikliklərə səbəb olmuşdur. Həmin sənəddə cəza siyasətinin humanistləşdirilməsi, ictimai təhlükəliliyini əhəmiyyətli dərəcədə itirən cinayətlərin, xüsusilə iqtisadi fəaliyyət sahəsində cinayətlərin dekriminallaşdırılması, Probasiya xidmətinin təşkili, elektron nəzarət vasitələrinin tətbiqi, cinayətlərin sanksiyalarına azadlıqdan məhrumetməyə alternativ cəzaların əlavə olunması və mövcud alternativ cəzaların tətbiqi əsaslarının təkmilləşdirilməsi, eləcə də digər məsələlərlə bağlı olduqca mühüm tapşırıqlar ölkəmizdə həyata keçirilən genişmiqyaslı məhkəmə-hüquq islahatlarının məntiqi davamı olmaqla, probasiyanın formalaşdırılması və inkişafı üzrə yeni strateji hədəfləri müəyyənləşdirmişdir.

Bu sənəd ölkəmizdə həyata keçirilən genişmiqyaslı məhkəmə-hüquq islahatlarının məntiqi davamı olmaqla, probasiyanın formalaşdırılması və inkişafı üzrə yeni strateji hədəfləri müəyyənləşdirmişdir.

Respublikamızda məhkəmə-hüquq islahatlarının dərinləşdirilməsi çərçivəsində cəza siyasətinin humanistləşdirilməsi, alternativ cəzaların tətbiqi, bu sahədə beynəlxalq təcrübənin öyrənilməsi ilə bağlı mühüm işlər görülür, ədalət mühakiməsi sis-

temində yeni və səmərəli mexanizmlərin tətbiqi ilə bağlı əhəmiyyətli addımlar atılır. Bu sahədə müasir texnoloji vasitələrin tətbiqi, cəzaların icrasına effektiv nəzarətin təşkili və digər konseptual məsələlər nəzərdə tutulmuş, bu məqsədlə məhkumların cəmiyyətdən təcrid edilməsi ilə əlaqədar olmayan cəzaları icra edən **yeni təsisat - Ədliyyə Nazirliyinin Probasiya xidməti yaradılmışdır.** Hazırda məhkumların hüquqlarının təminatı, sosial adaptasiya və reabilitasiyası, alternativ cəzaların tətbiqi üzrə beynəlxalq təcrübənin öyrənilməsi ilə bağlı qurumun fəaliyyəti daha da təkmilləşdirilir, müvafiq təşkilati tədbirlər görülür.

Məhkəmə-hüquq sistemində islahatlar, o cümlədən məhkəmə qərarlarının icrası və cəza-icra siyasəti son illər müasir çağırışlara uyğun olaraq yeni mərhələyə keçmişdir. **Ölkə Prezidenti cənab İlham Əliyevin "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 2019-cu il 3 aprel Fərmanı** bu sahədə ciddi dönüşə səbəb olmuşdur. Ədliyyə və məhkəmə sistemi üçün mühüm "yol xəritəsi" olan bu Fərmanın aidiyyəti qurumlarla birgə icrasına başlanılaraq qısa müddətdə kompleks qanunvericilik, institusional və praktiki tədbirlər görülmüşdür. İlk növbədə, cəza siyasətinin humanistləşdirilməsi və cinayətlərin dekriminallaşdırılması, məhkəmə qərarlarının icrası işinin təkmilləşdirilməsi ilə bağlı qabaqcıl beynəlxalq təcrübə öyrənilməklə bir sıra mühüm tədbirlər görülmüşdür.

Qarşıda duran ən mühüm vəzifələrdən biri də probasiya sahəsində həyata keçirilən islahatlar barədə əhalinin maarifləndirilməsi və geniş ictimaiyyətin bu islahatların mahiyyəti, probasiya prosesi iştirakçılarının hüquq və azadlıqları, qanuni mənafeləri, rəqəmsal rifah, elektron xidmətlər və s. barədə məlumatlandırılmasından ibarətdir. Belə ki, hazırda ölkə əhalisinin əksəriyyəti probasiyanın anlayışı və mahiyyəti, Xidmətin funksiya və səlahiyyətləri, bu sahədə xarici ölkələrin praktikası, bərpae-

dici ədliyyə, məhkumların sosial adaptasiyası və reabilitasiyası ilə bağlı geniş bilgilərə malik deyil. Bu səbəbdən də qeyd olunan sahədə ətraflı elmi və praktiki əhəmiyyətli bilgiləri özündə əks etdirən tədris vəsaitinə ehtiyac vardır.

Bu zərurətdən irəli gələrək, qarşınızdakı kitabda probasiya sahəsində beynəlxalq təcrübədə mövcud olan elmi nailiyyətlərin, yeniliklərin Azərbaycanda tətbiqi, xüsusilə məhkumların sosial adaptasiya və reabilitasiyası, habelə digər məsələlərin mahiyyətinə konseptual elmi-praktiki yanaşma ortaya qoyulur.

Probasiyanın müasir dövrdə hüquqi və sosial əhəmiyyəti, ictimai rəydə geniş maraq doğurduğu nəzərə alınmaqla, bu kitabda qaldırılan məsələlər həm cəmiyyətimizdə, həm də elmi dairələrdə aktuallıq kəsb edəcəkdir.

Kitabda həmçinin, probasiya haqqında milli qanunvericiliyin əsas məqamları, terminoloji izahlar, Probasiya xidmətinin funksiya və səlahiyyətləri, Azərbaycanda probasiya sisteminin gələcək inkişaf perspektivləri, probasiya nəzarətində olan şəxslərin hüquq və vəzifələri, bu sahədə mövcud olan elmi və praktiki problemlər, onların həlli yolları araşdırılır. Bundan əlavə, tədris vəsaitində probasiya sistemində sosial adaptasiya, reabilitasiya və məhkumların cəmiyyətə reinteqrasiya prosesləri, bərpaedci ədliyyənin anlayışı və mahiyyəti, bu institutun ölkəmizdə tətbiqi perspektivləri təhlil edilir.

Beləliklə, kitabın əsas məqsədi bütövlükdə probasiya fəaliyyəti, sosial adaptasiya və reabilitasiya, habelə bərpaedici ədliyyənin tətbiqi ilə bağlı elmi-nəzəri və praktiki məsələlər barədə ictimaiyyətin məlumatlandırılmasıdır.

Kitab icra məmurları (probasiya üzrə), ali təhsil müəssisələrinin hüquqşünaslıq, sosial iş, psixologiya, sosiologiya, sosial pedaqogika və s. ixtisasları üzrə bakalavr və magistratura səviyyələrində təhsil alan şəxslər, probasiya sahəsində elmi-prak-

tiki fəaliyyətlə məşğul olan şəxslər, habelə geniş ictimaiyyət üçün nəzərdə tutulmuşdur.

Vəsaitin ərsəyə gəlməsində verdikləri dəyərli tövsiyələrə, göstərdikləri diqqət və qayğıya görə Xidmətin əməkdaşlıq etdiyi ali təhsil müəssisələrinin professor-müəllim heyətinə, könüllü və təcrübəçi kimi Xidmətdə fəaliyyət göstərən şəxslərə, həmçinin bu işdə əməyi keçən bütün tədqiqatçı və alimlərimizə təşəkkürümüzü bildiririk.

**Mübariz Əhmədov**
*Ədliyyə nazirinin müavini,*
*III dərəcəli dövlət ədliyyə müşaviri*

# I FƏSİL
# PROBASİYANIN NƏZƏRİYYƏSİ VƏ TARİXİ

*1.1. Probasiyanın anlayışı və fəlsəfi mahiyyəti*
*1.2. Probasiyanın növləri və prinsipləri*
*1.3. Probasiyanın tarixi inkişafı*

## 1.1. Probasiyanın anlayışı və fəlsəfi mahiyyəti

Probasiya ilə bağlı məsələlər ölkəmizdə və dünyada həm elmi müstəvidə, həm də hüquq-mühafizə orqanlarının, xüsusilə ədliyyə qurumlarının təcrübəsində, habelə ictimai fikirdə yeni və qlobal tendensiyalardandır.

**"Probasiya" rəsmi normativ termin olaraq Azərbaycanda ilk dəfə** dövlət başçısının 10 fevral 2017-ci il tarixli Sərəncamında istifadə olunmuş və bununla da, probasiya institutu ölkəmizdə elmi və praktiki dövriyyəyə daxil olmuşdur. Bu gün probasiya, həmçinin konseptual olaraq ölkəmizdə yenidən işlənib hazırlanmağa, əhatəli dəstək göstərilməsinə və cəmiyyətimizdə daha geniş ictimai maarifləndirilməyə ehtiyac duyulan innovativ və modern bir fəaliyyət sferası kimi inkişaf edir.

Bu səbəbdən də, kitabda **ilk növbədə "probasiya" termininin elmi məna yükünə**, habelə probasiyanın mahiyyətinə, fəlsəfəsinə, prinsiplərinə, tarixinə, onun hüquqi, sosial və kriminoloji aspektlərinə diqqət yetirilməsini zəruri hesab edirik.

***Terminologiya:*** **"Probasiya" termini** latınca *"probatio"* sözündən götürülmüş və Azərbaycan dilində **"sınaq" mənasını** verir. Əslində bu termini semantik baxımdan təhlil edərkən probasiyanın tarixinə də diqqət çəkilməsi faydalı olardı. Çünki bu terminin tarixi kökləri məhkəmə möhləti *(judicial reprieve)* praktikasına əsaslanır.

Bu terminin vətəni İngiltərə sayılır. İngilis ümumi hüququnda *(common law)* məhkəmələr cəzanın icrasını müvəqqəti olaraq dayandıra bilərdilər ki, bu da cinayət törətmiş şəxsin monarxa müraciət edərək əfv istəməsinə imkan verirdi.[1] Beləliklə, *"probasiya"* termini Azərbaycan dilində hərfi mənada *"sınaq" və ya "möhlət"* kimi başa düşülə bilər.

Elmi mənbələrdə və normativ sistemdə probasiyanın dar və geniş məzmunlu müxtəlif anlayışlarına rast gəlinir. Qeyd edilən fikirlərdən bəzilərinə, xüsusilə akademik yanaşmalara və praktik mülahizələrə nəzər yetirək.

Probasiya sahəsində tanınmış alimlərdən biri Buxarest Universitetinin professoru **İoan Durnesku "probasiya"ya belə bir anlayış verir:** "Probasiya qanunla müəyyən edilmiş və cinayət törətmiş şəxsə qarşı tətbiq edilən sanksiyaların və tədbirlərin cəmiyyət daxilində həyata keçirilməsidir. Bu, cinayət törətmiş şəxsin sosial inteqrasiyasına, habelə ictimai təhlükəsizliyə töhfə verməyə yönəlmiş nəza-

---

[1] Mackenzie, Doris Layton et al. (2002). The Oxford Handbook of Crime and Criminal Justice. Oxford University Press.

rət, istiqamətləndirmə və yardımı əhatə edən bir sıra fəaliyyət və müdaxilələri əhatə edir."[2]

Prof. İ. Durneskunun probasiyaya verdiyi **tərifdə 3 mühüm amilə diqqət yetirilməsini vacib hesab edirik**: birincisi müasir probasiya anlayışında "şəxsin sosial inteqrasiyası" ən vacib elementlərdən biri hesab edilir. İkincisi, probasiya üçün önəmli məsələ təkcə sınaq müddətində olan şəxsə nəzarət deyil, bu zaman müxtəlif xidmətlər göstərmək və istiqamətləndirmə həyata keçirməklə onun reabilitasiyasına nail olmaqdır. Üçüncü mühüm amil isə, probasiya nəzarətində olan şəxsə tətbiq edilən sanksiyaların və onun barəsində görülən tədbirlərin həbs yerlərində deyil, məhz cəmiyyət daxilində həyata keçirilməsidir.

Probasiya üzrə **Kanadalı tədqiqatçı və ekspert Con F. Klaus** qeyd edir ki, probasiyanın anlayışı konkret xidmətlərin göstərilməsini təmin edən bir sistemə (istər dövlət, istərsə də özəl) aid edilə bilər və bu sistem adətən cinayət ədliyyəsinin alt sistemi kimi qiymətləndirilir. Klaus **probasiyanı** həbsə alternativ, məhkəmə tərəfindən tətbiq olunan, məhdudiyyətlər və öhdəliklər şəraitində şəxsin icmada qalmasına və nəzarət altında saxlanılmasına xidmət edən sistem kimi görür. Bu yanaşma daimi cəza tətbiqindən fərqli olaraq reabilitasiya və reinteqrasiyaya yönəlib.[3]

---

[2] Ioan Durnescu, & Vivian Geiran, (2019) Implementing community sanctions and measures, Council of Europe, p.8.

[3] Handbook on Probation Services, Guidelines for Probation Practitioners and Managers prepared by Jon F. Klaus, Publication No. 60, Rome / London March 1998, p.9.

Göründüyü kimi, C. Klaus **probasiyanın iki əsas məqsədini** vurğulayır: 1) İctimai təhlükəsizliyin təmin edilməsi; 2) Sosial reinteqrasiya və davranış dəyişikliklərinin dəstəklənməsi. Onun fikrincə, bu məqsədlər operativ tədbirlər (məsələn, proqramlara istiqamətləndirmə) və ölçülə bilən idarəçilik prinsipləri ilə birləşdirilməlidir.

Fikrimizcə, peşəkar probasiya mütəxəssisi olan Klausun tezisləri ilə tam mənada razılaşmaq olar. Çünki, müasir anlamda **probasiya təkcə həbsə alternativ deyil, eyni zamanda icma əsaslı nəzarət və reabilitasiya sistemidir.** Bundan əlavə, bu sistem beynəlxalq standartlara uyğun və insan yönümlü idarəetmə tələb edir ki, onun da uğurlu nəticə verməsi üçün ictimai iştirakçılıq, peşəkar təlimlərin və xidmətlərin olması önəmli hesab edilir.

**Böyük Britaniyanın Hull Universitetinin professoru Robert Harris** isə hesab edir ki, **geniş mənada probasiya** nəzarət və yardımın vəhdətinə əsaslanan sosial-pedaqoji xarakterli cəza üsulu kimi qəbul edilir.[4] Göründüyü kimi, probasiyaya verilən bu anlayış tam fərqli elementləri ilə diqqəti cəlb edir.

Belə ki, prof. Harrisin probasiyanı *"sosial-pedaqoji xarakterli cəza"* kimi şərh etməsi xüsusi maraq doğurur. Bu, əsasən probasiyanın tərbiyəvi və maarifləndirici funksiyası ilə bağlıdır. **Probasiyaya sosial-pedaqoji yanaşma** şəxsin

---

[4] Harris, R. (1995) Reflections on comparative probation. In: K. Hamai, R. Villé, R. Harris, M. Hough and U. Zvekic (eds.) Probation Round the World. A Comparative Study. London and New York: Routledge, p.3-4.

davranışını dəyişdirən, onu cəmiyyətin normalarına uyğunlaşdıran, ona yeni bacarıqlar qazandıran və bütövlükdə mənəvi dəyərlərə əsaslanan reabilitasiyanı nəzərdə tutur. Burada pedaqoji element həm formal (təlimlər və reabilitasiya proqramları), həm də qeyri-formal (münasibətlərin qurulması, sosial dəstək şəbəkələri) müstəvilərdə təzahür edə bilər.

Britaniyalı alimin *"nəzarət və yardımın vəhdəti"* ideyasından probasiyanın anlayışı ilə bağlı çox maraqlı və vacib bir nəticəyə gəlmək mümkündür: **Probasiya təkcə hüquqi nəzarət mexanizmi deyil, həm də sosial dəstək vasitəsidir.** Bu vasitə ilə məhkumun davranışına nəzarətlə yanaşı, ona peşəkar psixoloji, sosial, tibbi və təhsil dəstəyinin göstərilməsi də vacibdir. Bu vəhdət həmçinin, cəmiyyətin təhlükəsizliyi ilə şəxsin reabilitasiyası arasında körpü yaratmaqla, balanslı yanaşmanı təmin edir.

Bu fikirlə əlaqədar daha bir maraqlı məqam – professorun irəli sürdüyü *"probasiya cəza üsuludur"* – formulu ilə bağlıdır. Harris probasiyanı alternativ cəza forması kimi qiymətləndirir: **probasiya nə tam azadlıqdır, nə də həbs.** Burada məqsəd şəxsi cəzalandırmaqdan daha çox, onu islah etmək, gələcəkdə yeni cinayətlərdən çəkindirməkdir. Beləliklə də, nəticədə biz probasiyanın həm sanksiya, həm də bərpaedici (reabilitasiyaedici) funksiyaya malik olmasının şahidi oluruq.

Probasiyanın hüquqi və sosial mahiyyəti ilk növbədə onun alternativ cəza növü kimi funksiyasından irəli gəlir. **ABŞ alimləri J. Louden, S. Mançak və T. Kanqın** *"Com-*

*munity Corrections and Probation*" adlı əsərdə qeyd etdikləri kimi, "**probasiya** cinayət ədliyyə sistemində cinayət törətmiş şəxslərə cəmiyyətdən təcrid olunmadan, probasiya məmuru tərəfindən nəzarət altında qalmaqla tətbiq edilən **cəzanın bir formasıdır**".[5] Bu zaman şəxsin cəzaçəkmə müəssisəsinə göndərilməsi əvəzinə, cəmiyyətdə yaşamaqla bərabər, müəyyən hüquqi şərtlərə riayət etməsi də nəzərdə tutulur.

Fikrimizcə, probasiyaya verilən bu tərifdə müəyyən mənada natamamlıq hiss olunur. Çünki **probasiya təkcə cəza forması deyil, həmçinin şəxsin sosial adaptasiyası və reabilitasiyasını şərtləndirən multidissiplinar bir fəaliyyət formasıdır**. Probasiyanın məqsədi təkcə cəzaya fokuslanmaq yox, eyni zamanda zərərin və beləliklə də ədalətin bu və ya digər dərəcədə bərpasına yönəlməli, yeni cinayətlərin qarşısının alınması və ya minimuma endirilməsindən ibarət olmalıdır.

Bu mənada probasiyanın mahiyyətini açıqlayan **Türkiyə** Cəzaçəkmə Müəssisələri və Həbsxanalar Baş İdarəsinin Baş direktoru **Enis Yavuz Yıldırımın** fikriləri təqdirəlayiq hesab edilməlidir. Onun fikrincə, **probasiyanın fundamental fəlsəfəsi** həbs və azadlıqdan məhrumetməyə alternativlərin təmin olunması, cəmiyyəti cinayətlərdən qorumaq, yeni cinayətlərin qarşısını almaq və ən mühümü

[5] Louden, J., Manchak, S., & Kang, T. (2020). Community Corrections and Probation. Journal of Criminal Justice Policy Review.

məhkumların reabilitasiyası və ictimai təhlükəsizliyin təmin olunmasıdır.[6]

Türkiyənin nüfuzlu cəza-icra uzmanı olan Enis Y.Yıldırımın bu fikirlərinə istinad edərək vurğulamaq lazımdır ki, probasiyanın yeni bir institut olaraq meydana gəlməsinin başlıca səbəblərindən biri həbs sisteminin çatışmazlıqları ilə bağlı olmuşdur. Çünki, həbs dövlət üçün yüksək xərc tələb edir, insanın həbs olunması onun sosial əlaqələrini qırır, əksər hallarda isə şəxsi daha da kriminallaşdırır. Ona görə də bu mənada probasiya, alternativ cəza elementi kimi meydana çıxır. Bu sistem şəxsi cəmiyyətdən təcrid etmədən həm onun həyatını dağıtmır, həm də dövlətin resurslarına qənaət edir.

Əlbəttə, **probasiyanın ən mühüm xüsusiyyəti** məhz məhkumun cəmiyyətdən təcrid olunmama prinsipidir. Təcridolunma şəraitində sosial əlaqələrin itməsi, stiqmatizasiya və yeni cinayət törətmə riski daha yüksək olduğundan, probasiya reabilitasiya baxımından daha optimal hesab edilir. Bir çox alimlərin vurğuladığı kimi, bu yanaşma insan potensialının itirilməsinin qarşısını almağa, sosial bağların qorunmasına və şəxsin cəmiyyətə təkrar inteqrasiyasına xidmət edir.

Ümumiyyətlə "probasiya" termininə Türkiyə akademik dairələrinin və praktiklərin yanaşması mühüm elmi və təcrübi çalarları ilə diqqət çəkir. Türkiyəli alimlərə görə, probasiya (*denetimli serbestlik*) şəxsin cəmiyyət daxilin-

[6] Özyörük D. (2025) Probation implemetaion in Türkiye, Edited by Hüseyin Şık, Ph.D.

də nəzarət altında islah edilməsi məqsədi ilə yaradılmış hüquqi institut hesab edilir.

**Prof. Dr. Veli Özer Özbek** probasiyanı "şəxsin azadlıqdan məhrumetmə cəzası çəkmədən cəmiyyət içində nəzarət altında islah edilməsi vasitəsi" kimi təqdim edir və onun hüquqi əsaslarını, məqsədini və tətbiq mexanizmlərini geniş analiz edir. [7] Professorun fikirlərindən göründüyü kimi, **probasiya klassik məhkumetmədən fərqlənir, yəni şəxs həbs yerlərində cəza çəkmir, lakin azadlığı da məhdudiyyətsiz deyil.** Şəxs müəyyən şərtlər və qaydalar altında cəmiyyət daxilində yaşayır ki, bu da həm dövlət üçün səmərəlidir (maliyyə və resurs baxımından), həm də cəmiyyət üçün daha faydalı (şəxsin sosial əlaqələri baxımından) bir modeldir.

**Dr. Çağrı Sevinçli** qeyd edir ki, probasiya – şəxsin yenidən cəmiyyətə qazandırılması məqsədini daşıyan və ona müəyyən edilmiş öhdəliklərə və proqramlara uyğun davranaraq cəza müddətini dörd divar arasında deyil, cəmiyyətdən təcrid olunmadan, nəzarət altında açıq mühitdə keçirməsini təmin edən bir mexanizmdir.[8]

Göründüyü kimi, probasiyada mühüm elementlərdən biri şəxsin "cəmiyyətdən təcrid olunmama" məsələsidir.

---

[7] Özbek, V. Ö., Doğan, K., Bacaksız, P., Tepe, İ. N., & Erdem, M. Z. (2022). Ceza Hukuku Genel Hükümler (16. Baskı). Ankara: Seçkin Yayıncılık.

[8] Çağrı Sevinçli, (2021) Türk ceza adalet sisteminde, Denetimli Serbestlik, İstanbul Ticaret Üniversitesi, səh.18.

**Bəs cəmiyyətdən təcrid olunmamanın fəlsəfəsi nədən ibarətdir?** Bu, probasiyanın əsas fərqləndirici xüsusiyyəti hesab olunur. Belə ki, şəxs öz ailəsi, sosial çevrəsi ilə təmasda qalır, işləyə və ya təhsil ala bilir ki, bu da reinteqrasiya prosesinin sürətlənməsinə səbəb olur. Digər tərəfdən bu yanaşma məhkumun reabilitasiya prosesində həm də ictimai iştirakçılığı tələb edir və prosesə probasiyanın mühüm tərkib hissəsi kimi qeyri-hökumət təşkilatları, könüllülər, sosial xidmətlər, təlim və reabilitasiya proqramları cəlb olunur.

Bu mənada probasiya, qanunvericilikdə nəzərdə tutulmuş qayda və şərtlərə əsasən məhkəmə tərəfindən verilmiş cəzanın adi həyat şəraitində icra olunması deməkdir. Bu şərtlər məhkumun nəzarət qaydalarına riayət etməsini, konkret müddət ərzində müəyyən bir yerdə qalmasını, müəyyən saatda evə qayıtmasını, mütəmadi olaraq məhkəmə nəzarətinə getməsini və ya müəyyən ictimai işlər görməsini əhatə edə bilər. Probasiya məhkumların cəmiyyətdə qalmasına və eyni zamanda reabilitasiya olunmasına imkan yaradır. Bu, həbsdə qalmaqdan daha az xərc tələb edir və eyni zamanda məhkumların yeni cinayət törətmə ehtimalını azalda bilər. Buna görə də, bir çox ölkədə bu cəza növü ədliyyə sistemlərində geniş şəkildə tətbiq olunur.[9]

Kanadalı mütəxəssislərə (*Legal Aid Ontarionun hüquqşünasları*) görə **probasiya** cəza növüdür və həbs cəzasına al-

[9] Denetimli Serbestlik Nedir? https://www.tkshukuk.com/denetimli-serbestlik-nedir/

ternativ sayılır. Bu, müəyyən müddət ərzində məhkəmənin şəxsdən müəyyən hərəkətləri etməyi və ya etməməyi tələb etdiyi məhkəmə qərarıdır.[10] Göründüyü kimi, **probasiya** ənənəvi həbsdən fərqli olaraq, daha çox **şərtli və müddətli cəzadır,** yəni məhkəmə tərəfindən müəyyən olunmuş zaman kəsiyində şəxsin özünü necə apardığına görə qiymətləndirilir. Əgər bu müddət ərzində öhdəliklər yerinə yetirilmişdirsə, məhkəmə cəzanı ləğv edir. Əks təqdirdə, azadlıqdan məhrumetmə və ya digər sərt sanksiyalar tətbiq oluna bilər.

**Amerikalı alim V.P. Statski** konseptual olaraq, probasiya terminini şərti azadlıqdan məhrumetmə termini ilə müqayisə edir və yazır ki, "probasiya - məmur nəzarəti altında müsbət davranışın müəyyən şərtlərinə riayət olunduğu müddətdə məhkumun cəmiyyətə qayıdışı" deməkdir. Onun fikrincə, şərti cəza ictimai cəza hesab olunur. Probasiya məhkumu, şərti məhkum edilmiş şəxsi cəmiyyətdə müəyyən məhdudiyyətlər altında saxlayır və bu prosesə çox vaxt icma islah məmuru - "community corrections agent" (probasiya məmuru) tərəfindən nəzarət edilir.[11]

Bəzi ədəbiyyatlarda probasiya daha çox hökmlərdən irəli gələn münasibətləri və prosesi xarakterizə edir**. "Legal dictionary"də** probasiyaya belə bir anlayış verilir: **Probasiya** cinayət törətmiş şəxslərə müəyyən konkret göstə-

---

[10] Probation, https://www.legalaid.on.ca

[11] W.P.Statsky, West Legal Thesaurus/Dictionary (Special Deluxe Edn,1985, p.604)

rişlərə riayət edildiyi müddətdə həbsdən kənar, nəzarət altında qalmağa imkan verən hökmdür. Cinayət törətmiş şəxs məhkəmə hökmü ilə məhkum edildikdə, təyin olunmuş probasiya məmuru ilə müntəzəm görüşməli, məhkəmənin müəyyən etdiyi şərtlərə əməl etməlidir. Əgər məhkum şərtlərə riayət etmirsə, məhkəmənin qərarını pozmaqda ittiham olunur və cəzaçəkmə müəssisəsinə göndərilir.[12] İlk dəfə cinayət törətmiş, yaxud az ağır cinayətlərdə təqsirli bilinən şəxslərlə mübarizə aparmaq üçün istifadə olunan bu üsul, şərtlərə riayət edildiyi müddət ərzində onların cəmiyyətdə qalmasına imkan verir. Başqa sözlə, əslində probasiyanın ən sadə hüquqi mənası "şərti olaraq azadlıqdan məhrumetmə" kimi də başa düşülə bilər. Həbsdən şərti olaraq azad edilmə və ya həbsə alternativ olaraq təyin olunan bir sıra cəza növləri bilavasitə probasiyanın əsas mahiyyətini təşkil edir.

**Kembric Akademik Lüğətində** probasiyaya belə bir anlayış verilir: "**Probasiya** bir daha cinayət törətməməklə və müəyyən qaydalara əməl etməklə məhkumun azadlığa buraxılma şərtidir".[13]

**"Britannica Dictionary"** hüquqi mənada "probasiya" terminini "cinayət törətmiş şəxsin həbsdən kənarda qalmasına icazə verən, həmin şəxsin müsbət davranışına, ci-

---

[12]Definition of Probation, https://legaldictionary.net/probation/

[13] Definition of probation from the Cambridge Academic Content Dictionary, Cambridge University Press, https://dictionary.cambridge.org/dictionary/english/probation

nayət törətməməsinə və s. əsaslanan sınaq müddəti və ya situasiya"[14] kimi şərh edir.

**Qırığızıstanlı alim,** hüquq elmləri namizədi, dosent **N.T. Tınıkbekov** yazır ki, cinayət hüququ nöqteyi-nəzərindən probasiya alternativ cinayət cəzasının bir növüdür. O qeyd edir ki, **cinayət-prosessual aspektdən probasiya** məhkəməyədək icraatın və cəzanın təyin edilməsi mərhələlərini və müəyyən hüquqi təsir tədbirlərini (əsas və fakültativ öhdəliklər) əhatə edir.[15] Əlbəttə, probasiyanın alternativ cəza tədbiri olması fikri tamamilə doğrudur, lakin probasiya təkcə hüquqi təsir tədbiri kimi deyil, həmçinin sosial-psixoloji, iqtisadi, tibbi və s. kompleks təsir tədbirlərini əhatə edir.

Həmçinin xüsusi vurğulanmalıdır ki, probasiya elmi konsepsiya olaraq, Azərbaycan alimləri tərəfindən də az işlənilmiş bir mövzudur.

Probasiya sahəsində tədqiqatçı A. Hümmətova qeyd edir ki, məhkumların fundamental hüquqlarının qorunması, onların cəmiyyətə fiziki və  mənəvi sağlam inteqrasiyası, azadlıqdan məhrumetmənin tətbiq olunan son vasitə olması, yenidən cinayət törədilməsinin qarşısının alınması və bütövlükdə cəmiyyətin mənafelərinin təmin edilməsi istiqamətində bütün dünyada hərtərəfli, qabaqlayıcı və sistematik formada müxtəlif tədbirlər görülür, müvafiq

[14] Britannica Dictionary Definition of Probation, https://www.britannica.com/dictionary/probation
[15] Тыныбеков Н.Т. Практика применения пробации в зарубежных странах, https://cyberleninka.ru/journal/n/yuridicheskaya-nauka

qurumlar yaradılır. Bu baxımdan yaradılan probasiya qurumlarını məhkumlara daha humanist yanaşmanın təzahür forması kimi qiymətləndirmək mümkündür.[16]

Hüquq elmləri üzrə fəlsəfə doktoru, dosent Səyyad Məcidov qeyd edir ki, probasiya cəmiyyətdən təcrid olunmadan məhkumetmənin xüsusi formasıdır və bu, əsasən anqlosakson hüquq sisteminə malik olan ölkələrin praktikasına məxsus cəza-icra sistemi kimi Böyük Britaniya, ABŞ, İsveç, Finlandiya, Danimarka və bir sıra digər ölkələrin ədliyyə və məhkəmə təcrübəsində geniş yayılıb. Bu ölkələrdə məhkəmələr azadlıqdan məhrumetmə cəzasının yerinə probasiya rejiminin seçilməsinin mümkünlüyü haqqında qərar qəbul edərək, məhkumu müəyyən müddətə onun davranışına nəzarət edəcək Probasiya xidməti məmurunun müşahidəsi altına verir.[17]

**Müasir dövrdə süni intellekt proqramlarının probasiyaya verdiyi tərif** də maraqlı hesab edilə bilər: "**Probasiya** – məhkəmə hökmü ilə azadlıqdan məhrumetmədən yayındırılmış və ya cəza çəkdikdən sonra ictimai nəzarət altında olan şəxslərə yönəlmiş hüquqi nəzarət və sosial reinteqrasiya tədbirlərinin kompleksidir.[18]

Yuxarıdakı şərhlərdən də göründüyü kimi, **"probasiya" termini özündə 3 əsas komponenti ehtiva edir:** 1)

[16] Hümmətova A.A. Probasiya xidməti cəza siyasətinin humanistləşdirilməsinin göstəricisi kimi. Magistr dissertasiya işi. Bakı 2020, s.69
[17] Ədliyyə Nazirliyindən yeni yaradılan Probasiya Xidməti haqqında açıqlama, https://aia.az
[18] https://chatgpt.com/c/6866329f-8db0-8009-8440-b1a321200561

Məhkumun yeni cinayət törətməməsini; 2) Məhkumun qanunla müəyyən olunmuş qaydalara əməl etmək vəzifəsini; 3) Məhkumun cəmiyyətdən təcrid olunmadan azadlıqda qalmasını.

**Probasiya cinayət törətmiş şəxs üzərində məhkəmənin təyin etdiyi nəzarət və sınaq müddətini əhatə edən prossesual tədbirlərin məcmusudur.** Qərb ölkələrinin nəzəriyyə və praktikasında probasiyaya çox vaxt həbs cəzasına alternativ kimi yanaşılır. Şəxs həbs əvəzinə müəyyən şərtlər və nəzarət altında cəmiyyətdə qalır.

Ədəbiyyatlardakı probasiya ilə bağlı təhlillərdən də göründüyü kimi, bu terminin mahiyyəti ilə bağlı əsas elmi-nəzəri və praktiki məqamlara bunlar aid edilir:

1) Nəzəri cəhətdən probasiya həbsə alternativ olaraq cəmiyyətdə məhkəmə tərəfindən təyin edilmiş nəzarətdir.

2) Praktiki nəzarət funksiyasını icra etməklə probasiya məmuru probasiya nəzarətində olan şəxsin məhkəmə tərəfindən müəyyən edilmiş şərtlərə əməl etməsini təmin edir.

3) Probasiyada şərtlərə gəlincə, bunlara vaxt və saat məhdudiyyətləri, məşğulluq tələbləri və müəyyən insanlarla yaxınlıq, səyahət və ya əlaqə saxlama məhdudiyyətləri daxil ola bilər.

4) Probasiya eyni zamanda, cinayət törətmiş şəxslərin cəmiyyətə inteqrasiyasına imkan verir, yeni cinayət davranışlarının qarşısını almaq üçün onun üzərində nəzarəti təmin edir.

5) Probasiya ilə bağlı şərtlər məhkəmə tərəfindən müəyyən edilir. Bu şərtlərə əməl edilməməsi şərti cəzanın ləğvi və potensial həbs kimi ağır nəticələrə səbəb ola bilər.

6) Nəhayət, probasiyanın ən mühüm cəhəti sosial adaptasiya və reabilitasiya tədbirlərinin tətbiqidir ki, bu da məhkumun sosial reinteqrasiyasını şərtləndirən ən vacib element hesab edilir.

Probasiyanın mahiyyəti bilavasitə bu sahənin cinayət ədliyyə sistemində mühüm alət kimi necə işlədiyi ilə izah oluna bilər. Probasiya təkcə cinayət törətmiş şəxslərin reabilitasiyası məqsədi daşımır, həm də ciddi şərtlər və qaydalar, habelə davamlı nəzarət tətbiq etməklə, ictimai təhlükəsizliyin təmin olunmasına töhfələr verir.[19] Yəni, probasiyada yekun məqsəd ictimai təhlükəsizliyin təmin olunmasıdır.

Bu səbəbdən də, **probasiya təkcə islah funksiyası kimi düşünülmür.** Probasiyanın hökmün məqsədlərinə cavab verib-verməməsi yollarının müəyyənləşdirilməsi[20] ədəbiyyatlarda geniş müzakirə predmeti olaraq qalmaqdadır.

Bundan əlavə, **probasiya məhkəmə funksiyası kimi** və ya bilavasitə hökmlə bağlı məsələ olaraq nəzərdən keçirilir. Başqa sözlə desək, məhkəmənin həm şərti cəza vermək, həm də onu ləğv etmək və ya götürmək hüququ var.

[19] What is Probation: Top 5 Essential Facts in 2024, https://www.jedplatform.com/2024/08/20/what-is-probation/

[20] https://www.coursehero.com/file/38928276/Discussion-2-WEEK-4-CRJ-303docx/

Probasiya məhkəmə hakimiyyətinin səlahiyyətində olsa da, cinayət mühakiməsi prosesinin digər iştirakçıları da probasiya ilə bağlı mühüm qərarlar qəbul edirlər.[21] Məsələn, Qırğızıstanda məhkəməyədək probasiya təqsirləndirilən şəxsə tətbiq olunur və bu, dövlət ittihamı mərhələsinə aid edilir. Türkiyə təcrübəsində elektron nəzarət vasitələrinin məhkumlara tətbiq edilib-edilməməsi ilə bağlı qərar kollegial olaraq qəbul edilir, prosesdə həmçinin probasiya qurumları və prokurorluq da iştirak edir.

**Probasiya və cəzanın məqsədləri məsələsi** mühüm elmi və praktiki mahiyyət kəsb edir. Azadlıqdan məhrumetmə ilə bağlı olmayan cəzaların tətbiqi, şəxsin mütəmadi olaraq probasiya məmuruna xəbər verməsi, qeyri-qanuni davranışlardan çəkinməsi, məsləhətləşmələrə getməsi və ya ictimai faydalı işlər görməsi kimi müəyyən şərtlərə əməl etdiyi müddətdə cəzaçəkmə müəssisəsində cəza çəkməkdənsə, cəmiyyətdə qalmasına imkan verir.

Bu mənada probasiya cəzanın məqsədlərinə tam mənada cavab verir və onun (azadlıqdan məhrumetmə ilə bağlı olmayan cəzaların) cinayət mühakimə sistemində tətbiqi uğurlu nəticələrə səbəb olur.

**Ən uğurlu model probasiyanın reabilitasiya funksiyası ilə bağlıdır.** Reabilitasiya funksiyasının ən önəmli cəhətləri bunlardır:

1) Probasiyada reabilitasiyanın prioritetliyi cinayət törətmiş şəxslərə cinayət əməllərinə səbəb olan əsas prob-

---

[21] Understanding Probation in the Criminal Justice System, https://www.coursesidekick.com/law/187718

lemləri həll etmək imkanı verə bilər. Bura maddə asılılığı olan şəxslərin müalicəsi, psixi sağlamlıqla bağlı məsləhətlər və ya iş üzrə təlim proqramları daxil ola bilər.

2) Reabilitasiyanın yayındırma funksiyası probasiya nəzarətində olan şəxsləri yeni cinayətlər törətməkdən çəkindirə bilər.

3) Restitusiya funksiyasının mahiyyəti isə ondan ibarətdir ki, probasiya tez-tez cinayət törətmiş şəxsin qurbana kompensasiya verməsi tələbini ehtiva edir ki, bu da cinayət nəticəsində vurulmuş zərərin bərpasına kömək edə bilər.

4) Reabilitasiyanın ən mühüm funksiyası yuxarıda da qeyd olunduğu kimi, ictimai təhlükəsizliyin təmin olunmasıdır. Cinayət törətmiş şəxsləri probasiya məmurunun nəzarətinə vermək və onların davranışlarının müşahidə altında saxlanılması cəmiyyətin qorunmasına kömək edə bilər.

Probasiya məhkəmənin qərarı ilə müəyyən edilmiş müddətdə cinayət törətmiş şəxsin həbs şəraitində cəza çəkmək əvəzinə nəzarət altına alınmasıdır. Həmin şəxs müəyyən şərtlərə əməl etməli və mütəmadi olaraq probasiya məmuruna məlumat verməlidir. **Probasiyanın əsas məqsədi** cinayət törətmiş şəxsi reabilitasiya etmək, yeni cinayətləri azaltmaq və cinayətkarı öz əməllərinə görə məsuliyyətə cəlb etməklə cəmiyyətə reinteqrasiya etməkdir.[22]

Probasiya şərtlərinin tətbiqi və reabilitasiya bəzi hallarda pozitiv nəticələrə səbəb olmaya da bilər. Ümumiyyət-

[22] Understanding Probation In Criminal Cases, https://processserver.io

lə, azadlıqdan məhrumetmə ilə bağlı olmayan cəzalar məqsədlərinə görə effektiv vasitə olsa da, onun məhdudiyyətləri və çətinlikləri də az deyil. Probasiya sistemlərində cəzanın səmərəliliyi çox vaxt probasiya qurumlarında mövcud olan resurslardan, müəyyən edilmiş xüsusi şərtlərdən və cinayətkarın fərdi vəziyyətindən asılıdır.[23] Bəzi mənbələr hesab edirlər ki, probasiyada tətbiq olunan cəza müəyyən cinayətlər, xüsusilə ağır cinayətlər üçün kifayət deyil.

**Hüquqi baxımdan probasiya** məhkəmə tərəfindən müəyyən edilmiş şərtlər daxilində tətbiq edilir. Bu şərtlərə adətən aşağıdakılar aid edilir:

1) Müntəzəm olaraq probasiya məmuruna hesabat vermək;

2) Cinayət törətməmək;

3) Alkoqol və narkotik vasitələrdən uzaq durmaq;

4) Məşğulluq və ya təhsil tələblərinə əməl etmək;

5) Zərərçəkmişə təzminat ödəmək.

Bu şərtlərin pozulması halında məhkəmə tərəfindən daha sərt cəzaların tətbiqi mümkündür. Bəzi ölkələrdə, o cümlədən ölkəmizdə probasiya elektron nəzarət (məsələn, elektron qolbaq vasitəsilə izləmə) və ictimai işlər şəklində də tətbiq edilə bilər.[24] Bu barədə növbəti paraqraflarda daha geniş bilgi təqdim olunacaqdır.

---

[23] Probation is often not thought of as a function of corrections, https://www.studocu.com

[24] Paparozzi, M. A., & DeMichele, M. T. (2008). Probation and Parole: Current Issues. Journal of Offender Rehabilitation, 47(3), 226–242.

**Probasiyanın effektivliyi onun yalnız cəza tədbiri yox, eyni zamanda sosial siyasət aləti olmasından qaynaqlanır**. Reabilitasiya prosesində şəxsin psixoloji və davranış dəstəyi alması, onun yenidən cəmiyyətə faydalı fərd kimi qayıtması ehtimalını artırır. Xüsusilə gənclər və az ağır cinayət törətmiş şəxslər üçün bu model daha uyğundur. Statistik araşdırmalar göstərir ki, probasiya tətbiq edilən şəxslər arasında yeni cinayətlərin faizi, ümumilikdə azadlıqdan məhrumetmə cəzası çəkmiş şəxslərlə müqayisədə daha aşağıdır.[25]

**Akademik təriflərdən başqa probasiyaya normativ təriflər də verilmişdir**. "Probasiya" anlayışı müxtəlif hüquqi, sosial və kriminoloji mənbələrdə fərqli təriflərlə ifadə edilir. Lakin ümumi olaraq onun mahiyyəti hüquq pozuntusu törətmiş şəxslərin cəzalandırılması kontekstində alternativ yanaşma üsulu kimi formalaşmışdır. Bu anlayışın əsas interpretasiyaları aşağıdakı kimidir:

**1) Beynəlxalq hüquqi mənbələrdə** probasiyaya dair mövcud olan yanaşmalar universal və regional əsaslı normativ təbiəti ilə diqqəti cəlb edir. Bununla bağlı fundamental beynəlxalq hüquqi normalar BMT və digər qurumların sənədlərində və hesabatlarında öz əksini tapmışdır. Belə ki, BMT-nin 1990-cı il tarixli Həbslə bağlı olmayan tədbirlər haqqında minimum standart Qaydalarına (*Tokio Qaydalarına*) əsasən probasiya alternativ cəza tədbirlərinin

[25] Taxman, F. S., Shepardson, E. S., & Byrne, J. M. (2004). Tools of the Trade: A Guide to Incorporating Science into Practice. National Institute of Corrections.

bir forması kimi, məhkumun reabilitasiyasının təmin olunması və onun cəmiyyətə adaptasiyasının asanlaşdırılmasını nəzərdə tutur.[26] Alternativ cəzalarla bağlı fundamental sənəd hesab olunan **Tokio Qaydalarına görə probasiya**, azadlıqdan məhrumetməyə alternativ cəza tədbiri kimi, məhkumun reabilitasiyası və sosial reinteqrasiyasını təmin etməklə həm cəmiyyətin təhlükəsizliyinə, həm də **ədalətli cəza siyasətinə xidmət edən beynəlxalq hüquqi mexanizmdir.**

Bundan əlavə, BMT-nin Cinayətkarlıqla mübarizə və cinayət ədliyyəsi üzrə Komissiyası və BMT-nin Narkotiklər və Cinayət İdarəsi *(UNODC - United Nations Office on Drugs and Crime)* tərəfindən hazırlanmış sənədlərdə dövlətlərə probasiya nəzarəti həbs cəzasına alternativ olaraq ictimai işlər, azadlığın məhdudlaşdırılması və məhkumluğun şərti olaraq həyata keçirilməsi, habelə məhkumun reabilitasiya proqramlarına yönəldilməsi[27] tövsiyə edilir.

Avropa Şurasının Nazirlər Komitəsinin R (2010) 1 saylı Tövsiyəsində (Avropa Probasiya Qaydaları) probasiya belə izah olunur: **"Probasiya – cəzanın icrası prosesində məhkum edilmiş şəxsin cəmiyyətə yenidən reinteqrasiyasını təşviq edən, nəzarət və dəstəklə müşayiət olunan tədbirlər sistemidir"**.[28] Göründüyü kimi, probasiyaya dair

---

[26] United Nations Standard Minimum Rules for Non-custodial Measures (The Tokyo Rules), https://www.ohchr.org

[27] UNODC Annual Report 2023, https://www.unodc.org

[28] Council of Europe, Recommendation CM/Rec(2010)1) https://rm.coe.int/16800cc249

əsas regional sənədlərdən biri hesab edilən Avropa Probasiya Qaydalarına görə, probasiya məhkumun cəmiyyətə reinteqrasiyasını təmin etmək məqsədilə nəzarət və sosial dəstək mexanizmlərinin məcmusu kimi çıxış edir.

**2) Milli hüquq sistemlərində** probasiyanın mahiyyətinə yanaşmalar demək olar ki, bir-birindən çox da fərqlənmir. Probasiya hüquq pozuntusu törətmiş şəxsin cəzadan tamamilə və ya qismən azad edilməsi, amma şərti nəzarət altında saxlanılması kimi şərh edilir. Məsələn, Qərb ölkələrinin təcrübəsində probasiya məhkəmə tərəfindən təyin olunan şərtlərə əməl etməklə, məhkumluq müddətinin azaldılması və ya alternativ cəza növü kimi istifadə olunur.

Xarici ölkələrin probasiyaya aid qanunveri-ciliklərində və digər mənbələrdə bu terminin mənasına aydınlıq gətirilir.

**Latviyanın** Dövlət Probasiya Xidməti haqqında Qanununa əsasən “probasiya - ictimai işlərin və probasiya nəzarətinin həyata keçirilməsi üzrə tədbirlər sistemi, habelə probasiya müştərilərinə nəzarətin həyata keçirilməsi və onların sosial davranışının korrektə edilməsi üçün tədbirlər sistemidir.”[29] Kitabın növbəti fəsillərində xarici ölkələrin probasiya qanunvericiliklərinin təhlili zamanı bu məsələlərə dair daha geniş məlumatlar və şərhlər veriləcək.

**Böyük Britaniyanın** hökümət portalı əhali üçün probasiyanın daha sadə izahını verir: probasiya o deməkdir

[29] Dövlət Probasiya Xidməti Qanunu, (Valsts probācijas dienesta likums), https://m.likumi.lv/ta/id/82551-valsts-probacijas-dienesta-likums

ki, siz cəzanızı çəkirsiniz, lakin həbsxanada deyilsiniz. Əgər ictimai işlərə əsaslanan cəza çəkir və həbsdən şərti azadlığa buraxılmısınızsa, sizə probasiya tətbiq oluna bilər. Probasiya müddətində sizdən aşağıdakılar tələb oluna bilər: ödənişsiz ictimai işlər görmək; təhsil və ya peşə hazırlığı kursunu başa vurmaq; narkotik və ya alkoqol asılılığı ilə bağlı müalicə almaq; probasiya məmuru ilə mütəmadi görüşlər keçirmək.[30] Bu, probasiya haqqında ictimai maarifləndirmə üçün asan və sadə ifadə formuludur.

Postsovet məkanında ən yaxşı qanunlardan biri hesab olunan **Qırğızıstan Respublikasının** 24 fevral 2017-ci il tarixli Probasiya haqqında Qanunu bu termini belə ifadə edir: Probasiya – dövlətin sosial-hüquqi institutu olub, probasiya müştərilərinə məcburetmə tədbirləri, ictimai təsir mexanizmləri tətbiq etməklə, onların fərdi sosial-hüquqi proqramlarda iştirakını təmin edən, onların sosial tədqiqinə və islahına, hüquq pozuntularının qarşısının alınmasına, sosial dəstəyin göstərilməsinə və resosializasiyasına yönəlmiş kompleks tədbirlər sistemidir.[31] Bu anlayışda iki mühüm element diqqəti cəlb edir: 1) Qanunda nəzərdə tutlan "probasiya müştərisi" termini müasir probasiya fəlsəfəsi baxımından uğurlu hesab edilə bilər. 2) Probasiya sosial-hüquqi institutdur və bu institutun əsas missiyasını "probasiya müştərisi"nə sosial dəstək təşkil edir.

[30] Probation, https://www.gov.uk/guide-to-probation

[31] Закон Кыргызской Республики о пробации от 24 февраля 2017 года № 34, https://cbd.minjust.gov.kg/111517/edition/1103351/ru

**Azərbaycan milli qanunvericiliyi** bilavasitə "probasiya" termininə aydınlıq gətirməmişdir (yalnız "probasiya nəzarəti" termini açıqlanmışdır). Lakin, Azərbaycan Respublikası Prezidentinin **10 fevral 2017-ci il tarixli Sərəncamının geniş mənada şərhindən probasiya termini belə izah edilə bilər:** "**Probasiya** - cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan cəzaların icrasına effektiv nəzarətin təşkil edilməsi və bu sahədə səmərəli idarəetmənin həyata keçirilməsidir". Çünki, həmin sənədə əsasən məhz bu məqsədlə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Probasiya xidməti yaradılmışdır.[32] Hesab edirik ki, gələcəkdə Probasiya haqqında AR Qanun layihəsinin hazırlanması zamanı bu terminin məna yükünün açıqlanması məqsədəmüvafiq olardı.

Eyni zamanda, milli qanunvericilik **"probasiya nəzarəti"** termininin də mənasını açıqlamışdır. AR Cəzaların İcrası Məcəlləsinin 15.1-ci maddəsinə görə, probasiya nəzarəti – azadlıqdan məhrumetmə ilə bağlı olmayan cəzalara məhkum edilmiş, şərti məhkum edilmiş, cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş və ya cəza çəkməsi təxirə salınmış məhkumların, habelə alkoqolizm və ya narkomaniyadan müalicə məqsədi ilə barəsində tibbi xarakterli məcburi tədbirlər təyin edilmiş şəxslərin üzərinə qanunla

[32] Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, https://president.az/az/articles/view/22756

və məhkəmə qərarı ilə qoyulmuş vəzifələrin yerinə yetirilməsinə nəzarət edilməsinə, məhkumların islah edilməsi, sosial adaptasiya və reabilitasiyasına yönəlmiş kompleks sosial-hüquqi xarakterli tədbirlər sistemindən ibarətdir.[33]

**3) Kriminoloji baxımdan probasiya** cinayətkar davranışın qarşısını almaq və şəxsin sosiallaşmasına yardım etmək üçün reabilitasiya vasitəsi kimi qəbul edilir. Bu anlayışda probasiya cinayətkar davranışın psixoloji, sosial və iqtisadi səbəblərini aradan qaldırmağa yönəldilir, reinteqrasiya prosesində cəmiyyətin iştirakını vacib hesab edir.

**4) Sosioloji və sosial iş perspektivindən probasiya** sosial reabilitasiya prosesinin tərkib hissəsi olaraq, şəxsə dəstək göstərmə, yenidən cəmiyyətə uyğunlaşdırma proqramları ilə izah edilir. Probasiya xidməti, həmçinin risk qrupuna daxil olan fərdlərin cəmiyyətə yenidən inteqrasiyasını təmin edən sosial institut kimi şərh edilir. Bu mənada **prof. Fergus McNeill** haqlı olaraq qeyd edir ki, **"Probasiya sadəcə nəzarət deyil, sosial dəyişiklik prosesidir** – CEP bunu təbliğ etsə də, bəzi ölkələrdə bu fəlsəfə praktikada əksini tapmır".[34] Bu o deməkdir ki, probasiyanın məqsədi yalnız məhkum üzərində formal nəzarət həyata keçirmək deyil, həm də onun davranışlarını, dəyərlərini və sosial münasibətlərini dəyişdirərək cəmiyyətə müsbət adaptasiyasını təmin etməkdir. Başqa sözlə, **probasiya sadəcə cəzanın icrasına nəzarət edən texniki mexanizm**

---

[33] AR Cəzaların İcrası Məcəlləsi, https://e-qanun.az

[34] McNeill, F. (2006). Desistance, Rehabilitation and Probation. Criminology & Criminal Justice, 6(1), 39–62.

**yox, həm də reinteqrasiya və sosial transformasiya prosesidir.**

Ümumiyyətlə, müasir elmi yanaşmaları təhlil edərkən, probasiya termini daha çox cəmiyyətdən təcridetmə ilə bağlı olmayan cəzaların icrası zamanı cinayət törətmiş şəxsin sınaq və müşahidəsini həyata keçirməklə, şəxslərin sosial adaptasiyasını təmin etmək, yeni cinayətlərin qarşısını almaq üçün tətbiq olunan alternativ nəzarət tədbirləri kimi başa düşülməlidir. Yəni, probasiya termininə müasir anlamda daha geniş, çoxşaxəli, müxtəlif kateqoriyalar nəzərə alınaraq, kompleks yanaşılmalıdır.

**Professor Levis Diana probasiyanın anlayışını bir neçə kateqoriya üzrə qruplaşdırır:** 1) Probasiya yalnız hüquqi tədbir kimi; 2) Probasiya cəzalandırma meyarı kimi; 3) Probasiya yumşaqlıq (mərhəmət) göstəricisi kimi; 4) Probasiya inzibati proses kimi; 5) Probasiya sosial iş (case work) yanaşması kimi; 6) Probasiya sosial iş və inzibati nəzarətin birləşməsi kimi. O qeyd edir ki, ilk üç kateqoriya (hüquqi, cəzalandırma, mərhəmətə əsaslanan) istisna olmaqla, bütün baxışlar probasiyanın islahedici cəhətlərini vurğulayır. Araşdırılmış ədəbiyyatda müəlliflərin yalnız beş faizi probasiyanı tamamilə hüquqi tədbir, cəza və ya mərhəmət göstəricisi kimi dəyərləndirmişdir. Buna görə də probasiya ya sosial iş, ya inzibati nəzarət, ya da hər ikisinin birləşməsi kimi təqdim olunur. Bu aparıcı yanaşmalar bir-birilə xeyli dərəcədə üst-üstə düşür və aralarındakı fərq əsasən vurğulanan məqamlarla müəyyən olunur. Beləliklə, hər üç yanaşma razılaşır ki, probasiya hüquqi bir

tədbirdir və onu nə sadəcə yumşaqlıq, nə də sadəcə cəza kimi anlamaq düzgün deyil; lakin birinci yanaşmada probasiya əsasən sosial iş kimi dəyərləndirilir; ikinci yanaşmada inzibati nəzarət kimi; üçüncüdə isə hər iki elementi birləşdirən bir proses kimi görülür. Bununla belə, hər biri digərinin elementlərini də ehtiva edir. Beləliklə, bütün hallarda probasiya həm hüquqi, həm də sosial bir proses kimi, bütün mövcud ictimai resursların səfərbər olunduğu nəzarət və rəhbərlik metodu kimi və cinayətkarın cəmiyyətə tam adaptasiyasını hədəfləyən bir proses kimi qəbul edilir. Sosial iş yanaşması digər yanaşmalardan əhəmiyyətli dərəcədə üstünlük təşkil edir və bu səbəbdən ümumi tərifdə bu yanaşmaya xüsusi yer verilməlidir.[35]

Təhlillər göstərir ki, probasiya həm cəza növü, həm də islah vasitəsi kimi ikili xarakterə malikdir. Onun məqsədi cəmiyyəti qorumaqla yanaşı, şəxsi azadlıqdan tam məhrum etmədən ona yenidən inteqrasiya imkanı verməkdir. Bununla da probasiya, həm ədalətli cəza siyasətinin, həm də humanist hüquqi yanaşmanın təzahürü kimi çıxış edir.

Beləliklə, yuxarıda verilmiş şərhləri nəzərə alaraq, *fikrimizcə probasiyaya belə bir tərif verilə bilər:* **Probasiya şəxsin cəmiyyətdən təcrid olunmadan alternativ cəzalar tətbiq edilməklə sınaq müddətinə və nəzarət altına verilməsi, onun islah olunmasına, sosial adaptasiya və reabilitasiyasına, habelə ictimai təhlükəsizliyin təmin edilməsinə**

[35] Lewis Diana, What is Probation, https://scholarlycommons.law.northwestern.edu

**yönəlmiş sosial, psixoloji, hüquqi, tibbi, təşkilati və s. tədbirlərin məcmusudur**.

Bu tərifdən çıxan nəticəyə görə ***probasiya*:** 1) alternativ cəza növüdür; 2) şəxsin cəmiyyət daxilində qalmaqla sınaq müddətidir; 3) məhkum üzərində həyata keçirilən nəzarətin bir növüdür; 4) sosial adaptasiya və psixoloji reabilitasiyaya yönəlmiş tədbirdir; 5) son məqsədi isə ictimai təhlükəsizliyin təmin olunmasına yönəlmiş liberal üsuldur.

Beləliklə, probasiyanın fəlsəfi mahiyyəti cəzanın alternativ forması kimi şəxsin cəmiyyət daxilində nəzarət və sınaq müddətində qalmasını təmin edən, eyni zamanda sosial adaptasiya və psixoloji reabilitasiyaya yönəlmiş kompleks tədbirlər sistemi olmaqla, ictimai təhlükəsizliyin qorunmasına xidmət edən ən liberal mexanizmlərdən biri kimi dəyərləndirilə bilər.

### 1.2. Probasiyanın növləri və prinsipləri.

Elmi-nəzəri və praktiki baxımdan mühüm əhəmiyyət kəsb edən məsələlərdən biri də probasiyanın növləri və prinsipləri ilə bağlıdır. Bu səbəbdən də, qeyd olunan məsələ ilə bağlı ətraflı təhlilə ehtiyac vardır.

***Probasiyanın növləri:*** Müasir hüquq sistemlərində probasiyanın növləri cinayət törətmiş şəxsin hüquqi statusuna, törədilmiş cinayətin xarakterinə, ictimai təhlükəlilik dərəcəsinə və şəxsin reabilitasiya potensialına uyğun olaraq fərqləndirilir. Probasiyanın bu cür təsnifatı onun tətbiqi zamanı fərdiləşdirmə prinsipinə əməl olunmasını təmin

etməklə, cəza siyasətinin humanistləşdirilməsinə xidmət edir. Xarici ölkələrin təcrübə və qanunvericiliklərinin təhlilinə əsasən cinayət törətmiş şəxsə təyin edilə bilən probasiyanın bir neçə növü fərqləndirilir. Probasiya cinayət törətmiş şəxslərin islah edilməsi məqsədi ilə təyin edilsə də, hakim hər bir situasiyaya uyğun olaraq onun müxtəlif növlərini təyin edə bilər. Beynəlxalq praktikada **probasiyanın növlərinə aşağıdakılar aid edilir:** 1) nəzarət olunmayan probasiya; 2) nəzarət olunan probasiya; 3) icma nəzarəti probasiyası; 4) şok probasiya; 5) xüsusi cinayət probasiyası.[36]

1. *Nəzarət olunmayan probasiya* (unsupervised probation). Bu növ probasiya zamanı şəxs probasiya məmurunun daimi nəzarətindən azad olunur, lakin ona məhkəmə tərəfindən müəyyən edilmiş şərtlərə (məsələn, müəyyən şəxslərlə əlaqə qurmamaq, yaşayış yerini dəyişməmək, cəriməni ödəmək, ictimai faydalı işlər görmək, zərərçəkmişə kompensasiya ödəmək və s.) əməl etmək vəzifəsi qoyulur. Adətən, bu növ probasiya az ağır və qeyri-zorakı cinayətlər törətmiş şəxslərə tətbiq olunur.[37] Əslində hüquqi baxımdan bu növ probasiya əlavə nəzarət xərclərinin azaldılmasına, eyni zamanda məhkumun sosial mühitdə normal həyatına mane olmadan islahına imkan yaradır.

Nəzarət olunmayan probasiya Anqlosakson hüquq sisteminə malik ölkələrin təcrübəsində tətbiq olunur. Proba-

---

[36] Abadinsky, H. (2012). Probation and Parole: Theory and Practice. Prentice Hall.

[37] Probation, https://legaldictionary.net/probation/

siyanın bu növünün geniş tətbiq olunduğu ölkələrdən biri ABŞ-dır. Kanadada bəzi əyalətlərdə, Böyük Britaniyada isə şərti azadetmə və "şərti bəraət" (məhkəmə təqsirləndirilən şəxsi günahkar saysa da, müəyyən şərtlərə əməl etdiyi halda ona cəza vermir) hallarında tətbiq edilir.

Qeyd edilməlidir ki, Roman-German hüquq sisteminə malik ölkələrdə, o cümlədən Türkiyə və Azərbaycanda bu probasiya növü tətbiq olunmur, burada əsas model nəzarət olunan probasiya növüdür.

2. *Nəzarət olunan probasiya* (supervised probation). Bu modeldə şəxs probasiya orqanlarının aktiv nəzarəti altında olur. Şəxsin davranışına mütəmadi olaraq nəzarət edilir: şəxsi görüşlər, yazılı hesabatlar, telefon zəngləri və bəzən yerində yoxlamalar aparılır. Tətbiq sferası daha genişdir və orta ağırlıqlı cinayətlərdə, habelə ilk dəfə ağır cinayət törətmiş şəxslər üçün istifadə olunur.

Nəzarət olunan probasiya azadlıqdan məhrumetməyə alternativ olaraq tətbiq edilən və məhkumun müəyyən müddət ərzində probasiya orqanlarının sistemli nəzarəti və dəstəyi altında reabilitasiya və reinteqrasiya prosesinə cəlb edilməsini nəzərdə tutan probasiya növüdür. Ənənəvi olaraq bu model demək olar ki, əksər ölkələrdə geniş yayılıb.

3. *İcma nəzarəti probasiyası* (community control probation). Bu halda, şəxs azadlıqdan məhrum olunmadan faktiki olaraq öz evində cəza çəkməklə məhdudlaşdırılır. Onun yeri elektron nəzarət vasitələri ilə (ayağa bağlanan qolbaqlar və s.) izlənilir. Bəzi hallarda şəxsə işə, məktəbə, müali-

cəyə və ya ictimai işlərə getmək üçün məhdud icazələr verilir. Bu model yüksək ictimai təhlükəlilik ehtimalı olan, lakin penitensiar sistemə daxil edilməsinə ehtiyac olmayan şəxslər üçün tətbiq edilir.[38]

Bu növ probasiya bütün Avropa ölkələrində, o cümlədən Azərbaycan və Türkiyədə də tətbiq edilir. Hüquqi baxımdan probasiyanın bu növü beynəlxalq standartlara, o cümlədən Tokio Qaydalarına və Avropa Probasiya Qaydalarına uyğun hesab edilir. Çünki hər iki sənədin tələbi məhkumun azadlıqdan məhrum edilmədən cəmiyyət daxilində nəzarətdə saxlanılması və reabilitasiyasından ibarətdir.

4. *Şok effektli (qəfil effektli) probasiya* (shock probation). Bu modeldə şəxs əvvəlcə qısa müddətli həbs cəzasına məhkum edilir, lakin bir müddət sonra məhkəmə qərarı ilə şərti olaraq azadlığa buraxılır və onun üzərində probasiya nəzarəti təyin edilir. Məqsəd şəxsi gözlənilməz şəkildə cəzalandırmaqla, gələcəkdə qanun pozuntularından çəkindirməkdir. Əsasən ilk dəfə cinayət törədən gənclər üçün nəzərdə tutulur.[39]

Bu probasiya növü nə üçün "şok effektli probasiya" və ya "şok probasiya" *(Azərbaycan türkcəsində "şok" sözü istifadə edildiyinə görə asan anlaşılan olsun deyə, bu ifadəni saxladıq)* adlanır? Bu növ probasiyanın əsas məqsədi məhkumu cəzaçəkmə müəssisəsinin mənfi təsirlərindən uzaqlaşdır-

---

[38] Roberts, J. V. (2004). The Virtual Prison: Community Custody and the Evolution of Imprisonment. Cambridge University Press.

[39] Abadinsky, H. (2012). Probation and Parole: Theory and Practice. Prentice Hall.

maqla, qısa müddətli həbsin "şok effekti" vasitəsilə onun psixoloji olaraq dərs almasına və cinayətdən çəkindirilməsinə nail olmaqdır. Daha sonra probasiya xidməti həmin şəxsi cəmiyyətdə nəzarət altında saxlayır və reabilitasiyasını təmin edir. Bunu başqa sözlə preventiv probasiya da adlandırmaq olar. Çünki, burada həm qarşısını alma, həm də islah məqsədi vardır.

Bu növ probasiyadan əsasən ABŞ, Kanada və Yaponiyada geniş istifadə olunur. Bu, ABŞ-ın bəzi ştatlarının qanunvericiliyində nəzərdə tutulmuşdur. Kanadada bəzi əyalətlərdə "fasilələrlə icra olunan cəza" və ya "həftəsonu həbs cəzası" *(şəxs müəyyən günlərdə adətən həftə sonları həbsdə olur, qalan vaxtlarda isə cəmiyyətdə azad qalır)* formalarında tətbiq olunur. Yaponiyada isə gənc cinayətkarlarla bağlı islah siyasətində bu növ probasiya mövcuddur.

5. *Xüsusi cinayət probasiyası* (specialized probation). Bu növ probasiya müəyyən xüsusi cinayətlər üzrə fərdiləşdirilmiş nəzarət və tədbirlərlə müşayiət olunur. Məhkəmə şəxsin yeni hüquq pozuntularına yol verməməsi üçün narkomaniya və ya alkoqolizmdən məcburi müalicə, internetə çıxışın məhdudlaşdırılması, kompüter və smartfon istifadəsinə qadağa, təmaslara məhdudiyyət və s. kimi xüsusi şərtlər təyin edə bilər.[40] Belə şərtlər əsasən narkotik, seksual cinayətlər, kiber cinayətlər və ailədaxili zorakılıqla bağlı hallarda tətbiq edilir. Ümumi probasiyadan fərqli olaraq bu növ probasiya müəyyən kateqoriyalı cinayətkarlara

[40] Van Kalmthout, A. M., & Durnescu, I. (2008). Probation in Europe. Wolf Legal Publishers.

fərdi tətbiq olunur. Xüsusi cinayət probasiyası özündə həm probasiya nəzarətini, həm də sosial-pedaqoji, tibbi, psixoloji və təhsil yönümlü dəstəyi birləşdirir.

Xüsusi cinayət probasiyasının ən çox tətbiq olunduğu ölkə ABŞ hesab olunur. Böyük Britaniya, Kanada, Almaniya, Niderland, İsveç və Norveçdə xüsusi kateqoriyalı probasiya proqramları tətbiq edilir.

Probasiyanın növləri onun məqsədlərinə – cəzanın fərdiləşdirilməsi, sosial reinteqrasiya və ictimai təhlükəsizliyin təmin olunmasına xidmət edir. Azərbaycanda hazırda əsasən "nəzarət olunan probasiya" tətbiq edilsə də[41], digər növlərin qanunvericiliyə daxil edilməsi və mərhələli şəkildə tətbiq olunması cəmiyyətə daha çevik və humanist hüquqi yanaşma imkanı verə bilər.

Daha əvvəl qeyd edildiyi kimi, nəzarət probasiyanın vacib elementidir. Bundan əlavə hesab edirik ki, ölkəmizdə **xüsusi cinayət probasiyasının** tətbiqi məsələsinə baxılması da faydalı olardı. Çünki bu zaman hakim məhkumun yenidən cinayət törətməməsi üçün xüsusi şərtlər müəyyən edəcək. Məsələn, asılılığı olan şəxslər üçün fərdi və qrup terapiyalarına və ya təlimlərə qatılma, internetlə, kibercinayətlərlə bağlı cinayət törətmiş şəxslərə münasibətdə kompüterə sahibliyin qadağan olunması və ya internetə çıxışın məhdudlaşdırılması və s.

---

[41] Həsənov, Ə. (2018). "Probasiyanın tətbiqi və institusional inkişafı: Azərbaycan təcrübəsi", Hüquq və Dövlət, №1, s. 45-57.

**Normativ mənbələrdə isə probasiyanın növləri** məsələsinə daha fərqli yanaşma mövcuddur. Məqsəd və tətbiq mərhələlərinə görə **Qırğızıstan qanunvericiliyi probasiyanın** aşağıdakı **növlərini fərqləndirir:** 1) Məhkəməyədək (dövlət ittihamı mərhələsində) probasiya; 2) İcra (məhkəmə qərarlarının icrası mərhələsində) probasiyası; 3) Penitensiar (cəzaçəkmə müəssisələrində) probasiya; 4) Postpenitensiar (azadlığa buraxıldıqdan sonrakı) probasiya.[42]

**Məhkəməyədək probasiya** təqsirləndirilən şəxsə tətbiq olunan, onun şəxsiyyətinin sosial-psixoloji tədqiqindən ibarət olan və həmin tədqiqat üzrə probasiya məruzəsinin (məhkəməyədək məruzə) hazırlanması ilə nəticələnən probasiya növüdür. Məhkəməyədək probasiya Azərbaycan təcrübəsində mövcud deyildir, lakin gələcəkdə tətbiqi məqbul hesab edilir.

**İcra probasiyası** probasiya nəzarətində olan şəxslərə cinayət-hüquqi tədbirlərin tətbiqi, inzibati tələblərin icrası, onların davranışına nəzarət və üzərlərinə qoyulmuş öhdəliklərin yerinə yetirilməsi, habelə sosial adaptasiya və reabilitasiya üzrə həyata keçirilən tədbirlər məcmusudur. Ölkəmizdə əsas probasiya fəaliyyəti icra probasiyası növündədir.

**Penitensiar probasiya** azadlıqdan məhrumetmə növündə cəza çəkən məhkumlara tətbiq olunan və dövlət orqanları, yerli özünüidarəetmə orqanları, cəzaçəkmə müəs-

---

[42] Закон Кыргызской Республики о пробации от 24 февраля 2017 года № 34, https://cbd.minjust.gov.kg

sisələri, qeyri-kommersiya təşkilatları və digər qurumların birgə dəstəyi ilə onların azadlığa hazırlanması prosesidir.

**Postpenitensiar probasiya** isə şərti olaraq vaxtından əvvəl azad edilmiş şəxslərə tətbiq olunan və onların resosializasiyası məqsədilə həyata keçirilən sosial-psixoloji dəstək tədbirlərinin məcmusudur.

Qeyd edilməlidir ki, Azərbaycanda da probasiya üzrə sahəvi qanunvericilik, xüsusilə Probasiya haqqında Qanun hazırlanarkən probasiyanın növləri məsələsinin normativ təsbiti faydalı olardı.

***Probasiyanın prinsipləri.*** Probasiyanın prinsipləri dedikdə, probasiya fəaliyyətində nəzərə alınan rəhbər başlanğıclar və əsas ideyalar nəzərdə tutulur.

Beynəlxalq təcrübə və normativ-hüquqi sistemə əsaslanaraq, probasiyanın aşağıdakı prinsiplərini müəyyən etmək olar:

1) **Həmrəylik prinsipi** - probasiya fəaliyyətinin optimal şəkildə və vahid siyasətə əsasən həyata keçirilməsində dövlət qurumlarının, vətəndaş cəmiyyəti institutlarının, universitetlərin, yerli özünüidarəetmə orqanlarının və digər qurumların resurslarının cəlb edilməsi və onlardan istifadə edilməsi məqsədi ilə birgə fəaliyyətinin təşkil edilməsidir. Bu multidissiplinar fəaliyyət formasında həm dünya, həm də Azərbaycan probasiya təcrübəsində formalaşmışdır.

2) **Optimallaşdırma prinsipi** – probasiya sistemində mənbələrin (insan resursları, texniki imkanlar, vaxt, maliyyə və s.) səmərəli şəkildə idarə olunması və minimal re-

surslarla maksimal sosial reinteqrasiya nəticələrinin əldə olunması məqsədini daşıyır. Bu prinsip həm fərdi, həm də institusional səviyyədə qərarların elmi əsaslara, risk və ehtiyac dəyərləndirmələrinə söykənərək verilməsini nəzərdə tutur.

Bu prinsipin beynəlxalq hüquqi əsasını BMT-nin 1990-cı il Tokyo Qaydaları təşkil edir. Qaydaların 1-ci və 2-ci maddələrində göstərilir ki, alternativ sanksiyaların tətbiqi cəmiyyətdə yeni cinayətlərin qarşısının alınmasında effektiv, insan hüquqlarına uyğun və iqtisadi cəhətdən səmərəli olmalıdır.[43] Bu da optimallaşdırma prinsipini şərtləndirir.

Avropa Probasiya Qaydalarının 6 və 12-ci bəndlərində qeyd olunur ki, probasiya xidmətləri şəffaf, məqsədyönlü və səmərəli şəkildə təşkil edilməlidir, resurslar düzgün bölüşdürülməli və tətbiq edilən nəzarət və yardım tədbirləri fərdin risk və ehtiyac səviyyəsinə uyğunlaşdırılmalıdır.[44]

Kriminologiyada optimallaşdırma prinsipinin əsasını risk-ehtiyac-cavabdehlik modeli (Risk-Need-Responsivity – RNR modeli) təşkil edir. Bu modelə görə, optimallaşdırma prinsipi 3 elementdən ibarətdir: 1) Risk əsaslı yanaşma prinsipinə uyğun olaraq cinayət törətmə ehtimalı yüksək

---

[43] United Nations Standard Minimum Rules for Non-custodial Measures (The Tokyo Rules), https://www.ohchr.org

[44] Recommendation CM/Rec(2010)1 of the Committee of Ministers to member states on the Council of Europe Probation Rules, https://www.cep-probation.org

olan şəxslərə fokuslanmalı; 2) Ehtiyac prinsipinə əsasən kriminogen ehtiyaclar (məs., maddə asılılığı, işsizlik, antisosial münasibətlər) hədəf alınmalı; 3) Cavabdehlik prinsipinə görə fərdin öyrənmə qabiliyyəti, motivasiyası və şəxsi xüsusiyyətləri nəzərə alınmalıdır.[45]

Xarici ölkələrin təcrübəsində bu prinsipə əsaslanan modellərdən istifadə olunur. **Kanadada** tətbiq olunan "Xidmət və risk qiymətləndirmə inventarı" modeli cinayətkar davranış risklərinin və ehtiyaclarının strukturlaşdırılmış dəyərləndirilməsinə əsaslanır. Probasiya qərarları fərdin risk profilinə əsasən verilir və bu həm effektivliyi, həm də resurs istifadəsini optimallaşdırır. Bu alətdən probasiya nəzarətində olan şəxslərin risk və ehtiyaclarını qiymətləndirmək, onlara nəzarət səviyyəsini müəyyənləşdirmək və fərdi nəzarət planları hazırlamaq üçün istifadə olunur. Bu isə, praktik olaraq həm cinayətkarın yeni cinayət törətmə ehtimalını, həm də sosial, psixoloji və peşəkar ehtiyaclarını müəyyənləşdirir.

Beləliklə, optimallaşdırma prinsipi probasiya sistemində həm sosial ədaləti, həm də dövlət resurslarının rasional istifadəsini təmin edən elmi əsaslı, insan hüquqlarına və beynəlxalq standartlara uyğun yanaşmadır. Bu prinsipin uğurla həyata keçirilməsi üçün risk və ehtiyac dəyərləndirmə metodlarının tətbiqi, probasiya əməkdaşlarının pe-

---

[45] Andrews, D. A., & Bonta, J. (2010). The Psychology of Criminal Conduct. Routledge.

şəkarlığının artırılması və normativ-hüquqi bazanın harmonizasiyası tələb olunur.

3) **Sosial inteqrasiya prinsipi** - probasiya nəzarətinin həyata keçirilməsi zamanı məhkumun sosial davranışının korreksiya olunması və onun cəmiyyətə inteqrasiyasının təmin edilməsidir. Probasiyanın əsas məqsədi şəxsə cəmiyyətə qayıtmaq imkanı verməkdir. Bu isə onun sosial bacarıqlarını artırmaq, ailə və peşə həyatına adaptasiyasına dəstək olmaqla mümkündür. Bu prinsip BMT-nin Tokio Qaydalarında da təsbit olunmuşdur: "Probasiya sosial adaptasiyanı təşviq etməli və şəxsin sosial həyatla inteqrasiyasına şərait yaratmalıdır."[46] Yəni, sosial inteqrasiya prinsipi məhkumun cəmiyyətə yenidən uyğunlaşması və sosial münasibətlər sisteminə fəal şəkildə qoşularaq cinayətdən uzaq həyat tərzinə istiqamətləndirilməsini nəzərdə tutur.

4) **Fərdiləşdirmə prinsipi** - probasiyanın hər bir şəxsə fərdi yanaşma ilə həyata keçirilməsi bu sahədə effektivliyin əsas şərtidir. Şəxsin yaşı, sosial vəziyyəti, cinayətin xarakteri və motivləri nəzərə alınmalıdır. Bəzi alimlər fərdiləşdirilmiş müdaxilələrin yeni cinayətkarlığın qarşısını almaqda ən yüksək effektivliyə malik olduğunu[47] sübut etmişlər. Probasiyada fərdiləşdirmə prinsipinin tətbiqi hər bir məhkumun şəxsiyyətinə, sosial vəziyyətinə və risk də-

[46] United Nations Standard Minimum Rules for Non-custodial Measures (The Tokyo Rules), https://www.ohchr.org
[47] Andrews, D. A., & Bonta, J. (2010). The Psychology of Criminal Conduct. Routledge.

rəcəsinə uyğun fərdi nəzarət və reabilitasiya tədbirlərinin müəyyən edilməsini nəzərdə tutur.

5) **İctimai təhlükəsizliyin təmin olunması prinsipi** - probasiyanın funksiyası yalnız fərdin müdafiəsi ilə məhdudlaşmır – cəmiyyətin təhlükəsizliyini təmin etmək də onun əsas vəzifələrindəndir. Bu prinsip çərçivəsində nəzarət və monitorinq mexanizmləri həyata keçirilir. Həm də yuxarıda qeyd etdiyimiz kimi probasiyanın sosial-hüquqi institut kimi son məqsədi də məhz ictimai təhlükəsizliyin təmin olunmasından ibarətdir.

6) **Şəffaflıq və hesabatlılıq prinsipi** - probasiya fəaliyyətində şəffaflıq və vətəndaş nəzarəti vacib elementlərdəndir. Bu prinsip AŞ-nın sənədlərində də tövsiyə edilir. "Probasiya xidmətləri ictimaiyyətə hesabatlı olmalı və fəaliyyətində şəffaflıq nümayiş etdirməlidir."[48] Hesabatlılıq həm hüquqi, həm də etik məsuliyyət baxımından probasiya xidmətlərinin etibarlılığını artırır. Azərbaycanda bu cür hesabatlılıq Probasiya xidmətinin fəaliyyəti ilə bağlı həm parlament üzvləri qarşısında, həm də media açıqlığı baxımından təmin olunur.

Probasiyanın əsas prinsipləri əsas rəhbər başlanğıc kimi bu institutun funksional və hüquqi mahiyyətini formalaşdırır. Beynəlxalq standartlara uyğun probasiya sisteminin qurulması üçün bu prinsiplərin normativ bazada təs-

---

[48] Recommendation CM/Rec(2010)1 of the Committee of Ministers to member states on the Council of Europe Probation Rules, https://www.cep-probation.org

bit edilməsi və praktiki mexanizmlərlə dəstəklənməsi vacibdir.

**Beləliklə**, təhlillərin nəticəsi olaraq qeyd etmək lazımdır ki, probasiyanın növləri və prinsiplərinin elmi və praktiki əhəmiyyəti nəzərə alınaraq bu paradiqmaların gələcəkdə milli qanunvericilikdə əks etdirilməsi probasiya mexanizminin effektivliyini daha da artıracaqdır.

### 1.3. Probasiyanın tarixi inkişafı

Probasiyanın tarixi hüquq-mühafizə və cəza siyasəti sisteminin təkamülündə mühüm məsələlərdən birini təşkil edir. Bu institutun yaranması və inkişafı cinayət törətmiş şəxslərin cəzaçəkmədən əvvəl və ya sonra reabilitasiya olunması, onların yenidən cəmiyyətə qazandırılması məqsədinə xidmət etmişdir.

Probasiyanın hüquqi və institusional formalaşması **həm Anglo-Sakson, həm də kontinental Avropa və ya Roman-German hüquq sistemlərində** fərqli tarixi trayektoriyalar üzrə inkişaf etmişdir.

İslam ölkələrində və ya Şərqin digər adət hüquq sisteminə malik dövlətlərində, o cümlədən Çində və Yaponiyada probasiyanın Qərb tendensiyasından fərqli özünəməxsus elementləri formalaşmışdır.

Yeri gəlmişkən qeyd edək ki, Türkiyədə probasiyanın 20 illik (2005), Azərbaycanda isə 8 ildən artıq (2017-ci ilin sonları) tarixi keçmişi vardır. Türkiyə və Azərbaycanda probasiyanın tarixi ilə bağlı məqamlara növbəti paraqraflarda toxunacağıq.

Probasiyanın mənşəyi və ilk tətbiq nümunələri ilə bağlı elmi ədəbiyyatlarda birmənalı mövqe yoxdur.

Probasiyanın tarixini araşdıran müəlliflər (Harris A., Radzinoviç L., Hood R.) onun mənşəyini İngiltərə ümumi hüququ ilə əlaqələndirirlər. A. Harris yazır ki, probasiya institutu müasir dövrdə cinayət törətmiş şəxslərin cəmiyyətə reinteqrasiyası və alternativ cəza mexanizmi kimi tanınsa da, onun mənşəyi daha qədim dövrlərə, xüsusilə İngiltərənin ümumi hüquq sisteminə gedib çıxır. Probasiyanın tarixi mənşəyi ilə bağlı əsas elmi yanaşmalardan biri bu hüquqi institutun XVI-XVII əsrlərdə İngiltərədə mövcud olmuş məhkəmə praktikasına və krallıq səlahiyyətlərinə əsaslandığını göstərir.[49] Probasiyanın ilkin formalarından biri kimi, məhkum edilmiş şəxsin krala əfv üçün müraciət etməsi və bunun əsasında məhkəmənin edam hökmünü müvəqqəti dayandırması prosesi göstərilir.

Nyu York şəhər Probasiya Departamentinin *(New York City Department of Probation)* rəsmi saytında probasiyanın tarixi ilə bağlı qeyd edilir ki, probasiyanın ilkin forması orta əsrlərin ingilis cinayət hüququnda müşahidə edilir. İngilis ümumi hüququnda demokratik qaydalar yaranmazdan əvvəl məhkəmələr cəzanın icrasını müvəqqəti təxirə salırdılar ki, bu zaman məqsəd cinayətdə təqsirləndirilən şəxsin əfv üçün monarxa müraciət etməsinə icazə vermək idi. Bu dövrdə ağır olmayan cinayətlərə görə həm yetkin-

[49] Harris, A. (1995). Origins of the English Probation System. The Howard Journal of Criminal Justice, 34(3), 187-200.

lik yaşlına çatan şəxslərə, həm də uşaqlara sərt cəzalar tətbiq edilirdi. İşgəncə vermək, ölüm və edam kimi hökmlər daha çox yayılmışdı. Məsələn, Kral VIII Henri dövründə 200-dən artıq böyük ictimai təhlükə törətməyən cinayət ölümlə cəzalandırıldı. Lakin bu sərtlik ədalət mühakiməsi sisteminin təkamülündə maraqlı olan ingilis cəmiyyətinin müəyyən mütərəqqi təbəqələrində narazılığa səbəb oldu. Tədricən bu qeyri-insani cəzaları yüngülləşdirmək üçün müxtəlif tədbirlər hazırlanmış və qəbul edilmişdir.[50]

G.Robinson qeyd edir ki, "probasiyanın hüquqi kökləri İngiltərədə 19-cu əsrdə bərqərar olmuş, lakin daha əvvəlki dövrlərdə də yuxarıda qeyd etdiyimiz "məhkəmə möhləti" *(judicial reprieve)* vasitəsilə hökmün dayandırılması mövcud olmuşdur."[51] Məhkəmə möhləti institutu vasitəsi ilə məhkəmələr tərəfindən təqsirkar hesab edilən şəxslərin cəzası müəyyən müddətə dayandırılır. Beləliklə də, onların davranışlarını müşahidə etmək və ya alternativ tədbirlər tətbiq etmək imkanı əldə olunur. Bu praktika zamanla probasiyanın əsas prinsiplərinin – cəzanın icrasında çeviklik, nəzarət və reabilitasiya imkanları – formalaşmasına səbəb olmuşdur. Nəticədə 19-cu əsrdə İngiltərədə probasiya institutu rəsmi hüquqi forma alaraq həm cəmiyyətin təhlükəsizliyini, həm də məhkumun reinteqrasiyasını təmin etməyə başladı.

[50] History of Probation, http://www.nyc.gov/html/prob/html/about/history.shtml

[51] Robinson, Gwen. (2001). Exploring Risk in the Probation Service: Frontline Perspectives. British Journal of Social Work, Vol. 31, No. 5.

İngiltərənin ümumi hüququnda bu praktika kilsə himayəsi ("benefit of clergy") hüququ ilə birlikdə formalaşmış və müəyyən hallarda məhkəmələrin hökmün icrasını təxirə salmaq və ya şərti tətbiq etmək hüququna yol açmışdır.[52] Bu təcrübəyə əsasən, məhkum vicdanlı davranış göstərəcəyi və yenidən cinayət törətməyəcəyi ilə bağlı zəmanət verirdisə, məhkəmə onu ölüm hökmündən müvəqqəti azad edirdi ki, bu da, sonradan probasiya anlayışının ilkin hüquqi formasına çevrilmişdir.[53]

Prof. M. Vanston da təsdiq edir ki, "probasiyanın mənşəyi İngilis ümumi hüququnda 18-19-cu əsrlərdə hökmün icrasının təxirə salınması və əfv üçün monarxa müraciətə imkan verən praktikalarla bağlıdır."[54]

Bütün bunlar göstərir ki, probasiya institutu öz başlanğıcını İngiltərə ümumi hüququnun erkən dövrlərindəki məhkəmə praktikasından və kral əfvi mexanizmlərindən götürmüş, zaman keçdikcə hüquqi sistemləşmə yolu ilə formalaşaraq müasir cəza siyasətinin əvəzsiz alətlərindən birinə çevrilmişdir. Bu təkamül hüququn statik normativ yanaşmasından dinamik və fərdiləşdirilmiş sanksiya sisteminə doğru inkişafının da göstəricisidir.

---

52 Radzinowicz, L., & Hood, R. (1986). The Emergence of Penal Policy in Victorian and Edwardian England. Oxford University Press.
53 Feeley, M. M. (1992). The Process is the Punishment: Handling Cases in a Lower Criminal Court. Russell Sage Foundation.
54 Vanstone, Maurice. (2004). Supervision and Surveillance: Probation in the New Millennium. Willan Publishing.

Amerikalı alimlərin (Clear T.R., Cole G.F., Reisig M.D.) qənaətincə probasiyanın ilkin formalarına **XIX əsrin əvvəllərində ABŞ-da** rast gəlinir. Bu dövrdə probasiyanın atası sayılan **Con Auqustus** adlı bir Boston ayaqqabı ustası 1841-ci ildə sərxoşluğa görə saxlanılmış bir şəxsin **məhkəməyə girovsuz qaytarılaraq nəzarət altında saxlanılmasını** təklif etmiş və sonradan həmin şəxsin reabilitasiya olunduğunu sübut etmişdir.[55] Bu hadisə ABŞ-da formal olmayan ilk probasiya nümunəsi hesab olunur. Bu bir vətəndaş təşəbbüsü kimi başlasa da, sonradan bu praktika geniş yayıldı və **1878-ci ildə Massaçusets ştatında ilk rəsmi Probasiya Qanununun** qəbul edilməsi ilə nəticələndi. Bununla da, xüsusi təlim keçmiş məmurların təyin olunması ilə probasiya dövlət nəzarətinə keçmiş oldu.[56]

İlk probasiya məmuru ABŞ-da 1878-ci ildə Boston məhkəmələri tərəfindən polis məmurunun bu vəzifəyə təyin olunması ilə rəsmi şəkildə tanınmışdır. XX əsrin əvvəllərində ABŞ Ali Məhkəməsi edamların qeyri-müəyyən müddətə təxirə salınmasını müəyyən etdi.

1925-ci il Milli Probasiya Aktı ilə məhkəmələrə cinayət törətmiş şəxslərə sınaq müddəti təyin etmək və həbs cəzasını təxirə salmağa icazə verildi. Elə həmin il ABŞ-ın Fede-

---

[55] Clear, T. R., Cole, G. F., & Reisig, M. D. (2016). American Corrections. Cengage Learning. s. 127

[56] Abadinsky, H. (2012). Probation and Parole: Theory and Practice. Prentice Hall. s. 45

ral Probasiya Xidməti yaradıldı.[57] Bu, dünyada probasiya üzrə ilk rəsmi dövlət qurumu hesab edilir.

Daha sonra Avropa məkanında probasiyanın institusional formalaşması prosesi başlanmışdır. Avropada probasiyanın müstəqil hüquqi institut kimi formalaşması ABŞ-dan daha gec baş versə də, **XX əsrin əvvəllərində** İngiltərə və Fransada probasiya orqanları yaradılmağa başlandı.

İngiltərədə 1907-ci ildə qəbul edilən Cinayətkarların Probasiyası Aktı *("Probation of Offenders Act")* bu sahədə dönüş nöqtəsi oldu.[58] Bu aktla məhkəmələrə cinayət törətmiş şəxsləri probasiya məmurlarının nəzarətinə vermək səlahiyyəti tanındı. Qeyd edək ki, XIX əsrə qədər probasiya institutu İngiltərədə formal hüquqi mexanizm kimi yox, daha çox qeyri-rəsmi hüquqi praktikalar və monarxın siyasi-etik səlahiyyətləri çərçivəsində fəaliyyət göstərmişdir. Lakin Cinayətkarların Probasiyası Aktı probasiyanı hüquqi institut kimi formallaşdırmış və onun statusunu müəyyənləşdirmişdir.[59] Bu aktın qəbulundan əvvəl məhkəmələr bəzi hallarda təqsirləndirilən şəxslərə "sınaq müddəti" verərək onların azadlıqda davranışlarını müşahidə edir və bu müşahidə əsasında son qərarı çıxarırdılar.

---

[57] History of Probation, https://legaldictionary.net/probation/

[58] Van Kalmthout, A. M., & Durnescu, I. (2008). Probation in Europe. Wolf Legal Publishers. s. 31

[59] Vanstone, M. (2004). Supervision and Surveillance: The Probation and Aftercare Service in England and Wales, 1907–1948. British Journal of Criminology, 44(4), 546–564.

Bu praktika məhkəmə möhləti və ya təxirəsalması adlanır və bu mexanizm probasiyanın hüquqi əsasını təşkil edir.[60]

**Probasiya institutunun tətbiqi ilə bağlı ən zəngin təcrübə Böyük Britaniyada formalaşmış**, burada bu institut tarixən alternativ cəza tədbirlərinin əsası kimi inkişaf etmişdir. Belə ki, XX əsrin 30-40-cı illərində bu sistem öz inkişafının yüksək həddinə çatmış, təqsirləndirilən şəxslərin təxminən 30%-nə qarşı şərti cəza tətbiq edilmişdir.[61] Bu ölkədə probasiya fəaliyyətini 2006-cı ilə qədər Daxili İşlər Nazirliyinin sistemində Milli Probasiya Xidməti həyata keçirimişdir. Hazırda isə İngiltərə və Uelsdə Ədliyyə Nazirliyinə tabe olan və strukturunda 42 probasiya qurumu olan Cinayətkarların idarə edilməsi üzrə Milli Xidmət fəaliyyət göstərir. İşçilərinin ümumi sayı təxminən 15 min nəfərdir və bu səbəbdən də hər bir işçiyə 13-14-dən çox olmayan məhkum düşür. Kadrların əhəmiyyətli bir hissəsi hüquqi və psixoloji təhsilə malikdir.[62]

**Almaniya, Niderland, İsveç və Belçikada** probasiyanın tətbiqi 1960-cı illərdən sonra sistemli şəkildə inkişaf etməyə başladı. Bu ölkələrdə probasiya daha çox **ictimai iş-**

---

[60] Petersilia, J. (1997). Probation in the United States. Crime and Justice, Vol. 22, pp. 149-200.

[61] Садыков А.У. Перспективы института пробации в России, https://wiselawyer.ru

[62] Аккулев А.Ш. Отдельные вопросы пробации// Научный журнал: Вестник Евразийского гуманитарного института 2010. №4. С. 41-47.

**lərə cəlb, davranış korreksiyası və reabilitasiya proqramları** ilə müşayiət olunurdu.[63]

Probasiyanın tarixi inkişafı ilə bağlı növbəti mərhələ probasiyanın milli hüquqdan beynəlxalq hüquqa transformasiyası oldu. Probasiyanın beynəlxalq hüquqi statusu da zamanla formalaşmışdır. XX əsrin ikinci yarısından başlayaraq, probasiyanın beynəlxalq hüquqi sənədlərdə tanınması baş verdi. **Avropa Şurası** 1960-cı illərdən başlayaraq üzv ölkələrdə cəzaların alternativ formalarının tətbiqini təşviq etmişdir. **2010-cu il tarixli "Avropa Probasiyası Qaydaları"** *(European Probation Rules)* isə bu institutun funksiyalarını, prinsip və standartlarını müəyyən edən ilk sistemli sənəd olmuşdur.[64] Bu sənəd probasiyanın əsas prinsiplərini *(insan hüquqlarına hörmət, fərdiləşdirmə, qeyri-diskriminasiya, ictimai təhlükəsizliyin qorunması)* təməl kimi qəbul edir. Probasiya ilə bağlı beynəlxalq hüquq normalarının təhlilinə növbəti paraqrafda geniş yer veriləcəkdir.

Ümumiyyətlə, elmi ədəbiyyatlarda probasiyanın mənşəyi iki əsas kontekstdə izah edilir: Birincisi, **tarixi-hüquqi yanaşma** - probasiyanın edamdan yayınma və ya hökmün təxirə salınması formasında məhkəmə səlahiyyətlərinə əsaslandığı, zamanla dövlətin rəsmi nəzarət orqanları vasitəsilə sistemləşdirildiyi vurğulanır (*bu mövqe əsasən Radzinoviçin, Harrisin əsərlərində əksini tapır*). İkincisi isə Feeley

[63] Dünkel, F., Grzywa-Holten, J., & Horsfield, P. (2015). Community Sanctions and Measures in Europe. Universität Greifswald.
[64] Council of Europe. (2010). Recommendation CM/Rec(2010)1 on the Council of Europe Probation Rules.

və Qarlan kimi alimlərin mövqeyinə əsaslanan **sosial-fəlsəfi yanaşma** - probasiyanın ilkin mənbəyinin mərhəmət və yenidən islah düşüncəsindən qaynaqlandığı, bunun həm hüquqi, həm də əxlaqi əsasları olduğu qeyd edilir.

Probasiyanın tarixi inkişafı onun sadəcə alternativ cəza forması deyil, sosial reinteqrasiya aləti kimi formalaşdığını sübut edir. Bu institut zaman-zaman fərqli formalarda inkişaf etsə də, onun məqsədi dəyişməz qalmışdır: cəmiyyətə təhlükə yaratmayan, islah potensialı olan şəxslərin cəzaçəkmədən azad edilməsi və nəzarət altında reabilitasiyası. Müasir dövrdə probasiya rəqəmsal nəzarət texnologiyaları və fərdiləşdirilmiş sosial proqramlarla daha da təkmilləşdirilmiş və humanistləşdirilmişdir.

# II FƏSİL

# PROBASİYA SAHƏSİNDƏ BEYNƏLXALQ HÜQUQ NORMALARI, BEYNƏLXALQ QURUMLARIN TÖVSİYƏ VƏ STANDARTLARI

*2.1. BMT-nin probasiya ilə bağlı standart və prinsipləri.*
*2.2. AŞ-nın probasiya ilə bağlı tövsiyələri və hüquqi çərçivəsi*
*2.3. Avropa Probasiya Konfederasiyası (CEP) və digər qurumların peşəkar standartları.*

## 1. BMT-nin probasiya ilə bağlı standart və prinsipləri

Son onilliklərdə dünyanın müxtəlif cinayət ədliyyə sistemlərində probasiya institutu alternativ sanksiya mexanizmi kimi əhəmiyyətli rol qazanmış və beynəlxalq hüquqa resepsiya olunmağa başlamışdır. Xüsusilə, hazırda azadlıqdan məhrumetməyə alternativ tədbirlərin tətbiqi, cəza siyasətində humanistləşmə və yeni cinayətlərin qarşısının alınması məqsədilə probasiya mexanizmlərinin beynəlxalq hüquq normaları çərçivəsində inkişaf etdirilməsi məsələləri daha da aktualdır. Bu kontekstdə Birləşmiş Millətlər Təşkilatı (BMT), Avropa Şurası (AŞ) və Avropa Probasiya Konfederasiyası (CEP) tərəfindən qəbul edilmiş sənədlər və tövsiyələr dövlətlərin milli qanunvericiliklərinə və praktikasına birbaşa və dolayı təsir göstərmişdir.

Tarixi baxımdan probasiya sahəsində beynəlxalq hüquqi qüvvəyə malik sənədlərin qəbulunda universal təşki-

lat kimi BMT xüsusi rola malik olmuşdur. BMT tərəfindən qəbul edilən sənədlər arasında probasiya ilə bağlı aşağıdakı normativ sənədlər xüsusilə önəmli hesab olunur:

***1) 1990-cı il tarixli "Azadlıqdan məhrumetmə ilə bağlı olmayan tədbirlər üzrə minimum Standart Qaydalar (Tokyo Qaydaları)"*** – bu sənəd azadlıqdan məhrumetməyə alternativ olan cəza tədbirlərinin tətbiqində insan hüquqlarına riayət edilməsini, fərdiləşdirilmiş yanaşmanı və ictimai təhlükəsizliyin qorunmasını nəzərdə tutur. [65] Tokio Qaydaları 1986-cı ildə Cinayətlərin qarşısının alınması və cinayətkarlarla rəftar üzrə Asiya və Uzaq Şərq İnstitutu tərəfindən irəli sürülmüş, ECOSOS tərəfindən 1986/10 saylı Qətnamə ilə qəbul edilmişdir. Yekun olaraq, həmin sənəd **BMT Baş Assambleyasının 14 dekabr 1990-cı il tarixli 45/110 saylı qətnaməsi ilə qəbul olunmuşdur.** Həmin qətnamədə Şura Baş katibdən azadlıqdan məhrumetməyə alternativlər məsələsini öyrənməyi və bu sahədə əsas prinsiplərin formalaşdırılması məqsədilə araşdırma aparmağı xahiş etmişdir. Bu sənədə görə bir çox ölkələrdə həbsxanaların həddindən artıq dolu olması narahatlıq doğurduğu üçün qeyd olunur ki, həbs təcrübəsi bəzən cinayətkarları daha da təhlükəli hala gətirə bilər. Buna görə də azadlıqdan məhrumetmə yalnız daha ağır və təhlükəli cinayətlər üçün nəzərdə tutulmalıdır. Tokio Qaydaları beynəlxalq konsensusa əsaslanaraq, azadlıqdan məhrumetmə ilə əla-

---

[65] United Nations Standard Minimum Rules for Non-Custodial Measures (The Tokyo Rules) : resolution / adopted by the General Assembly. https://digitallibrary.un.org/record/105347?v=pdf

qədar olmayan tədbirlərin tətbiqində riayət edilməsi zəruri olan minimum standartları əks etdirir. Bu sənədin bölmələri cinayət prosesinin bütün mərhələlərində qaydaların tətbiqi, həmçinin kadr məsələləri, nəzarət, rəftar şərtlərin pozulması, könüllülərin və ictimaiyyətin cəlb olunması, tədqiqat, siyasətin formalaşdırılması və qiymətləndirməyə dair məsələləri əhatə edir.[66] Göründüyü kimi, Tokyo Qaydalarının əsas missiyası ondan ibarətdir ki, azadlıqdan məhrumetməyə alternativ tədbirlərin tətbiqi ilə cinayətkarların cəmiyyətə reinteqrasiyası təşviq edilir və cəza siyasətində humanist, bərpaedici yanaşma prioritet hesab edilir.

*2) BMT-nin İqtisadi və Sosial Şurasının (EKOSOS) 2006/20 saylı Qətnaməsi ilə qəbul edilmiş 2006-cı il 27 iyul tarixli* ***"Cinayətkarlığın qarşısının alınması üzrə Birləşmiş Millətlər Təşkilatının standart və normaları"*** məhkumların sosial reinteqrasiyasının beynəlxalq hüquqi çərçivəsini müəyyən edir. Bu sənəd dövlətlərə və digər aktorlara məhkumların hüquqları, alternativ cəzalar, məhkumların reinteqrasiyası və cəzalanma sisteminin daha humanist, hüquq yönümlü olması üçün yönləndirici qaydalar təqdim edir. Bu sənəd, cəzanın məqsədinin yalnız cəza vermək deyil, həm də cinayətkar davranışın təkrarlanmasının qarşısını almaq və ictimai təhlükəsizliyi təmin etmək oldu-

[66] Commentary on the United Nations Standard Minimum Rules for Non-Custodial Measures (The Tokyo Rules), United Nations, New York, 1993. p.1

ğunu vurğulayır.[67] Cinayət ədliyyəsində sosial reinteqrasiya strategiyalarını müəyyən edən sənəddə qeyd olunur ki, cəza siyasəti reinteqrasiya yönümlü olmalı və probasiya xidmətləri reabilitasiya yönümlü fəaliyyət göstərməlidirlər.

Bu sənəddə aşağıdakı əsas prinsiplər irəli sürülür: 1) Fərdi yanaşma - hər bir məhkumun sosial, psixoloji və davranış xüsusiyyətlərinə uyğun fərdi reinteqrasiya planı hazırlanmalıdır. 2) Cəmiyyətin rolunun gücləndirilməsi - qeyri-hökumət təşkilatları, ailələr və ictimai institutlar reinteqrasiya prosesində aktiv iştirak etməlidirlər. 3) Alternativ cəza mexanizmləri - azadlıqdan məhrumetməyə alternativ cəzaların (elektron nəzarət, ictimai işlər, probasiya) tətbiqi tövsiyə olunur.

Qətnamədə məhkumların reinteqrasiyası, cəmiyyətə adaptasiyası, yeni cinayət törətməməsi üçün tədbirlər nəzərdə tutulur:

1) Alternativ cəzalar və bərpaedici ədliyyə (non-custodial sanctions and restorative justice): Sənəddə vurğulanır ki, məhkumların cəmiyyətə reinteqrasiyası üçün məhkəmə vasitəsilə tətbiq olunan alternativ cəzalar vacibdir və məhkumlara bərpaedici ədliyyə imkanları (mediasiya, icma xidmətləri və s.) təqdim edilməlidir.[68]

---

[67] Handbook on the Social Reintegration of Offenders. United Nations Office on Drugs and Crime. https://www.unodc.org

[68] https://info.nicic.gov/ces/2016/global/criminal-justice-reform/compendium-united-nations-standards-and-norms-crime-prevention?utm

2) Məhkumların saxlanma müddətində hazırlıq (preparation during custody): Həbs yerlərində saxlanma dövründə məhkumların sosial, psixoloji və peşə yönümlü hazırlığına diqqət yetirilməlidir ki, sərbəst buraxıldıqda onların adaptasiyası asan olsun.

3) Azadlığa buraxıldıqdan sonra dəstək (after-care / post-release support): Məhkum azadlığa çıxdıqdan sonra iş, təhsil, sığınacaq, sosial xidmətlər kimi dəstək mexanizmləri mövcud olmalıdır ki, geri dönmə (recidivism) riski azalsın.

4) Multidisiplinar yanaşma və interinstitusional əməkdaşlıq: Sosial xidmətlər, təhsil qurumları, psixoloqlar, cəmiyyətin qeyri-hökumət təşkilatları və dövlət orqanları arasında koordinasiya olmalıdır ki, reinteqrasiya prosesləri səmərəli olsun.

5) Məhdudlaşdırıcı şəraitlərin aradan qaldırılması və insan hüquqlarına hörmət: Məhkumların saxlanması, alternativ cəzaların tətbiqi və reinteqrasiya tədbirləri insan ləyaqəti, ayrı-seçkiliyin olmaması və əsas insan hüquqları çərçivəsində həyata keçirilməlidir.[69]

*3) BMT-nin 2010-cu il tarixli* ***Qadınlara münasibətdə azadlıqdan məhrumetmə ilə bağlı olmayan cəzalar və qadın məhkumlarla rəftar haqqında Qaydaları*** *(Banqkok Qaydaları)* - qadın məhkumlara və cinayətkarlara şamil edilməli olan fərqli qlobal standartlar müəyyən edir. Belə

[69] Compendium of United Nations standards and norms in crime prevention and criminal justice, https://www.un.org

ki, bu Qaydalar qadınların xüsusiyyətlərini (ana olması, sosial və ailə məsuliyyətləri, psixoloji və tibbi ehtiyaclar) nəzərə alaraq, məhkəmələrə mümkün qədər azadlıqdan məhrumetməyə alternativ sanksiyalardan istifadə etməyi tövsiyə edir. Digər tərəfdən bu sənəddə qadınlara münasibətdə cəzanın fərdiləşdirilməsi və genderə həssas yanaşma ortaya qoyulur və hesab edilir ki, probasiya nəzarəti fərdi və genderə uyğun hazırlanmalıdır. Bu zaman qadınların məişət zorakılığı qurbanı olması ehtimalı, iqtisadi asılılıq və ya analıq statusu kimi hallar nəzərə alınmalıdır. Bundan əlavə, sənəddə probasiya nəzarətində olan qadınlar üçün psixososial dəstək, təhsil, peşə hazırlığı, məşğulluq və ailə münasibətlərinin gücləndirilməsi tədbirlərinin təşkil olunması vurğulanır.

Ümumilikdə müasir dövrdə cəza siyasətinin humanistləşdirilməsi və məhkumların cəmiyyətə reinteqrasiyası cinayət ədliyyəsi sistemlərinin prioritet istiqamətlərindən birinə çevrildiyi üçün qeyd edilən beynəlxalq hüquqi sənədlər tövsiyə xarakteri daşıyan, lakin dövlətlər üçün normativ istiqamətverici rol oynayan beynəlxalq standartlar toplusudur. Onların əsas məqsədi cəza ədliyyə sistemində olan şəxslərin reabilitasiyası və reinteqrasiyası prosesində iştirak edən qurumlar üçün strateji yanaşma təqdim etməkdir. Bu sənədlər beynəlxalq hüququn yumşaq hüquq (“soft law”) alətlərindən biridir. Bu alətlərə, həmçinin Pekin Qaydaları (1985) və Nelson Mandela Qaydaları (2015) da aid edilə bilər. Bu sənədlər cinayətkarların yenidən cəmiyyətə qazandırılması və onlarla davranış qaydalarının

müəyyən edilməsi məqsədilə hazırlanmış beynəlxalq hüquqi və strateji çərçivələrdir və dövlətlərə effektiv, insan hüquqlarına əsaslanan, davamlı reinteqrasiya siyasəti formalaşdırmaq üçün istiqamət verir.

## 2.2. AŞ-nın probasiya ilə bağlı tövsiyələri və hüquqi çərçivəsi.

AŞ probasiya sahəsində əhatəli standartları müəyyənləşdirən, üzv dövlətlərdə probasiya xidmətlərinin inkişafını təşviq edən əsas beynəlxalq təşkilatlardan biri kimi çıxış edir. AŞ-nın fəaliyyəti yalnız normativ sənədlərin hazırlanması ilə məhdudlaşmır. Qurum həm də monitorinq, tövsiyə, standartların müəyyən edilməsi və təlim vasitəsilə probasiya institutlarının gücləndirilməsində mühüm rol oynayır.

***AŞ-nın probasiya ilə bağlı standartları.*** AŞ probasiya sahəsində bir sıra tövsiyə xarakterli sənədlər qəbul etmişdir. Başqa sözlə, bu qurum dövlətlərə probasiya ilə bağlı öz "yumşaq hüquq" prinsiplərini təqdim edir. Bu sənədlər üzv ölkələrdə probasiya xidmətlərinin hüquqi, etik və təşkilati əsaslarının formalaşmasında mənbə rolunu oynayır. AŞ-nın probasiya sahəsində qəbul etdiyi əsas sənədlər aşağıdakılardır:

**1) Avropa Probasiya Qaydaları** – AŞ-nın CM/Rec(2010)1 Tövsiyəsi əsasında qəbul edilmişdir. Qaydalar probasiyanın hüquqi və təşkilati əsaslarını, iş prinsipləri və məhkumların hüquqlarının qorunması məsələlərini sistemləşdirir. Bu sənədə əsasən probasiya xidmətləri

həm azadlıqdan məhrumetməyə alternativ kimi, həm də sosial reinteqrasiya vasitəsi kimi təqdim olunur.[70]

Cinayət ədliyyəsinin müasir mərhələsində cəza siyasəti təkcə cəzanın tətbiqindən ibarət deyil, həm də məhkumların cəmiyyətə inteqrasiyası və yeni cinayət hallarının qarşısının alınması kimi daha geniş məqsədlərə yönəlmişdir. Bu kontekstdə AŞ Nazirlər Komitəsi tərəfindən 20 yanvar 2010-cu il tarixində CM/Rec(2010)1 saylı Tövsiyə əsasında qəbul edilmiş "Avropa Probasiya Qaydaları" probasiya sahəsində ilk sistemli və normativ sənəddir. Bu qaydalar probasiya sahəsində fundamental beynəlxalq hüquqi sənəd hesab olunur.

***Qaydaların əsas məqsədi*** üzv dövlətlərin probasiya xidmətlərinin təşkilati və funksional fəaliyyətini harmoniyalaşdırmaq, insan hüquqları və hüququn aliliyi prinsipinə əsaslanan bir probasiya modeli təqdim etməkdir.[71]

Bu sənəd ilk dəfə beynəlxalq hüquqi əsasda "probasiya" termininin məna yükünü açıqlamışdır. Qaydaların 9-cu bəndinə görə, **probasiya** – "azadlıqda olan şəxslər üçün məhkəmənin qərarı ilə və ya cəza müddəti ərzində tətbiq edilən nəzarət, təşkilati və yardım tədbirləridir. Bu tədbirlər ictimai təhlükəsizliyi artırmaq, yeni cinayət riskini azaltmaq və cəmiyyətə reinteqrasiyanı təmin etmək məq-

---

[70] Recommendation CM/Rec(2010)1 on the Council of Europe Probation Rules. https://search.coe.int

[71] Recommendation CM/Rec(2010)1 of the Committee of Ministers to member states on the Council of Europe Probation Rules. https://rm.coe.int

sədi daşıyır" (Qayda 9, CM/Rec(2010)1). Prof. Durnesku yazır ki, bu tərifə əsasən, probasiya hüquqi, sosial və davranış korreksiya vasitəsi kimi çıxış edir.[72] Ümumilikdə, probasiyanın Avropada müstəqil və müasir bir institut kimi formalaşmasında Qaydalar çox mühüm əhəmiyyətə malik bir sənəd hesab edilir.

Azərbaycan Respublikasında da bu Qaydaların müddəaları nəzərə alınmaqla Probasiya xidmətinin Əsasnaməsi qəbul edilmiş, hazırda Xidmət bütün fəaliyyəti üzrə bu Qaydaların norma və prinsiplərini tətbiq edir. Xüsusilə, məhkumların sosial adaptasiyası və reabilitasiya tədbirlərinin həyata keçirilməsi zamanı fərdi nəzarət planlarının hazırlanması, alternativ cəzaların tətbiqi ilə bağlı fundamental məsələlərdə bu qaydalara əsaslanılır.

Hazırda ölkəmizdə Probasiya haqqında Qanun layihəsinin və probasiya fəaliyyəti ilə bağlı İnkişaf Konsepsiyanın hazırlanması prosesində Avropa Probasiya Qaydalarından istifadə olunur və ona istinadlar edilir.

Beləliklə, Avropa Probasiya Qaydaları probasiya institutunun hüquqi mahiyyətini, funksional mexanizmlərini və insan hüquqlarına əsaslanan idarəetmə modelini sistemləşdirən mühüm beynəlxalq sənəddir. Bu qaydalar Avropa ölkələrinin cinayət ədliyyəsindəki islahatlarını istiqamətləndirməklə yanaşı, cəzanın reinteqrasiya və reabilitasiya yönümlü icrasına imkan verir. Azərbaycanın pro-

---

[72] Durnescu, I., & McNeill, F. (2013). Understanding penal practices. Routledge.

basiya sistemi də bu qaydaların prinsiplərinə uyğun olaraq inkişaf etməkdədir.

**2) "İcma əsaslı sanksiyalar və tədbirlər haqqında Avropa Qaydaları"** - R(92)16 saylı Tövsiyə 19 oktyabr 1992-ci ildə AŞ Nazirlər Komitəsi tərəfindən qəbul edilmiş və üzv ölkələrə azadlıqdan məhrumetmə ilə yanaşı, ictimai təhlükəsizliyə xidmət edən alternativ hüquqi mexanizmlərdən istifadəyə dair yol xəritəsi təqdim edir.

Tövsiyənin məqsədi aşağıdakı prinsiplər əsasında cəmiyyət əsaslı cəza mexanizmlərinin formalaşdırılmasına dəstək verməkdir: Azadlıqdan məhrumetmənin yalnız son çarə kimi tətbiq olunması; Cəza tədbirlərinin fərdiləşdirilməsi və proporsionallığı; Sosial reinteqrasiya və ictimai faydanın təmin olunması; Şəxsin ləyaqətinin və hüquqlarının qorunması. Sənəd, probasiya, şərti azadlığa buraxılma, ictimai işlər, ev dustaqlığı, elektron nəzarət, müalicə proqramları və digər qeyri-cəzaçəkmə tədbirlərini nəzərdə tutur.[73]

Müasir cəza siyasətinin əsas çağırışlarından biri azadlıqdan məhrumetmə cəzalarının sayının azaldılması və cəmiyyət əsaslı alternativ tədbirlərin hüquqi və institusional sistemlərə inteqrasiyası olduğu üçün bu sənəd, cəza siyasətində humanist və effektiv yanaşmaların tətbiqinə dair mühüm beynəlxalq normativ çərçivə təqdim edir.

[73] Recommendation No. R(92)16 of the Committee of Ministers to member states on the European Rules on Community Sanctions and Measures. https://rm.coe.int

Bu sənəd "icma əsaslı sanksiya və tədbirlər" (Community Sanctions and Measures) termininin izahını verir: **"İcma əsaslı sanksiyalar və tədbirlər** - məhkəmələr və ya digər hüquqi orqanlar tərəfindən tətbiq edilən, məhkumun cəmiyyətdən təcrid olunmadan, müəyyən nəzarət və şərtlər daxilində azadlıqda qalmasını təmin edən hüquqi tədbirlərdir."

Prof. C. Morgenstern yazır ki, bu yanaşma cəza ədliyyəsini repressiv modeldən reinteqrativ və reabilitasiya yönümlü modelə keçirməyi nəzərdə tutur.[74]

**R(92)16 saylı Tövsiyə sənədi** AŞ-nın cəza siyasətində humanizm, proporsionallıq və reinteqrasiya kimi fundamental dəyərlərə əsaslanan yanaşmasının bariz nümunəsidir. Bu sənəd cəmiyyət əsaslı cəza tədbirlərinin yalnız alternativ deyil, həm də effektiv və sosial baxımdan təhlükəsizlik yaradan mexanizm olduğunu sübut edir. Tövsiyənin tətbiqi üzv ölkələrdə cəza siyasətinin balanslı və hüquq yönümlü şəkildə qurulmasına təkan vermişdir.

R (92) 16 saylı Tövsiyə qəbul edildikdən sonrakı 8 il ərzində bu sanksiya və tədbirlərin əhəmiyyətini artıran çoxlu hadisələr baş vermişdir. Xüsusən, cəmiyyətdə olan məhkumlara nəzarətlə bağlı inkişaf onlarla effektiv şəkildə işləmək imkanını xeyli artırmışdır. Əsasən, icma sanksiyaları və tədbirləri üzrə ilkin Avropa Qaydaları hələ də

---

[74] Morgenstern, C. (2009, 2016). "European initiatives for harmonisation and minimum standards in the field of community sanctions and measures."(European Journal of Probation) https://journals.sagepub.com

aktual olaraq qalır; lakin üzv dövlətlər tərəfindən müəyyən edilən bir sıra məsələlər əlavə izah və şərhlərə ehtiyac yaratmışdır.[75]

3) "İctimai sanksiya və tədbirlər haqqında Avropa Qaydalarının icrasının yaxşılaşdırılması" haqqında AŞ Nazirlər Komitəsinin 29 noyabr 2000-ci il tarixli iclasında qəbul edilmiş Rec(2000)22 saylı Tövsiyə sənədi ictimai sanksiyalar və tədbirlərin tətbiqini yaxşılaşdırmaq məqsədi daşıyır. Probasiya xidmətləri burada "implementing authorities" – yəni, bu sanksiya və tədbirlərin icrasına məsul orqanlar çərçivəsində vacib rol oynayır.

Bu sənədin mühüm cəhətlərindən biri ondan ibarətdir ki, onun məzmununda "probasiya xidməti" termininə aydınlıq gətirilmişdir. Həmin sənədin 1.2-ci maddəsinə görə, "Probasiya xidməti – azadlıqdan məhrumetməyə alternativ tədbirlərin icrası, məhkumların sosial reabilitasiyası və cəmiyyətə reinteqrasiyası məqsədilə dövlət və ya qeyri-dövlət orqanları tərəfindən həyata keçirilən fəaliyyətlər məcmusudur".

Sənəddə vurğulanır ki, probasiya xidməti cəmiyyətlə əlaqə saxlamalı, qeyri-hökumət sektorları və yerli icmalarla əməkdaşlıq etməli və reinteqrasiya prosesinə çoxşaxəli yanaşma tətbiq etməlidir. Reinteqrasiya yalnız hüquqi nəzarət deyil, həm də məşğulluq, təhsil, ailə əlaqələrinin bərpası və psixoloji dəstək mexanizmlərini əhatə etməlidir.

---

[75] Improving the Implementation of the European Rules on Community Sanctions and Measures, https://www.ojp.gov/ncjrs/

Qeyd olunmalıdır ki, Rec(2000)22 sənədinin prinsip və müddəaları bir çox Avropa ölkəsində, o cümlədən Azərbaycan Respublikasında həyata keçirilən probasiya islahatlarının əsas normativ bazasını təşkil etmişdir. Xüsusilə, Azərbaycan Respublikasının Cinayət Məcəlləsi, Cəzaların İcrası Məcəlləsi və Probasiya haqqında Əsasnamə bu sənəddəki prinsipləri hüquqi sistemə inteqrasiya etməyə çalışmışdır.

Eyni zamanda, AŞ üzv dövlətlərə probasiya sahəsində monitorinq, texniki yardım və ekspertiza funksiyasını da həyata keçirir.

Avropa İşgəncələrin Qarşısının Alınması Komitəsi (CPT) vasitəsilə üzv dövlətlərin probasiya sistemlərinin fəaliyyətini müşahidə edir. Bu monitorinq aşağıdakı funksiyaları yerinə yetirir: cəzaçəkmə siyasətində insan hüquqlarının pozulması halları aşkarlanır; proqnozlaşdırıcı hüquqi yanaşmalar əsasında ölkələrə tövsiyələr verilir; azadlıqdan məhrumetmə yerinə tətbiq edilən probasiya və digər alternativ cəzaların hüquqi əsasları təhlil olunur.[76]

İrlandiya Probasiya xidmətinin direktoru, Penitensiar Əməkdaşlıq Şurasının Prezidenti Vivian Geiran qeyd edir ki, bu Tövsiyələr hüquqi baxımdan məcburi xarakter daşımamasına baxmayaraq, onlar AŞ Nazirlər Komitəsi tərəfindən yekdilliklə qəbul olunmuşdur və buna görə də 47 üzv dövlət arasında yaxşı təcrübəyə dair siyasi konsensus

[76] European Committee for the Prevention of Torture and Inhuman or Degrading Treatment or Punishment (CPT) Standards. https://www.coe.int/en/web/cpt

və öhdəlik ifadə edir. Onlara getdikcə daha çox Avropa İnsan Hüquqları Məhkəməsinin qərarlarında, eləcə də İşgəncələrin və qeyri-insani və ya alçaldıcı rəftar və cəzanın qarşısının alınması üzrə Avropa Komitəsinin hesabatlarında istinad edilir. İllər ərzində bu Tövsiyələr xidmət rəhbərləri və praktiki mütəxəssislər tərəfindən öz sahələrində "qızıl standart" kimi qəbul edilmiş, tanınmış və geniş şəkildə praktiki fəaliyyətə inteqrasiya olunmuşdur.[77]

Bundan əlavə, AŞ Cinayət hüququ və Həbsxana islahatları əməkdaşlıq Proqramı çərçivəsində üzv dövlətlərə texniki yardım və ekspertiza dəstəyi göstərir. Bu dəstək probasiya məmurlarının təlimi və peşəkar hazırlığını, qanunvericilik layihələrinin hazırlanmasını, probasiya infrastrukturlarının qurulması və qiymətləndirilməsini, risk və ehtiyacların qiymətləndirilməsi metodikasının tətbiqini əhatə edir. Məsələn, AŞ-nın dəstəyi ilə Gürcüstan, Moldova, Ukrayna və Azərbaycanda probasiya sistemlərinin qurulmasına dair texniki layihələr həyata keçirilmişdir.[78]

***Avropa İnsan Hüquqları Məhkəməsinin (AİHM) probasiya sahəsinə dair qərarları.*** AİHM presedent hüququnda da probasiya nəzarətində olan şəxslərin hüquq və azadlıqları məsələləri təsbit olunmuş və bu qərarlar ölkə-

---

[77] Compendium of conventions, recommendations and resolutions relating to prisons and community sanctions and measures, https://www.cep-probation.org

[78] Council of Europe – Criminal Law Reform Projects. Probation and Post-Prison Assistance [2019]. https://www.coe.int/en/web/criminal-law-reform/probation-projects

miz üçün mühüm praktiki əhəmiyyət kəsb edir. Avropa İnsan Hüquqları Konvensiyasına əsasən, məhkum edilmiş şəxslərin şəxsi toxunulmazlıq, ailə həyatı və diskriminasiyadan müdafiə hüquqları probasiya nəzarəti dövründə də qorunmalıdır. AİHM bir sıra işlərində (məsələn, *Kudla v. Poland, 2000; Murray v. Netherlands, 2016*) probasiya və şərti azadlığa buraxılma prosesində insan hüquqlarının pozulmamasına xüsusi diqqət yetirmişdir.[79]

*Murray Niderlanda qarşı* işi məhkumların reabilitasiya və sosial reinteqrasiya hüququ baxımından önəmli hesab edilir. Məhkəmə vurğuladı ki, hətta ömürlük cəza çəkən məhkumun "reabilitasiya və sosial reinteqrasiya perspektivi" mövcuddursa insan hüquqları ilə uyğun sayılır. AİHM qeyd etdi ki, ömürlük məhkumların işləri müəyyən müddətdən sonra nəzərdən keçirilməli, onların islah olunma və ictimai təhlükəlilik səviyyəsi mütəmadi qiymətləndirilməlidir. Bu, probasiya xidmətinin risk qiymətləndirməsi, fərdi nəzarət planları və sosial uyğunlaşma tədbirləri ilə bağlı fəaliyyətinə uyğun gəlir.

Burada əsas tendensiya ondan ibarətdir ki, bütün hallarda məhkuma şəxsi inkişaf imkanları yaradılmalıdır. Məhkəmə bildirdi ki, ömürlük məhkumlara sadəcə "bioloji ömür boyu həbsdə qalmaq" deyil, islah və inkişaf üçün real imkanlar təqdim olunmalıdır.

---

[79] Murray v. the Netherlands, Judgment 26.4.2016, https://hudoc.echr.coe.int

Beləliklə, bu iş üzrə qərarında AİHM hesab etdi ki, Niderland ömürlük məhkumlara real reinteqrasiya perspektivi təqdim etmədiyi üçün Konvensiyanın 3-cü maddəsi pozulub. Fikrimizcə, bu işin probasiya kontenkstində ən mühüm cəhəti odur ki, probasiya xidməti ömürlük və müddətli cəzaya məhkum olunan çəxslərin belə sosial reinteqrasiyası üçün hüquqi mexanizmlərin ayrılmaz hissəsi olmalıdır. Ona görə də, təkcə "cəzanın icrası" deyil, həm də azadlığa hazırlıq və risklərin idarə olunması probasiyanın funksiyasına daxil edilməlidir.

*Kudla Polşaya qarşı* işində isə ərizəçi çəzaçəkmə müəssisəsində saxlanılan zaman şərtlərin pis olması və məhkumların sosial reinteqrasiyasına yönəlmiş imkanların olmaması barədə iddia irəli sürmüşdü. Məhkəmə vurğuladı ki, məhkumların saxlanma şərtləri yalnız fiziki təhlükəsizliklə deyil, həm də onların reabilitasiya və sosial reinteqrasiya imkanları baxımından qiymətləndirilməlidir. Məhkəmə qeyd etdi ki, məhkumların sosial reinteqrasiyası sadəcə nəzarət deyil, həm də psixoloji dəstək, peşə hazırlığı və sosial xidmətlərlə təmin edilməlidir.[80] Beləliklə, Kudla işi göstərdi ki, əgər məhkumların psixoloji və sosial ehtiyacları nəzərə alınmırsa, bu, AİHM tərəfindən Konvensiyanın 3-cü maddəsinin pozuntusu kimi qiymətləndirilir.

Beləliklə, AŞ probasiya sahəsində çoxsəviyyəli və çoxfunksiyalı institut kimi fəaliyyət göstərir. Onun beynəlxalq hüquq normalarının yaradılması, monitorinq, ekspertiza

[80] Kudła v. Poland, https://hudoc.echr.coe.int

və insan hüquqları baxımından rolu probasiya xidmətlərinin səmərəliliyini və hüquqi legitimliyini artırır. Bu baxımdan, AŞ-nın standartları üzv ölkələrdə probasiya sistemlərinin müasirləşdirilməsinə yönəlmiş fundamental çərçivə təqdim edir.

### 2.3. Avropa Probasiya Konfederasiyası (CEP) və digər qurumların peşəkar standartları.

Hazırda probasiya sahəsində bir sıra peşəkar beynəlxalq qurumlar (məsələn, Avropa Probasiya Konfederasiyası (CEP), Beynəlxalq Korreksiya və Həbsxanalar Assosiasiyası (ICPA) və digər qurumlar mövcuddur ki, onlar bu sahəyə aid həm peşəkar standartlar müəyyən edir, həm də bu sahədə əməkdaşlığın inkişafına əsaslı töhvələr verirlər. Qeyd edilən qurumlarla ölkəmizin də səmərəli qarşılıqlı əlaqələri formalaşmışdır. Bu qurumlardan biri də Avropa Probasiya Konfederasiyasıdır (CEP).

***CEP-in yaranma tarixi, üzvlük, məqsəd və fəaliyyət istiqamətləri:*** Avropa Probasiya Konfederasiyası 1981-ci ildə yaradılmış probasiya üzrə beynəlxalq ixtisaslaşmış təşkilatdır. Mənzil qərargahı Niderland Krallığının Utrext şəhərində yerləşir. Təşkilatın əsas missiyası üzv ölkələrdə probasiya xidmətlərinin səmərəliliyini və insan hüquqlarına əsaslanan fəaliyyətlərini dəstəkləmək, həmçinin alternativ cəza formalarının yayılmasını təşviq etməkdir. [81]

[81] CEP – Confederation of European Probation (2023). About Us. https://www.cep-probation.org/about-us

CEP-in üzvləri sırasına 50-dan çox ölkənin ədliyyə nazirlikləri, probasiya qurumları, akademik institutlar və QHT-lər daxildir. Qurumda əsas rolu üzv dövlətlər oynayır.

Böyük Britaniyalı professor Rob Kanton yazır ki, "CEP beynəlxalq platforma rolunu müvəffəqiyyətlə oynayır, lakin praktik tətbiqetmə üzv dövlətlərin siyasi iradəsinə bağlıdır".[82]

Azərbaycan Respublikası Konfederasiyaya üzvlük üçün 2024-cü ilin avqust ayında müraciət etmiş, 13 noyabr 2024-cü il tarixdə Ədliyyə Nazirliyinin Probasiya xidməti CEP-in üzvü olmuşdur. CEP-in Nizamnaməsinin III maddəsinin 2-ci bəndinə uyğun olaraq, ölkəmizin tam hüquqlu üzvlüyü qurumun 15 oktyabr 2025-ci il tarixində Vyanda keçirilmiş Baş Assambleyanın qərarı ilə yekun olaraq təstiq edilmişdir.

Ölkəmizdə CEP-in ekspertləri, Türkiyə, Niderland, Xorvatiya və Latviyanın probasiya qurumlarının nümayəndələri tərəfindən 8 onlayn beynəlxalq təlim keçirilmişdir (2024-cü ildə).[83]

Təlimlər və informasiya mübadiləsi CEP-in aparıcı missiyasıdır.

Prof. Ioan Durnesku yazır ki, "CEP-in əsl təsiri onun təşkil etdiyi bilik paylaşımı tədbirləri və praktiki təlimlərdə görünür".[84]

---

[82] Canton, R. (2011). Probation and Human Rights. European Journal of Probation, 3(1), 30–46.

[83] Ədliyyə Nazirliyinin Probasiya xidmətinin 2024-cü il üzrə Hesabatı, Bakı, 2025, səh.21

[84] Durnescu, I. (2013). Probation training in Europe: Comparative overview. CEP Report.

Təşkilata üzvlük probasiya sahəsində Avropa ölkələri ilə səmərəli əməkdaşlığın inkişafı, beynəlxalq standartların və yeni innovativ mexanizmlərin tətbiqi, peşəkar inkişafa yardım, probasiya üzrə ixtisaslaşmış qurumların və müxtəlif ölkələrin probasiya xidmətləri ilə işgüzar əlaqələrin yaradılması baxımından mühüm rol oynayır. Eyni zamanda, quruma üzv olmaqla ölkəmiz Konfederasiyanın bütün tədbirlərində iştirakçı, eləcə də məruzəçi qismində iştirak edəcək, ekspert qruplarına və şəbəkələrinə qoşulma hüququ əldə edəcək, bütün üzvlərin tam səsvermə hüququna malik olduğu Baş Assambleyada iştirak edə biləcək.[85]

CEP əsasən müxtəlif ölkələrin probasiya təcrübəsinin paylaşılması və müqayisəli təhlili, Avropa səviyyəsində etik kodekslərin və təlim modellərinin hazırlanması, probasiya üzrə elmi tədqiqatların təşviqi və s. istiqamətlərdə fəaliyyət göstərir.

***CEP tərəfindən qəbul edilən sənədlər və onların məzmunu.*** CEP hüquqi məcburi və mütləq xarakterli tənzimləyici hüquqi sənəd qəbul etmir, lakin beynəlxalq konfranslar, elmi seminarlar və strateji sənədlər vasitəsilə tövsiyə xarakterli çərçivələr təqdim edir. Ən mühüm sənədlər aşağıdakılardır:

1) Probasiya üzrə Avropa Dəyərləri (CEP Core Probation Values, 2010–2016) -  Bu sənəddə probasiya sahəsində

[85] Ədliyyə Nazirliyinin Probasiya xidməti Avropa Probasiya Konfederasiyasına üzv qəbul edilib, https://justice.gov.az/news/3864

18 əsas prinsip (etika, hörmət, qanunilik, reinteqrasiya və s.) müəyyən edilir və bu dəyərlər Avropa Probasiya Qaydaları ilə uzlaşdırılır.

2) Elektron nəzarət üzrə Brüssel Bəyannaməsi (Brussels Declaration on EM, 2015) – CEP və rəqəmsal monitorinq üzrə ekspertlər tərəfindən hazırlanmış sənəd elektron nəzarətin hüquqi və etik sərhədlərini müəyyən edir: azadlıq hüququna müdaxilənin balanslı və ölçülü olması tələb olunur.[86]

3) Cinayətkarlıqdan uzaqlaşma yönümlü Praktik Təlimatlar (Desistance-focused Practice Guidelines, 2019) - Bu sənəddə cinayətkarlıqdan uzaqlaşma (desistance) prosesinin psixososial dəstəklə əlaqələndirilməsi vurğulanır: şəxsi motivasiya, sosial kapital və ailə əlaqələri əsas amil kimi tanınır.[87]

Təhlillərdən də göründüyü kimi, BMT və Avropa Şurası normativ-hüquqi bazanı təmin etdiyi halda, CEP praktik tətbiq və metodoloji inkişafa fokuslanır. Bu fərq beynəlxalq sistemdə hüquqi təşəbbüs və institusional tətbiq arasındakı koordinasiyanın necə bölündüyünü göstərir.

Beləliklə, CEP Avropa məkanında probasiya fəaliyyətinin peşəkar, etik və insan hüquqlarına əsaslanan şəkildə

---

[86] Nellis, M., Beyens, K., & Kaminski, D. (2016). Electronically monitored punishment: international and critical perspectives. Routledge.

[87] Farrall, S. (2011). Rethinking what works with offenders. Willan Publishing.

formalaşmasında mühüm beynəlxalq təsisat hesab edilir. Təşkilatın qəbul etdiyi sənədlər və təşəbbüslər hüquqi baxımdan məcburi olmasa da, praktik sistemlərin inkişafına strateji istiqamət verir və probasiya xidmətləri üçün dəyərlər çərçivəsi yaradır. CEP-in fəaliyyəti elmi tədqiqatlar və praktik təcrübələrin inteqrasiyasına əsaslandığı üçün qurumun tövsiyələri ölkəmizdə gələcək hüquqi və institusional islahatlar üçün dayanıqlı əsas rolunu oynamaqdadır.

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin **Probasiya xidmətinin CEP-ə qoşulmasının əsas məqsədləri** aşağıdakılardır:

- CEP-ə üzv olan ölkələrlə probasiya sahəsində beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi, qarşılıqlı təcrübə və məlumat mübadiləsinin aparılması;
- Avropa ölkələrində azadlıqdan məhrumetmə ilə əlaqədar olmayan cəzaların icrası zamanı probasiya nəzarətində olan şəxslərin sosial adaptasiya və reabilitasiya işinin təşkili prinsiplərini və təcrübəsini öyrənib ölkədə tətbiq etmək;
- Probasiya sahəsində mövcud olan və gələcəkdə yarana biləcək çatışmazlıqların aradan qaldırılması üçün təsirli üsul və vasitələrin müəyyən edilməsi;
- Azadlıqdan məhrumetmə ilə bağlı olmayan cəzaların icrası ilə bağlı daxili qanunvericiliyin təkmilləşdirilməsi məqsədilə CEP-ə üzv ölkələrin konseptual və qanunvericilik bazasının öyrənilməsi;
- Probasiya fəaliyyətini həyata keçirən məmurların peşəkarlığının artırılması;

• Probasiya, sosial adaptasiya və reabilitasiya ilə bağlı CEP-in təşkil etdiyi konfrans, təlim və digər tədbirlərdə ölkəmizin təmsil olunması;

• Probasiya sistemində bərpaedici ədliyyənin və ya cinayət işləri üzrə mediasiyanın tətbiqi üzrə Avropa təcrübəsindən bəhrələnmək;

• Avropa ölkələrinin qabaqcıl təcrübəsindən istifadə etməklə, Azərbaycanda probasiya sahəsində təlim proqramları hazırlamaq;

• CEP-in illik hesabatları və digər sənədlərlə tanışlıq, eyni zamanda, Konfederasiyanın rəsmi veb-saytının, sosial şəbəkələrinin və bülleteninin izlənməsi;

• Konfederasiyanın bütün tədbirlərində iştirakçı və məruzəçi olaraq ekspert qruplarına və şəbəkələrinə qoşulmaq, habelə Baş Assambleyada iştirak etmək imkanlarından istifadə etmək.

Ölkəmizin CEP-ə üzv olması bu sahədə əməkdaşlıq üçün yeni imkanlar yaradır. Bu təşkilatın layihə və iş proqramlarına töhfə vermək üçün aşağıdakı fəaliyyətlər həyata keçirilə bilər:

- CEP daxilində Azərbaycan qanunvericiliyində və probasiya sahəsində tətbiq olunan yeniliklər barədə məlumatları və müsbət təcrübəni bölüşmək;

- Hazırda ölkəmizin Probasiya xidmətində tətbiq olunan könüllülük institutunun, o cümlədən sosial işçi və psixoloqların fəaliyyətinin nəticələrinin Avropada anoloji fəaliyyətlə müqayisəsi və paylaşılması;

- CEP-in həyata keçirdiyi layihələrə Azərbaycanlı ekspertlərin cəlb olunması;
- Probasiya sahəsində əldə edilən nəticələrin və statistik göstəricilərin təşkilata təqdim olunması (Bu məlumatlar Avropa miqyasında müqayisəli təhlillər aparmaq üçün dəyərli ola bilər);
- Probasiya sahəsində mütəxəssislərin bilik və təcrübəsinin bölüşülməsi;
- Avropa ölkələrində probasiya sahəsində görülən işlər barədə Azərbaycan ictimaiyyətinin məlumatlandırılması.

Bu addımlar Azərbaycan dövlətinin CEP-in fəaliyyətinə töhfə verməklə yanaşı, ölkənin bu sahədə beynəlxalq nüfuzunu artırmağa da xidmət edəcəkdir.

CEP üzv dövlətlərdə konkret proqramlar üzrə, məsələn, davranış dəyişiklik proqramları, yenidən cinayət törətmə riskinin qiymətləndirilməsi, motivasiya yönümlü və s. mexanizmlər tətbiq etməklə praktik fəaliyyət həyata keçirir.

Bundan əlavə, CEP praktiki və peşəkar səviyyədə Avropa ölkələri arasında probasiya xidmətlərinin harmonizasiyası və təcrübə mübadiləsinin aparılmasında önəmli rol oynayır. Onun fəaliyyəti daha çox təcrübə transferi, təlim, normativ koordinasiya və tədqiqat təşviqi ilə xarakterizə olunur. Prof. Durnescu CEP-in 30-dan çox üzv ölkədə probasiya sistemlərinə təsirini[88] geniş analiz etmişdir.

---

[88] Fergus McNeill, Ioan Durnescu and René Butter (eds), Probation: 12 Essential Questions, https://journals.sagepub.com

Ümumilikdə, probasiya sahəsində beynəlxalq hüquq normaları və təşkilatların tövsiyələri milli sistemlər üçün istiqamətverici çərçivə rolunu oynayır. BMT-nin ümumbəşəri prinsipləri, Avropa Şurasının tövsiyələri və CEP-in praktiki yönümlü fəaliyyəti birlikdə ədalətli, insan hüquqlarına əsaslanan və effektiv probasiya sistemlərinin formalaşmasına töhfə verir. Azərbaycanda və digər ölkələrdə bu beynəlxalq sənədlərin tətbiqi milli qanunvericilik və institutların davamlı inkişafını şərtləndirir.

Beləliklə, qeyd edilə bilər ki, bu gün Azərbaycanın probasiya sistemi CEP-in praktiki standartlarına əsaslanaraq ölkəmizdə praktiki və institusional mexanizmlərin qurulması, sosial adaptasiya və rebilitasiya tədbirlərinin gücləndirilməsi, tərəfdaşların prosesə cəlb olunması və peşəkar resursların artırılması baxıımından aktiv fəaliyyət göstərir.

**Beynəlxalq Korreksiya və Həbsxanalar Assosiasiyası (ICPA).** 1998-ci ildə təsis olunmuş və mərkəzi ofisi Kanadada yerləşən ICPA penitensiar və probasiya sahəsində qlobal miqyasda nüfuzlu platforma kimi tanınır. Onun əsas missiyası cəzaçəkmə mexanizmlərinin humanist, ədalətli və effektiv idarəçilik prinsiplərinin təşviq olunması, habelə azadlıqdan məhrumetmə və alternativ sanksiyaların icrasında beynəlxalq təcrübə və bilik mübadiləsinin genişləndirilməsidir.[89]

ICPA həmçinin BMT-nin İqtisadi və Sosial Şurasında (ECOSOC) xüsusi məşvərətçi statusa malikdir. Bu status

[89] https://icpa.org

onun beynəlxalq miqyasda insan hüquqları, cəza siyasəti, reabilitasiya və məhkumların hüquqlarının mühafizəsi sahəsində səlahiyyətli iştirakını təmin edir.

ICPA hər il fərqli ölkədə keçirilən illik konfranslarda üzvləri bir araya gətirir, yeni trendləri, problemləri, islahat ehtiyaclarını, yaxşı təcrübələrin müzakirəsini həyata keçirir.

ICPA-nın 2025-ci ildə İstanbulda keçirilmiş son konfransında ilk dəfə olaraq Azərbaycan da təmsil olunmuşdur. "İslahatlarda rifah: əməkdaşlar, sistemlər və icmalar üçün təşəbbüslər" mövzusunda keçirilmiş Konfrans penitensiar və probasiya sistemlərində yeni meyllər və innovasiyalar, məhkumların reabilitasiyası üzrə qabaqcıl təcrübələrin paylaşılması, cəzaçəkmə sistemlərində texnoloji yeniliklərin araşdırılması, işçi heyətin rifahı və peşəkar inkişafı üçün strategiyaların müzakirəsi, psixi sağlamlıq, səhiyyə, təhsil, peşə hazırlığı və digər mühüm istiqamətləri əhatə etmişdir.

Beləliklə, ICPA beynəlxalq səviyyədə cəza siyasəti və həbsxana-probasiya sistemlərinin inkişafında vacib subyekt kimi çıxış edir. Assosiasiyanın fəaliyyətləri reabilitasiya, reinteqrasiya, insan hüquqları prinsipləri sahəsində standartlaşdırma, təlim və peşəkar inkişaf üzərində qurulub. Bu qurum həmçinin, probasiya və icma nəzarəti sahəsində formalaşmış, amma milli səviyyədə məcburi xarakter daşımayan standartların təşviqçisi, bilik və təcrübə mübadiləsini təmin edən bir platformadır.

# III FƏSİL
# AZƏRBAYCANDA PROBASİYA FƏALİYYƏTİ VƏ QANUNVERİCİLİYİ

*3.1. Probasiya sahəsində normativ-hüquqi baza, prioritetlər, trendlər və həyata keçirilən islahatlar- multidissiplinar fəaliyyət*

*3.2. AR Ədliyyə Nazirliyinin Probasiya xidmətinin funksiya və səlahiyyətləri*

*3.3. Probasiya sahəsində rəqəmsallaşma və ya ENV-lərin tətbiqi problemləri*

*3.4. Probasiya nəzarətində olan şəxslərin hüquq və vəzifələri*

## 3.1. Probasiya sahəsində normativ-hüquqi baza, prioritetlər, trendlər və həyata keçirilən islahatlar - multidissiplinar fəaliyyət

Azərbaycanda cəza-icra siyasətinin humanistləşdirilməsi istiqamətində son illərdə aparılan hüquqi və institusional islahatlar fonunda probasiya sistemi mühüm əhəmiyyət kəsb edir. Azadlıqdan məhrumetməyə alternativ cəza tədbirlərinin tətbiqi, elektron nəzarət vasitələrinin istifadəsi və sosial reinteqrasiya mexanizmlərinin gücləndirilməsi bu sahənin əsas inkişaf istiqamətlərindəndir. Bu fəsildə Azərbaycan Respublikasının milli qanunvericiliyində probasiya institutunun hüquqi əsasları, prioritet islahatlar, beynəlxalq trendlərlə uzlaşma səviyyəsi və müasir çağırışlar, habelə Ədliyyə Nazirliyinin Probasiya xidmətinin

funksiya və səlahiyyətləri, məhkumların hüquq və vəzifələri elmi əsaslarla təhlil edilir.

***Probasiya sahəsində normativ-hüquqi baza.*** Probasiyanın hüquqi cəhətdən tənzimlənməsi ilə bağlı normativ massiv 3 hissədən ibarətdir: 1) AR Prezidentinin fərman və sərəncamları; 2) AR-nın cinayət, cinayət prosessual və cəzaların icrası qanunvericiliyi; 3) Beynəlxalq normalar və standartlar *(bu barədə artıq əvvəlki fəsildə bəhs edilmişdir*).

**Azərbaycanda ilk dəfə probasiya institutunun hüquqi əsasları** ölkə Prezidentinin 10 fevral 2017-ci il tarixli "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi, alternativ cəza növlərinin və cəmiyyətdən təcridetmə ilə bağlı olmayan prosessual məcburiyyətlərin tətbiqinin genişləndirilməsi haqqında" Sərəncamı ilə müəyyən edilmişdir. Həmin Sərəncam bu sahədə ilk və fundamental sənəd hesab edilir.

H.e.f.d. S. Məcidov qeyd edir ki, dövlət başçısının qeyd edilən Sərəncamı cinayət və cəza-icra qanunvericiliyinin, habelə praktikasının beynəlxalq hüquq normalarına və xarici ölkələrin təcrübəsinə uyğunlaşdırılması üçün olduqca mühüm əhəmiyyət kəsb edir və xüsusilə probasiya institutunun tətbiqi ilə bağlı gələcək islahatlar üçün hüquqi təməl rolunu oynayır.[90] Bundan əlavə, bu sənəd bütövlükdə Azərbaycan cəza-icra hüququnda da probasiyanın yeni bir institut kimi formalaşmasına təkan verdi.

[90] Ədliyyə Nazirliyindən yeni yaradılan Probasiya Xidməti haqqında açıqlama, 17-02-2017, https://aia.az/11065-edliyye-nazirliyinden-yeni-yaradilan-probasiya-xidmeti-haqqinda-achqlama.html

Qeyd edilən Sərəncama əsasən:

- Probasiya xidməti yaradılmış, 2017-ci il dekabrın 2-dən rəsmi olaraq fəaliyyətə başlamışdır.

- Həmin qurumun üzərinə cəza siyasətinin humanistləşdirilməsi, cəzaların effektiv təmin edilməsi vəzifəsi qoyulmuşdur.

- Probasiya xidməti tərəfindən azadlıqdan məhrumetmə ilə bağlı olmayan cəzaların icrasına nəzarət həyata keçirilməyə başlanmışdır.

-"Azadlığın məhdudlaşdırılması" cəza növü qanunvericiliyə daxil edilmişdir.

Sərəncamdan irəli gələn tapşırıqlar dərhal nəticə verdi. Belə ki, 2017-2018-ci illər arasında həbs göstəriciləri 3% azalmış, alternativ və ya şərti cəzaların sayı 2.1% artmışdır. Eyni zamanda, cəzaçəkmə müəssisələrində məhkumların sayı 6% azalmış, Probasiya xidmətində qeydiyyata alınanların sayı 24.3% artmışdır.[91] Bu dinamika bu gün daha sürətlə və effektiv şəkildə özünü büruzə verir. Bu Sərəncamla Azərbaycanda əsası qoyulmuş tədbirlərin və alternativ sanksiyaların tətbiqinin genişlənməsi nəticəsində 2018-ci illə müqayisədə 2024-cü ildə probasiya nəzarətində olan şəxslərin sayı 17,18% (və ya 3.783 şəxs) artmışdır.

Bu sənədin daha mühüm əhəmiyyəti onunla bağlıdır ki, bu Sərəncamla bir sıra cinayət əməlləri dekriminallaşdırılmış, probasiya nəzarətinə verilən cinayət hallarının

[91] Гумбатов, М. Г. Пробация в Азербайджанской Республике и перспективы ее развития / М. Г. Гумбатов // Уголовно-исполнительное право. – 2019. – Т. 14(1–4), № 2. – С. 170–174.

sayı artırılmış, alternativ cəzaların tətbiq dairəsinin genişləndirilməsi və probasiya nəzarətinin effektiv təşkili məsələsi konseptual olaraq öz həllini tapmışdır. Artıq 2017-ci ilin sonunda cəza sisteminə azadlığın məhdudlaşdırılması növündə yeni cəza növü daxil edilmiş və azadlıqdan məhrumetməyə real alternativ kimi məhkəmələr tərəfindən tez-tez tətbiq olunmağa başlamışdır.

Bundan əlavə, AR Prezidentinin 7 noyabr 2017-ci il tarixli Fərmanı ilə Ədliyyə Nazirliyi haqqında Əsasnamədə dəyişiklik edilmişdir. Bu dəyişikliyə əsasən:

- Probasiya xidməti baş idarə statusu almışdır.
- Nazirliyin Kollegiyasının 22 dekabr 2017-ci il tarixli qərarı ilə bu barədə əsasnamə təsdiq edilmişdir.

Probasiyanın inkişafına dair normativ-hüquqi aktlardan növbəti mühüm sənəd AR Prezidentinin "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 3 aprel 2019-cu il tarixli Fərmanı hesab edilir. Bu sənədə müvafiq olaraq ölkəmizdə cəza siyasətinin humanistləşdirilməsi və cinayətlərin dekriminallaşdırıl-ması, məhkəmə qərarlarının icrası işinin təkmilləşdirilməsi ilə bağlı qabaqcıl beynəlxalq təcrübə öyrənilməklə, bir sıra mühüm tədbirlər görülmüşdür.

Fərmana əsasən, probasiya üzrə nəzərdə tutulan tədbirlər bir neçə əsas istiqaməti əhatə edir: məhkəmə qərarlarının icra mexanizmlərinin təkmilləşdirilməsi; alternativ cəza tədbirlərinin genişləndirilməsi (xüsusilə probasiya və elektron nəzarət); cinayət qanunvericiliyində humanistləşdirmə və dekriminallaşdırma tendensiyası.

Fərmandan sonra qəbul edilən dəyişikliklər çərçivəsində bir sıra cinayət tərkiblərinə münasibətdə cəza müddətləri azaldılmış, bəzi cinayətlər isə dekriminallaşdırılmışdır. Azadlığın məhdudlaşdırılması, ictimai işlər, cərimə, islah işləri və elektron nəzarət kimi alternativ tədbirlərin tətbiqi genişləndirilmişdir. Bu cəzalar əsasən böyük ictimai təhlükə törətməyən cinayətlər və az ağır cinayətlərin sanksiyalarında nəzərdə tutulmuşdur.

Qeyd edilməldir ki, beynəlxalq təcrübədə də bu cür humanist yanaşmalar mövcuddur. Məsələn, Almaniyada az ağır cinayətlərə görə azadlıqdan məhrumetməyə nadir hallarda yol verilir, daha çox sosial reabilitasiya tədbirləri və şərti cəzalar tətbiq edilir.[92]

Fərmanın mühüm əhəmiyyəti ölkəmizdə cəzaların humanistləşməsi və insan yönümlü yanaşmanın inkişafı olmuşdur. Çünki, burada əsas məqsəd ağır olmayan kriminal əmələ görə ağır cəza vermək deyil, daha çox məhkumun reabilitasiyasına yönəlmiş modelin yaradılmasıdır. Prof. J. Pratt Norveç təcrübəsinə əsaslanaraq yazır ki, bu ölkədə reabilitasiya əsaslı model tətbiq edilir və cəzanın əsas məqsədi fərdin cəmiyyətə qaytarılmasıdır. Məhkumlara insan hüquqları kontekstində münasibət əsas götürülür.[93] Bu mənada qeyd edilən Fərman ümumilikdə insan hüquqlarının təminatına xidmət etməklə, ölkəmizdə cina-

---

[92] Kuhlen, M. (2015). Kriminalpolitik und Strafrecht. Nomos Verlag.

[93] Pratt, J. (2008). Scandinavian Exceptionalism in an Era of Penal Excess. British Journal of Criminology, 48(2), 119-137.

yət qanunvericiliyinin humanistləşdirilməsi məqsədini qarşıya qoymuşdur.

Fərmanın daha mühüm əhəmiyyəti bir sıra cinayət əməllərinin dekriminalizasiyası ilə bağlıdır. Dekriminallaşdırma tendensiyası probasiya nəzəriyyələrinin mərkəzi elementi hesab edilir.

Son illərdə bir sıra cinayətlərin dekriminalizasiyası həyata keçirilsə də, Probasiya xidmətinin təcrübəsi sübut edir ki, narkotik vasitələrə münasibətdə bu islahat davam etdirilməlidir. Bir sıra Avropa ölkələrində bu əməllərə görə cəzalandırılma əvəzinə reabilitasiya və müalicə tətbiq olunur. Məsələn, Portuqaliyada narkotik vasitələrə görə azadlıqdan məhrumetmə cəzası əvəzinə müalicə və sosial reabilitasiya prioritet sayılır.[94] Türkiyə təcrübəsində həmin situasiyalarda fərdi və qrup terapiyaları həyata keçirilir.

Azərbaycanın tətbiq etdiyi dekriminallaşdırma tədbirləri bu ölkələrin təcrübəsinə uyğun olmaqla, azadlıqdan məhrumetmə tədbirini son çarə (*ultima ratio*) kimi nəzərdə tutur.

Fərmanda açıq şəkildə göstərilir ki, azadlıqdan məhrumetməyə alternativ cəza tədbirlərinin tətbiqi genişləndirilməlidir. Sənəddə "alternativ cəza tədbirlərinin tətbiqinin genişləndirilməsi, o cümlədən, elektron nəzarət vasitələrinin tətbiqinin təkmilləşdirilməsi" vurğulanır. Bu müddəa birbaşa olaraq probasiya sisteminin genişləndirilməsi və

[94] Hughes, C., & Stevens, A. (2010). What Can We Learn From The Portuguese Decriminalization of Illicit Drugs? British Journal of Criminology, 50(6), 999–1022.

müasirləşdirilməsi ilə bağlıdır. Bununla da, probasiya nəzarəti ən vacib mexanizmlərdən biri kimi nəzərdən keçirilmiş və bu sənəd növbəti islahatlar üçün hüquqi əsas olmuşdur.

Əksər müəlliflər hesab edir ki, azadlıqdan məhrumetmə cəzasının tətbiqinin azaldılması, onun alternativlərlə əvəz olunması və nəticədə cəzaçəkmə müəssisələrində məhkumların sayının aşağı düşməsi dövlətlərin cinayət-hüquq siyasətində xüsusi yer tutmaqdadır. Bu da təsadüfi deyildir. Çünki azadlıqdan məhrumetmə növündə cəzaya alternativlər, yəni məhkumun cəmiyyətdən təcrid edilməsi ilə əlaqədar olmayan cəzalar həm dövlət, həm də məhkumlar üçün daha əlverişlidir. Belə ki, məhkəmələr bu cəza növlərini təyin etməklə ilk növbədə, dövləti məhkumların cəza çəkəcəyi ixtisaslaşdırılmış müəssisələrin yaradılması, onların saxlanması ilə əlaqədar kifayət qədər maliyyə vəsaiti ayırmaqdan azad edir. Digər tərəfdən, bu cəza növlərinə məhkum olunmuş şəxslər azadlıqdan məhrumetmə yerlərində saxlanılan kriminal yönümlü məhkumlarla təmasda olmur, kütləvi qaydada deyil, azadlıqda sərbəst şəkildə islah təsiri tədbirlərinə məruz qalır, onların ailələri, tanışları, işlədikləri əmək kollektivinin üzvləri ilə faydalı sosial əlaqələri pozulmur, əmək fəaliyyətlərini davam etdirir, eləcə də gələcəkdə aktual məsələlərdən biri olan sosial adaptasiya, yəni azad həyata uyğunlaşma kimi problemli məsələ ilə üzləşmirlər.[95]

[95] C.Quliyev, M.Hümbətov, N.Mustafayev. Azərbaycan Respublikasının cəza-icra hüququ. Dərs vəsaiti. Bakı, "Hüquq Yayın Evi" nəşriyyatı, 2022, s.80.

Bundan əlavə, milli qanunvericilikdə probasiya institutu, xüsusilə azadlıqdan məhrumetmə ilə bağlı olmayan cəzalar və onların icrası məsələləri bir sıra məcəllələrlə də müəyyən edilmişdir.

AR Cinayət Məcəlləsində şərti məhkumetmə, şərti məhkum etmənin ləğv edilməsi və ya sınaq müddətinin uzadılması, islah işləri, ictimai işlər, azadlığın məhdudlaşdırılması kimi alternativ cəza formaları təsbit olunmuşdur (məs. maddə 70, 71 və s.).

AR Cəzaların İcrası Məcəlləsində (CİM) cəzanın icrası zamanı probasiya nəzarətinin müddəti, tədbirləri və mexanizmləri qeyd olunmuşdur. CİM-ə probasiya fəaliyyəti ilə bağlı iki yeni müddəa (15-1, 15-2-ci maddələr) əlavə edilmişdir. Bu maddələrdə:

- Probasiya nəzarəti anlayışı verilmiş, onun şamil olunduğu şəxslərin dairəsi müəyyən edilmişdir.
- Probasiya xidməti işçilərinin (icra məmurlarının) əlavə vəzifələri müəyyən edilmişdir.
- Elektron nəzarət vasitələrindən istifadənin xüsusiyyətləri müəyyən edilmişdir.
- Probasiya xidmətinə qanunvericiliklə müəyyən edilmiş qaydada məhkumun cəmiyyətdən təcrid edilməsi ilə bağlı olmayan cəzaların icrasının təşkili, cərimə, nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrum etmə, müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə, ictimai işlər islah işləri, azadlığın məhdudlaşdırılması növündə cəza çəkən şəxslər üzə-

rində probasiya nəzarətinin həyata keçirilməsi vəzifələri həvalə edilmişdir.

- Xidmətə şərti məhkum edilmiş, cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş və ya məhkəmə tərəfindən cəzasının çəkilməsi təxirə salınmış şəxslər üzərində probasiya nəzarətinin həyata keçirilməsi, cinayət törətmiş və alkoqolizm və ya narkomaniyadan müalicə məqsədi ilə barəsində tibbi xarakterli məcburi tədbirlər təyin edilmiş (cəzaçəkmə müəssisələrində cəza çəkən məhkumlar istisna olmaqla), habelə inzibati həbs nəzərdə tutan inzibati xəta törətmiş və barəsində narkomaniyadan məcburi müalicə təyin edilmiş şəxslər üzərində probasiya nəzarətinin həyata keçirilməsi vəzifələri tapşırılmışdır.

CİM-ə edilən dəyişikliyə əsasən Probasiya xidmətinə həvalə edilmişdir:

- Məhkum edilmiş şəxslərlə onların islahı və sosial adaptasiyası ilə bağlı tədbirlərin həyata keçirilməsi;
- İnzibati tənbeh kimi təyin edilmiş ictimai işlərin icrasının təşkili.

AR Cinayət-Prosessual Məcəlləsində məhkəmə qərarlarının icrasında nəzarət orqanlarının hüquqları və prosedurlar göstərilir.

Eyni zamanda, Azərbaycanda probasiya institutunun formalaşması ilə bağlı mühüm sənədlərdən biri də AR Ədliyyə Nazirliyi Kollegiyasının 22 dekabr 2017-ci il tarixli 26-N nömrəli qərarı ilə təsdiq edilmiş Probasiya Xidmətinin Əsasnaməsidir. Bu sənədlə xidmətin vəzifələri, səlahiy-yətləri, təşkilati strukturu və funksiyaları müəyyən

olunmuşdur.[96] Bu sənədlə bağlı növbəti paraqraflarda ətraflı bəhs ediləcəkdir.

***Probasiya sahəsində yeni trendlər.*** Azərbaycanda probasiya sahəsində gələcəkdə diqqət yetirilməsi zəruri olan məqsədlər və yeni trendlər bunlardır:

- "Probasiya fəaliyyəti haqqında" Qanun layihəsinin hazırlanması və bu qanunun qəbul edilməsi.
- "Azərbaycan Respublikasında probasiya sahəsinin 2026-2030-cu illər üçün İnkişaf Konsepsiyası"nın işlənib hazırlanması.
- Ölkəmizdə alternativ cəzaların təşviqi və daha çox tətbiq olunmasının vacibliyi.
- Məhkumlarla sosial adaptasiya və reabilitasiya işinin düzgün qurulması, bu məqsədlə könüllü fəaliyyətin təşviqi.
- Zərərçəkənlərin hüquqlarının müdafiəsi institutunun ölkəmizdə tətbiqi, o cümlədən bərpaedici ədliyyənin (cinayət törətmiş şəxslə zərərçəkmiş şəxs arasında mediasiya) tətbiqi mexanizmlərinin öyrənilməsi.
- Elektron nəzarət sistemlərinin optimallaşdırılması və yalnız ehtiyacı olan şəxslərə tətbiqi, bu sahədə reabilitasiya tədbirlərinin səmərəliliyinin artırılması.
- Probasiya sistemində yeni trendlərdən biri də cəzaların icrasına münasibətdə fərdi yanaşmanın tətbiq edilməsidir. Bu zaman məhkumun ilkin qiymətləndirilməsi aparılır, cəzaların icrasına nəzarət planı tərtib olunur.

---

[96] Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Probasiya xidməti haqqında Əsasnamə, https://e-qanun.az/framework/37471

Son illər probasiya qurumlarında azadlıqdan məhrumetmə ilə bağlı olmayan cəzaların icrasında mövcud trendlərdən biri elektron nəzarət vasitələrinin tətbiqinin geniş xarakter almasıdır.

Ədliyyə Nazirliyində çoxşaxəli islahatların tərkib hissəsi kimi, 2024-cü ilin II yarısından Probasiya xidmətində yeni mərhələ başlanmış, probasiya sahəsində korrupsiyaya qarşı mübarizə və onlara şərait yaradan halların aradan qaldırılması, şəffaflığın təmin olunması, işçilərin əmək və icra intizamının gücləndirilməsi, eyni zamanda, məhkumların hüquq və mənafelərinin qorunmasına dair qanunvericilik bazasının inkişaf etdirilməsi, məhkumların sosial adaptasiyası və reabilitasiyası istiqamətində təsirli islahatların aparılması, habelə, bu istiqamətdə ali təhsil müəssisələri ilə əməkdaşlığın qurulması və beynəlxalq əlaqələrin genişləndirilməsi, multidissiplinar fəaliyyət barədə ciddi tapşırıqlar vermişdir.

Probasiya sahəsində sosial adaptasiya və reabilitasiya yönümlü yanaşma ortaya qoyulmuş, yeni struktur və yeni tendensiyalar formalaşdırılmışdır. Belə ki, 2024-cü ilin ikinci yarımilində probasiya fəaliyyətində çoxsaylı tədbirlər həyata keçirilmiş, 4 oktyabr 2024-cü il tarixdə Probasiya xidmətinin yeni strukturu təsdiq edilmiş, Xidmətdə Rəqəmsal monitorinq idarəsi, Təhlil və nəzarət idarəsi ilə yanaşı, ilk dəfə olaraq Sosial adaptasiya və reabilitasiya şöbəsi yaradılmışdır.

Bununla da, Azərbaycanda probasiya fəaliyyətinin sosial adaptasiya yönümlü xidmət kimi formalaşdırılması

prioritet hesab edilməklə, "probasiya nəzarəti" fenomenində "sosial adaptasiya və reabilitasiya" tendensiyası ilkin planda nəzərdən keçirilməyə başlanılmışdır.

Daha sonra, probasiya sahəsində dünya ölkələrinin təcrübəsi nəzərə alınmaqla bir sıra mühüm istiqamətlər üzrə yeniliklər tətbiq olunmağa başlamışdır.

Məhkumların hüquq və mənafelərinin qorunması, qanunvericilik bazasının təkmilləşdirilməsi, sosial adaptasiya və reabilitasiya tədbirləri, habelə, bu istiqamətdə ali təhsil müəssisələri, dövlət qurumları və vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığın qurulması və probasiya sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsi bu sahədə yeni trendlərdən hesab edilir.

Yuxarıda qeyd etdiyimiz trendlərə əsasən bu gün Azərbaycanda probasiya sahəsində prioritet istiqamətlər bunlar hesab edilir:

İlk növbədə, Azərbaycan Respublikası "Probasiya fəaliyyəti haqqında" Qanun layihəsinin hazırlanması və bu qanunun qəbul edilməsi təşəbbüsünün irəli sürülməsi xüsusilə zəruri hesab edilir. Qanun probasiya fəaliyyətinin hüquqi əsaslarını, əsas prinsiplərini, habelə, üzərində probasiya nəzarəti həyata keçirilən şəxslərin islah edilməsi, sosial adaptasiya və reabilitasiyası, eyni zamanda, probasiya qurumlarının fəaliyyətinin daha səmərəli həyata keçirilməsini özündə ehtiva edəcəkdir.

İkincisi, məhkumlarla sosial adaptasiya və reabilitasiya işinin düzgün qurulması, bu məqsədlə könüllü fəaliyyətin təşviqi, probasiya nəzarətində olan şəxslərin yeni cinayət

törətməsinin qarşısının alınmasının səmərəli üsul və vasitələrinin konseptual olaraq işlənib hazırlanması vacib hesab edilir.

Üçüncüsü, bərpaedici ədliyyə ilə bağlı Azərbaycanda pilot qaydada layihə və proqramların icrasının həyata keçirilməsi bu günün ən aktual hadisələrindəndir.

Dördüncüsü, alternativ cəzaların təşviqi və daha çox tətbiq olunması vacib hesab edilir. Azadlıqdan məhrumetmə ilə bağlı olmayan cəzaların Azərbaycan milli qanunvericiliyi və beynəlxalq normalar əsasında yenidən konseptual olaraq işlənib hazırlanması, habelə, bu cəza növünün məhkumların sosial adaptasiyası və reabilitasiyasına cavab verən nəzarət mexanizmləri ilə daha çox uzlaşması və əlaqələndirilməsi qarşıda duran vəzifələrdən biridir.

Beşincisi, probasiya fəaliyyətində idarəetmənin, o cümlədən, regional idarəetmənin təkmilləşdirilməsi, habelə, probasiya xidmətinin elektron idarəetməsinin gücləndirilməsi, elektron nəzarət sistemlərinin optimallaşdırılması, bu sahədə reabilitasiya tədbirlərinin səmərəliliyinin artırılması müasir dövrdə daha aktual məsələlər kimi çıxış edir.

Beynəlxalq təcrübəyə əsasən, probasiya fəaliyyəti multidissiplinar yanaşma tələb etdiyi üçün bu sahədə sosial, psixoloji, həmçinin pedaqoji dəstəyin rolu həlledicidir. Eyni zamanda, probasiya sahəsində çalışan hüquqşünasların parasosial işçi kimi fəaliyyət göstərməsi üçün davamlı təlimlər keçirilir.

Probasiya sistemində yeni trendlərdən biri də cəzaların icrasına münasibətdə fərdi yanaşmanın tətbiq edilməsidir.

Bu zaman məhkumun ilkin qiymətləndirilməsi aparılır, cəzaların icrasına nəzarət planı tərtib olunur. Bununla bağlı, Avropa təcrübəsinin ölkəmizdə tətbiqi faydalı hesab edilir. Bu yanaşmanın məqsədi həm əsas, həm də əlavə cəza növü kimi tətbiq olunan "probasiya nəzarəti" cəzasının şəxsin yaşına, psixoloji xüsusiyyətlərinə və inkişaf səviyyəsinə uyğun sosial davranışının korreksiyasına və reabilitasiya tədbirlərinə məcburi cəlb edilməsidir. Probasiya üzrə beynəlxalq ekspertlərin iştirakı ilə Azərbaycan probasiya məmurları üçün bir neçə onlayn təlim keçirilmişdir.

Probasiya xidməti tərəfindən ötən ilin ikinci yarısından başlayaraq həyata keçirilən sosial adaptasiya yönümlü tədbirlər probasiya qeydiyyatında olan şəxslər tərəfindən törədilə biləcək yeni cinayətlərin və onlara təsir göstərə bilən kriminogen amillərin qarşısının alınması məqsədinə xidmət etməklə, problemin daha çox köklü həllinə nail olmağa imkan verir. Nəticədə sosial adaptasiya yönümlü probasiya xidməti hüquqi, iqtisadi, təşkilati və sosial-psixoloji fəaliyyəti özündə ehtiva edən kompleks tədbirlər sistemini təşkil edir.

Bu istiqamətdə Probasiya xidmətinin bir sıra qurumlarla birgə imzalanmış memorandumlara və tədbirlər planına əsasən probasiya qeydiyyatında olan şəxslərə mütəmadi olaraq sosial-psixoloji xidmətlər göstərilir, onların ailə-məişət, məşğulluq, təhsil və s. problemlərinin həllinə dəstək göstərilir, ödənişsiz hüquqi yardımlar həyata keçirilir.

Məhkumların sosial adaptasiyası və reabilitasiyası sahəsində bir çox qurumlarla, o cümlədən 2024-cü ildə Azər-

baycan Universiteti və Bakı Dövlət Universiteti, 2025-ci ildə Dövlət Məşğulluq Agentliyi, Sumqayıt Dövlət Universiteti, "Ümidli Gələcək" ictimai birliyi ilə Əməkdaşlıq haqqında Memorandumlar imzalanmış, ali təhsil müəssisələrinin sosial iş və psixologiya sahəsində təhsil alan şəxslər probasiya fəaliyyətinə könüllü kimi cəlb olunmuş, dövlət qurumlarının və QHT-lərin imkanlarından istifadə edilməklə məhkumların cəmiyyətə reinteqrasiyası, sosial vəziyyətinin yaxşılaşdırılması, məşğulluğunun təmin olunması üzrə tədbirlər görülmüş və bu fəaliyyətlər davamlı xarakter daşıyır.

Probasiya xidməti "Ümidli Gələcək" sosial təşəbbüslər ictimai birliyi ilə probasiya sahəsində sosial-psixoloji işin təşkili məqsədi ilə tədbirlər keçirilmiş, QHT tərəfindən "yuvenal.az" elektron təlim kursu hazırlanmış, ictimai birlik tərəfindən ədliyyə işçilərinin peşə bayramı münasibətilə probasiya qeydiyyatında olan tələbələrə hədiyyələr təqdim olunmuş, məhkumlar idmana və əlavə təhsil kurslarına cəlb edilmişlər.

İlk dəfə olaraq 2024-cü ildə məhkumların sosial adaptasiya və reabilitasiyasına yönəlmiş tədbirlər (2700-dən artıq) həyata keçirilmişdir. Probasiya sahəsində könüllü fəaliyyət göstərən sosial işçilər və psixoloqlar tərəfindən 200-dən çox (2024-cü ilin yekunları üzrə) məhkuma sosial-psixoloji, vəkillər tərəfindən Bakı, Sumqayıt və Gəncə şəhərlərində 100-ə yaxın məhkuma ödənişsiz hüquqi yardımlar göstərilmişdir.

Bundan əlavə, Probasiya xidməti tərəfindən Sosial Xidmətlər Agentliyi, Vəkillər Kollegiyası, Mediasiya Şurası, Təhsil Nazirliyi, Gənclər Fondu və s. təşkilatlarla əlaqələr yaradılmış, onlarla əməkdaşlıq çərçivəsində məhkumların sosial adaptasiyası və reabilitasiyasına yönəlmiş tədbirlər həyata keçirilmiş, müvafiq tədbirlər planları imzalanmışdır.

Zərərçəkmiş şəxslərin hüquqlarının təmin olunması ilə bağlı Mediasiya Şurası ilə probasiya sistemində bərpaedici ədliyyənin tətbiqini dəstəkləmək məqsədilə mediatorlar üçün təlimlər keçirilmiş, 2025-ci ildən pilot qaydada cinayət işləri üzrə mediasiyanın tətbiqi ilə bağlı proseslərə başlanılmışdır.

Gənclər Fondu və Probasiya xidmətinin əməkdaşlığı ilə sosial adaptasiya və reabilitasiya işinin könüllülük prinsipi əsasında təşkili və könüllülük fəaliyyətinin təşviqi ilə bağlı təlimlər keçirilmişdir.

Xidmətdə probasiya məmurları, mediatorlar, könüllülər, hakimlər, məhkumlar və digər şəxslər üçün korrupsiya hüquqpozmaları və onlara qarşı mübarizə, bərpaedici ədliyyə, məhkumların hüquq və azadlıqlarının müdafiəsi, rəqəmsal monitorinq tədbirləri, sosial adaptasiya və reabilitasiya, azadlıqdan məhrumetmə ilə bağlı olmayan cəzaların xüsusiyyətləri və icrası problemləri, cəza siyasətinin humanistləşdirilməsi və digər mövzularda 50-dən çox əyani və onlayn təlimlər təşkil edilmişdir.

Probasiya qurumlarında korrupsiya ilə sərt mübarizə tədbirlərinə başlanılmış, probasiya qurumlarının fəaliyyəti

öyrənilmiş, pozuntuya yol vermiş əməkdaşlar intizam məsuliyyətinə cəlb edilmiş, o cümlədən fəaliyyətində korrupsiya hüquqpozması ilə bağlı bəzi əməkdaşlar tutduqları vəzifədən azad olunmaqla, ədliyyə orqanlarından xaric edilmişdir.

Probasiya qeydiyyatında olan şəxslərin monitorinqi, sosial adaptasiyası və reabilitasiyasında səmərəliliyin artırılması üçün probasiya fəaliyyətində idarəetmənin təkmilləşdirilməsi, xüsusilə xidmətin elektron idarəçiliyinin gücləndirilməsi, habelə xidmətlə yerli qurumların və aidiyyəti dövlət orqanlarının informasiya sistemlərinin inteqrasiyasının təmin edilməsi olduqca zəruridir.

Probasiya fəaliyyətində idarəetmənin təkmilləşdirilməsi üçün ilk növbədə regional idarəetmənin inkişafı və əlaqələndirmənin effektivliyinin artırılması, Probasiya Şurasının yaradılması kimi mühüm istiqamətlər prioritet hesab edilir.

Probasiya xidmətinin beynəlxalq əməkdaşlığı ilə bağlı mühüm addımlar atılmış, 2024-cü ilin avqust ayında edilmiş müraciət əsasında Xidmət 13 noyabr 2024-cü il tarixdə Avropanın bu sahədə ixtisaslaşmış təşkilatı olan Avropa Probasiya Konfederasiyasının (CEP) tam hüquqlu üzvü olmuşdur. Bu qurumun fəaliyyət istiqamətlərinə probasiya sahəsində təcrübə və məlumat mübadiləsi, qanunvericiliklər barədə məlumatların hazırlanması, ümumi problemlərin həlli, peşəkar inkişafa yardım, konfranslar, seminarlar və digər beynəlxalq tədbirlərin keçirilməsi aiddir.

Beləliklə, probasiya sahəsində normativ-hüquqi bazanın təkmilləşdirilməsi, bu sahədə prioritetlər və trendlər, həyata keçirilən islahatlar nəticəsində multidissiplinar fəaliyyət, o cümlədən sosial adaptasiya yönümlü tədbirlər bilavasitə Azərbaycanda modern probasiya modelinin formalaşdırılmasına xidmət edir. Bütün bu islahatlar probasiya qeydiyyatında olan şəxslərin islah olunmasına, onların reabilitasiyasına, törədilə biləcək yeni cinayətlərin və onlara təsir göstərə bilən kriminogen amillərin qarşısının alınmasına xidmət etməklə, problemin daha çox köklü həllinə nail olmağa imkan verir. Nəticədə sosial adaptasiya yönümlü probasiya xidməti hüquqi, iqtisadi, təşkilati və sosial-psixoloji fəaliyyəti özündə ehtiva edən kompleks tədbirlər sistemini təşkil edir.

## 3.2. AR Ədliyyə Nazirliyinin Probasiya xidmətinin funksiya və səlahiyyətləri

Cəza siyasətinin humanistləşdirilməsi və azadlıqdan məhrumetməyə alternativ cəza növlərinin tətbiqi dünya ölkələrində olduğu kimi, Azərbaycanda da mühüm prioritetlərdən birinə çevrilmişdir. Bu istiqamətdə fəaliyyətin həyata keçirilməsində əsas təsisatlardan biri probasiya xidmətləri hesab edilir.

Müasir dünya təcrübəsinə əsasən, probasiya xidmətləri yalnız nəzarət mexanizmi deyil, həm də cinayət törətmiş şəxslərin cəmiyyətə reinteqrasiyasını təmin edən sosial-hüquqi mexanizmdir.

Bu səbəbdən, biz bu paraqrafda ilk növbədə probasiyanın bir təsisat kimi hüquqi, sosial və funksional təyinatının nədən ibarət olması məsələsinin elmi cəhətdən araşdırılmasına çalışacağıq.

Yuxarıda qeyd etdiyimiz kimi, Azərbaycan Respublikasında Probasiya xidmətinin təşkili və inkişafı prosesi 2017-ci ildən həyata keçirilən institusional islahatlarla başlanmışdır. Belə ki, AR Ədliyyə Nazirliyinin Probasiya xidməti baş idarə səlahiyyətli müstəqil struktur qurum kimi Azərbaycan Respublikası Prezidentinin 7 noyabr 2017-ci il tarixli 1670 saylı Fərmanı ilə yaradılmış, Ədliyyə Nazirliyi Kollegiyasının 22 dekabr 2017-ci il tarixli 26-N nömrəli qərarı ilə xidmətin Əsasnaməsi təsdiq edilmişdir.

Əsasnaməyə görə xidmət cərimə, nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrumetmə, müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrumetmə, ictimai işlər, islah işləri, azadlığın məhdudlaşdırılması növündə cəzaların icrasını təşkil edir, probasiya nəzarətini həyata keçirir, ictimai işlər növündə inzibati tənbehin icrasını və üzərində probasiya nəzarəti həyata keçirilən şəxslər tərəfindən yeni cinayətlərin törədilməsinin profilaktikası işini təşkil edir.[97]

Əsasnamədən başqa, Azərbaycan Respublikasında Probasiya xidmətinin hüquqi əsaslarını və fəaliyyətinin əsas təməlini müəyyən edən sənədlər aşağıdakılardır:

- AR Cəzaların İcrası Məcəlləsi (m. 184–191)

---

[97] Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Probasiya xidməti haqqında Əsasnamə, https://e-qanun.az/framework/37471

- BMT-nin Tokio Qaydaları (1990)
- Avropa Şurasının Rec (2010)1 saylı Tövsiyəsi və ya Avropa Probasiya Qaydaları.

Probasiya fəaliyyətinin daha səmərəli həyata keçirilməsi məqsədilə Ədliyyə Nazirliyi üzrə 1 dekabr 2017-ci il tarixli Əmrlə aşağıdakı əsas dəyişikliklər həyata keçirilmişdir:

1) Probasiya xidmətinin strukturu və ştat cədvəlləri təsdiqlənmişdır;

2) Əvvəlki icra şöbələri icra və probasiya xidmətlərinə çevrilmişdir;

3) Sumqayıt və Gəncə şəhərlərində müstəqil probasiya şöbələri yaradılmışdır.

Qeyd olunmalıdır ki, bütün bu tədbirlər probasiyanın strukturunun möhkəmlənməsinə və təşkilati müstəqilliyinin təmin olunmasına səbəb olmuşdur. Bu isə BMT-nin Tokio Qaydalarının 1.2 və 2.3-cü prinsiplərinə uyğun olaraq, probasiyanın təşkilati müstəqilliyini təmin etməyə və funksional effektivliyini artırmağa xidmət etmişdir. Həmin sənəddə qeyd edilir ki, "probasiyanın təşkili xüsusi ixtisaslaşmış və adekvat resurslarla təmin edilmiş orqanlar vasitəsilə həyata keçirilməlidir."[98]

Beynəlxalq sənədlərdə və nəzəriyyədə probasiyanın funksiyaları da mühüm əhəmiyyətli paradiqmalardan hesab edilir.

**Probasiyanın əsas funksiyaları** aşağıdakılardır:

---

[98] United Nations Standard Minimum Rules for Non-custodial Measures (The Tokyo Rules), https://www.ohchr.org

1. **Nəzarət funksiyası** - probasiyanın ilkin və əsas funksiyası nəzarət etməkdir. Məhkəmə qərarına əsasən azadlıqdan məhrum edilməmiş şəxsin cəmiyyətdə qanunlara uyğun davranmasını təmin etmək məqsədilə onun davranışı, yaşayış yeri, sosial əlaqələri və məhkəmənin qoyduğu digər tələblərə riayət etməsi nəzarətdə saxlanılır. Avropa Probasiya Qaydalarına görə, nəzarət şəxsin hüquqlarını pozmadan və onun cəmiyyətə reinteqrasiyasına kömək edəcək şəkildə həyata keçirilməlidir.[99]

2. **Sosial adaptasiya və reabilitasiya funksiyası** - bu funksiya şəxsin psixososial mühitə uyğunlaşdırılması, ailə və əmək münasibətlərinin bərpası, sosial bacarıqların inkişafı, hüquqi və psixoloji dəstəyin göstərilməsi ilə əlaqəlidir. Tokio Qaydalarında göstərilir ki, alternativ tədbirlərin əsas məqsədi şəxsin cəmiyyətə reinteqrasiyasına kömək etməkdir.[100]

3. **Risk və ehtiyacların qiymətləndirilməsi funksiyası** - müasir probasiya xidmətləri risk dəyərləndirməsinə əsaslanmalıdır. Şəxsin yeni cinayət törətmə ehtimalı, kriminogen ehtiyacları (asılılıq, işsizlik, ailə problemi və s.), sosial riski və fərdi xüsusiyyətləri dəyərləndirilərək ona uyğun nəzarət və dəstək planı hazırlanır. Risk-ehtiyaclar-

[99] CM/Rec(2010)1 - Recommendation of the Committee of Ministers to member states on the Council of Europe Probation Rules, https://search.coe.int

[100] United Nations Standard Minimum Rules for Non-custodial Measures (The Tokyo Rules), https://www.ohchr.org

uyğunluq (Risk–Need–Responsivity) modeli bu funksiyanın elmi əsasını təşkil edir.[101]

4. Psixoloji, sosial və hüquqi xidmətlər göstərməklə **motivasiyaedici funksiyalar** - probasiya əməkdaşları nəzarətdə olan şəxslərə yalnız inzibati nəzarət deyil, eyni zamanda onları müsbət davranışlara təşviq edən psixoloji və sosial dəstək verməlidirlər. Bu funksiya vasitəsilə şəxs hüquqazidd davranışlardan uzaqlaşmağa təşviq edilir və şəxsi məsuliyyət hissi formalaşdırılır.

5**. Məhkəməyə və digər orqanlara məlumatvermə funksiyası** - probasiya xidmətləri şəxsin davranışı, qaydalara riayət etməsi və reinteqrasiya prosesi haqqında məhkəməyə hesabatlar təqdim edir. Bu məlumatlar şəxs barəsində əlavə hüquqi qərarların verilməsi üçün əsas olur (məsələn, şərti azadlıqdan azadetmə və ya azadlıqdan məhrumetməyə yenidən qaytarma məsələsində).

**6. Alternativ cəzaların icrası funksiyası -** probasiya xidməti şərti məhkumluq, ictimai işlər, azadlığın məhdudlaşdırılması və elektron nəzarət tədbirlərinin icrasına nəzarət edir. Bu, xidmətin hüquqi icra mexanizmlərini əhatə edən vacib funksiyadır.

7. **Maarifləndirmə və hüquqi tərbiyə funksiyası -** şəxsin hüquqi maariflənməsi, hüquqazidd davranışın nəticələrinin dərk edilməsi və hüquqi məsuliyyətin formalaşma-

---

[101] Andrews, D. A., & Bonta, J. (2010). The Psychology of Criminal Conduct. Routledge.

sı üçün probasiya əməkdaşları tərəfindən fərdi və qrup formatında maarifləndirmə işləri aparılır.

8**. Əmək bazarına inteqrasiya və sosial yönləndirmə -** bir çox xarici ölkələrdə (xüsusilə Norveç, Kanada, Almaniya) probasiya xidmətləri əmək bazarı ilə əməkdaşlıq edir, şəxsləri peşə hazırlığı və işlə təmin etmə proqramlarına yönləndirirlər. Bu funksiyanın əsas məqsədi şəxsi hüquqi və sosial cəhətdən müstəqil həyata qaytarmaqdır.

9. **Preventiv funksiya** - Cinayətkar davranışların qarşısını almaq. Probasiyanın preventiv (qarşısınıalma) funksiyası onun əsas sosial-hüquqi məqsədlərindən biridir. Bu funksiya cəzanın icrası və ya azadlıqdan məhrumetməyə alternativ tədbirlərin tətbiqi prosesində cinayətkar davranışın təkrarlanmasının (reoffending) qarşısını almağa, yəni profilaktik təsir göstərməyə yönəlir.

10. **Zərərçəkmiş şəxslərə yardım funksiyası.** Probasiya xidmətinin digər funksiyası cinayət nəticəsində zərərçəkmiş şəxslərə yardım göstərməkdən ibarətdir. Probasiya sahəsində tədqiqatşı X. Rivz qeyd edir ki, probasiya əməkdaşları zərərçəkmişlərdən və ya onların ailə üzvlərindən "törədilmiş cinayətə görə məhkum olunmuş şəxsin azadlığa buraxılmasının onlarda narahatlıq doğurub-doğurmadığını" öyrənməyə borcludurlar.[102] Qeyd olunmalıdır ki, bu gün əksər dünya ölkələrinin probasiya praktikasında zərərçəkmiş şəxslərlə iş probasiya xidmətlərinin diqqət ye-

[102]Ривз Х. Великобритания: забота о пострадавших // Преступление и наказание, 1993. №4/5.С. 45-50

tirməli olduğu mühüm məsələlərdən biri kimi nəzərdən keçirilir.

Bu funksiyaların yerinə yetirilməsi hüquqi və etik prinsiplərə əsaslanmalıdır ki, bu da probasiyanın effektivliyini və qanuniliyini təmin edir.

Beləliklə, probasiyanın funksiya və səlahiyyətləri məsələsinin təhlili onu deməyə əsas verir ki, probasiyanın nəzarət funksiyası ilə yanaşı, onun sosial adaptasiya və reabilitasiya funksiyasına xüsusi diqqətin ayrılması daha zəruri hesab edlilir.

### 3.3. Probasiya sahəsində rəqəmsallaşma və ya ENV-lərin tətbiqi problemləri

Dünya probasiya təcrübələrində Probasiya xidmətinin əsas səlahiyyətlərindən biri də elektron nəzarət vasitələrinin (ENV) tətbiqi, rəqəmsallaşma, elektron izləmə və monitorinqlərin həyata keçirilməsi ilə bağlıdır.

Hazırda AR Ədliyyə Nazirliynin Probasiya xidmətində bu funksiyaları ədliyyə nazirinin 4 oktyabr 2024-cü il tarixli əmrinə əsasən yenidən formalaşdırılmış **Rəqəmsal monitorinq idarəsi** həyata keçirir.

2018-ci ildən başlayaraq, elektron monitorinq cihazlarının (elektron qolbaqlar) tətbiqi ölkənin probasiya sistemində yeni mərhələ yaratdı. 2018-ci ilin yanvar ayında Azərbaycan istehsalı elektron qolbaqların sınaqları keçirildi. Nazirlər Kabinetinin 10 aprel 2018-ci il tarixli 144 saylı qərarı ilə elektron nəzarət cihazlarından istifadə qaydaları təsdiqləndi. 15 aprel 2018-dən etibarən bu cihazlar azadlı-

ğın məhdudlaşdırılması, şərti cəzalar, şərti azadlığa buraxılma hallarına tətbiq edilməyə başlanıldı.

AR Cəzaların İcrası Məcəlləsi (15-2-ci maddə) elektron nəzarət vasitələrinin tətbiqi xüsusiyyətlərini müəyyən edir. Həmin maddəyə əsasən ictimai işlər və azadlığın məhdudlaşdırılması növündə cəzaya məhkum edilmiş şəxslərə elektron nəzarət vasitələri tətbiq edilir. Məhkəmənin müəyyən etdiyi hallarda şərti məhkum edilmiş və ya cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş şəxslərə də elektron nəzarət vasitələri tətbiq edilir. Elektron nəzarət vasitələrinin siyahısı və tətbiqi qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir. Elektron nəzarət vasitələri tətbiq edilmiş məhkumun müəyyən edilmiş vəzifələri yerinə yetirməsinə nəzarət icra məmurları tərəfindən həyata keçirilir. Şəxsin üzərinə elektron nəzarət vasitəsini gəzdirmək və həmin vasitənin işlək vəziyyətdə saxlanılması üçün ona xidmət etmək vəzifəsi qoyulduqda, elektron nəzarət vasitəsi onun istifadəsinə verilir və ya üzərinə bağlanılır və həmin vasitənin işlək vəziyyətdə saxlanılması üçün ona xidmət qaydaları, hər hansı müdaxilənin, habelə elektron nəzarət vasitəsi şəxsin üzərinə bağlandıqda cihazın üzərindən çıxarılmasının yolverilməzliyi, həmçinin bu əməllərin hüquqi nəticələri izah edilir və bu barədə protokol tərtib edilir. Elektron nəzarət vasitəsi tətbiq edilmiş şəxs həmin vasitəni zədələdikdə və ya digər üsulla yararsız vəziyyətə saldıqda, onun dəyəri həmin şəxsdən tutulur.[103]

[103] https://e-qanun.az/framework/46951

Göründüyü kimi, Məcəllənin 15-2-ci maddəsi ENV-nin tətbiqini alternativ nəzarət və cəza-icra mexanizmi kimi tənzimləyir və bir neçə mühüm aspekti müəyyən edir: 1) ENV ictimai işlər və azadlığın məhdudlaşdırılması cəzalarına məhkum olunmuş şəxslərə tətbiq edilir. Bununla yanaşı, məhkəmənin qərarı ilə bu vasitələr şərti məhkum edilmiş və ya şərti olaraq vaxtından əvvəl azad edilmiş şəxslərə də şamil edilə bilər. Bu, məhkəməyə fərdiləşdirmə (differensiasiya) imkanı verir. 2) ENV-nin tətbiqinə icra (probasiya üzrə) məmurları nəzarət edir. 3) Maddənin şərhi göstərir ki, ENV ilə bağlı məsələ imperativ xarakter daşıyır. ENV şəxsin üzərinə bağlanarkən ona cihazın çıxarılmasının, müdaxilənin yolverilməzliyi, xidmət və istismar qaydaları, həmçinin pozuntuların hüquqi nəticələri izah olunur və bu barədə rəsmi protokol tərtib edilir. 4) Burada məsuliyyət məsələsi xüsusi önəm kəsb edir. ENV-yə vurulmuş ziyana görə yalnız maddi məsuliyyət müəyyən edilə bilər. Burada cinayət məsuliyyətinə cəlb edilmə istisna edilir. Əgər şəxs ENV-ni zədələyər və ya yararsız vəziyyətə salarsa, cihazın maddi dəyəri ondan tutulur. Bu, məsuliyyətin kompensasiya xarakterli (mülki-hüquqi) formasıdır.

Qeyd edilməlidir ki, ölkəmizdə tətbiq olunan bu yenilik Avropa Probasiya Qaydaları ilə də nəzərdə tutulur. Orada qeyd olunur ki, "texnoloji nəzarət vasitələri şəxsə müdaxilə səviyyəsini minimuma endirməli və səmərəliliyi artırmalıdır (Qayda 96)".[104] Statistikaya əsasən, 2019-cu

[104] CM/Rec(2010)1 - Recommendation of the Committee of Ministers to member states on the Council of Europe Probation Rules, https://search.coe.int

ilin əvvəlinə qədər 600-dən çox şəxs bu texnologiya ilə qeydiyyata alınmışdı.[105]

Lakin müasir dövrdə probasiya sahəsində ENV-lərin tətbiqi ilə bağlı məsələlərə daha həssas yanaşma müşahidə olunur.

Probasiya nəzarətində elektron qolbaq və digər monitorinq sistemlərinin tətbiqi bu gün geniş miqyas alsa da, probasiya mütəxəssisləri və alimlər bu vasitəni bir o qədər də effektiv hesab etmirlər. Bunun əvəzinə daha çox reabilitasiya funksiyasının tətbiqinin əhəmiyyətli olması fikri vurğulanır.

Birmingham Universitetinin professoru A.Hucklesby yazır ki, ənənəvi azadlıqdan məhrumetmə cəzasına alternativ kimi təqdim edilən ENV-lər bir çox hallarda daha humanist və az repressiv sanksiya kimi qiymətləndirilsə də, bu yanaşmanın reabilitasiya baxımından effektivliyini dəstəkləyən empirik sübutlar kifayət qədər deyil.[106] Əksinə, bəzi tədqiqatlar göstərir ki, elektron nəzarət sistemlərinin tətbiqi bərpaedici və reinteqrativ məqsədlərə zidd olaraq, nəzarətə əsaslanan yanaşmanı gücləndirir və reabilitasiya prosesini məhdudlaşdırır.[107] Dogrudan da, əgər

---

[105] Гумбатов, М.Г. Пробация в Азербайджанской Республике и перспективы ее развития / М.Г. Гумбатов // Уголовно-исполнительное право. – 2019. – Т. 14(1–4), № 2. – С. 170–174.

[106] Hucklesby, A. (2013). Electronically Monitored Punishment: International and Critical Perspectives. Routledge.; Nellis, M. (2009). Surveillance, Rehabilitation and Electronic Monitoring: Getting the Issues Clear. Criminology & Criminal Justice, 9(1), 103–123.

[107] Padgett, K. G., Bales, W. D., & Blomberg, T. G. (2006). Under Surveillance: An Empirical Test of the Effectiveness and

elektron qolbaq reabilitativ təsir göstərmirsə, o insan üçün daha çox "elektron həbsxana" effekti verəcəkdir. Bu səbəbdən də hesab edirik ki, ENV-lərin tətbiqi məhdud xarakter daşımalı və bu vasitə yalnız son zərurət olduğu hallarda tətbiq edilməlidir.

Unutmamalıyıq ki, probasiya sisteminin əsas məqsədi şəxsin cəmiyyətə yenidən uğurlu inteqrasiyasıdır. Əgər nəzarət vasitələri yalnız bu məqsədə xidmət edərsə məqbul sayıla bilər. Əks halda, texnologiya sadəcə hərəkət azadlığının məhdudlaşdırılması və ictimai stiqmanın güclənməsi vasitəsinə çevrilir. O zaman ENV-lər həqiqətən də **"elektron həbsxana" effekti** yaradacaq, probasiya nəzarətində olan şəxslər üçün stiqma və insan hüquqlarının məhdudlaşdırılması nəticələri doğura bilər.

Avropa Probasiya Qaydaları ENV-lərin istifadəsi ilə bağlı qeyd edilir: "Probasiya nəzarətinin bir hissəsi kimi elektron nəzarət tətbiq edildikdə, bu tədbir mütləq şəkildə məhkumun reabilitasiyasına yönəlmiş və yenidən cinayət törətmənin qarşısını almağa dəstək verən müdaxilələrlə birgə həyata keçirilməlidir. Tətbiq edilən texnoloji nəzarətin səviyyəsi törədilmiş cinayətin ağırlıq dərəcəsi və ictimai təhlükəsizlik üçün yarana biləcək risklər nəzərə alınmaqla, yalnız konkret hal üçün zəruri olan həddə müəyyən edilməlidir.[108]

Consequences of Electronic Monitoring. Criminology & Public Policy, 5(1), 61–91.

[108] Recommendation CM/Rec(2010)1, https://search.coe.int

Qeyd edək ki, Azərbaycanda 2017-ci ilin sonunda cəza sisteminə azadlığın məhdudlaşdırılması adlı yeni cəza növünün daxil edilməsi ilə bu cəza növünə münasibətdə ENV-lərin impertaiv qaydada tətbiqi də nəzərdə tutuldu.

Lakin, ölkəmizdə son bir ilin probasiya təcrübəsi sübut etdi ki, probasiya sistemində ENV-lərin geniş tətbiqi böyük maneələr yaratmışdır.

Birincisi, ENV-lərin geniş istifadəsi və onların istismarı böyük maliyyə resusrları tələb edir.  Xüsusilə, məhkəmələr tərəfindən ehtiyaclar və imkanlar nəzərə alınmadan ENV-lərlə bağlı məhkumlar üzərinə ümumi vəzifələrin qoyulması həm probasiya nəzarətini, həm də reabilitasiya işini səmərəsiz edir.

Prof. Mike Nellis qeyd edir ki, elektron nəzarət alətləri nə qədər texnoloji baxımdan inkişaf etmiş olsa da, onlar yalnız nəzarət funksiyasını yerinə yetirir, davranış dəyişikliyi və sosial inteqrasiya baxımından zəif təsirlidir.[109]

Həmçinin, ENV-lərin istifadə qaydalarının pozulması nəticəsində 2018–2025-ci illərdə məhkəmələrə azadlıqdan məhrumetmə cəzalarının digər cəza növləri ilə əvəz olunması barədə təqdimatların dinamik təhlili göstərir ki, ilkin illərdə görülən tədbirlər daha çox formal xarakter daşıyır, əsas diqqət isə cəzaların sərtləşdirilməsinə yönəlirdi. Belə ki, 2018-ci ildə məhkəmələrə 934 təqdimat daxil olduğu

[109] Nellis, M. (2006). "Surveillance, rehabilitation and electronic monitoring: Getting the issues clear." Criminology and Criminal Justice, 6(1), 81–97.

halda, 2023-cü ildə bu rəqəm 1.845-ə çatmışdır ki, bu da müraciətlərin sayında 97,54% artımı ifadə edir.

Bu mənada probasiya mütəxəssisləri Qraham və McIvor vurğulayırlar ki, elektron monitorinq cəzalandırıcı xarakter daşıdığı üçün şəxslərdə daxili motivasiya və məsuliyyət hissinin formalaşmasına deyil, əksinə, müvəqqəti uyğunlaşmaya səbəb olur.[110]

Hazırda ölkəmizdə yerli probasiya orqanlarının məhkəmələrə təqdim etdiyi materiallar fərdi qaydada araşdırılır; hər bir təqdimat göndərilməzdən öncə təhlil edilir, aşkar edilmiş pozuntuların səbəbi araşdırılır. Paralel olaraq, zərərçəkmişlərlə iş bacarıqlarının artırılması istiqamətində addımlar atılır, yerli polis orqanları, sosial və məşğulluq xidmətləri ilə əməkdaşlıq genişləndirilir, psixoloji dəstək xidmətlərindən fəal istifadə olunur.

Bu səbəbdən də hesab edirik ki, ilk növbədə ENV-lərin tətbiqi ilə bağlı xüsusi meyarlar əsasında bu vasitələr yalnız ehtiyaclara uyğun tətbiq olunmalıdır.

Bundan əlavə, ENV sistemləri yüksək maliyyə tutumu ilə yanaşı, texniki pozuntuların – məsələn, cihazın qüsurları və ya cüzi gecikmələr – hüquqi pozuntu kimi qiymətləndirilməsinə səbəb ola bilər ki, bu da şəxsin penitensiar müəssisəyə göndərilməsi ilə nəticələnir.[111] Bu hallar cinayət davranışının qarşısının alınması baxımından deyil, da-

[110] Graham, H. & McIvor, G. (2015). "Electronic Monitoring in the Criminal Justice System." European Journal of Probation, 7(2), 135–150.

[111] Martin, F., McLeod, K., & Price, D. (2009). Electronic Monitoring in Practice: Examining the Impact on Offender Rehabilitation. Criminal Justice Matters, 78(1), 12–13.

ha çox formal intizam tədbiri kimi çıxış edir və elektron nəzarətin məqsədyönlü tətbiqinə dair ciddi suallar doğurur.[112]

Bir sıra xarici ölkə alimlərinin əsərlərində elektron monitorinq sistemləri bəzən cəmiyyət üçün təhlükəli şəxslərin azadlıqdan məhrum edilmədən cəzalandırılması baxımından alternativ kimi təqdim olunsa da, onların reabilitasiya və sosial adaptasiya prosesində məhdud təsirə malik olduğu vurğulanır.

Bəzi alimlər isə qeyd edirlər ki, rəqəmsallaşma probasiya işçilərinin iş yükünü azaldaraq, resursların daha səmərəli istifadəsinə imkan verir.[113] Lakin hesab edirik ki, bütün hallarda reabilitasiya yanaşmasının üstünlükləri daha çoxdur. Bir sıra tədqiqatlar göstərir ki, strukturlaşdırılmış psixososial müdaxilələr, təlim və məşğulluq proqramları, ailə və sosial dəstəyin gücləndirilməsi kimi reabilitasiya yönümlü yanaşmalar təkrar cinayət riski üzərində daha dayanıqlı və müsbət təsir göstərir. Andrews və Bonta tərəfindən irəli sürülən Risk-Need-Responsivity (RNR) modeli reabilitasiya prosesində şəxsin risk səviyyəsi, ehtiyacları və öyrənmə üslubuna uyğun fərdi müdaxilələrin əhəmiyyətini göstərir.114 Farrall isə qeyd edir ki, sosial münasibətlə-

---

112 Hucklesby, A. (2011). Understanding Offenders' Compliance: A Case Study of Electronically Monitored Curfews. European Journal of Probation, 3(1), 36–52.
113 Knight, C. & Lightowler, C. 2010. Reflections on the Electronic Monitoring of Offenders, Scottish Journal of Criminal Justice
114 Andrews, D. A., & Bonta, J. (2010). The Psychology of Criminal Conduct. Routledge.

rin bərpası, məşğulluq imkanları və şəxsi agentlik hissinin formalaşması davranış dəyişikliyi üçün həlledici amillərdir və bu, yalnız elektron nəzarətlə mümkün deyil.[115]

M. Nellis hesab edir ki, ENV-nin məqsədəuyğunluğu fərdi risk və ehtiyac analizinə əsaslanmalıdır və bu texnologiya "hamıya" tətbiq edilməməlidir. Əksinə, şəxsin məhkumluq tarixçəsi, sosial dəstək şəbəkəsi, iş və təhsil imkanları, psixoloji vəziyyəti nəzərə alınmalıdır.[116]

Əlbəttə, ENV-lərin tətbiqi barədə beynəlxalq təcrübə, bu sahəyə aid müasir tələblər və standartlar da xüsusi önəm kəsb edir.

**Niderland və Norveç** kimi ölkələrdə probasiya nəzarətində elektron qolbaqlardan istifadə yalnız riskli hallarda tətbiq olunur. Əsas diqqət psixoloji dəstək, məşğulluq və sosial xidmətlərin göstərilməsinə yönəlmişdir.[117]

**İspaniya** nümunəsində ENV-lər xüsusilə ailədaxili zorakılıq üzrə qoruma məqsədilə istifadə olunsa da, tətbiqin effektivliyi və qiymətləndirilməsi ilə bağlı tənqidlər də mövcududr. Bu ölkədə qanun elektron izləməyə imkan

---

115 Farrall, S. (2002). Rethinking What Works with Offenders: Probation, Social Context and Desistance from Crime. Willan Publishing.

116 Nellis M. Standards and ethics in electronic monitoring. Handbook for professionals responsible for the establishment and the use of Electronic Monitoring, https://rm.coe.int

117 Van der Laan, P. (2014). "Rehabilitation in the Netherlands: Theory and Practice." European Probation Journal, 6(1), 45–61.

verir, amma tətbiq və qiymətləndirmə məsələləri də xüsusi əhəmiyyət kəsb edir.

**Böyük Britaniyada** isə pilot layihələrdə elektron monitorinqin reabilitasiya təsirinin aşağı olduğu və bu sistemin sadəcə "uzaqdan nəzarət" funksiyasını yerinə yetirdiyi müəyyən olunmuşdur. [118]

**ABŞ-da** ENV-lər qaydalara riayət etmə və yenidən cinayət törətmənin azaldılması baxımından faydalı hesab edilsə də, eyni zamanda stiqmatizasiya, maliyyə yükü və "kütləvi monitorinq" riski[119] baxımından tənqid edilir.

**Türkiyədə** məhkuma ENV tətbiq olunub-olunmaması barədə qərar Probasiya xidməti tərəfindən kollegial qaydada (Probasiya xidmətində təsis edilmiş Komissiya tərəfindən) qəbul edilir və bu zaman mövcud ENV-lərin sayı və risklər nəzərə alınır. Qeyd edək ki, bu təcrübə Azərbaycan probasiya sisteminə inteqrasiya olunarsa daha səmərəli nəticələr verə bilər.

Beləliklə, yuxarıdakı şərh və təhlillərdən **ENV-lərin tətbiqi ilə bağlı aşağıdakı model prinsiplərə** əsaslanmanı zəruri hesab edirik:

1) **ENV-lərin yalnız son çarə (son zərurət) olaraq və məhdud tətbiq edilməsi prinsipi.** Yəni, daha yüngül təsir tədbirləri, məsələn, təlimlər, məcburi müalicə, normal probasiya görüşləri və s. tükəndikdə və ya zəruri olduqda ENV-lər tətbiq edilə bilər.

---

[118] Padfield, N., & Dünkel, F. (2020). Release from Prison: European Policy and Practice. Willan Publishing.

[119] Electronic Monitoring Reduces Recidivism, https://www.ojp.gov

**2) Fərdi risk-ehtiyac analizinə əsaslanan qərar qəbulu prinsipi.** Məhkəmələr və ya probasiya qurumları tərəfindən qəbul edilən qərarlar strukturlaşdırılmış qiymətləndirmə vasitələri ilə sənədləşdirilməli və ENV-lər sosial reabilitasiya planı olmadan tətbiq edilməməlidir.

**3) İqtisadi səmərəlilik prinsipi.** Bütün hallarda ENV-nin tətbiqi əsaslı maliyyə resursları tələb edir. Eyni zamanda, beynəlxalq təcrübədə mövcud olan izləmə xərclərinin məhkumun üstünə qoyulması məsələsi də neqativ nəticələrə (aztəminatlı məhkumlara əlverişsiz olması səbəbindən) gətirib çıxarır.

**4) Elektron qolbaqlara alternativlərin müəyyən edilməsi prinsipi.** Müasir dövrdə daşınar elektron izləmə cihazlarına, GPS-lərə alternativlərin ( məsələn, radio tezlikli evdə saxlanma) axtarılıb tapılması və bu texnologiyaların qanunla tənzimlənməsi zəruri hesab edilir.

Fikrimizcə, qeyd edilən prinsiplərin qanunvericilikdə və təcrübədə nəzərə alınması həm ENV-nin "elektron həbsxana"ya çevrilməsinin qarşısını alar, həm də onların balanslı şəkildə və risklər nəzərə alınaraq tətbiqi imkanlarını şərtləndirmiş olar.

Azərbaycan təcrübəsində də ENV-lərin əsasən məhkumların məşğulluq imkanları ilə ziddiyyət təşkil etdiyini müşahidə etmək mümkündür. Elmi tədqiqatlar göstərir ki, xüsusilə, elektron nəzarət texnologiyaları qısa müddətli nəzarət vasitəsi kimi funksional olsa da, uzunmüddətli reinteqrasiya, ictimai uyğunlaşma və residiv riskinin azaldılması baxımından effektiv deyil. Bunun əvəzinə fərdiləş-

dirilmiş reabilitasiya planları, psixososial dəstək proqramları, ictimai xidmətlərə çıxışın artırılması daha dayanıqlı nəticələr verir.

Ona görə də hesab edirik ki, ölkəmizin probasiya sistemində də ENV-lərin tətbiqi yalnız əlavə nəzarət aləti kimi istifadə edilməsi, əsas diqqətin isə şəxsin sosial adaptasiya və reabilitasiya tədbirlərinə yönəldilməsi daha məqsədəmüvafiq olardı.

### 3.4. Probasiya nəzarətində olan şəxslərin hüquq və vəzifələri

Məhkumların, yəni probasiya nəzarətində olan şəxslərin hüquq və vəzifələri bilavasitə onlara probasiya nəzarətinin edilməsi və reabilitasiya tədbirlərinin tətbiqi zamanı meydana çıxan şərtləri özündə ehtiva edir.

Probasiya nəzarətinin üç əsas elementi fərqləndirilir:

1) Probasiya qeydiyyatında olan şəxslərin üzərinə qoyulmuş vəzifələrin yerinə yetirilməsinə nəzarət edilməsi;

2) Probasiya qeydiyyatında olan şəxslərin islah edilməsi;

3) Sosial adaptasiya və reabilitasiya tədbirlərinin görülməsi.

Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsi, Cinayət Məcəlləsi, Cinayət-Prosessual Məcəlləsi probasiya nəzarətinin hüquqi əsaslarını müəyyən edir. Probasiya nəzarəti – azadlıqdan məhrumetmə ilə əlaqədar olmayan cəza və ya digər hüquqi tədbirlərin icrasına nəzarət sistemidir.

Məhkumların hüquq və vəzifələrinin qorunması insan hüquqlarının təminatı baxımından mühüm əhəmiyyətə malikdir. Bu mənada biz araşdırmamıza beynəlxalq hüquq normalarından başlamağı məqbul hesab edirik.

BMT-nin 1990-cı il tarixli "Qeyd-şərtsiz azadlıqdan məhrumetməyə alternativ tədbirlər üzrə Standart Minimum Qaydaları" (Tokio Qaydaları) [120] probasiya, ictimai işlər, şərti azadlığa buraxılma və digər alternativ cəza tədbirləri çərçivəsində şəxslərin hüquq və vəzifələrini əhatə edir və cəza siyasətində humanist yanaşmanı təşviq edir.

Tokio Qaydaları məhkumların bir sıra əsas hüquqlarını tanıyır və qoruyur:

1. Hüquqi müdafiə və yardım almaq hüququ. Qayda 7-də qeyd olunur ki, alternativ tədbirlərin tətbiqi zamanı şəxslərə hüquqi yardım və ədalətli mühakimə hüququ təmin edilməlidir. Bu, insan hüquqları üzrə beynəlxalq sənədlərlə (məsələn, AİHM Konvensiyası, 6-cı maddə) tam uyğunluq təşkil edir.

2. Şəxsi toxunulmazlıq və şəxsi həyata hörmət hüququ. Qayda 1 və 5-ə əsasən, bütün tədbirlər insan ləyaqətinə hörmət əsasında həyata keçirilməli, şəxslər heç bir ayrı-seçkiliyə məruz qalmamalıdırlar. Bu müddəa penal humanizm ideyasını gücləndirir.[121]

---

[120] United Nations Standard Minimum Rules for Non-custodial Measures (The Tokyo Rules), https://www.ohchr.org

[121] Robinson, G. (2008). Probation, Human Rights and European Law. Willan Publishing.

3. Məxfilik və şəxsi məlumatların qorunması. Qayda 6-da göstərilir ki, məhkumların məlumatları yalnız qanuni əsaslarla istifadə olunmalı və şəxsin razılığı olmadan açıqlanmamalıdır. Bu, xüsusilə probasiya nəzarətində olan şəxslərin informasiya hüquqlarını qorumaq baxımından əhəmiyyətlidir.[122]

4. Reabilitasiya və reinteqrasiya hüququ. Qayda 10 və 17-yə əsasən, məhkumlara cəmiyyətə reinteqrasiya üçün dəstək göstərilməli, onlara təhsil, iş imkanları və sosial xidmətlərə çıxış təmin edilməlidir. Bu, cəzanın məqsədinin yalnız cəzalandırma deyil, eyni zamanda islah və yenidən sosiallaşma olduğunu göstərir.

5. Ədalətli münasibət və ləyaqətin qorunması. Hər bir nəzarətdə olan şəxsə hörmətlə yanaşılmalı və onun insan ləyaqəti qorunmalıdır.

6. Məlumat alma hüququ. Şəxs öz üzərinə qoyulmuş vəzifələr, sınaq müddəti və digər hüquqi nəticələr barədə məlumatlandırılmalıdır.

7. Avropa standartlarına uyğun olaraq, probasiya nəzarətində olan şəxslərə qarşı qeyri-insani və alçaldıcı davranışlar yolverilməz hesab olunur.[123]

Tokio Qaydaları təkcə hüquqları deyil, həm də məhkumların vəzifələrini nəzərdə tutur:

---

[122] Trotter, C. (2015). Working with Involuntary Clients: A Guide to Practice. Routledge.

[123] Van Zyl Smit & Snacken, "Principles of European Prison Law and Policy", 2009, p. 210

1. Qanuna və nəzarət orqanlarının göstərişlərinə əməl etmək. Qayda 13-də bildirilir ki, alternativ tədbirə məruz qalan şəxs özünə tətbiq edilən şərtlərə riayət etməli, nəzarət orqanlarının tələblərinə əməl etməlidir. Məsələn, probasiya nəzarəti altında olan şəxs öz proqramına uyğun davranmalıdır.

2. Cəmiyyətə qarşı məsuliyyət daşımaq. Cəzanın əsas funksiyalarından biri də ictimai məsuliyyət hissini formalaşdırmaqdır. Məhkumlar hüquqi və etik normalara uyğun davranmalı, cəmiyyətin rifahı naminə öz üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməlidirlər.[124]

3. Reabilitasiya proqramlarında iştirak. Qayda 12 və 16 probasiya və digər alternativ tədbirlərin icrası zamanı fərdlərin reabilitasiya proqramlarında fəal iştirak etmələrini tövsiyə edir. Bu, onların yenidən cinayət törətmə riskini azaltmağa yönəlmişdir.

Bundan əlavə, probasiya nəzarətində olan şəxslərin qanuni öhdəliklərinə daxildir:

- Qanunlara riayət etmək və yenidən cinayət törətməmək;
- Probasiya əməkdaşları ilə əməkdaşlıq etmək;
- Məhkəmə və ya probasiya orqanı tərəfindən müəyyən olunmuş şərtlərə (məsələn, qeydiyyata gəlmək, yaşayış yerini dəyişməmək və s.) əməl etmək;

[124] Bazemore, G., & Umbreit, M. (1995). Rethinking the Sanctioning Function in Juvenile Court: Retributive or Restorative Responses to Youth Crime. Crime & Delinquency, 41(3).

- Müəyyən fəaliyyətlərlə məşğul olmaq və ya məşğul olmamaq (alkoqol və narkotik istifadəsi, müəyyən şəxslərlə ünsiyyət və s.).

Bu vəzifələrin pozulması halında sanksiyalar tətbiq edilə bilər. Avropa təcrübəsində bu sanksiyalar "proqressiv cəza tədbirləri" prinsipi əsasında mərhələli şəkildə tətbiq olunur – xəbərdarlıqdan nəzarətin sərtləşdirilməsinə və nəticədə azadlıqdan məhrumetməyə qədər. [125]

Azərbaycan qanunvericiliyi də məhkumların hüquqları məsələsindən yan keçmir. Belə ki, Cəzaların İcrası Məcəlləsinin 10-cu maddəsinə görə, cəzaların icrası və çəkilməsi zamanı məhkumların əsas hüquqları aşağıdakılardır: 1. cəzanı insan şəxsiyyətinə hörməti təmin edən şəraitdə çəkmək; 2. ictimai faydalı əməklə məşğul olmaq; bədən tərbiyəsi və idmanla məşğul olmaq; 3. istirahət etmək; 4. pensiya və ya sosial müavinət almaq; 5. ilk tibbi yardım daxil olmaqla, tibbi rəydən asılı olaraq ambulator və ya stasionar şəraitdə tibbi yardım almaq; 6. öz hüquq və vəzifələri barədə, o cümlədən məhkəmə tərəfindən təyin edilmiş cəzanın icrası qaydası və şərtləri barəsində məlumat almaq; 7. hüquq və azadlıqlarının müdafiəsi üzrə Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada təklif, ərizə və şikayətlə dövlət dilində və ya başqa dildə müraciət etmək, zəruri hallarda isə bu məqsədlər üçün cəzanı icra edən müəssisə və ya orqan tərəfindən təqdim edilən tərcüməçi xidmətindən istifadə etmək; cəzanın icrası və çəkilməsi ilə əlaqədar barəsində qəbul edilən qərarlara dair öz rəyini bildirmək və ya onlardan şi-

[125] Robinson & Crow, "Offender Rehabilitation", 2009, p. 145.

kayət etmək; 8. dini ayinlərin icra edilməsində iştirak etmək; 9. hüquqi yardım almaq; "Psixoloji yardım haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada ödənişsiz psixoloji yardım almaq; 10. təhsil almaq və peşə hazırlığı keçmək; 11. əcnəbi, vətəndaşlığı olmayan və ya qaçqın statusuna malik olan məhkumların qısa müddətdə şəxsi məsələlər üzrə öz dövlətlərinin Azərbaycan Respublikasındakı diplomatik və konsulluq nümayəndəlikləri ilə və ya onlara himayədarlığı öz üzərinə götürmüş milli, yaxud beynəlxalq təşkilatlarla əlaqəyə girmək; 12. cəzanın çəkilməsinin təxirə salınması və ya onun ləğv edilməsi, xəstəliyə görə cəzanı çəkməkdən azad edilməsi, ittiham hökmünün icrası müddəti ilə əlaqədar cəza çəkməkdən azad edilməsi, cəzadan şərti olaraq vaxtından əvvəl azad edilməsi, cəzanın çəkilməmiş hissəsinin daha yüngül cəza növü ilə əvəz edilməsi, cəzaçəkmə müəssisəsinin növünün dəyişdirilməsi, amnistiyanın tətbiq edilməsi, müalicə müəssisəsində saxlanma vaxtının cəzaçəkmə müddətinə daxil edilməsi, məhkumluğun vaxtından əvvəl götürülməsi üçün ərizə ilə məhkəməyə, əfv edilmək üçün isə Azərbaycan Respublikasının Prezidentinə bilavasitə və ya qanuni nümayəndələrinin vasitəsilə, habelə yetkinlik yaşına çatmayan və ya fiziki pozuntulardan, yaxud psixi xəstəlikdən əzab çəkən məhkumlar barəsində isə onların müdafiəçilərinin və qanuni nümayəndələrinin vasitəsilə müraciət etmək.[126]

Məhkumların əsas vəzifələri isə bunlardır:

[126] Azərbaycan Respublikasinin Cəzalarin İcrasi Məcəlləsi, https://e-qanun.az/framework/46951

1. Məhkumlar Azərbaycan Respublikasının vətəndaşları üçün qanunvericiliklə müəyyən olunmuş vəzifələri yerinə yetirməli və cəmiyyətdə qəbul edilmiş müvafiq davranış normalarına riayət etməlidirlər.

2. Məhkumlar bu Məcəllənin, habelə ona uyğun qəbul edilmiş digər normativ hüquqi aktların tələblərinə riayət etməlidirlər.

3. Məhkumlar cəzanı icra edən müəssisə və ya orqanın işçi heyətinin qanuni tələblərini yerinə yetirməlidirlər.

4. Məhkumlar cəzanı icra edən müəssisənin işçi heyətinə və cəzaçəkmə müəssisəsinə baş çəkən şəxslərə, habelə digər məhkumlara qarşı nəzakətlə davranmalıdırlar.

5. Məhkumlar üzərinə düşən vəzifələri, habelə cəzanı icra edən müəssisə və ya orqanın işçi heyətinin qanuni tələblərini yerinə yetirmədikdə, qanunla müəyyən edilmiş qaydada məsuliyyətə cəlb olunurlar.

6. Məhkumlar "Azərbaycan Respublikasında dövlət daktiloskopik və genom qeydiyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş hallarda məcburi dövlət daktiloskopik və məcburi dövlət genom qeydiyyatından keçirilirlər.

Məhkumların hüquqları ilə bağlı bir sıra xarici ölkələrin qanunvericiliklərinə də diqqət yetirilməsi faydalı olardı.

Almaniyada probasiya nəzarətində olan şəxslərin hüquqları əsasən Federal Probasiya Qanunu ilə tənzimlənir. Burada probasiya xidmətlərində sosial yönümlü fəaliyyətlər və sosial hüquqlar üstünlük təşkil edir.

Fransada probasiya qurumları nəzarətlə yanaşı, sosial reabilitasiya və reinteqrasiya tədbirləri həyata keçirirlər.

Bu çərçivədə şəxslərə məşğulluq, psixoloji dəstək və sosial proqramlarda iştirak hüququ verilir.[127]

Məhkumların hüquq və vəzifələrinə münasibətdə Böyük Britaniyada Milli Probasiya Xidməti tərəfindən tənzimlənən sistemdə "Offender Management Act 2007" qanununa əsasən müəyyən edilir. Prof. P. Raynorun qeyd etdiyi kimi, bu ölkədə xidmət etikası, şəffaflıq və şəxsin fərdi xüsusiyyətlərinə uyğun nəzarət ön plana çəkilir.[128]

Hüquqların təminatı ilə vəzifələrin icrası arasında balansın qorunması, probasiyanın əsas məqsədi olan reabilitasiya və cəmiyyətə reinteqrasiyanın səmərəliliyini təmin edir. Hüquqların pozulması – məsələn, qeyri-müəyyən müddətli nəzarət, daim psixoloji təzyiq və şəffaf olmayan qərarlar – bu sistemə olan ictimai etimadı azaldır. Hüquq müdafiəçiləri və alimlər bu məsələdə şəffaf mexanizmlərin, effektiv şikayət prosedurlarının və alternativ tədbirlərin mövcudluğunu vacib hesab edirlər.

Beləliklə, probasiya nəzarətində olan şəxslərin hüquqları və vəzifələri onların reabilitasiyası və cəmiyyətə inteqrasiyası baxımından əsaslı hüquqi və praktik əhəmiyyətə malikdir. Azərbaycan qanunvericiliyi beynəlxalq standartlarla uyğunlaşdırılsa da, hüquqların icrası və nəzarət mexanizmlərinin səmərəliliyini artırmaq üçün institusional və metodoloji təkmilləşdirmələrə zərurət hələ də mövcuddur. Eyni zamanda, bu istiqamətdə beynəlxalq təcrübənin öyrənilməsi də faydalı ola bilər.

---

[127] Larrauri, E., "Probation in Europe", 2014

[128] Raynor, P., "Community Penalties", 2007

# IV FƏSİL

# PROBASİYA NƏZARƏTİNDƏ OLAN ŞƏXSLƏRİN SOSİAL ADAPTASİYA MƏSƏLƏLƏRİ

*4.1. Sosial adaptasiyanın anlayışı və mahiyyəti*
*4.2. Probasiya nəzarətində olan şəxslərin cəmiyyətə yenidən uyğunlaşması üçün dəstək strategiyaları və proqramları*
*4.3. Məhkumların cəmiyyətə reinteqrasiyası zamanı yaranan problemlər: stereotiplər və stiqmatizasiya (damğalama) problemi*
*4.4. Azərbaycan probasiya fəaliyyətində sosial adaptasiya yeni trend kimi*

## 4.1. Sosial adaptasiyanın anlayışı və mahiyyəti

Probasiya nəzarətində olan şəxslərin cəmiyyətə inteqrasiyası müasir cinayət və cəza-icra hüququnda və siyasətində əsas hədəflərdən biridir. Sosial adaptasiya bu prosesin əsas komponenti olaraq qəbul edilir. Bu paraqrafda sosial adaptasiyanın anlayışı, onun psixoloji, hüquqi və institusional aspektləri təhlil edilir, həmçinin beynəlxalq sənədlərə və xarici elmi mənbələrə istinad edilməklə, Azərbaycan elmi üçün yeni olan bu elmi paradiqmalara aydınlıq gətirilir.

***Terminologiya:*** İlk növbədə, "sosial adaptasiya" termininin məna yükünə diqqət yetirmək faydalı olardı. **Sosial adaptasiya** *(latın mənşəli "adaptatio" sözündən götürülüb "uyğunlaşma" deməkdir)* **fərdin və ya kollektivin sosial**

**mühitə inteqrasiyasını ifadə edir.**[129] Bu anlayışın geniş tətbiq sahəsi insan həyatının müxtəlif aspektlərinə təsir edir və cəmiyyətin davamlı inkişafı üçün mühüm rol oynayır.

Maraqlıdır ki, "sosial adaptasiya" anlayışı ilk dəfə biologiyada istifadə olunmuş, daha sonra psixologiya, sosiologiya və hüquq elmlərinə daxil edilmişdir. Bu müstəvidə sosial adaptasiya yalnız fərdin yox, həm də sosial qrupların və icmaların müxtəlif sosial reallıqlara uyğunlaşmalarını ifadə edir.

**Sosial adaptasiya nəzəriyyəsi** XIX əsrin sonlarında E. Durkheim, G. Tarde və M. Veber kimi sosioloqların əsərlərində geniş işıqlandırılmışdır**.** Bu dövrün sosioloqları sosial normaların və cəmiyyətin strukturunun fərdlərin adaptasiyasına necə təsir etdiyini öyrənməyə başladılar. XX əsrdə isə bu konsepsiya sosial psixologiya və sosial iş sahələrində daha dərin təhlil olunmuşdur. Bu sahələrdə sosial adaptasiyanın fərdin həm psixoloji inkişafına, həm də sosial reallıqlara uyğunlaşmasına təsiri araşdırılmağa başlanmışdır.

**Sosial adaptasiya, fərdin və ya kollektivin sosial mühitə uyğunlaşma prosesini ifadə edən geniş və çoxşaxəli bir anlayışdır.** Bu anlayış həm şəxsi inkişaf, həm də sosial münasibətlərin təşkili baxımından mühüm əhəmiyyət kəsb edir. **Bu proses insanın özünü cəmiyyətin sosial norma və dəyərlərinə uyğunlaşdırmasını, həyatını təşkil**

---

[129] Parsons, T. (1951). The Social System. Glencoe, IL: Free Press.

**edən sosial mühitə və onun tələblərinə cavab verməsini təmin edir.** Bu cür uyğunlaşma yalnız sosial mühitə adaptasiya deyil, həm də fərdin bu mühitdəki yerini tapması və özünü qəbul etdirə bilməsi ilə bağlıdır. **Sosial adaptasiya həm fərdin sosial əlaqələrini qurmaq, həm də bu əlaqələri idarə etmək və yeni sosial vəziyyətlərə uyğunlaşma qabiliyyətinin inkişaf etdirilməsi prosesini əhatə edir.** Bu halda, fərdin mövcud şərtlərə uyğunlaşması həm onun həyat keyfiyyətini artırır, həm də cəmiyyətin sosial təbəqələşməsi üçün vacibdir.

**Sosial adaptasiya** - fərdin sosial mühitə aktiv uyğunlaşma prosesi, şəxsiyyətin və sosial qrupun qarşılıqlı əlaqəsi şəklində həyata keçir. Bu prosesin dinamizmi, fərdin mühitə təsir etmək bacarığını və cəmiyyətin ona verdiyi təzyiqləri nəzərə alaraq formalaşır. Sosial adaptasiyanın mühüm komponentləri bunlardır: fərdin qiymətləndirmələrinin, iddialarının, şəxsi imkanlarının (real və potensial səviyyə) ətraf mühitin xüsusiyyətləri ilə uyğunlaşdırılması; şəxsiyyətin məqsəd və dəyərləri ilə bu məqsəd və dəyərlərin müəyyən bir sosial mühitdə reallaşdırılma qabiliyyəti.[130] Bu komponentlər arasında uyğunluq əldə edildikdə, fərdin cəmiyyətdəki yeri möhkəmlənir və sosial münasibətlərdəki yerini daha düzgün seçə bilir.

[130] Bonta, J., & Andrews, D. A. (2017). The Psychology of Criminal Conduct (6th Edition). Routledge.

**Cədvəl 1: Sosial adaptasiyanın komponentləri**

| Komponentlər | Təsvir |
|---|---|
| Şəxsi və sosial imkanların qiymətləndirilməsi | Şəxsin öz imkanlarını sosial mühitin tələblərinə uyğun qiymətləndirməsi |
| Şəxsiyyətin məqsəd və dəyərləri | Şəxsin sosial norma və dəyərlərə uyğunlaşma qabiliyyəti |

Sosiallaşma prosesinin mahiyyəti ondadır ki, bu prosesdə insan aid olduğu cəmiyyətin bir üzvü kimi formalaşır. Bu şəkildə sosial adaptasiya və sosiallaşma bir-birini tamamlayan iki mühüm prosesdir. Sosial adaptasiya bu kontekstdə şəxsiyyətin bu prosesə daxil olma dərəcəsinin bir göstəricisi kimi nəzərdən keçirilə bilər. Çünki hər bir fərd cəmiyyətə daxil olmaq və onun normalarına uyğunlaşmaqla öz sosial şəxsiyyətini formalaşdırır. Adaptasiya sosiallaşmanın bir tərəfi olaraq, hər bir fərdin böyüməsi və inkişafı zamanı mütləq keçirdiyi bir mərhələdir. Bu mərhələlər, şəxsi inkişafın müxtəlif səviyyələrində baş verir və hər mərhələ, fərdin sosial mühitə uyğunlaşma qabiliyyətini artırır.

Sosial adaptasiya sosiologiyada geniş şəkildə tədqiq edilən və müxtəlif nəzəri yanaşmalar əsasında izah edilən mühüm anlayışlardan biridir. Adaptasiya fərdin və ya qrupun sosial mühitin tələblərinə uyğunlaşması prosesidir və bu prosesin mahiyyəti sosioloji məktəblər tərəfindən müxtəlif aspektlərdən şərh edilmişdir.

Klassik sosioloji nəzəriyyələrdə sosial adaptasiyanın ilkin izahı Emil Durkheim və Maks Veber kimi alimlərin əsərlərində öz əksini tapmışdır. Durkheim sosial normaların və kollektiv şüurun adaptasiya və sosial stabilliyin formalaşmasında əsas rol oynadığını qeyd etmişdir. O, cəmiyyətin normativ sisteminin fərdlərin davranışlarını yönləndirdiyini və bu sistemin sosial uyğunlaşma üçün zəruri olduğunu vurğulamışdır.[131] Veber isə sosial adaptasiyanı fərdlərin məqsədyönlü fəaliyyətləri ilə əlaqələndirmiş, insanların rasional seçimlərə əsaslanaraq, məqsədlərinə çatmaq üçün resursları optimallaşdırmağa çalışdıqlarını bildirmişdir.[132]

XX əsrdə bu sahədə aparıcı tədqiqatçılardan biri olan Talcott Parsons sosial adaptasiyanı **funksionalist nəzəriyyə** çərçivəsində şərh etmişdir. O, fərdin cəmiyyətin dəyərlərini və normalarını mənimsəməsini, sosial sistemin davamlılığı üçün vacib bir mexanizm kimi dəyərləndirmişdir. Parsons adaptasiyanı sosial sistemin funksional alt sistemlərindən biri kimi təsvir edərək, onun sistem daxilindəki sabitliyi və tarazlığı təmin etdiyini göstərmişdir.[133]

Digər mühüm müasir yanaşmalardan biri Alvin Toffler tərəfindən irəli sürülmüşdür. Toffler **"gələcək şok"** (future shock) nəzəriyyəsini təqdim edərək, insanların yalnız mövcud dəyişikliklərə deyil, həm də sürətlə dəyişən gələ-

---

131 Durkheim, É. (1893). De la division du travail social. Paris: Alcan.

132 Weber, M. (1922). Wirtschaft und Gesellschaft. Tübingen: Mohr Siebeck.

133 Parsons, T. (1951). The Social System. Glencoe, IL: The Free Press.

cək şəraitə adaptasiya olunmasının zəruriliyini bildirmişdir. Onun fikrincə, adaptasiya prosesi təkcə keçmiş və indiki şəraitə uyğunlaşmanı deyil, həm də gələcək dəyişikliklərə hazırlıq mərhələsini əhatə etməlidir.[134]

Sosial adaptasiya ilə bağlı diqqətəlayiq nəzəriyyələrdən biri də Robert K. Mertonun **anomiya və sosial struktur nəzəriyyəsidir**. Merton cəmiyyətin təklif etdiyi məqsədlərlə həmin məqsədlərə çatmaq üçün mövcud vasitələr arasında uyğunsuzluğun fərqli adaptasiya strategiyalarına səbəb olduğunu qeyd etmişdir. O, bu strategiyaları beş əsas kateqoriyaya bölmüşdür: konformizm, innovasiya, ritualizm, retrizm (geri çəkilmə) və üsyan. Bu model adaptasiyanın sosial struktur və fərdi motivasiyalar arasında qarşılıqlı təsir nəticəsində formalaşdığını izah edir.[135]

Nəticə etibarilə, sosial adaptasiya fərdin cəmiyyətlə qarşılıqlı əlaqəsinin dinamik bir formasını təşkil edir. Bu proses təkcə fərdi inkişafı deyil, həm də cəmiyyətin stabilliyi və davamlılığını təmin edən mühüm mexanizmdir. Müxtəlif nəzəri yanaşmalar adaptasiyanın fərqli aspektlərini ön plana çıxararaq, onun mürəkkəb və çoxşaxəli xarakterini nümayiş etdirir.

Sosial adaptasiya zəngin məzmunlu bir fenomendir və bu həm şüur səviyyəsində, həm də davranış səviyyəsində özünü göstərir. Şüur səviyyəsində sosial adaptasiya ətrafdakı reallığın hissiyyat və zehni obrazlar formasında əks

---

[134] Toffler, A. (1970). Future Shock. New York: Random House.
[135] Merton, R. K. (1938). Social Structure and Anomie. American Sociological Review, 3(5), 672–682.

olunmasını təmsil edir. Bu zaman şüurun selektivliyi və cəmiyyətin qəbul etdiyi dəyərlərə əsaslanaraq fərdin bu dəyərlərə yönəlməsi müşahidə edilir. Sosial adaptasiyanın bu aspekti ümumilikdə insanın öz bacarıqlarını qiymətləndirməsi, gözləntilərinin dinamikası və bu gözləntilərin təmin olunması imkanları ilə əlaqəlidir.

Sosial adaptasiya ixtisaslaşmış probasiya qurumlarının da açar prinsiplərindən hesab edilir. CEP-in standartlarında göstərilir ki, probasiyanın məqsədi yalnız nəzarət deyil, şəxsin müsbət sosial davranış modelini inkişaf etdirməsidir.[136]

Fikrimizcə, **sosial adaptasiya** – fərdin cəmiyyətin sosial norma və dəyərlərinə uyğunlaşması, sosial rolları mənimsəməsi və konstruktiv sosial əlaqələr qurmaq qabiliyyətidir. Probasiya nəzarətində bu, əsasən aşağıdakı sahələri əhatə edir: davranışın dəyişməsi və sosial rolların qəbulu, ailə və sosial mühitlə əlaqələrin bərpası, təhsil və məşğulluq imkanlarına çıxış, ictimai xidmətlərdən yararlanma bacarığı, sosial və psixoloji dəstəyə açıq olmaq.

***Sosial adaptasiyanın funksiyaları:*** Sosial adaptasiya müxtəlif funksiyaları yerinə yetirir və bunlardan biri sosial hərəkətlilik mexanizmlərinin formalaşdırılmasıdır. Bu, fərdin sosial mühitdə öz mövqeyini dəyişdirə bilməsi və müxtəlif sosial qruplarda daha yüksək status əldə etməsi ilə əlaqədardır. Sosial hərəkətlilik həm fərdin inkişafını, həm də cəmiyyətin ümumi stabilliyini təmin edir. Aşağı-

[136] Strategy and Objectives 2018-2021, https://www.cep-probation.org/wp-content/uploads/2021/07/3-year-strategy.pdf

dakı cədvəl sosial adaptasiyanın əsas funksiyalarını və onların cəmiyyət və fərd üçün əhəmiyyətini göstərir:

**Cədvəl 2: Sosial adaptasiyanın əsas funksiyaları**

| Funksiya | Təsviri |
|---|---|
| **Sosial hərəkətlilik** | Sosial adaptasiya insanlara sosial mövqelərini dəyişmək imkanı verir və bu, həm fərdi, həm də sosial inkişaf üçün vacibdir. |
| **Fərdi maraqların həyata keçirilməsi** | Fərd sosial mühitin dəyişən şərtlərinə uyğun olaraq öz maraqlarını həyata keçirir və bu, cəmiyyətin stabilliyi və inkişafı üçün mühüm rol oynayır. |

Hüquq elmlərində sosial adaptasiya, cinayət törətmiş şəxslərin, keçmiş məhkumların və digər həssas qrupların yenidən cəmiyyətə inteqrasiyası kontekstində mühüm yer tutur. Hüquqi baxımdan bu proses, reabilitasiya proqramları, probasiya xidmətləri və sosial müdafiə tədbirləri vasitəsilə dəstəklənir.

Sosiologiyada isə sosial adaptasiya fərdin sosial struktur və institusiyalara uyğunlaşmasını ifadə edir. Burada əsas vurğulanan məqam fərdin sosial rolları qəbul etməsi, norma və dəyərləri mənimsəməsi və yeni sosial mühitlərə uğurla inteqrasiya olunmasıdır. Sosioloqlar sosial adaptasiyanı əsasən iki aspektdə qiymətləndirirlər:

1) **Fərdi sosial adaptasiya** – fərdin fərdi xüsusiyyətlərinə, bacarıqlarına və sosial kapitalına əsaslanaraq cəmiyyətə uyğunlaşma prosesi;

2) **Kollektiv sosial adaptasiya** – sosial qrupların və icmaların sosial sistemlərə inteqrasiyasını nəzərdə tutur.

***Fərdi sosial adaptasiya*** insanın şəxsiyyətinin, sosial norma və dəyərlərlə uyğunlaşmasını və onun davranışlarının cəmiyyət tərəfindən qəbul edilməsini təmin edən bir prosesdir. Bu yanaşmada, fərdin yeni mühitə və ya yeni şəraitə uyğunlaşma qabiliyyəti, onun sosial cəhətdən necə qəbul edildiyi və bu adaptasiya prosesindəki uğurları önəmli faktorlar hesab olunur.

***Kollektiv sosial adaptasiya*** isə daha geniş bir konsepsiyadır və müxtəlif sosial qrupların (ailə, işçi qrupları, müxtəlif sosial təbəqələr və s.) ümumi sosial mühitlə uyğunlaşmasını nəzərdə tutur. Bu, eyni zamanda fərdlərin bir-biri ilə əlaqə qurduğu və qarşılıqlı təsir göstərdiyi bir mühitdə cəmiyyətin sosial strukturlarına uyğunlaşma prosesini əhatə edir. Bu mənada, fərdi və kollektiv sosial adaptasiya bir-birindən ayrılmaz şəkildə uzlaşır və bir-birini tamamlayır. Fərdlərin sosial mühitə uyğunlaşması ilə qrupların sosial strukturlara inteqrasiyası arasında qarşılıqlı təsir mövcuddur. Məhz bu qarşılıqlı əlaqə, sosial adaptasiya fenomeninin yalnız nəzəri deyil, eyni zamanda praktik həyatın müxtəlif sahələrində fərqli təzahür formalarına malik olduğunu göstərir.[137]

Sosial adaptasiya, yalnız adi həyat kontekstində deyil, həm də sosial marjinallaşmaya məruz qalmış qrupların –

[137] Parsons, T. (1951) The Social System. Free Press, New York.

məsələn, cinayət törətmiş şəxslərin – cəmiyyətə qaytarılması kontekstində də aktualdır.

Bu baxımdan, sosial adaptasiyanın konkret tətbiq sahələrindən biri də cinayət törətmiş və cəmiyyətdən müəyyən dövr üçün ayrılmış fərdlərin – yəni keçmiş məhkumların – yenidən sosial həyata inteqrasiyasıdır.

Sosial adaptasiya, məhkumların cəmiyyətdə uğurlu reinteqrasiyasının vacib bir elementidir. Azadlığa çıxan məhkumlar yalnız öz həyatlarını bərpa etmək və sosial əlaqələrini yenidən qurmaqla kifayətlənmirlər, eyni zamanda cəmiyyətə uyğunlaşmaq və yeni şəraitdə öz mövqelərini tapmaq üçün müxtəlif çətinliklərlə üzləşirlər. Məhkumların bu prosesdə sosial adaptasiya bacarıqları onların gələcəkdəki davranışlarını müsbət şəkildə dəyişdirir və onlara daha sağlam, cəmiyyətə inteqrasiya olmuş bir həyat tərzi təmin edir.

Azadlığa çıxmış bir şəxs, ilk növbədə iş tapmaqda çətinliklərlə üzləşə bilər. Cəza müddətindən sonra əmək bazarına reinteqrasiya etmək, xüsusilə əvvəlki iş təcrübəsi və sosial əlaqələrdən məhrum olan şəxslər üçün olduqca çətindir. Məsələn, həbsdə olan bir şəxs azadlığa çıxdıqda, cəmiyyətin ona qarşı göstərdiyi mənfi münasibət və işə qəbul olunmada qarşılaşdığı çətinliklər onu sosial mövqeyinə və gələcəyinə qarşı narahat edər. Bu halda sosial adaptasiya, məhkumun iş tapmasına dəstək olmaq, yeni bacarıqlar qazandırmaq və onu əmək bazarına daxil etmək üçün vacibdir.

Eyni zamanda, məhkumun ailə ilə münasibətləri də cəmiyyətə uyğunlaşması prosesində əhəmiyyətli rol oynayır. Bir çox hallarda, məhkumlar uzun müddət ailə üzvlərindən ayrı qalır və bu ayrılıq onların ailə ilə əlaqələrinin zədələnməsinə səbəb ola bilər. Azadlığa çıxdıqda, məhkum özünü ailəsinə yenidən uyğunlaşdırmaqda çətinlik çəkə bilər. Bu məsələnin həlli üçün sosial adaptasiya proqramları, ailə dəstəyi və müvafiq psixoloji dəstək çox önəmlidir.

Bundan əlavə, azadlığa çıxmış məhkumların psixoloji sabitliyini təmin etmək də sosial adaptasiyanın mühüm aspektlərindəndir. Uzun müddət həbsdə olan şəxs, azadlığa çıxdıqda stress, depressiya və digər emosional narahatlıqlarla qarşılaşa bilər. Bu psixoloji vəziyyətin idarə edilməsi üçün sosial reabilitasiya və psixoloji dəstək xidmətləri vacibdir. Bu xidmətlər məhkumun cəmiyyətə uyğunlaşmasına kömək edir, özünə inamını bərpa edir və yeni həyat qurmasına dəstək olur.

Məhkumların cəmiyyətə adaptasiyası yalnız onların azadlığa çıxmalarını deyil, həm də sosial mövqelərini bərpa etmələrini və yeni şəraitə uyğunlaşmalarını əhatə edir. Sosial adaptasiya proqramları, onların cəmiyyətə inteqrasiyasını təmin edir və bu prosesin müsbət nəticələri məhkumların gələcəkdə daha az cinayətə meyilli olmasına gətirib çıxarır.

Probasiya nəzarətində olan şəxslərin sosial adaptasiyasına nəzarət etmək üçün bir sıra metodlar və yanaşmalar mövcuddur:

**Sosial dəstək proqramları**: Probasiya orqanları, məhkumlara psixoloji, sosial və emosional dəstək göstərir. Bu dəstək, məhkumların daha asan adaptasiya olmalarına kömək edir.

**Sosial bacarıqların inkişafı**: İş bacarıqları, ünsiyyət və sosial əlaqə qurma bacarıqlarının inkişaf etdirilməsi, məhkumların cəmiyyətə uyğunlaşmasını təmin edir.

**Monitorinq və nəzarət**: Probasiya nəzarətində olan şəxslərin sosial adaptasiyasını izləmək və uyğun davranışları təşviq etmək məqsədilə monitorinq sistemi və qiymətləndirmə prosesi həyata keçirilir.

**Bərpaedici ədliyyə proqramları**: Məhkumların zərərçəkmiş şəxslərlə münasibətlərini bərpa etmələri və cəmiyyətə müsbət reinteqrasiyalarını təmin etmək üçün bərpaedici ədliyyə proqramları da tətbiq edilir.[138] Bərpaedici ədliyyə proqramları barədə növbəti paraqraflarda ətraflı bəhs ediləcəkdir.

Bu metodlar və yanaşmalar sosial adaptasiya prosesində məhkumlara cəmiyyətə daha yaxşı uyğunlaşmanın təmin olunması üçün vacibdir. Bu yanaşmalar yalnız nəzəri çərçivə ilə məhdudlaşmır, eyni zamanda praktiki tədbirlər və hüquqi mexanizmlərlə dəstəklənir. Cəmiyyətə reinteqrasiya olunan fərdlər üçün bu metodlar, onların hüquqlarının qorunması və sosial funksiyalarının bərpası baxımından əsaslı alətlər hesab olunur.

---

[138] Taxman, F. S. (2008). The role of community supervision in promoting offender rehabilitation. Justice Quarterly, 25(3), 508-536.

Sosial adaptasiya məhkumların reabilitasiyasında əsas istiqamətlərdən biri olaraq, onların cəmiyyətə yenidən inteqrasiyasını təmin etmək məqsədini güdür. Azərbaycan Respublikasının "Penitensiar müəssisələrdə cəza çəkmək-dən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında" Qanununun 4-cü maddəsinə əsasən, bu proses qanunçuluq, humanizm, sosial ədalət, ünvanlılıq və könüllülük prinsiplərinə əsaslanır.[139] Bu prinsiplər məhkumların azadlığa çıxışlarından sonra cəmiyyətə uyğunlaşmalarını asanlaşdıran hüquqi və sosial çərçivəni təmin edir. Lakin məhkumların sosial adaptasiya problemi onların azadlığa çıxdıqdan sonra cəmiyyət tərəfindən qəbul edilməməsi, iş tapmaqda çətinlik çəkməsi və sosial təcrid yaşaması ilə bağlıdır. Bu çətinliklər, cəzanı çəkmiş şəxslərin sosial inteqrasiyasını əngəlləyir və onların yenidən cinayətə meyil etmə riskini artırır.

Məhkumların sosial adaptasiyasının effektiv olması üçün aşağıdakı tədbirlər həyata keçirilməlidir:

**- Psixoloji dəstək proqramları** – keçmiş məhkumların emosional sabitliyini təmin etmək və onların cəmiyyətə uyğunlaşmasına kömək etmək;

**- Peşə təlimləri və iş imkanlarının genişləndirilməsi** – məhkumların iş tapmaq şanslarını artırmaq və sosial təminatlarını gücləndirmək;

**- Sosial işçilər və Probasiya xidmətinin iştirakı** – sosial işçilər və probasiya məmurları məhkumların reabilitasi-

[139] https://e-qanun.az/framework/13556

yasında mühüm rol oynayır, onların sosial mühitə uyğunlaşmasını izləyir və dəstək mexanizmlərini işə salır.

Birləşmiş Krallıqda aparılan tədqiqatlar göstərir ki, probasiya xidmətlərinin gücləndirilməsi və fərdi reabilitasiya proqramlarının tətbiqi məhkumların yenidən cinayət törətmə riskini azaldır. ABŞ-ın Milli Ədliyyə İnstitutunun (National Institute of Justice) araşdırmaları isə peşə bacarıqlarının artırılması və psixoloji dəstəyin təkrar cinayətkarlığın qarşısının alınmasında təsirli olduğunu sübut etmişdir.

İsveç və Almaniyada isə sosial reabilitasiya proqramları məhkumların cəmiyyətə inteqrasiyasını asanlaşdıran əsas vasitələrdən biri kimi qiymətləndirilir. Məsələn, İsveç Kriminoloji İnstitutu tərəfindən aparılan araşdırmalar probasiya xidmətlərinin sistematik tətbiqinin cinayət hallarını azaltdığını göstərmişdir.[140]

Farrall qeyd edir ki, yalnız formal nəzarət şəxsin sosial qaydalara uyğun yaşamasını təmin etmir; adaptasiya üçün sosial əlaqələr, ailə dəstəyi və gələcək ümidləri də vacibdir. O göstərir ki, sosial adaptasiya yalnız dövlət müdaxiləsi ilə deyil, şəxsin özünü təsdiq imkanları ilə də bağlıdır.[141]

Norveçdə probasiya proqramlarında sosial adaptasiya əsas fokuslardan biridir. Məhkumlarla sosial işçilər, psixoloqlar və təhsil mütəxəssisləri işləyərək onların sosial ba-

[140] Swedish National Council for Crime Prevention, 2015

[141] Farrall, S. (2002). Rehabilitation, Reoffending, and Probation. British Journal of Criminology, 42(3), 487-508.

carıqlarını inkişaf etdirir və adaptasiyasına yardım edir Finlandiyada sosial adaptasiya üçün ictimai iş, təhsil və ailə terapiyası mexanizmləri tətbiq olunur.

Sosial adaptasiya, yalnız fərdin cəmiyyətin gözləntilərinə uyğunlaşması deyil, həm də onun şəxsi inkişafını və emosional rifahını təmin edən bir prosesdir. Bu, cəmiyyətdəki sosial strukturlar və mədəniyyətlərlə uyğunlaşmaq, fərdin öz şəxsiyyətini və sosial rolunu tapması, həmçinin sosial əlaqələrini müsbət şəkildə qurmaq qabiliyyətini əhatə edir. Sosial adaptasiya prosesinin uğuru həm fərdi, həm də kollektiv səviyyədə, sosial mühitin müxtəlif təbəqələrinin qarşılıqlı təsirinə və bu mühitlərə uyğunlaşma qabiliyyətinə bağlıdır.

Bu kontekstdə sosial adaptasiya təkcə fərdin daxil olduğu sosial sistemlə uyğunlaşmasını deyil, həm də onun həmin sistemin aktiv üzvünə çevrilməsini təmin edən kompleks bir transformasiya prosesidir.

Adaptasiya yalnız sosial qaydalara tabe olmaq deyil, həm də sosial strukturda özünə yer tapmaq və bu struktura töhfə vermək bacarığıdır.

Fərdin sosial adaptasiyasının müsbət nəticələri, yalnız onun sosial və şəxsi rifahına deyil, həm də cəmiyyətin ümumi sosial harmoniyasına töhfə verir. Məhkumların cəmiyyətə reinteqrasiyası bu baxımdan mühüm rol oynayır. Məhkumlar azadlığa çıxdıqdan sonra sosial uyğunlaşma prosesini uğurla həyata keçirə bilsələr, yalnız öz rifahlarını deyil, həm də cəmiyyətin sosial harmoniyasına və cinayətkar davranışlardan uzaqlaşmasına kömək etmiş olur-

lar. Bu, sosial təhlükəsizliyin artmasına və cəmiyyətin sağlam quruluşunun yaranmasına səbəb olur. Lakin bu proses öz-özlüyündə baş vermir; onun baş verməsi üçün sosial adaptasiyanın strukturları və mərhələləri nəzərə alınmalı və fərdin cəmiyyətə inteqrasiyası elmi əsaslarla dəstəklənməlidir.

Bu kontekstdə sosial adaptasiya yalnız passiv uyğunlaşma deyil, eyni zamanda aktiv sosial iştirak və strukturla əlaqə prosesidir.

Məhkumların cəmiyyətə yenidən inteqrasiyasının uğurlu həyata keçirilməsi üçün, sosial adaptasiyanın sistemli mərhələləri və funksional komponentləri əsas rol oynayır.

**Sosial adaptasiya və inteqrasiya.** Sosial adaptasiya prosesində fərdin və ya kollektivin sosial mühitə inteqrasiyası əsas rol oynayır. Məhkumlar azadlığa çıxdıqdan sonra onların cəmiyyətə inteqrasiyası cəmiyyətin sosial, iqtisadi, mədəni və hüquqi strukturlarına uyğunlaşma başlayır. Məsələn, bir məhkum azadlığa çıxdıqda, cəmiyyətin gözləntilərinə və normativlərə uyğunlaşmaq üçün yeni sosial əlaqələr qurmalı, iş tapmalı və öz həyatını yenidən təşkil etməlidir. Bu, sosial adaptasiyanın uğurlu nəticələrini təmin edir.

**Sosial adaptasiyanın mərhələləri** fərdin təcrübəsi, sosial bacarıqları və sosial mövqeyinə əsaslanır. Məsələn, bir məhkum azadlığa çıxdıqda, ilk növbədə yeni sosial mühitə uyğunlaşma prosesi başlayır. Bu uyğunlaşma həm davranışla, həm də sosial əlaqələrlə bağlı ola bilər. Məhkum

bu mərhələləri keçdikcə, sosial norma və dəyərlərə uyğun davranmaqda çətinliklər azalır və sosial mühitə inteqrasiya olma prosesi sürətlənir.

**Sosial adaptasiya və cəmiyyətin normaları.** Sosial adaptasiya yalnız fərdin daxili və şəxsi inkişafı deyil, həm də sosial mühitin normativ strukturlarına uyğunlaşması ilə əlaqədardır. Məhkumlar cəmiyyətə reinteqrasiya olduqda, həmin cəmiyyətin sosial kodlarına və gözləntilərinə uyğun davranmalı, hüquqi çərçivələrə riayət etməlidirlər. Məsələn, bir məhkum cəmiyyətdə fəaliyyət göstərərkən o, cəmiyyətin sosial gözləntilərinə uyğun davranmalı və sosial normalara riayət etməlidir. Bu, məhkumun cəmiyyətdə qəbul edilməsi və uyğunlaşması üçün vacibdir.[142]

Sosial adaptasiya bəzi hallarda çətinliklər və maneələrlə üzləşə bilər. İnsanlar müxtəlif sosial siniflərdən, mədəniyyətlərdən və iqtisadi vəziyyətlərdən gələ bilər. Bu müxtəlifliklər, sosial uyğunlaşma prosesində fərdlərin qarşılaşdığı maneələri artırır. Məsələn, aşağı sosial təbəqələrdən olan məhkumlar, mövcud sosial şəbəkələr və mövqelərdən asılı olaraq, daha çətinliklə sosial adaptasiya prosesini keçə bilərlər. Bu cür fərdlər, xüsusən cəzaçəkmə müəssisəsində olmuş və azadlığa çıxmış məhkumlar, sosial kapitalın məhdudluğu və cəmiyyətin sosial normativlərinə uyğunlaşma səbəbindən müəyyən çətinliklərlə qarşılaşa bilərlər. Məhkumların azadlıqda cəmiyyətlə yeni mü-

[142] Andrews, D. A., & Bonta, J. (2010). The Psychology of Criminal Conduct. Routledge.

nasibətlər qurmaq və bu münasibətlərə uyğunlaşmaq məsələsi sosial adaptasiyanın əsas çətinliklərindən biridir.

Bundan əlavə, cəmiyyətin dəyişən struktur və dinamikaları da sosial adaptasiya prosesinə təsir edir. Sosial dəyişikliklər, fərdin əvvəlki sosial təcrübələrinə və ya mövcud sosial struktura uyğunlaşması üçün yeni və daha mürəkkəb vəziyyətlər yaradır. Məsələn, bir məhkum azadlığa çıxanda onu əvvəlki sosial vəziyyəti və yeni, dəyişən sosial mühit arasında balans qurmağa məcbur edir. Nəticədə, sosial adaptasiya yalnız fərdin daxili qabiliyyətlərindən deyil, həm də cəmiyyətin keçirdiyi dəyişikliklərdən asılıdır. Bu, məhkumların cəmiyyətə yenidən inteqrasiyasını çətinləşdirə bilər.

Probasiya nəzarətində olan şəxslər üçün sosial adaptasiya onların cəmiyyətə yenidən daxil olmalarını təmin etmək məqsədilə mühüm əhəmiyyət kəsb edir. "Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Probasiya xidməti haqqında Əsasnamə"də Probasiya xidmətinin vəzifələrindən biri olaraq, probasiya nəzarəti altında olan şəxslərin sosial adaptasiyası və reabilitasiyasına yardım etmək üçün tədbirlərin görülməsi vurğulanır.[143] Bu, Probasiya xidmətinin məhkumların cəmiyyətə yenidən inteqrasiyasını təmin etmək məqsədini güdən mühüm fəaliyyət istiqamətidir. Probasiya məhkumların azadlığa buraxılmazdan əvvəl və ya buraxıldıqdan sonra cəmiyyətə yenidən inteqrasiya ol-

[143] Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Probasiya xidməti haqqında Əsasnamə, https://e-qanun.az/framework/37471

malarını təmin edən nəzarət sistemidir. Məhkumların həyatına daxil olan bu yeniliklər onların sosial bacarıqlarını inkişaf etdirməyə və cəmiyyətə daha yaxşı uyğunlaşmalarını təmin etməyə yönəldilmişdir.

**Sosial adaptasiyanın mahiyyəti** məhkumun keçmiş davranışlarını, sosial statusunu və təhsilini nəzərə alaraq, onun cəmiyyətə daha yaxşı uyğunlaşmasını təmin etməyə yönəldilmişdir. Probasiya xidmətinin bu sahədəki fəaliyyəti, həmçinin məhkumların iş tapma, təhsil alma və sosial əlaqələr qurma kimi ehtiyaclarını qarşılayaraq, onların cəmiyyətdə uğurlu şəkildə yerləşmələrinə dəstək olur. Məhkumların təkrarlanan cinayətlərdən qaçınmaları və düzgün sosial normativlərə uyğunlaşmaları üçün bu fəaliyyətlər çox əhəmiyyətlidir. Bu, yalnız məhkumların cəmiyyətə inteqrasiyasını asanlaşdırmır, həm də cinayətlərin təkrarlanmasının qarşısını almağa kömək edir. Probasiya xidmətinin bu cür məqsədli fəaliyyətləri, həm də cəmiyyətin ümumi sosial ədalət və humanizm prinsiplərinə uyğun şəkildə həyata keçirilir.

Cəzanın icrasının humanistləşdirilməsi və yeni cinayətlərin qarşısının alınması üçün probasiya nəzarətində olan şəxslərin cəmiyyətə uyğunlaşdırılması (sosial adaptasiya) əsas elementlərdən biridir. BMT və Avropa Şurasının sənədlərində də bu məqsəd açıq şəkildə vurğulanır. [144].

---

[144] United Nations Standard Minimum Rules for Non-custodial Measures – Tokyo Rules, 1990; Council of Europe Recommendation CM/Rec(2010)1

Sosial adaptasiyanın əsas komponentləri arasında şəxsi və ictimai həyat arasında balans yaratmaq, cəmiyyətin normativ strukturlarına uyğunlaşmaq və müsbət sosial əlaqələr qurmaq yer alır. Probasiya nəzarətində olan məhkumlar üçün bu proses bəzən çətin ola bilər, çünki onlar cəmiyyətə aid olmaq üçün lazımi sosial bacarıqlara və etimad qurmağa ehtiyac duyurlar. Bu çətinliklər məhkumların sosial bacarıqlarını inkişaf etdirmək və etimad qazandıqca, onlara cəmiyyətdəki mövqelərini tapmaq və sosial əlaqələrini qurmaqda kömək edir. Cəmiyyətin məhkumlara qarşı mövqeyi və onların ikinci şans əldə etməsi, bu adaptasiya prosesini asanlaşdırır. Məhkumların sosial şəbəkələrini genişləndirmək və sosial norma və dəyərlərə uyğun davranmaqla, bu çətinlikləri dəf etmək mümkündür.

Beləliklə, sosial adaptasiya təkcə fərdi uyğunlaşma prosesi deyil, həm də sosial sistemin dayanıqlılığını və sabitliyini təmin edən əsas mexanizmlərdən biridir. Xüsusilə, məhkumların sosial adaptasiyası onların reabilitasiyasını və cəmiyyətə uğurlu inteqrasiyasını təmin etmək üçün vacibdir. Bu məqsədlə, Azərbaycanda da Probasiya xidmətinin gücləndirilməsi, sosial işçilərin və psixoloqların bu prosesə cəlb olunması və peşə təlimlərinin artırılması reabilitasiya prosesinin səmərəliliyini artıracaqdır. Bu gün probasiya sistemlərində ən uğurlu sosial adaptasiya modeli və bu işin effektiv təşkili yalnız nəzarət mexanizmləri vasitəsilə deyil, həmçinin fərdi dəstək, təhsil, məşğulluq və sosial əlaqələrin gücləndirilməsi ilə mümkündür.

## 4.2. Probasiya nəzarətində olan şəxslərin cəmiyyətə yenidən uyğunlaşması üçün dəstək strategiyaları və proqramları

Probasiya nəzarətində olan şəxslərin cəmiyyətə reinteqrasiyasına yönəlmiş strategiyalar və proqramlar məhkumlara həm fərdi xilas yolunu təqdim edir, həm də cinayətkarlığın köklü səbəblərini hədəfləyərək cəmiyyətin rifahına xidmət edir.

Bu səbəbdən də, dəstək strategiyaları və proqramlarının əhəmiyyəti həm fərdi, həm də ictimai səviyyədə bir neçə mühüm aspekt üzrə qiymətləndirilir:

1) **Bu proqram və strategiyaların ilkin məqsədi** yeni cinayətlərin qarşısının alınmasıdır. Tədqiqatlar sübut edir ki, reinteqrasiya proqramlarında iştirak edən şəxslərin cinayətə yenidən qayıtma ehtimalı əhəmiyyətli dərəcədə azalır. Bu, cəmiyyətin təhlükəsizliyini artırır və ədliyyə sisteminin yükünü azaldır.[145] Beynəlxalq təcrübə göstərir ki, cəzadan azad edilmiş şəxslərin effektiv sosial adaptasiyası onların yenidən cinayət törətmə riskini əhəmiyyətli dərəcədə azaldır.

2) Bu proqramlar fərdi reabilitasiyanı və sosial inklüzivliyi təşviq edir. Proqramlar şəxsin psixoloji, sosial və peşəkar ehtiyaclarına cavab verir. Cəmiyyətə reinteqrasiya, məhkumların sosial həyata yenidən adaptasiyasını tə-

---

[145] Visher, C. A., Debus-Sherrill, S. A., & Yahner, J. (2017). Employment after Prison: A Longitudinal Study of Releasees in Three States. Justice Quarterly, 34(3), 377–406.

min edən kompleks bir prosesdir. S. Maruna yazır ki, bu prosesin əsasında sosial inklüzivlik, fərdi reabilitasiya və cəmiyyətlə qarşılıqlı münasibətlərin bərpası dayanır.[146] Hüquq və sosial elmlərdə reinteqrasiya, yalnız hüquqi nəzarət mexanizmləri ilə deyil, həm də sosial-iqtisadi dəstək və psixososial yardımla təmin edilir.

3) Bu proqramlar cəmiyyət üçün iqtisadi fayda yaradır. Reinteqrasiya olunan şəxslərin iş tapması və vergi ödəyən fərdlərə çevrilməsi iqtisadi yükü azaldır. Həmçinin, azalma ilə nəticələnən təkrar məhkumluq xərclərə qənaət etməyə kömək edir.[147] Probasiya nəzarəti kontekstində reinteqrasiya təkcə məhkumların qanuni normalara riayət etməsinə nəzarət etməklə məhdudlaşmır. Həmçinin, bu şəxslərin iş tapması, təhsil alması, psixoloji yardımla təmin olunması və sosial əlaqələrini bərpa etməsi üçün uyğun şəraitin yaradılması da vacibdir. Məsələn, ABŞ-da "Integrated Reentry and Employment Strategies" (IREES) modeli məşğulluğa əsaslanan reinteqrasiya strategiyası nümunəsidir.

4) Nəhayət, bu proqramlar sosial stabilliyə və hüquqi dövlət quruculuğuna dəstək olur. Bu strategiyalar insan hüquqları və bərpaedici ədliyyə prinsiplərinə uyğun ola-

---

146 Maruna, S. (2001). Making Good: How Ex-Convicts Reform and Rebuild Their Lives. Washington, D.C.: American Psychological Association.

147 Lochner, L., & Moretti, E. (2004). The Effect of Education on Crime: Evidence from Prison Inmates, Arrests, and Self-Reports. American Economic Review, 94(1), 155–189.

raq, cəmiyyətin daha ədalətli və bərabər imkanlar təqdim edən sistemə çevrilməsini təşviq edir.[148]

Kriminoloji araşdırmalar sübut edir ki, sosial dəstək və reabilitasiya proqramları olmadan keçmiş məhkumların cəmiyyətə inteqrasiyası çətinləşir və yeni cinayətlərin sayı artır. Buna görə də, son bir il ərzində AR Ədliyyə Nazirliyinin Probasiya xidməti reabilitasiya proqramlarının tətbiqinə xüsusi önəm verir, xarici təcrübəni öyrənir. Xidmətin həyata keçirdiyi tədbirlər, sosial reinteqrasiyanın uğurlu olması üçün həlledici amillərdən biridir.

Probasiya xidmətində görülən tədbirlər, məhkumların cəmiyyətə reinteqrasiyasını asanlaşdırmaq və onların həyat keyfiyyətini yaxşılaşdırmaq məqsədini güdür. Xidmətin fəaliyyətləri sosial reabilitasiyanın müxtəlif sahələrini əhatə etməklə yanaşı, əhalinin həssas qruplarına xüsusi diqqət yetirilir. Eyni zamanda könüllülərin və sosial işçilərin iştirakı ilə həyata keçirilən tədbirlər Probasiya xidmətinin effektivliyini artırır. Bu fəaliyyətlərin konkret funksional istiqamətləri aşağıdakı kimi sistemləşdirilə bilər:

| **Funksiya** | **Təsvir** |
|---|---|
| **Nəzarət və dəstək** | Məhkumların irəliləyişini izləmək və uyğunluğunu təmin etmək |
| **Sosial adaptasiya** | Reinteqrasiya proqramları vasitəsilə cəmiyyətə inteqrasiya |

---

148 Maruna, S. (2001). Making Good: How Ex-Convicts Reform and Rebuild Their Lives. Washington, D.C.: American Psychological Association.

| Funksiya | Təsvir |
|---|---|
| **Psixoloji yardım** | Psixoloji dəstək xidmətləri, emosional və zehni çətinliklərlə mübarizə |
| **Ailə və ətrafla iş** | Ailə və dostlarla əlaqələrin gücləndirilməsi, dəstək şəbəkəsinin qurulması |

F.S.Taxman yazır ki, probasiya nəzarətində olan şəxslərin cəmiyyətə reinteqrasiyası, onların cəmiyyətdə möhkəm və davamlı bir yer tutmalarını təmin etmək məqsədilə xüsusi dəstək strategiyaları və proqramları tətbiq olunur ki, bu proqramlar şəxslərin azadlığa buraxıldıqdan sonra qarşılaşdıqları sosial, emosional, psixoloji və peşəkar çətinlikləri aradan qaldırmağa yönəldilmişdir. Cəmiyyətə reinteqrasiyanın müvəffəqiyyəti, məhkumların cəmiyyətdəki sosial həyatlarına, iş imkanlarına və ümumi rifahlarına inteqrasiyasını asanlaşdıran geniş miqyaslı yanaşmaların tətbiqi ilə mümkündür.[149]

**Təhsil və peşə bacarıqlarının inkişafı** probasiya nəzarətində olan şəxslərin cəmiyyətə inteqrasiyasının ən mühüm aspektlərindən biridir. Təhsil proqramları, məhkumların biliyini artırmağa və iş bazarına uyğun bacarıqlar əldə etməyə kömək edir. Bu, onların məşğulluq şanslarını artırır və cəmiyyətdə özlərini təmin etmə qabiliyyətlərini inkişaf etdirir. Məhkumların təhsili və peşə təhsili alması, onlara həyatlarını yenidən qurmaq, cəmiyyətin iqtisadi

[149] Taxman, F. S. (2008). No Illusions: Offender and Organizational Change in Maryland's Proactive Community Supervision Efforts. Criminology & Public Policy, 7(2), 275–302.

həyatına qatılmaq və sosial həyatlarında daha çox uğur əldə etmək imkanı verir. Tədqiqatlar göstərir ki, məşğulluq proqramları, şəxslərin kriminal fəaliyyətlərə qayıtma ehtimallarını əhəmiyyətli dərəcədə azaldır.[150] Cəmiyyətə reinteqrasiyanın müvəffəqiyyətini artıran ən önəmli amillərdən biri, məhkumların iş həyatına daxil olmaları və özlərinə sərfəli iş imkanları yaratmalarıdır.

Bir çox tədqiqat, təhsil və peşə təhsilinin probasiya nəzarətində olan şəxslərin cəmiyyətə reinteqrasiyasına müsbət təsirini göstərmişdir. Məhkumların təhsili və peşə bacarıqları onların iş bazarına daxil olmalarına və cinayətkar davranışlardan uzaqlaşmalarına yardım edir. Məsələn, Visher, Debus-Sherrill və Yahner tərəfindən aparılan bir tədqiqatda göstərilir ki, təhsil proqramlarında iştirak edən məhkumların cəmiyyətə reinteqrasiyası daha yüksək səviyyədə olur və onların cinayətkar davranışlardan dönmə ehtimalları əhəmiyyətli dərəcədə azalır. Təhsil və peşə təhsili yalnız məhkumların iqtisadi müstəqilliklərini təmin etmir, həm də onların şəxsi etibarını və cəmiyyətdə özlərinə olan inamı bərpa edir.[151]

Yeni araşdırmalar göstərir ki, işə qəbul edilən məhkumların cəmiyyətə reinteqrasiyasının müvəffəqiyyəti,

[150] Uggen, C. (2000). Work as a Turning Point in the Life Course of Criminals: A Duration Model of Age, Employment, and Recidivism. American Sociological Review, 65(4), 529–546.
[151] Visher, C. A., Debus-Sherrill, S. A., & Yahner, J. (2017). Employment after Prison: A Longitudinal Study of Releasees in Three States. Justice Quarterly, 34(3), 377–406.

onların iş sahəsindəki təcrübələrinə və iş bazarına uyğun bacarıqlara sahib olmalarına bağlıdır. Digər bir araşdırmada məşğulluq imkanlarına çıxışı olan məhkumların azadlığa buraxıldıqdan sonra cinayətə qayıtma ehtimallarının azaldığı vurğulanır. Bu səbəbdən, məşğulluq proqramları və təhsil strategiyaları probasiya orqanları tərəfindən cəmiyyətdə stabil sosial münasibətlərin qurulmasında vacib alətlər olaraq qəbul edilir.

Probasiya nəzarətində olan şəxslərin cəmiyyətə reinteqrasiyasının digər vacib tərəfi psixoloji və emosional dəstəklə təmin edilmələridir. Məhkumların azadlığa buraxılmasından sonra qarşılaşdıqları psixoloji çətinliklər, onların cəmiyyətlə əlaqələrini qurmaqda və normal həyat tərzinə uyğunlaşmaqda çətinliklər yaratmaqda ola bilər. Məhkumlar çox zaman təcridetmə, təcavüzkar davranışlar və asılılıq problemləri ilə mübarizə aparırlar. Bu növ çətinliklərlə üzləşən şəxslərə peşəkar psixoloji dəstək verilməsi onların emosional stabilliklərini bərpa etmələrinə kömək edir. Probasiya qurumları məhkumların təcrübələrini daha yaxşı idarə etmələri üçün fərdi və qrup terapiya sessiyaları təklif edirlər. Bu cür dəstəklər, onların sosial adaptasiya proseslərini asanlaşdırmaqla yanaşı, cəmiyyətdə özlərinə güvənlərini bərpa etmələrinə də şərait yaradır.

Probasiya nəzarətində olan şəxslər üçün psixoloji dəstək proqramlarının müsbət təsiri geniş şəkildə araşdırılmışdır. Əksər məhkumlar həbsxanadan azad olduqdan sonra psixoloji travmalarla, depressiya və narahatlıqla qarşılaşırlar.

J.F Mills, D.G Kroner və T. Hemmati tərəfindən aparılan bir araşdırmada cəmiyyətdəki uyğunlaşma prosesində psixoloji dəstəyin əhəmiyyəti qeyd olunmuşdur. Araşdırmada psixoterapevtik xidmətlər və müalicə proqramları ilə dəstəklənən məhkumların, reinteqrasiyadan sonra daha stabil və müsbət sosial münasibətlər qurma ehtimalının yüksək olduğu ortaya çıxmışdır.[152] Bu onların özlərini daha çox cəmiyyətin bir hissəsi kimi hiss etmələrinə və keçmişdəki cinayətkar davranışlardan uzaqlaşmalarına kömək edir.

Psixoloji dəstək yalnız fərdi səviyyədə özünə inamın artırılması ilə kifayətlənmir, həm də sosial əlaqələrin inkişafına və şəxsin emosional stabilliyinin möhkəmlənməsinə səbəb olur. Emosional dəstək, həmçinin məhkumların sosial adaptasiyasını asanlaşdırır və onların sosial mərkəzlə əlaqə qurmasına kömək edir. Bu mövzuda araşdırmalar göstərir ki, sosial dəstək şəbəkələri, xüsusən ailə və dostlarla əlaqə, məhkumların cəmiyyətə reinteqrasiyasını daha asan edir və onlara qarşı cəmiyyətin qəbul etməsini təmin edir.[153]

Probasiya nəzarətində olan şəxslərin cəmiyyətə uyğunlaşmasının digər mühüm tərəfi ***sosial bacarıqların*** inkişa-

[152] Mills, J. F., Kroner, D. G., & Hemmati, T. (2018). The Role of Mental Health and Risk in Offender Reintegration. Criminal Justice and Behavior, 45(9), 1343–1360.

[153] Taxman, F. S. (2008). No Illusions: Offender and Organizational Change in Maryland's Proactive Community Supervision Efforts. Criminology & Public Policy, 7(2), 275–302.

fıdır. Bir çox məhkumlar, həbsxanada uzun müddət keçirdikləri üçün sosial əlaqələrini itirmiş və ya zəif inkişaf etdirmiş ola bilərlər. Onların cəmiyyətlə səmərəli və sağlam münasibət qurması üçün sosial bacarıqlarının təkmilləşdirilməsi zəruridir. Bu, komanda işində iştirak etmək, ünsiyyət bacarıqlarını inkişaf etdirmək, münaqişə həll etmə qabiliyyətlərini artırmaq və sosial normativlərə uyğunlaşmaq kimi məsələləri əhatə edir. Probasiya orqanları, bu bacarıqları inkişaf etdirmək üçün xüsusi təlimlər və proqramlar təşkil edirlər. Sosial bacarıqların inkişafı, şəxsiyyətin reabilitasiyasının əhəmiyyətli bir hissəsidir və şəxsin cəmiyyətdə daha uğurlu şəkildə adaptasiya olmasına kömək edir.[154]

Cəmiyyətə reinteqrasiyanın uğurlu olması üçün sosial bacarıqların inkişafı vacibdir. Məhkumlar cəmiyyətin sosial qaydalarına uyğunlaşmaqda çətinlik çəkə bilərlər. J.Bonta və D. Andreus tərəfindən irəli sürülən "Risk-Need-Responsivity" (RNR) modelinə görə, sosial bacarıqların inkişafı reinteqrasiya prosesində əsas amillərdən biridir. Bu modelə əsasən, məhkumların sosial bacarıqlarının inkişaf etdirilməsi, onların müsbət sosial davranışlara uyğunlaşmalarına və cəmiyyətdəki yerini sağlam şəkildə tapmalarına kömək edir. Sosial bacarıqların inkişafı, xüsusən ünsiyyət, münaqişə həlli və komanda işində iştirak bacarıqları,

[154] Farrall, S. (2002). Rethinking What Works with Offenders: Probation, Social Context and Desistance from Crime. Willan Publishing.

məhkumların cəmiyyətdə daha yaxşı uyğunlaşmasına gətirib çıxarır.[155]

Müasir dövrdə sosial bacarıqlar yalnız fərdi inkişaf və şəxsi münasibətlər üçün deyil, həm də qlobal əmək bazarına və cəmiyyətin dəyişən sosial-iqtisadi strukturlarına uyğunlaşmaq baxımından kritik əhəmiyyət kəsb edir. Rəqəmsal transformasiya, avtomatlaşdırma və süni intellektin sürətli inkişafı ilə sosial bacarıqların rolu daha da artmışdır. Artıq əmək bazarında texniki biliklərlə yanaşı, ünsiyyət, komanda işi, emosional zəka, problem həll etmə və tənqidi düşünmə kimi sosial bacarıqlar tələb olunur. Probasiya nəzarətində olan şəxslər üçün bu bacarıqların inkişaf etdirilməsi, onların əmək bazarına və cəmiyyətə uğurlu şəkildə reinteqrasiyası üçün mühüm şərtlərdən biridir.

Cəmiyyətin transformasiyası və dinamikliyi də nəzərə alınmalıdır. Müasir dünyada sosial mühit və münasibətlər sürətlə dəyişir və bu dəyişikliklərə uyğunlaşmaq üçün sosial bacarıqlar da daim yenilənməlidir. Probasiya nəzarətində olan şəxslərin cəmiyyətə adaptasiyası üçün müasir sosial dəyişikliklərə inteqrasiya olunmağı bacarması vacibdir. Xüsusilə, rəqəmsal texnologiyalar, sosial media və virtual əmək bazarları kimi yeni sosial mühitlərə adaptasiya bacarıqları bu şəxslərin cəmiyyətdə uğurlu bir yer tapmasına kömək edə bilər.

Perspektiv baxımından sosial bacarıqların inkişafı üçün dövlət siyasətləri və sosial proqramlar daha da ge-

[155] Bonta, J., & Andrews, D. A. (2017). Risk-Need-Responsivity Model for Offender Assessment and Rehabilitation. Public Safety Canada.

nişləndirilməlidir. Əmək bazarına uyğun peşə hazırlığı proqramlarına sosial bacarıqların inkişafına dair modullar əlavə edilməli, keçmiş məhkumlar üçün mentorluq və dəstək şəbəkələri yaradılmalıdır. Təcrübələr göstərir ki, uzunmüddətli sosial dəstək və davamlı inkişaf proqramları məhkumların cəmiyyətə daha uğurlu inteqrasiyasını təmin edir və yeni cinayətlərin azalmasına müsbət təsir göstərir.

Beləliklə, sosial bacarıqların müasir dövrün çağırışlarına uyğun inkişaf etdirilməsi probasiya nəzarətində olan şəxslərin yalnız fərdi deyil, həm də sosial-iqtisadi müstəvidə uğurlu adaptasiyasına imkan yaradır. Bu bacarıqların formalaşması üçün sistemli və davamlı yanaşmaların tətbiqi, sosial reabilitasiyanın keyfiyyətini artırmaqla yanaşı, cəmiyyətin ümumi təhlükəsizliyini və sosial sabitliyini də gücləndirə bilər. Bu baxımdan, sosial bacarıqların möhkəmləndirilməsi ilə paralel şəkildə, onların reabilitasiya prosesi çərçivəsində tətbiqi üçün məqsədyönlü proqramların hazırlanması və icrası mühüm əhəmiyyət kəsb edir.

***Məqsədyönlü reabilitasiya proqramları*** probasiya nəzarətində olan şəxslərin cəmiyyətdə sağlam və səmərəli bir həyat qurmasını dəstəkləmək üçün təşkil edilir. Bu proqramlar, fərdlərin həyat keyfiyyətini yaxşılaşdırmağa, onların fərdi ehtiyaclarını ödəməyə və cəmiyyətə inteqrasiyalarını asanlaşdırmağa yönəlmişdir. Reabilitasiya proqramları, fərdlərin fiziki və psixoloji sağlamlıqlarını yaxşılaşdırmaq üçün idman fəaliyyətləri, fərdi inkişaf sessiyaları, qrup müzakirələri və digər interaktiv təlimlərdən istifa-

də edir. Bu cür proqramlar, şəxslərin həyatlarının hərtərəfli inkişafını dəstəkləyir, onlara müsbət bir sosial mühit və həyati bacarıqlar qazandırır. Həmçinin məqsədyönlü reabilitasiya yanaşmaları, şəxslərin cəmiyyətdəki həyatlarına daha az riskli və daha davamlı şəkildə inteqrasiyasını təmin edir.[156]

***Reabilitasiya proqramları*** probasiya nəzarətində olan şəxslərin cəmiyyətə reinteqrasiyasını asanlaşdırmaq və onların cinayətə qayıtma ehtimalını azaltmaq üçün mühüm bir vasitədir. Bu proqramlar, fiziki və psixoloji sağlamlıq problemlərini həll etməklə yanaşı, həm də şəxslərin şəxsi inkişafını təşviq edir. Andrews və Bonta tərəfindən irəli sürülən nəzəriyyəyə görə, reabilitasiya proqramlarının müvəffəqiyyəti, həmin proqramların fərdin spesifik ehtiyaclarına uyğunlaşdırılması ilə ölçülür. Yəni fərdi problemləri nəzərə alaraq xüsusi reabilitasiya yanaşmalarının tətbiqi, şəxslərin cəmiyyətə inteqrasiyasını və normal həyata uyğunlaşmalarını asanlaşdırır.[157]

Probasiya nəzarətində olan şəxslərin cəmiyyətə reinteqrasiyası, kompleks və çoxsahəli bir prosesdir. Təhsil və peşə bacarıqlarının inkişafı, psixoloji dəstək, sosial bacarıqların artırılması və məqsədyönlü reabilitasiya proqramları, bu şəxslərin uğurlu cəmiyyətə adaptasiya olmalarına

---

[156] Farrall, S. (2002). Rethinking What Works with Offenders: Probation, Social Context and Desistance from Crime. Willan Publishing.

[157] Andrews, D. A., & Bonta, J. (2010). The Psychology of Criminal Conduct (5th ed.). New Providence, NJ: LexisNexis.

yardımçı olan əsas strategiyalardır. Müasir təcrübələrə əsaslanan bu yanaşmalar, yalnız fərdi səviyyədə müsbət dəyişikliklərə səbəb olmaqla qalmır, həm də cəmiyyətin ümumi təhlükəsizliyini və rifahını təmin etməyə yönəlmişdir. Cəmiyyətin bu şəxsləri dəstəkləməsi və reinteqrasiya etməsi, həm sosial, həm də iqtisadi baxımdan faydalıdır. Bu səbəbdən, probasiya orqanlarının dəstəklədiyi proqramlar, yalnız şəxslərin həyatlarını yaxşılaşdırmaqla kifayətlənmir, həm də cəmiyyətin sağlamlığını və dayanıqlılığını təmin edir.

Yeni elmi araşdırmalar, probasiya nəzarətində olan şəxslərin cəmiyyətə reinteqrasiyasını təmin etmək üçün tətbiq edilən dəstək strategiyalarının effektivliyini bir daha sübut edir. Təhsil və peşə təhsili, psixoloji dəstək, sosial bacarıqların inkişafı və reabilitasiya proqramları kimi sahələr, məhkumların cəmiyyətə reinteqrasiyasını asanlaşdıran əsas amillərdir. Bu yanaşmaların müvəffəqiyyəti, cəmiyyətin təhlükəsizliyini artırmaqla yanaşı, həmin şəxslərin cəmiyyətə faydalı və məsuliyyətli üzvlərə çevrilməsinə şərait yaradır. Gələcəkdə bu sahədə daha geniş miqyaslı tədqiqatların həyata keçirilməsi, probasiya proqramlarının daha da təkmilləşdirilməsinə və bu prosesin daha səmərəli şəkildə həyata keçirilməsinə kömək edəcəkdir.

## 4.3. Məhkumların cəmiyyətə reinteqrasiyası zamanı yaranan problemlər: stereotiplər və stiqmatizasiya (damğalama) problemi

Probasiya nəzarətində olan şəxslərin cəmiyyətə reinteqrasiyası zamanı qarşılaşdığı ən mühüm problemlərdən biri ictimai stereotiplər və stiqmatizasiyadır. Bu problem bu gün Azərbaycan cəmiyyətini də narahat edən əsas mövzulardan biridir və məsələnin həm də elmi cəhətdən işlənməsinə zərurət vardır. Bu paraqrafda biz probasiyada stiqmatizasiyanın elmi əsasları, onun cinayət törətmiş şəxslərə təsiri, eləcə də müxtəlif ölkələrin bu sahədə təcrübələri və qabaqcıl modelləri araşdırmağa cəhd edəcəyik.

Stiqmatizasiya probasiya qeydiyyatında olan şəxslərin cəmiyyətə adaptasiyası və reinteqrasiysına mane olan ən mühüm problemlərdən birincisidir – desək yanılmarıq. Çünki məhkumun sosial həyata qayıtması və qanunlara hörmətlə yanaşan bir fərd kimi yaşaması üçün həyata keçirilən kompleks tədbir kimi reinteqrasiya prosesinin ən çətin mərhələsi ictimai etiketlənmə və stiqmatizasiyadır. Bu, onların məşğulluq imkanlarına, sosial münasibətlərinə və psixoloji rifahına mənfi təsir edir.

**"Stiqma"** termininin Azərbaycan dilində mənası ***"damğalama"*** deməkdir. **"Stiqma"** termini ilk dəfə elmə amerikalı sosioloq **Erving Goffman** tərəfindən gətirilmişdir. Onun 1963-cü ildə nəşr etdirdiyi "Stiqma: zədələnmiş kimliyin idarə olunması haqqında qeydlər" *("Stigma: Notes on the Management of Spoiled Identity")* adlı əsəri bu an-

layışın sosioloji və psixoloji aspektlərini təhlil etmişdir.[158] Goffmana görə, stiqma fərdin "normal" cəmiyyət standartlarından sapmalarına görə sosial olaraq damğalanmasıdır. Bu proses nəticəsində insanın "zədələnmiş" kimliyi yaranır və o, cəmiyyətdə müəyyən kateqoriyaya aid edilir. Keçmiş məhkumlar isə bu "sapma" qrupuna daxil edilərək stiqmatizasiya olunur.

Goffman stiqma mövzusunda aparıcı nəzəriyyələrdən birini təqdim etmişdir. O, "stiqma"nı fərdlərin mənfi şəkildə etiketlənməsi və onların cəmiyyətdəki statusunun dəyişməsi kimi təyin edir. Goffmana görə, stiqmatizasiya, yalnız şəxsin sosial kimliyinə təsir etməklə qalmır, həm də həmin şəxsin cəmiyyətdəki əlaqələrini əhəmiyyətli şəkildə zədələyir. Məhkumlar üçün, cəmiyyət tərəfindən təcrid olunma və damğalanma onların sosial həyatlarını çətinləşdirir və psixoloji cəhətdən də əhəmiyyətli zərərlərə səbəb ola bilər.

Məhkumların cəmiyyətə reinteqrasiyası çoxşaxəli və mürəkkəb bir sosial prosesdir. Bu prosesin ən ciddi maneələrindən biri isə stereotiplər və stiqmatizasiya məsələləridir. Cəmiyyətə reinteqrasiya yalnız məhkumların özlərinin cəmiyyətdəki rolunu bərpa etmələri deyil, həm də cəmiyyətin onların qəbuluna hazırlığı ilə əlaqədardır. Məhkumların cinayətkar keçmişlərinə görə cəmiyyət tərəfindən damğalanması, onların sosial inteqrasiyasını daha

---

158 Goffman, E. (1963). Stigma: Notes on the Management of Spoiled Identity. Prentice-Hall.

da çətinləşdirir və bu fenomenin daha dərindən başa düşülməsi, uyğun siyasətlərin hazırlanması baxımından böyük əhəmiyyət kəsb edir.

Məhkumların azadlığa çıxdıqdan sonra cəmiyyətdəki yerini tapması və bu yerə uyğunlaşması, üzləşdikləri **stereotiplər və stiqmatizasiya** ilə birbaşa əlaqədardır. Bu təzyiqlər onların sosial inteqrasiyasını və gələcək həyatlarına təsir edərək, cəmiyyətə uyğunlaşmasını çətinləşdirir.

**Stereotiplər nədir? Stereotiplər** müəyyən bir qrup haqqında formalaşmış sadə və bəzən yanlış təsəvvürlərdir. Məhkumlar üçün stereotiplər onların yalnız cinayətkar kimlikləri ilə tanınmaları nəticəsində yaranır. Məsələn, cəmiyyətin bir çox üzvü məhkumları "təkrar cinayət törətmiş şəxs", "yad insan" və ya "təhqir edilmiş" kimi dəyərləndirə bilər. J. Breitveit yazır ki, bu kimi stereotiplər məhkumların sosial münasibətlərində, xüsusilə də iş tapma, evlənmə və sosial inteqrasiya kimi həyatın mühüm sahələrində ciddi maneələr yaradır. Məhkumların üzləşdiyi bu stereotiplər, onların müsbət dəyişikliklər etməyinə, özünü inkişaf etdirməyinə və cəmiyyətin təklif etdiyi imkanlardan istifadə etməyinə mane olur. Məhkumların bu stereotiplərə qarşı mübarizə aparmaqda çətinlik çəkmələri, sosial şəbəkələrini genişləndirməkdə və cəmiyyətdə möhkəm bir yer tutmaqda onları əngəlləyir.[159]

**Stiqmatizasiya isə** sosial qrupların bir üzvünü mənfi və qeyri-ciddi şəxs olaraq dəyərləndirmə prosesidir. Stiq-

---

[159] Braithwaite, J. (1989). Crime, Shame, and Reintegration. Cambridge University Press.

ma sosial münasibətlərdə ciddi təcrid olunmağa və yalnız müəyyən bir etiketlə tanınmağa səbəb olur. Məhkumlar, cəmiyyətin gözündə "məhkum" və ya "cinayətkar" kimi damğalanaraq, özlərini daim kənarda hiss edirlər. Məhkumlar bu stiqmatizasiya ilə qarşılaşdıqda, yalnız sosial təcrid olunma ilə üzləşmirlər, həm də özlərini cəmiyyətdən tamamilə kənarlaşdırma təcrübəsi yaşayırlar. Bu vəziyyət, onların daxili düşüncələrini və özünə münasibətini dəyişdirir, bu isə onların cəmiyyətə reinteqrasiyasını daha da çətinləşdirir.[160]

Həmçinin, Corrigan və Penn stiqma ilə əlaqəli psixososial təsirləri daha ətraflı araşdırmış və göstərmişdir ki, stiqmatizasiya, yalnız sosial təcrid olunma deyil, həm də məhkumların psixoloji vəziyyətini pisləşdirir. Stiqmanın səbəb olduğu daxili şüur və özünə inamsızlıq, məhkumların cəmiyyətə reinteqrasiyasını çətinləşdirir, onların ruhi vəziyyətini daha da pisləşdirir və yeni cinayətkar davranışları gücləndirə bilər. Məhkumların cəmiyyətə reinteqrasiyası prosesində sosial kapitalın və cəmiyyətin onlara münasibətinin dəyişməsi, yalnız onların fərdi inkişafına deyil, həm də cəmiyyətin sosial strukturlarının daha sağlam və ədalətli bir hala gəlməsinə kömək edir.[161]

---

[160] Link, B. G., & Phelan, J. C. (2001). Conceptualizing Stigma. Annual Review of Sociology, 27(1), 363-385.

[161] Corrigan, P. W., & Penn, D. L. (2001). Lessons from Social Psychology on Disrupting the Stigma of Mental Illness. American Psychologist, 56(9), 765-776.

Bu nəzəriyyələr məhkumların sosial təcridinin və onlara qarşı stiqmatizasiya və stereotiplərin aradan qaldırılması üçün təkmilləşdirilmiş sosial siyasətlərin hazırlanmasında mühüm rol oynayır. Sosial adaptasiya və reinteqrasiya prosesi, yalnız fərdlərin deyil, bütövlükdə cəmiyyətin faydasına olan bir məsələdir.

Stiqma və stereotiplərin cəmiyyətə reinteqrasiyaya olan təsirlərinin daha geniş təhlili, cəmiyyətin məhkumları necə qəbul etməsindən asılı olaraq fərqli nəticələrə gətirib çıxara bilər.

J. Breitveit cəza sistemindəki sosial etiketləmə və stiqma ilə əlaqədar vacib bir konsepsiya - "**təkrarlanan cəza**" **konsepsiyası** təqdim etmişdir. Bu konsepsiya məhkumların cəmiyyətdəki sosial münasibətlərində, xüsusən də cəmiyyətin onlara qarşı mənfi damğalanması səbəbindən qarşılaşdıqları davamlı çətinlikləri izah edir. Breitveit "təkrarlanan cəza" (repeated punishment) anlayışı, yalnız məhkumların hüquqi cəza ilə deyil, həm də sosial həyatlarında qarşılaşdıqları dayanıqlı mənfi etiketləmə ilə üzləşmələrinin onların cəmiyyətə reinteqrasiyasını necə çətinləşdirdiyini izah edir. "Təkrarlanan cəza" konsepsiyası məhkumların yalnız cinayətkar olduqları üçün cəza almadıqlarını, həm də cəmiyyətin onlara qarşı davamlı və sistematik sosial təcrid tətbiq etdiyini bildirir. Cəza və sosial damğalanma arasında möhkəm bir əlaqə var. Məhkumlar bir dəfə cəza aldıqdan sonra, bu etiketlə üzləşirlər və bu onları yalnız cəzadan deyil, həm də cəmiyyətin digər sahələrindəki münasibətlərindən təcrid edir. Məhkumların

cəmiyyətdə tutduqları mövqe və onlara göstərilən ictimai münasibət onların həyat təcrübələrinin formalaşmasına, sosial əlaqələrinin xarakterinə və gələcək reinteqrasiyasına mühüm təsir göstərir. Burada məhkumların cəmiyyətdə tutduqları mövqe, yəni onların sosial statusu, hüquqi məhdudiyyətləri və onların qəbul olunma dərəcəsi, eyni zamanda onlara göstərilən ictimai münasibət - cəmiyyətin, ailənin, dost çevrəsinin və iş mühitinin onlara yanaşması mühüm əhəmiyyətə malikdir. Belə ki, bu iki amil birlikdə məhkumların sosial təcrübələrini (yəni, gündəlik həyatdakı davranış və münasibətlərini) formalaşdırır, onların mövcud sosial şəbəkələrinə (ailə, dostlar, iş əlaqələri) təsir edir və nəticədə reinteqrasiya – yəni yenidən cəmiyyətə uyğunlaşma prosesində həlledici rol oynayır.

Bir çox hallarda məhkumaların cəmiyyətdən təcridi onların sosial statuslarını bərpa etmə prosesini mürəkkəbləşdirir və bəzən onları əvvəlki cinayətkar davranışlara qayıtmağa təhrik edə bilər. Məhkum düşdüyü psixoloji vəziyyət səbəbindən cəmiyyətdə özünü reallaşdıra bilmədiyi, cəmiyyət tərəfindən qəbul edilmədiyi üçün yenidən cinayət törədərək eyni səhvi təkrarlamış olur.[162]

Burada əsas fikir cinayətin və onun təkrarlanmasının cəmiyyətin üzərindəki təsirinin sadəcə hüquqi, maddi və fiziki cəzalarla deyil, həm də sosial etiketləmə ilə uzun

[162] Həsənova Ü. Stiqmatizasiyaya uğramış vətəndaşların cəmiyyətdə rastlaşdıqları işsizlik problemi, "Sosiologiya. Sosial psixologiya. Siyasət", 2022 Cild 2, N 1.

müddət davam edən təsirləri ilə əlaqəli olduğunu göstərməkdir.

**Stiqmatizasiya və stereotiplər** probasiya nəzarətində olan şəxslərin reabilitasiya və reinteqrasiya prosesində **çoxsaylı maneələr yaradır:**

***- İşlə təmin olunma ilə bağlı çətinlik:*** Cəmiyyətin mənfi etiketləndiyi və "cinayətkar" olaraq qəbul etdiyi məhkumlar, iş bazarında da ciddi maneələrlə üzləşirlər. Çox vaxt işə qəbul edən müəssisələr məhkumları işə götürməkdən imtina edir, çünki onların keçmişi bir təhlükə kimi qəbul edilir. **Harvard Universitetinin professoru D. Pager** yazır ki, işəgötürənlər keçmiş məhkumlara etibar etmədikləri üçün onları işə qəbul etməyə meyilli olmurlar.[163]Bu problemin aradan qaldırılması ilə bağlı **ən yaxşı təcrübə ABŞ-da formalaşmışdır.** ABŞ-da "Qutunu ləğv et" (*"Ban the Box")* təşəbbüsü işə qəbul ərizələrində keçmiş cinayət tarixçəsinin göstərilməsinin qarşısını alır. Bu proqram nəticəsində ABŞ-da 37 ştat və 150-dən çox şəhər və qraflıq işə qəbul zamanı namizədin peşəkar bacarıqlarını ilk olaraq nəzərə almaq üçün, cinayət və ya həbs tarixçəsinin yaratdığı damğalanmanı aradan qaldırmaq məqsədilə geniş şəkildə "qutunu ləğv et" kimi tanınan siyasətləri qəbul etmişdir. Bu siyasətlər "hamımız və ya heç birimiz" (All of Us or None) adlı təşəbbüsün fəaliyyəti nəticəsində yaranmışdır və namizədlərə işə qəbul prosesində ədalətli şans verməyi hədəfləyir. Belə ki, bu siyasətlər ərizələrdə

[163] Pager, D. (2003). The mark of a criminal record. American Journal of Sociology, 108(5), 937–975.

cinayət və ya həbs tarixçəsi ilə bağlı sualları aradan qaldırır və arxa fon yoxlamasını işə qəbul prosesinin daha gec mərhələsinə qədər təxirə salır.[164] Bu təşəbbüs stiqmatizasiyanın iş bazarında təsirini azaltmağı hədəfləyir.[165] Yəni, bu təşəbbüs nəticəsində məhkumun cinayət keçmişi barədə ilkin məlumat sorğusunun qadağan olunması həyata keçirilir və bu, əsasən işə qəbul zamanı bərabər imkanların təmin edilməsinə xidmət edir.

**"Ban the Box" siyasətinin əsas xüsusiyyətləri** bunlardır:

1) Ərizədə "məhkum olunmusunuzmu?" sualı yer almır.

2) Cinayət tarixçəsi yalnız işə qəbulun daha sonrakı mərhələsində, məsələn müsahibədən sonra və ya ilkin seçim edildikdən sonra soruşulur.

3) Bərabər şans yaradılır və beləliklə, keçmiş məhkumların bacarıqları, təhsili və təcrübəsi qiymətləndirilir, onlar yalnız keçmişlərinə görə avtomatik şəkildə rədd edilmir.

Fikrimizcə, Azərbaycanda probasiya qeydiyyatında olan şəxslərin məşğulluğunun təmin olunmasına münasibətdə "Qutunu ləğv et" (*"Ban the Box")* təşəbbüsünün pilot qaydada tətbiqi faydalı nəticələr verə bilər.

---

[164] Ban the Box: U.S. Cities, Counties, and States Adopt Fair Hiring Policies, https://www.nelp.org/insights-research/ban-the-box-fair-chance-hiring-state-and-local-guide/

[165] Agan, A., & Starr, S. (2017). Ban the Box, Criminal Records, and Statistical Discrimination: A Field Experiment. The Quarterly Journal of Economics, 133(1), 191–235.

- ***Sosial münasibətlərdə izolyasiya:*** Qohumlar, dostlar və qonşular bu şəxslərə qarşı məsafəli davranır, bu isə onların təcridinə gətirib çıxarır. Məhkumlar cəmiyyət tərəfindən etiketləndikcə, onlara qarşı daha çox təcrid olunma və kənarlaşdırılma baş verir. Onlar özlərini cəmiyyətə uyğunlaşmaqda aciz hiss edirlər və bu onların sosial əlaqələrini qura bilməməsinə səbəb olur.

- ***Özünə qarşı mənfi münasibət:*** Stiqmatizasiya özünüqavrayışı və özünə inamı zəiflədir, nəticədə yeni cinayətlər riski artır. Sosial etiketləmə və təcrid, onların özlərinə qarşı mənfi duyğularını artırır, bu da onların özlərinə olan inamı azaldır. Nəticə etibarilə, məhkumlar özlərini yenidən cəmiyyətdə qəbul etməkdə çətinlik çəkirlər və bu vəziyyət təkrarlanan cinayətkarlıq və sosial problemlərin artmasına səbəb ola bilər.

- ***Şəxsi münasibətlərdə problemlər:*** Cəmiyyətdəki damğalanma məhkumların şəxsi münasibətlər qurmaqda və sağlam əlaqələr yaratmaqda çətinlik yaşamasına səbəb olur. Bu onların şəxsi və ailə münasibətlərində, dostluqlarda sosial təcrid olunmasına səbəb olur. Əlavə olaraq, məhkumlar özlərini cəmiyyətdən kənar hiss edə bilərlər, bu da onların sosial mənəvi rifahına mənfi təsir edir. Bu təcridin nəticəsi olaraq, məhkumlar özlərini daim "cinayətkar" və "kənar" kimi hiss edə bilər, bu da onların emosional və psixoloji vəziyyətlərini daha da çətinləşdirir.

- ***Yeni cinayətlər və "sosial dönüş":*** Tədqiqatlar sübut edir ki, məhkumların sosial təcrid olunmaları onları daha çox cinayətə sövq edə bilir. Cəmiyyətin onları "cinayət-

kar" olaraq qəbul etməsi, məhkumların özlərini yenidən cəmiyyətdə bərpa etməsini çətinləşdirir. Bu, həmçinin məhkumların cəmiyyətə reinteqrasiyasını və cəmiyyətdəki mövqeyini bərpa etmə prosesini daha da çətinləşdirir.

**Cədvəl 3: Stereotiplərin və stiqmatizasiyanın məhkumların reinteqrasiyasına təsiri**

| Təsir | Təsvir |
|---|---|
| **Sosial təcrid** | Məhkumlar cəmiyyət tərəfindən etiketləndikcə, onlara qarşı daha çox təcrid olunma və kənarlaşdırılma baş verir. Bu həm psixoloji, həm də sosial çətinliklər yaradır. |
| **İş tapmaqda çətinliklər** | Cəmiyyətdəki mənfi etiketlənən və "cinayətkar" olaraq qəbul edilən məhkumlar, iş tapmaqda ciddi maneələrlə üzləşirlər. Bu, sosial və iqtisadi vəziyyətlərini daha da çətinləşdirir. |
| **Şəxsi münasibətlərdə çətinliklər** | Cəmiyyətdəki damğalanma, məhkumların şəxsi münasibətlər qurmaqda və sağlam əlaqələr yaratmaqda çətinlik yaşamasına səbəb olur. Bu onların sosial təcrid olunmasına gətirib çıxarır. |
| **Psixoloji təzyiq və özünə inamın itirilməsi** | Təkrarlanan sosial etiketləmə və təcrid, məhkumların özünə inamını azaldır və bu onların cəmiyyətə reinteqrasiyasını çətinləşdirir. |
| **Təkrarlanan cinayətkarlıq və "sosial dönüş"** | Stiqma və sosial təcrid məhkumları yenidən cinayətə çəkə bilər, bu isə sosial təcridin və təkrarlanan cəzanın daha da dərinləşməsinə səbəb olur. |

Məhkumların cəmiyyətə reinteqrasiyasını asanlaşdırmaq, habelə **stereotipləri və stiqmatizasiyanı aradan qaldırmaq məqsədilə bir sıra nəzəriyyələr** irəli sürülmüşdür.

1) **Sosial ədalət nəzəriyyəsi** (əsas nümayəndəsi Amerikalı alim John Reylz) cəmiyyətin sosial strukturunun və

mədəniyyətinin, xüsusən də məhkumların reabilitasiyasına və reinteqrasiyasına necə təsir etdiyini izah edir. Reylz ədalətin yalnız hüquqi baxımdan deyil, həm də iqtisadi və sosial struktur baxımından qiymətləndirilməsinin lazım olduğunu vurğulayır. Bu yanaşmaya görə, sosial ədalət hər bir fərdin bərabər imkanlara sahib olmasını, sosial izolyasiyanın və təcridin qarşısının alınmasını və cəmiyyətin bütün üzvlərinin bərabər hüquqlara sahib olmasını nəzərdə tutur. Məhkumlara, yalnız cinayətə görə cəza almış şəxslər olaraq deyil, həm də cəmiyyətin sosial strukturlarında mənfi təsirə məruz qalan fərdlər olaraq baxılmalıdır.[166] Sosial ədalət nəzəriyyəsi məhkumların yenidən cəmiyyətə reinteqrasiyasını təmin edərkən onların hüquqlarını qorumağın vacibliyini vurğulayır. Bununla yanaşı, sosial ədalət cəmiyyətin ümumi strukturunun daha inklüziv olması, sosial dəstək şəbəkələrinin inkişaf etdirilməsi və sosial bərabərliyin təmin olunmasını təklif edir.

**2) Restorativ (bərpaedici) ədalət nəzəriyyəsi** (əsas nümayəndəsi J. Breitveit) məhkumların cəmiyyətə reinteqrasiyasını asanlaşdırmaq məqsədilə restorativ ədalət yanaşmalarının tətbiqini tövsiyə edir. Bu yanaşma, cəmiyyətin məhkumlara qarşı daha anlayışlı olmasını və onların cəmiyyətə qayıtmasına şərait yaratmaq məqsədini güdür. Restorativ ədalət yalnız məhkumun təqsirini qəbul etməsini və cəmiyyətə təzminat ödəməsini deyil, həm də cəmiyyətin üzvlərini məhkumlarla yenidən əlaqə qurmağa təş-

166 Rawls, J. (1971). A Theory of Justice. Harvard University Press.

viq edir.[167] Bu yanaşma, məhkumların yalnız özlərini təkrarlanan cəzadan qurtarmağa deyil, həm də sosial adaptasiya və reabilitasiya prosesində uğur qazanmalarına kömək edir.

3) **Mədəni uyğunlaşma nəzəriyyəsi** (əsas nümyəndəsi ABŞ-da fəaliyyət göstərən koreyalı-amerikalı tədqiqatçı Young Yun Kim) məhkumların cəmiyyətə reinteqrasiyasını yalnız sosial strukturların deyil, həm də cəmiyyətin mədəniyyəti, davranış qaydaları və dəyərləri ilə əlaqələndirir. Cəmiyyətin mədəniyyətinin məhkumlara qarşı necə formalaşdığı, onların keçmişlərini necə dəyərləndirdiyi və onlara qarşı necə münasibət bəslədiyi, onların cəmiyyətdə öz yerini tapmağına birbaşa təsir göstərir.[168]

Young Yun Kimin nəzəriyyəsi əsasən, bu ideyaya söykənir ki: Fərd yeni mədəni və sosial mühitə düşdükdə, ilkin olaraq stress, mədəni şok və uyğunlaşma çətinlikləri yaşayır, lakin zamanla bu proses onun şəxsiyyətində inteqrativ və inkişaf yönümlü dəyişikliklərə səbəb olur. Bu uyğunlaşma dinamik, daima inkişaf edən və qarşılıqlı bir proses kimi təsvir olunur. Nəticədə fərd "çoxmədəniyyətli mənlik" qazanır - həm əvvəlki kimliyini qoruyur, həm də yeni mühitlə harmonik münasibət qurmağı bacarır.

Mədəni uyğunlaşma məsələlərinə dair yanaşmalarda vurğulanan əsas məqam, cəmiyyətin daha inklüziv və qə-

[167] 44. Braithwaite, J. (1989). Crime, Shame, and Reintegration. Cambridge University Press.

[168] Kim, Y. Y. (2001). Becoming Intercultural: An Integrative Theory of Communication and Cross-Cultural Adaptation. Sage Publications.

buledici olmasıdır. Bu yalnız təhsil və sosial dəstək şəbəkələrinin genişləndirilməsi ilə deyil, həm də cəmiyyətin daha azad fikirli, fərqlilikləri qəbul edən bir struktura çevrilməsi ilə mümkün olur. Cəmiyyət məhkumları yalnız keçmişləri ilə dəyərləndirməyərək, onların yeni həyatlarına müsbət perspektivlə yanaşarsa, onların reinteqrasiyası daha asan və davamlı olacaqdır.

Azadlıqdan məhrumetmə müəssisəsi öz dəyərləri, normaları və qaydaları olan qapalı submədəniyyət formalaşdırır. Azadlığa çıxan şəxs isə fərqli – açıq, kompleks və çoxistiqamətli cəmiyyət mühitinə qayıdır. Bu, sanki bir mədəniyyətdən digərinə keçid kimidir.

Fikrimizcə, mədəni uyğunlaşma nəzəriyyəsi reinteqrasiya və stiqmaya qarşı mübarizə kontekstində olduqca faydalı nüanslarla zəngindir. **Birincisi, cəmiyyətin keçmiş məhkumlara qarşı mənfi münasibəti, stereotiplər və diskriminasiya** onlarda özünəinamın itməsi, yalnızlıq, mühitə yadlaşma kimi simptomlara səbəb olur – bu isə mədəniyyət şokuna oxşardır. **İkincisi, uyğunlaşma üçün kommunikasiya vacibdir**. Kimin nəzəriyyəsində olduğu kimi, keçmiş məhkumların da reinteqrasiyasında ünsiyyət bacarıqları, ictimai əlaqələr, peşə təlimləri, sosial dəstək və psixoloji yardım vacib rol oynayır. **Üçüncüsü isə dəstək proqramları və pozitiv sosial mühit** şəraitində keçmiş məhkum cəmiyyətin bir üzvü kimi yenidən formalaşa və inteqrasiya olunmuş şəxsiyyət halına gələ bilər.

**Stiqma ilə mübarizədə** və cəmiyyətə reinteqrasiyanın psixoloji yükünün azaldılmasında **psixososial dəstək proqramlarının və sosial işçilərin rolu** ön plana çıxır.

**Psixososial dəstək proqramları** və **sosial işçilərin rolu** məhkumların cəmiyyətə reinteqrasiyasını asanlaşdıran mühüm yanaşmalardır. Sosial işçilər və psixoloji dəstək proqramları məhkumların cəmiyyətə uyğunlaşmalarına və özlərini sosial münasibətlərdə daha yaxşı hiss etmələrinə kömək edir. Bu proqramlar, məhkumlara stiqma ilə mübarizə aparmağa və yeni sosial şəbəkələr qurmağa dəstək verir.

Brennan və Van Brunschot məhkumların reabilitasiyasına dair sosial dəstək şəbəkələrinin əhəmiyyətini vurğulayır və bu dəstəyin onların cəmiyyətə adaptasiya etmələri üçün mühüm rol oynadığını qeyd edirlər.[169]

Restorativ ədalət proqramlarının effektivliyi haqqında çoxsaylı tədqiqatlar aparılmışdır. Tədqiqatlar göstərir ki, bu yanaşma, cinayətkarların cinayətlərinin nəticələrini daha dərindən anlamalarına və cəmiyyətə reinteqrasiyasına kömək edir.

1) Reinteqrasiya və davranış dəyişiklikləri: Restorativ ədalət proqramlarının ən böyük üstünlüklərindən biri, cinayətkarların yalnız cəzalandırılmaqla deyil, həm də sosial davranışlarını dəyişdirmək üçün müəyyən imkanlar əldə etmələridir.

---

[169] Brennan, P. A., & Van Brunschot, E. A. (2013). Crime, Stigma, and the Reentry of Ex-Offenders: A Critical Examination of the Societal Impacts of the U.S. Criminal Justice System. Social Issues, 59(4), 1-22.

2) **Zərərçəkmiş şəxslərin rəyləri və psixoloji dəstək**: Zərərçəkmiş şəxslər üçün restorativ ədalət prosesi onların hadisəyə qarşı emosional reaksiyalarını idarə etmələrinə və şəfa tapmalarına kömək edir. Prof. Hovard Zehr restorativ ədalət prosesində qurbanların öz hislərini ifadə etmələrinin, onların psixoloji sağlamlığını yaxşılaşdırdığını və hadisənin öhdəsindən gəlməyə kömək etdiyini vurğulamışdır.[170] Bu yanaşma qurbanların məmnuniyyəti və öz həyatlarına daha tez qayıda bilmələri ilə nəticələnir.

3) **Cəmiyyətə qayıtma (Reinteqrasiya prosesi)**: Restorativ ədalət, məhkumların sosial təcrid olunmasının qarşısını alır və onların cəmiyyətdə qəbul edilməsinə kömək edir. Proqramlar məhkumlara cəmiyyətlə əlaqələrini bərpa etməyə, dostluqlar qurmağa və sosial fəaliyyətlərdə iştirak etməyə imkan verir. Bazemore və Umbreit tərəfindən aparılan tədqiqatlar, restorativ ədalətin, məhkumların cəmiyyətə qayıtmağı və iş tapmağı asanlaşdırdığını göstərmişdir.[171]

Belə qənaətə gəlmək olar ki, restorativ ədalət proqramları məhkumların hüquqi cəzalandırılmasından daha çox, onların cəmiyyətə uyğunlaşmalarına, sosial əlaqələrini bərpa etmələrinə və gələcəkdə daha müsbət bir davranış sərgiləmələrinə imkan yaradır. Bu yanaşmanın effektivli-

---

[170] Howard Zehr, Little Book of Restorative Justice, https://www.ojp.gov/ncjrs/virtual-library/abstracts/little-book-restorative-justice

[171] Bazemore, G., & Umbreit, M. (2001). A Comparison of Four Restorative Conferencing Models. Juvenile Justice Bulletin.

yi, məhkumların və qurbanların şəxsi inkişafı, sosial inteqrasiya və cinayətlərin təkrarlanmasının qarşısının alınması baxımından böyük əhəmiyyət daşıyır.

Beləliklə, stereotiplər və stiqmatizasiya, məhkumların cəmiyyətə reinteqrasiyasını çətinləşdirən ən böyük maneələrdən biridir. Bu sosial fenomenin həlli yalnız hüquqi və sosial proqramlarla deyil, həm də cəmiyyətin təhsilinə, sosial anlayışa və dəstəyə əsaslanan genişmiqyaslı yanaşma ilə mümkündür. Məhkumların cəmiyyətə inteqrasiyasını asanlaşdırmaq üçün, sosial dəstək şəbəkələrinin qurulması, təhsil səviyyəsinin artırılması və restitutiv ədalət yanaşmalarının genişləndirilməsi vacibdir. Cəmiyyətin anlayışlı olması və məhkumlara qarşı daha bərabərhüquqlu münasibət göstərilməsi, onların müsbət dəyişikliyə getmələrini və sosial normalara uyğunlaşmalarını dəstəkləyəcəkdir. Cəmiyyətin məhkumlara qarşı yanaşması, onların sosial həyatına və cəmiyyətdəki yerinə böyük təsir göstərir. Məhkumların cəmiyyətə reinteqrasiyası, sadəcə onların cinayətkar keçmişini aradan qaldırmağa deyil, həm də cəmiyyətin bu şəxslərə qarşı münasibətinin dəyişdirilməsinə yönəlmiş kompleks bir prosesdir. Bu baxımdan, sosial ədalət nəzəriyyəsi, mədəni uyğunlaşma məsələləri, stiqma və stereotiplər kimi mövzular ətrafında irəli sürülən elmi yanaşmalar əhəmiyyətlidir.

## 4.4. Azərbaycan probasiya fəaliyyətində sosial adaptasiya yeni trend kimi

Azərbaycanın probasiya fəaliyyətində son illərdə sosial adaptasiya məsələlərinə daha çox diqqət ayrılmağa başlanmışdır. Bu sahədəki yeniliklər cəmiyyətə yenidən reinteqrasiya olunmaq istəyən məhkumlara xüsusi yanaşmanı nəzərdə tutur. Hazırda Probasiya xidməti məhkumların sosial adaptasiyasını dəstəkləyən bir çox proqram və layihələr həyata keçirir.

Azərbaycanın hüquq-mühafizə orqanları, probasiya nəzarətində olan şəxslərə psixoloji və sosial dəstək vermək məqsədilə müasir elmi və praktik yanaşmalar tətbiq edir. Bu yanaşmalar, məhkumların həyat bacarıqlarını inkişaf etdirmək, peşə hazırlığı və təhsillə bağlı yeni layihələr həyata keçirmək və digər müsbət cəhətləri təmin etməkdən ibarətdir. Azərbaycan hüququ, beynəlxalq təcrübələrə uyğun olaraq, sosial adaptasiya və reabilitasiya məsələlərinə daha geniş yanaşır və bunun nəticəsində probasiya fəaliyyətində müsbət inkişaflar müşahidə olunur.

Sovet İttifaqının dağılmasından sonra Azərbaycan cinayət ədliyyə sistemi, sovet cəza fəlsəfəsinə xas olan bir çox cəza yönümlü xüsusiyyətləri qoruyub saxlamışdır. Sistemin əsas məqsədi hələ də intiqam və çəkindirmə üzərində qurulmuşdu, təqsirkarların reabilitasiyası və cəmiyyətə reinteqrasiyası isə diqqətdən kənarda qalırdı.[172] Alternativ cəzalara nə cəmiyyət, nə də hüquq-mühafizə sub-

[172] Dirk van Zyl Smit, D., & Appleton, C. (2016). Life Imprisonment: A Global Human Rights Analysis. Harvard University Press.

yektləri tərəfindən güvən vardı, reinteqrasiya mexanizmləri isə demək olar ki, mövcud deyildi.

Lakin Avropa hüquq standartları və insan hüquqları diskursunun təsiri ilə Azərbaycan cəza siyasətini tədricən yenidən istiqamətləndirmişdir. Bu transformasiya, əslində, 2000-ci ildə "yumşaq ədalət" konsepsiyasının meydana çıxması ilə yeni mərhələyə qədəm qoymuşdur – bu yalnız cəza verməklə kifayətlənməyən, eyni zamanda reabilitasiya, maarifləndirmə və reinteqrasiyanı önə çəkən hüquqi və etik çərçivədir.[173]

Bu gün Azərbaycanda probasiyada ***məhkumların adaptasiya, reabilitasiya və reinteqrasiyası kimi amillər prioritet hesab edilir.*** 2024-cü ilin ortalarından başlayaraq, islahatlar hüquqi formallıqdan praktik reabilitasiyaya yönəlmişdir. 4 oktyabr 2024-cü il tarixində Probasiya xidmətində Sosial adaptasiya və reabilitasiya şöbəsinin yaradılması bu istiqamətdə dönüş nöqtəsi oldu və sistemin cəza yönümlü nəzarətdən reinteqrasiyaya keçidini simvollaşdırdı.

2024-cü ilin sonlarından başlayaraq, əsas strategiyalardan biri ali təhsil müəssisələri vətəndaş cəmiyyəti və digər dövlət qurumları ilə əməkdaşlığın gücləndirilməsi olmuşdur. Probasiya xidməti məhkumlara sosial-psixoloji və hüquqi dəstək göstərilməsi məqsədilə aşağıdakı qurumlarla Əməkdaşlıq haqqında memorandumlar və tədbirlər plan-

[173] Council of Europe. (2010). Recommendation CM/Rec(2010)1 on the Council of Europe Probation Rules.

ları imzalamışdır: Azərbaycan Universiteti (29 oktyabr 2024), Bakı Dövlət Universiteti (24 dekabr 2024), Sumqayıt Dövlət Universiteti (16 may 2025), Dövlət Məşğulluq Agentliyi (14 may 2025), "Ümidli Gələcək" Sosial Təşəbbüslər İctimai Birliyi (03 fevral 2025).

Probasiya məmurları artıq zərərçəkmişlərlə də işləməyə, onlara və təqsirkar şəxslərə psixososial dəstək göstərməyə başlamışdır. 2024-cü ilin statistikası bu tendensiyanı təsdiqlədi: 2023-cü illə müqayisədə qapalı müəssisələrə göndərilən şəxslərin sayı 4 dəfə azalmışdır. 2025-ci ildə bərpa yönümlü ədalətə dair pilot layihələrə start verilmiş, sertifikatlı mediatorların iştirakı ilə barışdırıcı yanaşmalara keçid baş vermişdir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi və Sosial Xidmətlər Agentliyi ilə əməkdaşlıq nəticəsində probasiya nəzarətində olan şəxslər məşğulluq, özünü məşğulluq və peşə hazırlığı proqramlarına cəlb olunmağa başlamışdır. Bu, çoxşaxəli və çoxtərəfli yanaşmanın tətbiqinə sübutdur. Probasiya xidməti, həmçinin Vəkillər Kollegiyası, Mediasiya Şurası, Elm və Təhsil Nazirliyi, Gənclər Fondu ilə əməkdaşlıq edir. Bu tərəfdaşlıqlar qadınlar və yetkinlik yaşına çatmayanlarla işə xüsusi diqqət yetirir, onlara uyğunlaşdırılmış təhsil, psixoloji dəstək və reinteqrasiya proqramları təqdim edir.

Bu gün Azərbaycanın reabilitasiya yönümlü probasiya islahatlarının mərkəzində 3 əsas amil dayanır:

**1) Çoxşaxəli model:** Probasiya idarəçiliyində hüquqi, psixoloji və sosial xidmətlərin inteqrasiyası təmin edilmişdir.

**2) Beynəlxalq inteqrasiya:** Azərbaycan 13 noyabr 2024-cü il tarixdə Avropa Probasiya Konfederasiyasına (CEP) üzv olmuşdur.

**3) İnstitusional potensialın artırılması və ictimai iştirakçılıq:** Maarifləndirmə kampaniyaları və təlim proqramları ictimai və institusional baxış bucaqlarını dəyişmişdir.

Beləliklə, Azərbaycanın probasiya islahatı cinayət ədliyyəsinə dair hüquqi və sosial baxışların köklü şəkildə dəyişdiyini əks etdirir. Reabilitasiya, reinteqrasiya və insan ləyaqətinin qorunması kimi dəyərləri ön plana çəkən bu proses, cəmiyyət yönümlü və Avropa standartlarına uyğun ədalət sisteminə keçidin göstəricisidir. Bu məqalədə sənədləşdirilən institusional və mədəni dəyişikliklər göstərir ki, dayanıqlı cəza islahatları yalnız hüquqi innovasiya deyil, həm də sektorlararası əməkdaşlıq və ictimai dəstək tələb edir.

# V FƏSİL

# PROBASİYA FƏALİYYƏTİNDƏ REABİLİTASİYA PROSESİNİN ƏSAS ASPEKTLƏRİ

*5.1. Probasiya fəaliyyətində reabilitasiyanın anlayışı, məqsədləri və formaları*
*5.2. Məhkumlara psixoloji dəstək və məsləhət xidmətlərinin əhəmiyyəti*
*5.3. İctimai dəstəyin reabilitasiyada rolu*
*5.4. Asılılığı olan şəxslərin reabilitasiyası: problemlər və onların aradan qaldırılması yolları*
*5.5. Risk qiymətləndirilməsi və fərdi nəzarət planlarının hazırlanması*
*5.6. Məhkəməyədək məruzənin xüsusiyyətləri və növləri*

## 5.1. Probasiya fəaliyyətində reabilitasiyanın anlayışı, məqsədləri və formaları

Məhkumların reabilitasiyası cəmiyyətə reinteqrasiya, yeni cinayətlərin azaldılması və sosial adaptasiyanın təmin olunması baxımından mühüm əhəmiyyət kəsb edir. Bu fəsildə biz reabilitasiya ilə bağlı həm elmi yanaşmaları təhil edəcək, həm də praktik təcrübələrə diqqət yetirəcəyik.

**Terminologiya: Reabilitasiya termini** latın mənşəli *"rehabilitatio"* sözündən yaranmışdır və ***"yenidən qabiliyyət qazandırma, əvvəlki hüquq və ya statusun bərpası"*** mənasını daşıyır. Hüquqi kontekstdə bu anlayış ilk dəfə

Roma hüququnda "***restitutio in integrum***" (lat. – əvvəlki vəziyyətə qaytarılma) prinsipi ilə əlaqələndirilmişdir. Bu prinsipə görə, fərdin hüquq və imtiyazları müəyyən hallarda tam şəkildə bərpa edilə bilərdi.

Elmi ədəbiyyatlarda reabilitasiya termininə müxtəlif, lakin mahiyyət etibarilə eyni olan təriflər verilmişdir.

**Reabilitasiya** - hüquq pozuntusu törətmiş şəxsin cəmiyyətə yenidən inteqrasiyasını təmin etmək məqsədilə həyata keçirilən psixoloji, sosial və davranış yönümlü tədbirlər kompleksidir. Reabilitasiyanın məqsədi məhkumun qanunlara uyğun həyat tərzinə keçidini, sosial rolları mənimsəməsini və yeni cinayətlərinin qarşısının alınmasını təmin etməkdir.[174]

Reabilitasiya anlayışı məhkumların cəmiyyətə inteqrasiyasını dəstəkləyən kompleks tədbirləri özündə ehtiva edir. Bu prosesin başlıca məqsədi məhkumların yenidən cinayət törətmə riskini azaltmaq, onlara iş, sosial bacarıqlar və psixoloji dəstək vasitəsilə yeni həyat qazanmaq imkanı yaratmaqdır.

Konkret olaraq **probasiya kontekstində reabilitasiya dedikdə isə** probasiya nəzarətində olan şəxsin sosial mühitə uyğunlaşması üçün həyata keçirilən sosial-psixoloji, hüquqi, təşkilati və pedaqoji tədbirlərin məcmusu başa düşülür. Bu tərifə "pedoqoji" ifadəsinin əlavə edilməsi ona görə əhəmiyyətlidir ki, faktiki olaraq bu gün reabilita-

[174] Andrews, D. A., & Bonta, J. (2010). The Psychology of Criminal Conduct. Routledge

siya daha çox məhkumların təlim və tədris metodları ilə maarifləndirilməsinə əsaslanan pedaqoqların fəaliyyəti kimi də çıxış edir.

Orta əsrlərdə reabilitasiya anlayışı əsasən siyasi və dini kontekstdə istifadə edilmiş, sonrakı dövrlərdə isə cinayət hüququnun tərkib hissəsinə çevrilmişdir. Xüsusilə, XIX əsrdə penitensiar sistemlərin inkişafı ilə reabilitasiya cəzaçəkmə müəssisələrində məhkumların islahı və onların cəmiyyətə yenidən qazandırılması məqsədilə tətbiq olunmağa başlanmışdır. XX əsrin ikinci yarısından etibarən isə reabilitasiya anlayışı yalnız hüquqi çərçivədə deyil, sosial iş, psixologiya və iqtisadiyyat kimi sahələrdə də geniş şəkildə işlədilməyə başlamışdır.

**Reabilitasiya ilə bağlı nəzəriyyələr.** Reabilitasiya prosesi multidissiplinar yanaşma tələb edən bir sahədir və kriminologiya, sosial iş, hüquq və psixologiya kimi müxtəlif elmi istiqamətlərin kəsişməsində dayanır.

**Reabilitasiya haqqında 3 nəzəriyyə vardır:**

1) Durkheimin sosial inteqrasiya nəzəriyyəsi,

2) Mertonun anomiya konsepsiyası,

3) Bekerin etiketlənmə nəzəriyyəsi.

Durkheimin **sosial inteqrasiya nəzəriyyəsinə əsasən,** fərdlərin cəmiyyətə tam inteqrasiyası sosial normativ strukturların möhkəmliyi ilə bağlıdır. Onun fikrincə, cəmiyyətin sabitliyi və birliyinin qorunması üçün sosial institutlar hər bir fərdi inteqrasiya edə bilməlidir. Bu baxımdan, reabilitasiya məhkumların cəmiyyətin qəbul etdiyi sosial normalara və dəyərlərə yenidən adaptasiyasını tə-

min etməlidir. Əgər cəmiyyət məhkumları qəbul etməzsə və onları marginallaşdırarsa, bu onların yeni cinayətə meyilliliyini artıracaq və retsidivizmin yüksəlməsinə səbəb olacaqdır.[175]

Mertonun **anomiya nəzəriyyəsinə görə,** sosial strukturların qeyri-bərabərliyi və sosial institutların qeyri-effektivliyi cinayətkarlığın artmasına səbəb olur. O qeyd edirdi ki, cəmiyyətdə mövcud olan imkan bərabərsizliyi bəzi fərdləri qanunsuz yollarla uğur qazanmağa sövq edir. Bu baxımdan, reabilitasiya proqramları məhz bu problemi həll etməyə yönəlib, çünki onlar məhkumlara qanuni yollarla sosial uğura çatmaq üçün yeni imkanlar yaradır. Təhsil, peşə hazırlığı və məşğulluq proqramları sabiq məhkumların yenidən cinayətə qayıtmalarının qarşısını almağa xidmət edir.[176]

Bekerin **etiketlənmə nəzəriyyəsinə** əsasən, sabiq məhkumlar cəmiyyət tərəfindən damğalandıqda yenidən cinayətə meyilli olurlar. Onun fikrincə, bir fərd "cinayətkar" və ya "məhkum" etiketi ilə tanındıqda, cəmiyyət həmin fərdi sosial baxımdan xaric edir və bu hal həmin şəxsin özünü həmin etiketi daşımağa məcbur etməsinə səbəb olur. Bu səbəbdən, reabilitasiya siyasəti sabiq məhkumların sosial inteqrasiyasını asanlaşdırmalı, onların cəmiyyətə yenidən adaptasiya olunmalarını təmin etməli və stereotiplərin aradan qaldırılmasına yönəlməlidir.

---

175 Durkheim, É. (1893). De la division du travail social. Paris: Alcan.
176 Merton, R. K. (1938). Social Structure and Anomie. American Sociological Review, 3(5), 672–682.

Müasir dövrdə reabilitasiya anlayışı, xüsusilə məhkumların hüquqlarının qorunması və onlara insani münasibətlə yanaşılması sahəsində mühüm yer tutur. Bu anlayış yalnız məhkumların cəmiyyətə yenidən inteqrasiyasını təmin etmək məqsədini daşımır, həm də onların psixoloji, sosial və tibbi ehtiyaclarını nəzərə alaraq, bütün aspektləri ilə yanaşma təklif edir.

Probasiyada **reabilitasiyanın əsas məqsədləri** aşağıdakılardır:

1)Yeni cinayətlərin qarşısını almaq;

2) Sosial bacarıqları artırmaq;

3) Məşğulluq imkanlarını gücləndirmək;

4) Psixoloji stabilliyi təmin etmək;

5) Fərdi məsuliyyət hissini inkişaf etdirmək;

6) Ailə və cəmiyyətlə əlaqələri bərpa etmək.

**Reabilitasiya ilə bağlı beynəlxalq normalar:** Məhkumların reabilitasiyası müasir hüquq sistemlərində yalnız cəzanın icrası mərhələsi ilə məhdudlaşmır; bu, insan hüquqları və sosial ədalət kontekstində mühüm əhəmiyyət kəsb edən normativ anlayışa çevrilmişdir. Beynəlxalq hüquq, xüsusilə BMT və Avropa Şurası bu istiqamətdə bir sıra mühüm hüquqi sənədlər qəbul etmişdir. Bu sənədlər reabilitasiya prosesini, insan ləyaqətinin qorunması və cəmiyyətə reinteqrasiyanın təmin olunması baxımından fundamental hüquq kimi tanıyır.

**BMT-nin 2015-ci il tairixli "Məhkumlarla rəftarın minimum standart qaydaları"nda** (Nelson Mandela Qaydaları) reabilitasiyanın əsas aşağıdakı komponentləri qeyd olunmuşdur:

- **Hüquqi dəstək:** Məhkumlara hüquqi yardımların təmin edilməsi, onların hüquqlarının pozulmaması və hər hansı bir haqsız müalicə ilə üzləşməməsi üçün əhəmiyyətlidir.

- **Sosial dəstək:** Məhkumların cəmiyyətə yenidən inteqrasiyasını təmin etmək üçün sosial bacarıqların inkişaf etdirilməsi, ailə və sosial əlaqələrin qorunması vacibdir. Bu, cəmiyyətə uyğun davranışların öyrədilməsi və sosial mövqelərinin yaxşılaşdırılması məqsədilə həyata keçirilir.

- **Psixoloji dəstək:** Məhkumların psixoloji rifahı və emosional vəziyyəti ilə bağlı dəstəyin təmin edilməsi də son dərəcə vacibdir. Bu onların streslə mübarizə, keçmişdəki travmaların aradan qaldırılması və gələcəkdəki psixoloji vəziyyətlərinin yaxşılaşdırılması üçün mühüm addımdır.

Reabilitasiyanı təmin edən bütün bu tədbirlər, məhkumların yalnız cəzalandırılması məqsədini daşımaqla kifayətlənmir, həm də onlara cəmiyyətə uyğun həyat sürmələri üçün lazım olan alətləri təqdim edir. Bu yanaşma, hüquq pozuntusu etmiş şəxslərin müalicəsi və təhsili sahəsindəki yeni bir müstəvi təqdim edir.

**BMT-nin** "Azadlıqdan məhrumetmə ilə bağlı olmayan tədbirlər haqqında minimum standart qaydaları"nda **(Tokio Qaydaları)** probasiya, mediasiya və digər alternativ cəzaların və tədbirlərin reabilitasiya məqsədi daşıdığı vurğulanır.[177]

---

[177] United Nations Standard Minimum Rules for Non-custodial Measures (Tokyo Rules),

**Avropa Şurası** tərəfindən qəbul edilən konvensiyalar da reabilitasiyanın hüquqi çərçivəsini gücləndirən mühüm sənədlərdir. İnsan hüquqları və azadlıqlarının müdafiəsinə dair Avropa Konvensiyası (1950) və Avropa Məhkəməsinin presedent hüququnda məhkumların hüquqlarının qorunması ilə bağlı mühüm müddəalar yer almışdır. Bu sənədlər reabilitasiyanın cəzanın tək başına kifayət etmədiyini, eyni zamanda məhkumun cəmiyyətə uyğunlaşması, hüquqi və psixoloji dəstəklə təmin edilməsinin vacibliyini təsbit edir.

Avropa Probasiya Qaydaları probasiya xidmətlərinin fəaliyyətində reabilitasiyanı mərkəzi məqsəd kimi tanıyır. Bu qaydalar çərçivəsində fərdi ehtiyaclara əsaslanan müdaxilələr, sosial inteqrasiya və məsuliyyət hissinin inkişafı, təhsil, məşğulluq və psixososial dəstək proqramları, icma və təşkilatlarla əməkdaşlıq probasiya nəzarətində olan şəxslərin cəmiyyətə yenidən qazandırılması üçün əsas mexanizmlər kimi qəbul olunur.[178]

**Avropa Şurasının qəbul etdiyi bəzi əsas prinsiplər** və qaydalar reabilitasiyanın təhlilində diqqətə alınmalıdır:

- ***Bərabərlik və qeyri-diskriminasiya:*** Məhkumlar cəmiyyətdəki digər şəxslərdən fərqli olaraq heç bir ayrı-seçkilik edilmədən reabilitasiya olunmalıdır. Onlara tibbi və

---

https://www.ohchr.org/sites/default/files/Documents/ProfessionalInterest/tokyorules.pdf

[178] Recommendation CM/Rec(2010)1 of the Committee of Ministers to member states on the Council of Europe Probation Rules. https://rm.coe.int/1680706ab3

psixoloji dəstək, hüquqi yardımlar və sosial reabilitasiya proqramları bərabər şəkildə təmin edilməlidir.

- ***Ədalətli mühakimə və hüquqların qorunması:*** Məhkumların hüquqlarının qorunması, cəzanın ölçüsünün və müddətinin insani ölçülərə uyğun olması reabilitasiya sisteminin əsasını təşkil edir. Bu, məhkumların cəzalandırılmadan əvvəl reabilitasiya proqramları vasitəsilə bu prosesə uyğun şəkildə hazırlanmalarını nəzərdə tutur.
- ***Fərdi yanaşma:*** Reabilitasiya yalnız universal qaydalara əsaslanmamalı, hər məhkumun fərdi xüsusiyyətləri, keçmiş təcrübəsi və sosial mövqeyi nəzərə alınmalıdır.

Məhkumların reabilitasiyası ilə bağlı yuxarıda da toxunduğumuz Avropa İnsan Hüquqları Məhkəməsinin yanaşması və presedent hüququ da maraqlıdır. **Avropa Məhkəməsi** bir sıra qərarlarında (məsələn, ***Khoroshenko v. Russia, 2015***) vurğulamışdır ki, həbsxana şəraitində reabilitasiya imkanlarının olmaması insan ləyaqətinin pozulması kimi qiymətləndirilə bilər. Məhkəmə hesab edir ki, reabilitasiya hüquqi cəzanın tərkib hissəsi və insan hüquqlarının ayrılmaz parçasıdır.[179]

Bu işdə Konstitusiya Məhkəməsinin qərarlarına istinad edən hökumət iddia edirdi ki, tətbiq olunan məhdudiyyətlər cinayət törətmiş şəxsin islahına xidmət edir. Lakin ərizəçinin saxlanma rejimi reinteqrasiya məqsədi daşımırdı; əksinə, onun təcrid olunmasına yönəlmişdi. Cinayət Mə-

---

[179] Khoroshenko v. Russia [GC] - 41418/04, Judgment 30.6.2015 [GC], https://hudoc.echr.coe.int

cəlləsinin icrası haqqında Məcəllədə ömürlük azadlıqdan məhrum edilmiş şəxsin iyirmi beş il cəza çəkdikdən sonra şərti azadlığa buraxılmağı tələb edə bilməsi imkanının nəzərdə tutulmasına baxmayaraq, ərizəçiyə tətbiq olunan olduqca sərt rejim ömürlük məhkumların ailələri ilə əlaqə saxlamasını qeyri-mümkün edir və bu da onların sosial reinteqrasiyasını və reabilitasiyasını təşviq etmək əvəzinə, ciddi şəkildə çətinləşdirirdi. Bu yanaşma, həmçinin Avropa İşgəncələr əleyhinə Komitəsinin (CPT) bu sahədəki tövsiyələrinə, həm də Rusiya tərəfindən 1973-cü ildən qüvvədə olan Mülki və Siyasi Hüquqlar Haqqında Beynəlxalq Paktın 10-cu maddəsinin 3-cü bəndinə, eləcə də bir sıra digər beynəlxalq sənədlərə zidd idi.

Bütün bu beynəlxalq hüquqi sənədlər birgə nəzərdən keçirildikdə, reabilitasiyanın yalnız hüquqi deyil, həm də sosial və psixoloji aspektləri ilə yanaşılmasının vacibliyi aydın olur. Reabilitasiya məhkumların cəmiyyətə uyğun olaraq yenidən daxil olmasına kömək etməli, onların cəzadan sonra sosial və iqtisadi həyatda aktiv iştirak etmələrini təmin etməlidir. Bu həm məhkumun, həm də ümumilikdə cəmiyyətin rifahına xidmət edir.

***Reabilitasiyanın növləri.*** Reabilitasiyanın aşağıdakı növləri vardır:

1) **Psixoloji reabilitasiya** –probasiya nəzarətində olan şəxslərə tətbiq edilən əsas reabilitasiya növü olub, davranış terapiyası, qəzəbə nəzarət, emosional tənzimləməni ifadə edir.

2) **Peşə və təhsil reabilitasiyası** –məhkumlara tətbiq olunan bacarıq yönümlü təlim, texniki kurslar peşə və təhsil proqramlarını əhatə edir.

3) **Ailə və sosial əlaqələrin bərpası** ailə terapiyası, sosial dəstək şəbəkələrini əhatə edir.

4) **Asılılıqdan azad olma proqramları -** narkotik, alkoqol və digər maddə asılılığına qarşı tibbi və psixoloji müdaxilələrdən ibarətdir.

5) **İctimai reinteqrasiya proqramları** icma layihələri, könüllü fəaliyyət, sosial xidmət dəstəyi özündə ehtiva edir.

Bundan başqa ədəbiyyatlarda **reabilitasiyanın formaları** da fərqləndirilir. Reabilitasiyanın formaları bəzi ölkələrə görə fərqli olsa da, beynəlxalq təcrübədə ***əsas metodlar*** aşağıdakılardır:

1) **Psixososial reabilitasiya** – Bu reabilitasiya forması məhkumlara psixoloji yardımın göstərilməsi, sosial bacarıqların inkişaf etdirilməsi və onların özünəinam hissinin artırılmasını hədəfləyir. Məhkumların həbsxanadan çıxdıqdan sonra cəmiyyətə inteqrasiyasını çətinləşdirən əsas faktorlardan biri psixoloji gərginlik, sosial təcrid və damğalanmadır. Psixososial reabilitasiya bu maneələri aşmaq üçün fərdi və qrup terapiyaları, psixoloji məsləhətlər və sosial dəstək proqramlarını əhatə edir. Beynəlxalq təcrübədə bu cür reabilitasiya proqramlarının məhkumların yenidən cinayət törətmə riskini azaltdığı sübut olunmuşdur. Məsələn, Norveç və Hollandiya kimi ölkələrdə psixososial

dəstək proqramlarının tətbiqi recidivizmin azalmasına mühüm təsir göstərmişdir.

2) **Təhsil və peşə reabilitasiyası** – Reabilitasiyanın bu forması məhkumlara yeni bacarıqların qazandırılması, peşəkarlıq səviyyəsinin artırılması və əmək bazarında rəqabət qabiliyyətinin təmin olunmasına yönəlib. Təhsil və peşə reabilitasiyası məhkumlara yeni ixtisaslar üzrə bilik və bacarıqlar əldə etməyə imkan yaradır ki, bu da onların iş tapmasını asanlaşdırır. Beynəlxalq təcrübədə göstərilmişdir ki, həbsxanada peşə təhsili və ya ali təhsil alan məhkumların işə düzəlmə ehtimalı daha yüksəkdir. Məsələn, ABŞ və Almaniyada həbsxanalar daxilində peşə kursları təşkil olunur və məhkumlara müxtəlif sahələr üzrə sertifikatlar verilir. Bu cür proqramlar onların azadlığa çıxdıqdan sonra əmək bazarında uğurla yer tutmasına kömək edir.

3) **Hüquqi və iqtisadi reabilitasiya** – Sabiq məhkumların iş bazarına qoşulmasını asanlaşdıran dəstək mexanizmləri, onların hüquqlarının bərpası və iqtisadi cəhətdən müstəqilliyinin təmin edilməsi mühüm əhəmiyyət kəsb edir. Çünki məhkumluq keçmişi olan şəxslər tez-tez iş tapmaqda çətinlik çəkir və bu da onların yenidən cinayət yoluna qayıtmasına səbəb ola bilər. Hüquqi və iqtisadi reabilitasiya proqramları sabiq məhkumların məşğulluğuna kömək edən qanunvericilik islahatları, işədüzəltmə agentlikləri və güzəştli kreditlər kimi mexanizmləri əhatə edir. Məsələn, bəzi ölkələrdə dövlət və özəl sektor əməkdaşlığı çərçivəsində xüsusi məşğulluq proqramları tətbiq

olunur ki, bu da onların qanuni yollarla iqtisadi müstəqillik əldə etməsinə şərait yaradır.

4) **Sosial reabilitasiya** – Məhkumların həbsxanadan çıxdıqdan sonra ailə, dostlar və sosial institutlarla əlaqələrinin bərpası və möhkəmləndirilməsi cəmiyyətə inteqrasiyanı asanlaşdırır. Ailədən və sosial mühitdən dəstək görməyən məhkumlar depressiya, sosial təcrid və yeni cinayət törətmə riski ilə qarşılaşırlar. Sosial reabilitasiya çərçivəsində ailə terapiyaları, cəmiyyətin maarifləndirilməsi və ictimai qəbulun artırılması kimi tədbirlər həyata keçirilir. Misal üçün, Kanadada və Skandinaviya ölkələrində keçmiş məhkumların ailələri ilə əlaqələrinin gücləndirilməsi üçün sosial işçilər tərəfindən xüsusi proqramlar hazırlanır və icra olunur.

5) **İnstitusional reabilitasiya** – Reabilitasiya mərkəzlərinin yaradılması və sabiq məhkumların bura cəlb olunaraq dəstək alması onların cəmiyyətə uğurlu inteqrasiyasına töhfə verir. Bu cür mərkəzlər məhkumların sosial, iqtisadi və psixoloji problemlərinin həllinə yönəlmişdir. İnstitusional reabilitasiya mərkəzlərində psixoloji yardım, hüquqi məsləhət, peşə hazırlığı və məşğulluq dəstəyi kimi xidmətlər göstərilir. Bu tip proqramlar xüsusilə Avropa və Şimali Amerika ölkələrində geniş yayılıb. Məsələn, İsveç və Finlandiyada sabiq məhkumların reabilitasiyası üçün xüsusi yaşayış mərkəzləri mövcuddur ki, burada onlar sosial adaptasiya dövründə dövlət və qeyri-hökumət təşkilatlarının dəstəyi ilə yeni həyata uyğunlaşırlar.

Bu reabilitasiya formalarının hər biri sabiq məhkumların cəmiyyətə uğurla reinteqrasiya olunmasına xidmət edir və onların yenidən cinayət törətməsinin qarşısını almağa kömək edir. Dövlət və qeyri-hökumət təşkilatlarının koordinasiyalı fəaliyyəti bu prosesin effektivliyini artırır və sabiq məhkumların hüquqlarının təmin olunmasına töhfə verir.

Dünyada müxtəlif ölkələrdə məhkumların reabilitasiyasına fərqli yanaşmalar mövcuddur. Skandinaviya ölkələrində məhkumların cəmiyyətə adaptasiyası və onların sosial reabilitasiyası əsas prioritet hesab edilir. Norveç modelində həbsxanalar reabilitasiya mərkəzləri kimi fəaliyyət göstərir və məhkumlar üçün təhsil, peşə təlimi və psixososial dəstək geniş tətbiq olunur. ABŞ-da "İkinci şans" proqramları çərçivəsində sabiq məhkumlara iş imkanları yaradılır və onların sosial adaptasiyasına yardım edilir. Avropa ölkələrində reabilitasiya hüquqi və sosial dəstək mexanizmləri ilə əlaqələndirilir və məhkumların iş bazarına çıxışı asanlaşdırılır.

Britaniyada "Asılılığının aradan qaldırılması proqramları" (Substance Misuse Programmes) və "Düşünmə bacarıqları proqramı" (Thinking Skills Programme) kimi reabilitasiya müdaxilələri mövcuddur.[180]

Azərbaycan kontekstində də reabilitasiya tədbirləri hüquqi bazaya əsaslanaraq həyata keçirilməlidir. İşsizlik səviyyəsinin azaldılması və peşə təlimlərinin genişləndiril-

[180] Guide to Group Work Programmes & Individual Interventions 2024, https://www.pbni.org.uk

məsi sabiq məhkumların yenidən cəmiyyətə inteqrasiyasını sürətləndirə bilər. Həmçinin hüquqi və sosial dəstək mexanizmlərinin gücləndirilməsi, reabilitasiya mərkəzlərinin yaradılması və ictimaiyyətin maarifləndirilməsi reabilitasiya prosesinin uğurlu olmasına mühüm töhfə verə bilər.

Bu yanaşmalar göstərir ki, reabilitasiyanın effektivliyi onun kompleks xarakterindən asılıdır və yalnız bir aspektə fokuslanmaq yetərli deyil. Həm hüquqi, həm sosial, həm də iqtisadi dəstək sistemlərinin paralel şəkildə işləməsi sabiq məhkumların uğurlu reabilitasiyası üçün vacibdir.

Beləliklə, beynəlxalq təcrübə göstərir ki, probasiya fəaliyyətində reabilitasiyanın uğurlu olması üçün dövlət və qeyri-hökumət təşkilatları, sosial işçilər, hüquqşünaslar, psixoloqlar və işəgötürənlər birgə fəaliyyət göstərməlidir. Qabaqcıl ölkələrdə tətbiq olunan reabilitasiya proqramları sabiq məhkumların əmək bazarına daxil olmasını, psixoloji və sosial dəstək almasını, onların cəmiyyətə yenidən inteqrasiya olunmasını təşviq edir. Reabilitasiyanın effektiv təşkili cinayətkarlıq səviyyəsinin azalmasına, sosial nizamın qorunmasına və ümumi ictimai təhlükəsizliyin güclənməsinə mühüm töhfə verə bilər.

## 5.2. Məhkumlara göstərilən psixoloji dəstək və məsləhət xidmətlərinin əhəmiyyəti

Probasiya fəaliyyətində reabilitasiya tədbirləri yalnız hüquqi nəzarət mexanizmi kimi deyil, həm də fərdin sosial adaptasiyasını və psixoloji rifahını təmin edən mərkəzi

islah mexanizmi kimi dəyərləndirilməlidir. Elmi və empirik sübutlar göstərir ki, psixoloji dəstək və sosial bacarıq proqramları, məhkumların cəmiyyətə uğurlu reinteqrasiyası və yeni hüquq pozuntularının qarşısının alınması üçün ən effektiv vasitələrdən biridir.

Müasir penoloji yanaşmalara görə, cəzanın məqsədi yalnız cəza vermək deyil, eyni zamanda fərdin həyatını dəyişmək və onun cəmiyyətə uğurlu reinteqrasiyasını təmin etməkdir.[181] Bu yanaşma xüsusilə psixoloji və sosial reabilitasiya tədbirlərinin əhəmiyyətini ön plana çıxarır.

Probasiyada cəzanın əsas məqsədi fiziki azadlıqdan məhrumetmə deyil, həmin şəxslərin həyatlarını yenidən qurmaq və cəmiyyətə uyğunlaşmalarını təmin etməkdir. Bu məqsədin həyata keçirilməsi üçün psixoloji və sosial dəstək çox vacibdir.

Reabilitasiya hüquq pozuntusu törətmiş şəxsin normativ davranışları mənimsəməsi, sosial rola qovuşması və qanunlara uyğun həyat tərzi sürməsi məqsədilə həyata keçirilən kompleks psixoloji, sosial və pedaqoji tədbirlər sistemidir.[182] Bu tədbirlərin başlıca məqsədi, cəzanın klassik izolyasiyaedici funksiyasından kənara çıxaraq, şəxsi dəyişdirməyə, travmaları aradan qaldırmağa və reinteqrasiyaya yönəlməkdir.

---

[181] Cullen, F. T., & Gendreau, P. (2000). Assessing correctional rehabilitation: Policy, practice, and prospects. Criminal Justice, 3, 109–175.

[182] Ward, T., & Maruna, S. (2007). Rehabilitation: Beyond the Risk Paradigm. Routledge.

Elmi tədqiqatlar göstərir ki, cinayət davranışı ilə psixoloji və sosial problemlər arasında birbaşa əlaqə mövcuddur. Stress, depressiya, posttravmatik sindrom, ailədaxili zorakılıq təcrübələri, aşağı təhsil səviyyəsi və sosial bacarıqların zəifliyi cinayətə meyilli davranışların əsas determinatları kimi tanınır.[183] Bu baxımdan reabilitasiya yalnız cəzanın icrası deyil, eyni zamanda psixoloji və sosial problemlərin aradan qaldırılmasına yönəlmiş dəstək sistemini əhatə etməlidir.

Cəzanın yalnız fiziki hissəsi reabilitasiya üçün kifayət deyil, çünki cinayətə meyilli davranışların arxasında əsasən fərdin psixoloji və sosial problemləri dayanır. Bu problemlər arasında stress, travmalar, ailə məsələləri və təhsilsizlik kimi çətinliklər mövcuddur. Məhkumların bu çətinlikləri aşmalarına kömək edəcək psixoloji dəstək proqramları onların cəmiyyətə reinteqrasiya prosesində mühüm rol oynayır.

Psixoloji dəstək proqramları məhkumların emosional stabilliyini bərpa etmək, keçmiş travmaları ilə işləmək, özünü dərk və qəbul prosesini gücləndirmək və sosial əlaqə qurma bacarıqlarını inkişaf etdirmək baxımından mühüm rol oynayır.[184] Əlavə olaraq, bu proqramlar onların ailə münasibətlərini bərpa etməsinə, iş tapmaq bacarıqları-

---

183 Andrews, D. A., & Bonta, J. (2010). The Psychology of Criminal Conduct (5th ed.). Routledge.

184 Davis, R. C. (2015). Psychological support for ex-offenders: Strategies and outcomes. Journal of Offender Rehabilitation, 54(6), 453–470.

nı artırmasına və cəmiyyətlə sağlam münasibət qurmasına şərait yaradır.

Tədqiqatlar sübut edir ki, psixoloji dəstək və məsləhət xidmətlərindən faydalanan sabiq məhkumların yeni cinayət törətmə ehtimalı 40%-dən çox azalır.[185] Bu effekt təkcə psixoloji yükün azaldılması ilə deyil, həm də sabiq məhkumun gələcək həyatına funksional və məqsədyönlü şəkildə hazırlaşdırılması ilə bağlıdır.

Psixoloji reabilitasiya fərdi və sosial bacarıqların inkişafını, emosional tarazlığın bərpasını və insanın sosial mühitdəki davranışlarını dəyişdirmək məqsədi güdür.

Sosial bacarıqlar – ünsiyyət qurmaq, əməkdaşlıq etmək, münaqişəni sülh yolu ilə həll etmək – məhkumun cəmiyyətə uğurla qayıtması üçün həyati əhəmiyyətə malikdir. Probasiya nəzarətində olan şəxslər tez-tez sosial münasibətlərin qurulmasında çətinliklər yaşayır və bu onların təkrar təcridinə səbəb ola bilər. Buna görə də sosial inteqrasiya bacarıqlarının inkişaf etdirilməsi həm fərdi rifah, həm də ictimai təhlükəsizlik baxımından vacibdir.[186]

Ümumiyyətlə, psixoloji reabilitasiya probasiya nəzarətində olan şəxslərin cəmiyyətə yenidən və dayanıqlı şəkildə uyğunlaşmasını təmin edən çoxşaxəli bir prosesdir. Bu prosesin əsas məqsədləri bunlardır: fərdi və sosial bacarıqların inkişafı, emosional stabilliyin bərpası, mənfi davranış nümunələrinin dəyişdirilməsi, sosial əlaqələrin və ailə

---

[185] Steurer, S., & Smith, L. (2003). Education Reduces Crime: Three-State Recidivism Study. Correctional Education Association.

[186] Maruna, S. (2001). Making Good: How Ex-Convicts Reform and Rebuild Their Lives. American Psychological Association.

münasibətlərinin bərpası, cinayətkar davranışın təməl psixoloji səbəblərinin aradan qaldırılması. Psixoloji reabilitasiya cəmiyyətin ümumi sosial harmoniya və təhlükəsizliyinə töhfə verməklə yanaşı, sabiq məhkumun layiqli və müstəqil vətəndaş kimi yaşamasına şərait yaradır.

**Psixoloji reabilitasiyanın aşağıdakı növləri** (psixoloji terapiya növləri) fərqləndirilir: 1) Fərdi terapiya; 2) Qrup terapiyası; 3) Psixoloji dəstək; 4) Ailə məsləhət xidmətləri.

*Cədvəl 4. Psixoloji terapiya növləri*

| Terapiya növü | Funksiyalar | Metodlar | Gözlənilən nəticələr | Qeydlər |
|---|---|---|---|---|
| **Fərdi terapiya** | Emosional problemlərin həlli, travmalarla işləmək | Koqnitiv restrukturizasiya | Stresin azaldılması, özünə nəzarətin yaxşılaşdırılması, özünə inamın artması | Fərdi ehtiyaclara fokuslanır |
| **Qrup terapiyası** | Sosial bacarıqların inkişafı, qrup daxilində dəstək | Qrup dinamikası, vəziyyətin müzakirəsi, ünsiyyət təlimləri | Kommunikasiyanın möhkəmləndirilməsi, empatiya inkişafı | İştirakçılar arasında dəstəyi stimullaşdırır |
| **Psixoloji dəstək** | Psixoloji vəziyyətin yaxşılaşdırılması, həyatda adaptasiya | Motivasiya ilə işləmək, şəxsi problemlərin həlli | Özünə inamın artması, uyğunlaşmanın yaxşılaşdırılması | Həyat münasibətləri ilə bağlı kömək göstərir |
| **Ailə məsləhət xidmətləri** | Ailə münasibətlərinin yaxşılaşdırılması, dəstək şəbəkəsinin yaradılması | Birgə məsləhətləşmələr, qarşılıqlı əlaqələrin yaxşılaşdırılması | Ailə bağlarının gücləndirilməsi, sosial dəstəyin artması | Həbsdən çıxdıqdan sonra adaptasiya üçün vacibdir |

Psixoloji reabilitasiya prosesində tətbiq olunan metodlar və xidmətlər, məhkumların cəmiyyətə reinteqrasiyasını asanlaşdıran və onların cinayətkarlıq meyilini azaltmağa kömək edən vacib alətlərdir. Bu xidmətlər həm fərdi yanaşmalarla, həm də qrup terapiyası vasitəsilə reabilitasiya

prosesini gücləndirir. Məhkumların psixoloji vəziyyətini yaxşılaşdırmaq, onların keçmiş travmalarını aşmalarına kömək etmək və sosial münasibətlərdəki çatışmaları həll etmək məqsədilə psixoloji dəstək proqramları mühüm rol oynayır.

**Fərdi terapiya** məhkumların şəxsi ehtiyaclarına və psixoloji vəziyyətlərinə uyğun olaraq tətbiq edilir. Burada, məhkumların öz düşüncə və davranışlarını daha konstruktiv şəkildə dəyişdirmələri hədəflənir. Fərdi terapiya, məhkumların mənfi davranışları aşmalarına və özünə inamlarını artırmalarına kömək edir. Cinayətə meyilli şəxslər, bu terapiya vasitəsilə psixoloji çətinliklərini aşır, özlərini və dünyalarını daha obyektiv bir şəkildə qiymətləndirirlər.

**Qrup terapiyası** isə məhkumlar arasında qarşılıqlı dəstəyi gücləndirən, sosial bacarıqları inkişaf etdirən və empati qurma qabiliyyətini artıran bir yanaşmadır. Qrup terapiyasında, bir neçə məhkum bir araya gələrək öz hisslərini paylaşır, bir-birinə dəstək olurlar. Bu yanaşma, məhkumların sosial münasibətlər qurmaq və cəmiyyətdə daha müsbət davranış formaları inkişaf etdirmək üçün vacibdir.

Məhkumların reabilitasiyası və cəmiyyətə reinteqrasiyası prosesində, **psixoloji dəstək proqramları** da mühüm rol oynayır. Bu proqramlar, cinayətə meyilin azalmasına, sosial adaptasiyanın asanlaşmasına və psixoloji vəziyyətin yaxşılaşdırılmasına kömək edir. Psixoloji dəstək xidmətləri, xüsusilə, məhkumların özünə güvənlərini artırmaq və

gələcək həyatlarındakı mənfi faktorlarla mübarizə aparmalarını təmin etmək məqsədini güdür.

**Ailə məsləhəti** xidmətləri də bu prosesi gücləndirir. Ailə məhkumun cəmiyyətə reinteqrasiyasına dəstək olmaqda çox önəmli bir rol oynayır. Ailə üzvləri ilə münasibətlərin yaxşılaşdırılması həm məhkumun öz psixoloji vəziyyətini yaxşılaşdırır, həm də cəmiyyətə uyğunlaşmalarını asanlaşdırır. Bu xidmətlər sosial əlaqələrin bərpasını və cəmiyyətin qaydalarına uyğun davranışların inkişafını təşviq edir.

Bu məqsədlə tətbiq olunan müxtəlif metodlar və yanaşmalar arasında ən çox istifadə edilənlərdən biri **Koqnitiv-davranış terapiyası** (CBT) metodudur. Bu metod məhkumların düşüncə və davranışlarını dəyişdirərək onların cinayətkar meyillərinin qarşısını almağa kömək edir. Lakin yalnız terapiya deyil, həm də sosial dəstək xidmətləri, fərdi və qrup terapiyası kimi yanaşmalar reabilitasiya prosesinin mühüm hissələridir. Hər bir məhkumun psixoloji vəziyyəti fərqli olduğu üçün, bu metodlar və xidmətlər daha fərdi yanaşma və uyğunlaşdırma tələb edir.

Bu terapiyanın banisi ABŞ psixiatrı və psixoterapevti Aaron T. Bek hesab olunur. Koqnitiv-davranış terapiyası psixoterapevtik müdaxilə metodlarından biri olaraq, məhkumların düşüncə və davranışlarını dəyişdirməyə yönəlmiş effektiv bir yanaşmadır. Bu yanaşmanın əsas prinsipi insanların düşüncə tərzi və inanclarının onların emosional vəziyyətləri və davranışları ilə sıx əlaqəli olduğudur. Bu terapiya metodu, məhkumların qeyri-adekvat və destruk-

tiv düşüncə strukturlarını müəyyən edib, onları daha funksional və konstruktiv düşüncə tərzləri ilə əvəz etməyə çalışır. Bu terapiyanın məqsədi insanların öz davranışlarını və həyat təcrübələrini daha obyektiv və müsbət bir şəkildə qiymətləndirmələri və buna əsaslanaraq daha uyğun davranış formalarını inkişaf etdirmələridir.

Aaron T. Bek yazır ki, insanların düşüncə tərzi, emosiyaları və davranışları arasında qarşılıqlı əlaqəyə əsaslanır.[187] Xüsusilə məhkumlarda aqressiv və impulsiv reaksiya halları tez-tez avtomatik disfunksional düşüncələrdən qaynaqlanır. CBT məqsədi bu düşüncələri tanımaq, rasional düşüncə üsulları ilə əvəzləmək və nəticədə impulsiv davranışların qarşısını almaqdır.

Məhkumların reabilitasiyasında fərdi və qrup terapiyasının rolu olduqca əhəmiyyətlidir.

Alimlərin İran həbsxanasında aparılmış randomizə edilmiş tədqiqatda fərdi + qrup Koqnitiv-davranış terapiyası proqramı nəticəsində məhkumların psixoloji simptomlarında əhəmiyyətli azalma və 1 il sonra yenidən həbs olunma səviyyəsinin sıfır olması göstərilmişdir (nəzarət qrupunda 15% yeni cinayət).[188] Bu, qrup terapiyasının fərdi terapiyadan üstün təsirli olduğuna dair əhəmiyyətli göstəricidir.

---

[187] Beck, A. T. (1967). Depression: Clinical, Experimental, and Theoretical Aspects. Harper & Row.

[188] Effects of Individual and Group Cognitive-Behavioral Therapy for Male Prisoners in Iran, https://www.ojp.gov

Meta-analizlər göstərir ki, bu proqramlara qatılan məhkumlarda yeni cinayət riskində orta hesabla 20–30% azalma müşahidə olunur.[189]

Seksual təcavüzkarlarla aparılmış araşdırmalar da CBT tətbiq olunan qrupda cinsi və ümumi cinayət təkrarının daha aşağı olduğunu göstərir (21.1% vs 32.6%, cinsi; 27.05% vs 51.05%, ümumi).[190] Fərdi terapiya məhkuma keçmiş travmalarla işləməyə, fərdi psixoloji problemlərə yönəlməyə imkan verir. Qrup terapiyası isə sosial qarşılıqlı əlaqəni artırır, iştirakçıların özlərini təcrid olunmuş hiss etməsinin qarşısını alır. Həm fərdi, həm də qrup komponentlərinin birgə tətbiqi reabilitasiya prosesini daha da gücləndirir və təkcə fərdi deyil, həm də sosial dəyişimi təşviq edir.

Elmi tədqiqatlar göstərir ki, fərdi və qrup CBT proqramları psixoloji simptomları azaltmaqda və yeni cinayətlər riskini ciddi şəkildə azalda bilir; CBT məhkumların daha rasional və konstruktiv düşüncələr formalaşdırmasına, sosial bacarıqlarını inkişaf etdirməsinə və cəmiyyətə uyğun davranışlarını gücləndirməsinə şərait yaradır; Fərdi + qrup terapiyasının birləşdirilməsi təsiri daha da artırır. Bu səbəbdən CBT proseslərinin probasiya və penitensiar rea-

---

[189] What Works - Effective Recidivism Reduction and Risk Focused Prevention, CO Division of Justice, 2008, https://www.prisonlegalnews.org

[190] Cognitive-Behavioral Therapy Efficacy for Reducing Recidivism Rates of Moderate- and High-Risk Sexual Offenders: A Scoping Systematic Literature Review, https://pubmed.ncbi.nlm.nih.gov

bilitasiya proqramlarının ayrılmaz hissəsinə çevrilməsi, məhkumların gələcəyə yönəlik pozitiv həyata dönüşü üçün strateji əhəmiyyət kəsb edir.

**Psixoloji reabilitasiya ilə bağlı xarici tərcrübə.** ABŞ-da və Avropa ölkələrində tətbiq edilən müxtəlif proqramlar CBT-nin tətbiqi ilə sabiq məhkumların cinayətkar davranışlarının azalmasına və cəmiyyətə uyğunlaşmalarının yaxşılaşmasına səbəb olmuşdur. Bu səbəbdən, CBT məhkumların reinteqrasiyasını dəstəkləmək və onların cinayətə meyillərini azaltmaq üçün mühüm bir vasitə kimi qəbul edilir. Məsələn, ABŞ və Avropa ölkələrində tətbiq olunan "İkinci Şans" ("Second Chance Act", "Prisoner Reentry Initiative") proqramları məhkumların psixoloji sağlamlığını yaxşılaşdırmaqla yanaşı, onların cəmiyyətə yenidən inteqrasiyasını gücləndirir.

**ABŞ-da "İkinci Şans" proqramı** dövlət və federal həbsxanalardan, yerli cəzaçəkmə müəssisələrindən və yetkinlik yaşına çatmayanların müəssisələrindən azadlığa buraxılan şəxslərin yeni cinayət törətmə hallarını azaltmaq və onların həyat nəticələrini yaxşılaşdırmaq məqsədi daşıyır.[191]

**Böyük Britaniyada isə** "Qapıdan Kənara" ("Through the Gate") proqramı tətbiq olunur. Hakim Kamil Xan qeyd edir ki, "xüsusilə biznes qurmaq istəyən keçmiş məhkumlar üçün ən çətin məsələlərdən biri, etibarlı və düzgün isti-

---

[191] The Second Chance Act (Fact Sheet), https://csgjusticecenter.org/publications/the-second-chance-act-fact-sheet/

qamətləndirici məsləhət almaqdır. "Qapıdan Kənara" proqramı məhz bunu edir – bu, biznesin bütün aspektləri üzrə məsləhət və yardım üçün vahid bir mərkəzdir."[192] Bu proqram məhkumların həbsxanadan azadlığa çıxdıqdan sonra onlara dəstək verərək, mənzil təminatı, iş tapma və sosial xidmətlərə çıxışı təmin edir.

**Fransada** "Insertion by Employment" proqramı vasitəsilə məhkumlara peşə təhsili və iş tapma xidmətləri təqdim edilir ki, bu da onların cəmiyyətə reinteqrasiyasını asanlaşdırır. Bu proqramlar sabiq məhkumların sosial bacarıqlarını inkişaf etdirmələrinə, iş tapmalarına və ailədaxili münasibətlərini bərpa etmələrinə kömək edir.[193]

**Kanada və Skandinaviya ölkələrində** psixososial mərkəzlər fəaliyyət göstərir ki, bunlar da sabiq məhkumların yenidən cəmiyyətə reinteqrasiyasını dəstəkləyir. Bu mərkəzlər cəmiyyətlə əlaqələri qurmağa kömək edir və nəticədə yenidən cinayət törətmə riskini azaldır.

Psixoloji dəstəyin təmin edilməsi yalnız məhkumların fərdi rifahını artırmaqla kifayətlənmir, həm də cəmiyyətin sosial sabitliyinə mühüm töhfə verir. Məhkumların emosional və psixoloji problemlərinin həlli, onların yenidən cinayət törətmə ehtimalını əhəmiyyətli dərəcədə azaldır və onların cəmiyyətə uğurlu reinteqrasiyasını təmin edir.[194]

---

[192] https://throughthegate.co.uk/

[193] Professional insertion: fine employment rate for graduates from management and engineering schools,

[194] Mental Health Effects Facing Recently Released Prisoners, https://www.verywellmind.com

Psixoloji dəstək və məsləhət xidmətləri reabilitasiya prosesinin ayrılmaz hissəsi olmalı və hər bir məhkumun cəmiyyətə uyğunlaşmasına yardım edən əsas vasitə kimi qiymətləndirilməlidir.

Beləliklə, psixoloji dəstək və sosial proqramlar reabilitasiya prosesinin ayrılmaz elementləridir. Bu yanaşmalar fərdin psixoloji və sosial çatışmazlıqlarını aradan qaldırır, ailə və icma ilə münasibətlərini gücləndirir və cəmiyyətə daha sağlam reinteqrasiyanı təmin edir. Empirik sübutlar göstərir ki, bu cür dəstək proqramları yeni cinayət riskini əhəmiyyətli dərəcədə azaldır, cəmiyyət üçün fayda və sosial harmoniya yaradır.

## 5.3. İctimai dəstəyin reabilitasiyada rolu

Probasiya nəzarətində olan şəxslərin cəmiyyətə reinteqrasiyası təkcə hüquqi və inzibati nəzarət tədbirləri ilə deyil, həm də onların sosial və psixoloji rifahını gücləndirən ictimai dəstək mexanizmləri ilə mümkündür.

Elmi ədəbiyyatda ictimai dəstək (social support) anlayışı fərdin sosial şəbəkəsi və bu şəbəkə vasitəsilə aldığı emosional, informasiya və maddi resurslarla əlaqələndirilir.

Kriminologiya üzrə professor F. T. Kullen qeyd edir ki, "ictimai dəstəyin sosial nəzarətlə birgə işləməsi, cinayət davranışlarını azaltmaq üçün daha dayanıqlı və uzunmüddətli təsir göstərir".[195]

---

[195] Cullen, F. T. (1994). Social support as an organizing concept for criminology. Justice Quarterly.

Müasir dövrdə probasiya fəaliyyətinə, xüsusilə məhkumların reabilitasiya prosesinə dəstək verə bilən potensial ictimai mexanizmlər hansılardır?

İlk növbədə qeyd edək ki, məhkumların reabilitasiyasına dəstək verə bilən ictimai mexanizmlər müxtəlif sahələrdə formalaşan təşkilati, sosial və texnoloji resursları əhatə edir.

Məhkumların reabilitasiyasına **ictimai dəstək mexanizmlərinə** aid edilir:

1) ***İctimai təşkilatlar və qeyri-hökumət sektoru (QHT-lər).*** Vətəndaş cəmiyyəti institutları məhkumlara və onların ailələrinə psixoloji, hüquqi və sosial dəstək göstərir, yeni cinayətlərin qarşısının alınması məqsədilə maarifləndirmə kampaniyaları aparır, reabilitasiya proqramlarının həyata keçirilməsində probasiya qurumları ilə əməkdaşlıq edirlər. Azərbaycanda da bu təcrübə artıq formalaşmaqla, Probasiya xidmətinin QHT sektoru ilə əlaqələri genişlənir və reabilitasiya prosesinə fəal şəkildə cəlb edilirlər.[196]

2) ***İcma əsaslı mentorluq və könüllü proqramlar.*** Bu proqramlar məhkumlara empati, motivasiya və sosial dəstək təqdim edir, onların pozitiv sosial rollar qazanmasını və özünəinamını artırır. Məsələn, Kanada və Böyük Britaniya könüllülər vasitəsilə yüksək riskli şəxslərlə dəstək dairələri qurur.

3) ***Ailə və sosial şəbəkələrin dəstəyi***. Bu, məhkumların emosional və mənəvi sabitliyinin qorunması, probasiya

[196] Ədliyyə Nazirliyinin Probasiya xidməti əməkdaşlıq əlaqələrini genişləndirir, https://justice.gov.az/news/3883

dövründə sosial uyğunlaşmanın təmin olunması, sosial təcridin qarşısının alınması və stiqmatizasiyanın zəiflədilməsi baxımından önəm kəsb edir. Tədqiqatlar göstərir ki, ailə dəstəyi olan şəxslərdə yeni cinayət törətmə ehtimalı 40-60% daha aşağıdır.[197]

4) ***Dini və mənəvi dəstək qrupları.*** Dini icmalar və mənəvi dəstək qrupları şəxsi dəyərlərin bərpası və daxili motivasiyanın gücləndirilməsində rol oynayır, günahkarlıq hissi ilə mübarizə və etik davranış formalaşdırılması bu qrupların əsas missiyası hesab edilir. Məsələn, ABŞ-da "Faith-based initiatives" (İnanc əsaslı təşəbbüs) dini icma məhkumlarla işləyir, federal fondlardan yararlanırlar.[198]

5) ***Rəqəmsal və texnoloji platformalar.*** Müasir dövrün tələblərindən irəli gələn elektron nəzarət sistemləri və onlayn psixoloji xidmətlər, reinteqrasiya prosesində təhsil və məlumatlandırma resurslarına çıxış, virtual mentorluq və icma əlaqələri bu sahədə mühüm nəticələr əldə edilməsinə vəsilə ola bilər. Hətta sosial şəbəkə hesabları vasitəsilə də reabilitasiya prosesinin effektivliyinə nail olmaq mümkündür.

---

197 Visher C. A., Travis J. (2003). Transitions from prison to community: Understanding individual pathways. Annual review of sociology 29 (1), 89-113.

198 Faith-Based Initiative, https://bobbyscott.house.gov/issues/faith-based-initiative

Beləliklə, müasir probasiya fəaliyyətində reabilitasiya məqsədlərinə çatmaq üçün yalnız dövlət orqanlarının deyil, həm də cəmiyyətin bütün təbəqələrinin – ailə, QHT, könüllülər, dini icmalar, özəl sektor və rəqəmsal platformaların fəal iştirakı zəruridir. Bu ictimai mexanizmlərin kooperativ şəkildə işləməsi sabiq məhkumların cəmiyyətə uğurlu reinteqrasiyasına və cinayətkarlığın azalmasına şərait yaradır.

Əlbəttə, məhkumların cəmiyyətə inteqrasiyasında ailə, dostlar və sosial qurumların dəstəyi olduqca vacibdir. Ailənin dəstəyi, məhkumların reabilitasiyasını sürətləndirən və onların cəmiyyətə uyğunlaşmalarını asanlaşdıran mühüm bir amildir. Araşdırmalar göstərir ki, ailə dəstəyi olan məhkumların yenidən cinayət törətmə riskinin 30-50% arasında azaldığı müəyyən edilmişdir. Bu statistikalar, ailə münasibətlərinin cəmiyyətə reinteqrasiya və reabilitasiya prosesində nə qədər əhəmiyyətli olduğunu sübut edir. Ailənin rolu yalnız emosional dəstək verməklə məhdudlaşmır, eyni zamanda məhkumların psixoloji vəziyyətinin yaxşılaşdırılmasına, onların özünə inamını bərpa etməyə və gələcəkdə sosial mühitlə müsbət əlaqələr qurmağa kömək edir.[199]

[199]The positive impacts of family contact for incarcerated people. https://www.prisonpolicy.org

**Cədvəl 5: Reabilitasiyada ictimai dəstəyin komponentləri**

| Komponent | Təsvir | Reinteqrasiya prosesindəki rolu |
|---|---|---|
| Ailə dəstəyi | Ailə üzvlərindən emosional və praktiki yardım. | Təkrarlanan cinayətkarlığı azaldır, emosional sabitliyi yaxşılaşdırır, reinteqrasiyanı dəstəkləyir. |
| Sosial şəbəkələr | Dostlar və yaxın çevrədən dəstək. | Sosial izolyasiyanı azaldır, sosial əlaqələri gücləndirir, müsbət davranışları təşviq edir. |
| İnstitutlardan dəstək (QHT, dövlət) | Təşkilatların psixoloji, hüquqi və maliyyə dəstəyi təmin etməsi. | Resurslara çıxışı yaxşılaşdırır, cəmiyyətə inteqrasiyanı asanlaşdırır. |
| İctimai məlumatlandırma proqramları | Sosial stiqmanı azaldan ictimai kampaniyalar. | Cəmiyyətin münasibətini dəyişdirir, reinteqrasiyanı dəstəkləyir. |

İctimai dəstək sistemləri məhkumların həyatını yenidən qurmağa kömək edir və onların azadlıqdan sonra yeni cinayətə meyil etmələrini əhəmiyyətli dərəcədə azaldır. Sosial qurumlar, hüquqi xidmətlər, təhsil və peşə kursları, eləcə də müvafiq psixoloji dəstək təmin edən təşkilatlar, məhkumların yeni həyat şəraitinə uyğunlaşmasına dəstək verərək onların cəmiyyətə reinteqrasiyasını sürətləndirir. Əks halda, cəmiyyətin sosial qurumları və yardım sistemi məhkumların cəmiyyətdən təcrid olunmasına səbəb ola bilər və bu da yeni cinayətə yol açan səbəblərdən biri ola bilər.

Məhkumların cəmiyyətə reinteqrasiyasını təmin etmək üçün sosial dəstək proqramları və ailə məsləhət xidmətlərinin rolu çox böyükdür. Bu xidmətlər, məhkumların psi-

xoloji vəziyyətlərini yaxşılaşdırmağa, sosial münasibətləri inkişaf etdirməyə və onların cəmiyyətə uyğunlaşmalarını asanlaşdırmağa yönəlmiş vacib mexanizmlərdir. Sosial dəstək və ailə məsləhətləri məhkumların yalnız fiziki sərhədlərdən azad olmalarını deyil, həm də onlara yeni həyat şəraitinə uyğunlaşmaq üçün güclü dəstək təmin edir.

Sosial dəstək proqramları məhkumların cəmiyyətə reinteqrasiyasını asanlaşdırır və onlara qarşı sosial stiqma və təcridin azalmasına kömək edir. Bu proqramlar məhkumlara hüquqi, iqtisadi və sosial məsələlərdə dəstək verərək, onların təkrarlanan cinayət törətmə riskini azaldır. Sosial dəstək iş tapmaqda, peşə bacarıqlarını inkişaf etdirməkdə, sosial münasibətlər qurmaqda və cəmiyyətə uyğun davranış formalarını inkişaf etdirməkdə vacib rol oynayır. Əgər məhkumların cəmiyyətdəki mövqeyi möhkəmlənirsə, o zaman onların reabilitasiya prosesinin müsbət nəticələnməsi və gələcəkdə cinayətə meyilli olmalarının qarşısının alınması daha asan olur.

**Malayziyada aparılmış tədqiqatda** 240 şərti azadlığa buraxılmış məhkum arasında sosial dəstək ilə reinteqrasiyanın müsbət və güclü korrelyasiyası aşkar edilmişdir: məhkum yoldaşlarının dəstəyi ($r = 0.34$, $p<0.01$), ailənin dəstəyi ($r = 0.30$, $p<0.01$), işəgötürənin dəstəyi ($r = 0.06$, $p<0.01$) və ən yüksək göstərici isə probasiya məmurlarının dəstəyi olmuşdur ($r = 0.80$, $p<0.05$).[200]

[200] Social Support for Optimal Reintegration of Malaysian Parolees into Community, https://hrmars.com

Ailə məhkumun reabilitasiya prosesində və cəmiyyətə reinteqrasiyasında əsas dəstək mənbəyidir. Əksər hallarda, cəzalarını çəkən şəxslər ailə üzvləri ilə münasibətlərində gərginliklər yaşayır və bu münasibətlər bəzən zədələnir. Ailə ilə əlaqələrin təkmilləşdirilməsi, məhkumların sosial uyğunlaşmalarını asanlaşdırır və onların psixoloji vəziyyətini yaxşılaşdırır. Ailə məsləhət xidmətləri, ailə üzvləri ilə düzgün ünsiyyətin qurulmasına, onların bir-birini dəstəkləmələrinə və sağlam münasibətlər inkişaf etdirmələrinə kömək edir.

Ailə məsləhətləri xüsusilə, məhkumların psixoloji sağlamlıqlarını bərpa etmək və özlərini cəmiyyətə uyğunlaşdırmaq üçün vacib bir vasitədir. Bu məsləhətlər həm də ailənin üzvlərinə, onların sevdiklərini və yaxınlarını dəstəkləmək və onlara cəmiyyətə adaptasiya olmaqda kömək etmək mövzusunda praktiki biliklər təqdim edir. Ailə üzvləri ilə terapiya həm məhkumun psixoloji vəziyyətini yaxşılaşdırır, həm də ailədaxili münasibətləri gücləndirir. Bu münasibətlərin normallaşdırılması, reabilitasiya prosesini sürətləndirir və gələcəkdə yeni cinayətlərin qarşısını alır.

Dostların məhkumlar üzərindəki təsiri yalnız onların sosial bacarıqlarını bərpa etməklə məhdudlaşmır. Sosial şəbəkələr, həmçinin məhkumların təhsil və iş tapma məsələlərində daha çox imkanlar əldə etmələrini təmin edir. Bu da onların reabilitasiyasını və cəmiyyətə uğurlu reinteqrasiyasını dəstəkləyir. Məhkumların dostları və yaxın çevrələri ilə qurduqları əlaqələr, onların gələcəkdəki sosial hə-

yatda daha güclü və müsbət bir mövqe tutmalarına imkan yaradır.

Dostların və sosial əlaqələrin məhkumların reabilitasiyası üzərindəki təsirini araşdıran bir çox tədqiqatçı, sosial dəstəyin insanın reabilitasiya prosesindəki rolunun vacibliyini qeyd etmişdir. ABŞ-dan olan tədqiqatçı Robert D. Herman məhkumların dostları ilə əlaqələrinin onların sosial inteqrasiyası və təkrar cinayətkarlıqla mübarizədə mühüm bir faktor olduğunu bildirir. Herman, dostların məhkumlara yalnız psixoloji deyil, həm də sosial dəstək verdiklərini və onların cəmiyyətə uyğunlaşma prosesini asanlaşdırdıqlarını vurğulayır. O, dostların müsbət təsirinin, məhkumların özünə inamını bərpa etmələrinə və təcrid olunmuş vəziyyətdən çıxmalarına kömək etdiyini qeyd edir. Hermanın işlədiyi *Critical Time Intervention (CTI)* modeli çərçivəsində nümayiş etdirdi ki, məhkumların cəmiyyətdə qarşılaşdıqları kritik mərhələlərdə ailə və dost dəstəyi onların sosial adaptasiyasını gücləndirir və reabilitasiya imkanlarını artırır. Bu yanaşmada hər iki tərəf – məhkum və onun sosial dairəsi – qarşılıqlı fəaliyyət göstərir. [201]

Bu yanaşmalar dostların və sosial əlaqələrin məhkumların cəmiyyətə reinteqrasiyasını asanlaşdırmaqla yanaşı, onların həyat keyfiyyətini və sosial bacarıqlarını inkişaf etdirməyə kömək etdiyini göstərir. Dostlar məhkumların

[201] Societal Reentry of Prison Inmates With Mental Illness: Obstacles, Programs, and Best Practices, https://pmc.ncbi.nlm.nih.gov

müsbət sosial münasibətlər qurmasına, sosial təcrid hissini aradan qaldırmalarına və yeni bir həyat qurmaqda onlara motivasiya verməyə kömək edirlər.

Sosial qurumların dəstəyi məhkumların reabilitasiyasını həyata keçirən mühüm bir elementdir. Dövlət qurumları və qeyri-hökumət təşkilatları, məhkumların yeni həyata adaptasiya olunmasına kömək edirlər. Onlar məhkumların sosial təminatlarını yaxşılaşdırmaq, təhsil imkanlarını artırmaq və iş tapmaqda dəstək göstərmək üçün müxtəlif proqramlar həyata keçirirlər. Bu sosial qurumlar həm də məhkumların hüquqlarını qorumaq, onlara psixoloji dəstək vermək və cəmiyyətdəki yeni rola uyğunlaşmalarını təmin etmək məqsədini güdürlər.

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Probasiya xidmətində həyata keçirilən sosial-psixoloji və könüllülük fəaliyyətləri, məhkumların reabilitasiyasını və cəmiyyətə reinteqrasiyasını dəstəkləyən mühüm addımlar olmuşdur.

QHT-lər sosial xidmətlər təqdim etməklə yanaşı, məhkumların psixoloji vəziyyətlərinin yaxşılaşdırılmasına da xüsusi diqqət yetirirlər. Bu təşkilatlar, məhkumların reabilitasiya prosesinə daxil olmalarını təmin edərək, onların cəmiyyətə müsbət reinteqrasiyasını dəstəkləyirlər. Eyni zamanda, QHT-lər məhkumları sosial təcrid vəziyyətindən çıxararaq, onların cəmiyyətə və sosial şəbəkələrə uyğunlaşmalarını asanlaşdırırlar. Məsələn, Azərbaycanda "Ümidli Gələcək" İctimai Birliyi, Qobustan şəhərində yerləşən Sosial Adaptasiya Mərkəzi və Zabrat qəsəbəsindəki

Həssas Əhali Qruplarından olan şəxslər üçün Sığınacaq və Sosial Reabilitasiya Müəssisəsi, Probasiya Xidməti ilə əməkdaşlıq quraraq, probasiya nəzarətində olan və sığınacağa ehtiyacı olan məhkumların həmin müəssisələrə yerləşdirilməsini təşkil etməyi müzakirə edir. Bu cür əməkdaşlıqlar, məhkumların cəmiyyətə yenidən inteqrasiyasını asanlaşdırır və onların sosial adaptasiyasına kömək edir.[202]

Probasiya xidməti və əlaqəli qurumlar arasında məhkumların reabilitasiyası sahəsində aparılan işlər çox əhəmiyyətlidir və bu cür əməkdaşlıqların perspektivləri böyükdür. Məhkumların sosial adaptasiyası və psixoloji vəziyyətlərinin yaxşılaşdırılması məqsədilə həyata keçirilən tədbirlər, onların cəmiyyətə reinteqrasiyasını asanlaşdırır. Probasiya xidmətinin digər qurumlarla birlikdə mütəmadi olaraq təşkil etdiyi fəaliyyətlər, məhkumların reabilitasiyasını dəstəkləyir və onların gələcəkdə cəmiyyətə uyğunlaşmalarını təmin edir.

Bu tip fəaliyyətlər, məhkumların psixoloji vəziyyətlərinin yaxşılaşdırılmasına və onların reabilitasiya prosesində müsbət nəticələr əldə etmələrinə böyük təsir göstərir.

İctimai dəstəyin məhkumların reabilitasiyasına olan müsbət təsirini açıq şəkildə göstərir. Kanadada, Skandinaviya ölkələrində və ABŞ-da reabilitasiya proqramları, məhkumların sosial əlaqələrini gücləndirməyi hədəfləyir. Bu ölkələrdə, məhkumların ailə və dostları ilə əlaqələrinin

[202] AR Ədliyyə Nazirliyinin Probasiya Xidmətinin 2024-cü il Hesabatı, Bakı 2025, s. 17.

bərpası, onların yeni cinayət törətmə riskini azaltmağa kömək edir. Eyni zamanda Böyük Britaniya və Almaniya kimi Avropa ölkələrində həyata keçirilən reabilitasiya proqramları, məhkumların sosial şəbəkələrini dəstəkləyərək onların cəmiyyətə reinteqrasiyasını asanlaşdırır.

Beləliklə, ictimai dəstək, məhkumların reabilitasiyasında əsaslı rol oynayır və onların sosial həyatda uğurlu inteqrasiyasını təmin edən mühüm bir vasitədir. Ailə, dostlar, sosial qurumlar və qeyri-hökumət təşkilatları, məhkumların cəmiyyətə uyğunlaşmalarını asanlaşdırır və onların yeni cinayət törətmə riskini azaldır. Məhkumların həyatlarını yenidən düzənləmələrinə kömək edən ictimai dəstək şəbəkələri həm onların şəxsi rifahını artırır, həm də cəmiyyətin ümumi təhlükəsizliyini təmin edir. Bu sistemlərin effektiv tətbiqi, məhkumların reabilitasiyasının uğurunu təmin edəcək və cəmiyyətdə daha təhlükəsiz bir mühitin yaranmasına imkan yaradacaqdır.

## 5.4. Asılılığı olan şəxslərin reabilitasiyası: problemlər və onların aradan qaldırılması yolları

Asılılıq müasir dövrün əsas sosial və tibbi problemlərindən biridir. Eyni zamanda, asılılığı olan şəxslərin reabilitasiyası bu gün Azərbaycanda, o cümlədən probasiya fəaliyyətində də həlli vacib olan məsələlərdən biri kimi çıxış edir. Narkotik maddələrdən, alkoqoldan və digər psixoaktiv maddələrdən asılılıq təkcə fərdlərin sağlamlığına deyil, həmçinin ailə münasibətlərinə, sosial və iqtisadi həyata da mənfi təsir göstərir.

Bu paraqrafda asılılığı olan şəxsin anlayışı, reabilitasiyası istiqamətində tətbiq edilən elmi yanaşmalar, effektiv metodlar və bir sıra ölkələrin model təcrübələri təhlil edilir.

"**Asılılığı olan şəxs**" **dedikdə,** psixoloji və ya fiziki cəhətdən müəyyən maddəyə və ya davranış modelinə qarşı nəzarətsiz ehtiyac hissi keçirən və bu səbəbdən gündəlik həyatını idarə etməkdə çətinlik çəkən fərd başa düşülür. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) mövqeyinə görə, asılılıq "fərdin öz iradəsi ilə idarə edə bilmədiyi, davamlı və təkrarlanan maddə istifadəsi ilə müşahidə olunan vəziyyətdir".[203] Əlbəttə, qeyd edilən formula ilə razılaşmaqla, həmçinin əlavə edilə bilər ki, müasir dövrdə “asılılıq” termini daha geniş mənada, məsələn, kompüter, telefon, smart vasitələr, sosial şəbəkələr və s. anlamlarda da şərh edilə bilər.

Azərbaycan qanunvericiliyinin şərhinə əsaslansaq, **asılılıq dedikdə**, narkotik vasitələrdən və digər maddələrdən psixi və (və ya) fiziki asılılıq, o cümlədən psixi və davranış pozuntuları başa düşülür.

Ümumiyyətlə, müasir dövrdə asılılıq problemi üç kontekstdə - sosial, tibbi və psixoloji anlamda izah edilə bilər.

Sosial psixologiya üzrə tədqiqatçı R.Allahverdiyev qeyd edir ki, psixoaktiv maddə istifadəçilərinin sosial-psixoloji reabilitasiyası müxtəlif aspektlərdə araşdırılmışdır.

[203] Neuroscience of Psychoactive Substance Use and Dependence, https://www.who.int

O, 3 üç istiqamət fərqləndirir: 1. Tibbi istiqamətdə aparılan tədqiqatlar; 2. Klinik psixologiya və psixoterapevtik istiqamətdə aparılan tədqiqatlar; 3. Sosial-psixoloji istiqamətdə aparılan tədqiqatlar[204]

Psixologiyada asılılıq **biopsixososial model** əsasında izah olunur. Klinik psixoloqlar G. Marlatt və D. Donovan qeyd edirlər ki, bu modelə görə, asılılıq yalnız tibbi problem deyil, həm də sosial və psixoloji komponentləri olan kompleks bir fenomendir.[205] Eyni zamanda digər alimlər hesab edirlər ki, genetik meyillər, sosial mühitin təsiri, travmatik təcrübələr və ailə münasibətləri əsas səbəblər sırasında yer alır.[206]

Bu gün asılılıq problemi bəzi hallarda probasiya xidmətlərinin (o cümlədən ölkəmizdə də) məşğul olduğu sahələrdən biridir. Asılılığı olan şəxslərin probasiya nəzarəti altında reabilitasiyası onların yenidən *hüquqpozmalara yol vermədən* cəmiyyətə inteqrasiya olunmasını təmin edən kompleks, çoxsahəli müdaxilə modelidir.

Burada "hüquqpozmalara yol verməkdən" ifadəsini məqsədyönlü istifadə edirik. Çünki bir çox ölkələrin təcrübəsində asılılığı olan şəxslərə, xüsusilə narkotik istifadəçi-

[204] Allahverdiyev R. F. (2025) Psixoaktiv maddə istifadəçilərinin sosial-psixoloji reabilitasiyası,

[205] Marlatt, G. A., & Donovan, D. M. (2005). Relapse Prevention: Maintenance Strategies in the Treatment of Addictive Behaviors. Guilford Press.

[206] Volkow, N. D., Koob, G. F., & McLellan, A. T. (2016). Neurobiologic advances from the brain disease model of addiction. New England Journal of Medicine, 374, 363–371.

lərinə "cinayət törədən şəxs" qismində yanaşılmır. Onlar sadəcə olaraq tibbi, sosial və psixoloji reabilitasiyaya, terapiyaya ehtiyacı olan şəxslər hesab edilir. Probasiya nəzarəti asılılığı olan şəxslər üzərində həm hüquqi nəzarət, həm də sosial dəstək mexanizmi rolunu oynayır.

Bəs asılılığı olan şəxslərin, xüsusilə narkotik istifadəçilərinin reabilitasiyasının probasiya xidmətləri tərəfindən həyata keçirilməsinin əsasında nə dayanır? Reabilitasiya bu kontekstdə yalnız maddə istifadəsini dayandırmaq məqsədi daşımır, eyni zamanda şəxsin sosial bacarıqlarının bərpası, psixoloji sabitliyin təmin edilməsi, məşğulluq qabiliyyətinin artırılması və ictimai münasibətlər sisteminə qayıdışı əhatə edir.[207] Probasiya qurumlarının bu prosesdə əsas funksiyası müntəzəm nəzarətlə yanaşı, reabilitasiya proqramlarına yönləndirmə və monitorinqdir.

Bir sıra xarici ölkələrdə asılılığı olan şəxslərin reabilitasiya təcrübəsi sübut edir ki, probasiya xidmətləri vasitəsilə inteqrasiya olunmuş reabilitasiya proqramları daha uğurlu nəticələr verir. Çünki yuxarıda qeyd olunduğu kimi, burda təkcə tibbi amillər deyil, həmçinin sosial, psixoloji, məşğulluq, təhsil kimi faktorların əhatə olunduğu **inteqrativ bir model** fəaliyyət göstərir. Məsələn, **Birləşmiş Krallıqda** Cinayətkarların İnteqrativ İdarəolunması (Integrated Offender Management – IOM) proqramı psixotrop maddələrdən asılı olan şəxslərin polis, sosial xidmətlər və

---

[207] Taxman, F. S., Shepardson, E. S., & Byrne, J. M. (2007). Tools of the Trade: A Guide to Incorporating Science into Practice. National Institute of Corrections.

probasiya əməkdaşları tərəfindən ortaq monitorinq və müdaxilə çərçivəsində izlənməsini təmin edir.[208]

**Bu proqramın əsas prinsipləri** bunlardır: bütün tərəfdaşlar birlikdə cinayətkarları idarə edir, yerli problemlərə yerli səviyyədə cavab verilir, bütün cinayətkarlar potensial olaraq bu prosesə daxil edilə bilər, cinayətkarlar öz məsuliyyətlərini dərk etməli və ya nəticələri ilə üzləşməlidirlər, mövcud proqramlardan və idarəetmə mexanizmlərindən maksimum dərəcədə istifadə edilir, cinayətdən uzunmüddətli uzaqlaşma (desistensiya) əldə olunmasına yönəlik fəaliyyət göstərilir. Bu prinsiplər effektiv və davamlı reabilitasiya və ictimai təhlükəsizliyin artırılmasına yönəlmiş strategiyaların təməlini təşkil edir.[209]

**ABŞ-da** Narkotik Asılılığı ilə Bağlı Məhkəmə Proqramları ("Drug Treatment Courts") modeli narkotik asılılığı olan şəxsləri alternativ cəza olaraq məhkəmə nəzarətində reabilitasiya proqramlarına cəlb edir. Bu sistemdə probasiya məmurları həm hüquqi, həm də sosial dəstək verən vasitəçi qismində çıxış edir.

Narkotik məhkəmələri proqramı cinayət məhkəmə sistemi çərçivəsində maddə istifadəsi problemini həll etmək üçün innovativ və effektiv bir yanaşmadır. Adından da göründüyü kimi, narkotik məhkəmələri məhz maddə asılılığı olan şəxslər üçün nəzərdə tutulmuşdur. Bu məhkəmə

---

208 Integrated offender management (IOM), https://www.gov.uk/guidance/integrated-offender-management-iom

209 Integrated Offender Management, Key Principle, February 2015. https://assets.publishing.service.gov.uk/

proqramları şəxslərə həbs cəzası əvəzinə uzunmüddətli narkotik müalicəsinə qoşulmaq və məhkəmənin nəzarəti ilə razılaşmaq imkanı təqdim edir. Bu intensiv proqram iştirakçılardan sağalma vəziyyətini qorumağı, üzərinə məsuliyyət götürməyi və həyat tərzində dəyişikliklərə çalışmanı tələb edir. Məhkəmənin nəzarəti və səlahiyyəti altında onların irəliləyişi izlənir. Nəticə etibarilə, narkotik məhkəmələri cinayətkarlığın azalmasına və insanların həyatında real və müsbət dəyişikliklərə səbəb olur.[210]

**Norveç və İsveçdə** probasiya xidmətləri sosial işçilər, psixoloqlar və tibb mütəxəssisləri ilə birlikdə çalışaraq *case management* (fərdi iş planı) əsasında inteqrasiya olunmuş yardım təqdim edir.[211]Fərdi iş planları ilə bağı növbəti paraqraflarda ayrıca bəhs olunacaqdır. Xüsusilə, İsveçdə narkotiklərə qarşı "sıfır tolerantlıq" siyasəti ilə yanaşı, geniş reabilitasiya xidmətləri göstərilir. Bu xidmətlərə psixoterapiya, ailə dəstəyi və təhsil proqramları daxildir.

Asılılıqla mübarizədə ən yaxşı modellərdən biri **Portuqaliya** modelidir. 2001-ci ildə Portuqaliya narkotik istifadəsini dekriminallaşdıraraq, istifadəçiləri cəzalandırmaq əvəzinə reabilitasiya proqramlarına yönəltməyə başladı. Nəticədə narkotiklə bağlı ölümlər və HIV infeksiyaları əhəmiyyətli dərəcədə azaldı.[212] Fikrimizcə, asılılığı olan

---

[210] What are drug courts? https://ntcrc.org/what-are-drug-courts

[211] Carter, M. M., Giguere, R., & Pullen, S. (2007). Managing Offenders with Mental Illness: A Guide for Probation Officers. National Institute of Corrections.

[212] Hughes, C. E., & Stevens, A. (2010). What can we learn from the Portuguese decriminalization of illicit drugs? British Journal of Criminology, 50(6), 999–1022.

şəxslərin cəzalandırılması əvəzinə, onların reabilitasiya olunması ən effektiv metod hesab olunmaqla, bu modeli ölkəmizdə də geniş şəkildə tətbiq etmək faydalı olardı.

Ümumiyyətlə, xarici ölkələrin təcrübələrinin təhlilindən və elmi ədəbiyyatlarda olan mülahizələrdən çıxış edərək, narkotik asılılığı olan şəxslərin reabilitasiyasının metodları və mərhələləri ilə bağlı demək olar ki, reabilitasiya prosesi çoxmərhələli və çoxkomponentlidir. Bununla bağlı aşağıdakı metodlar geniş tətbiq olunur:

1) *Detoksifikasiya.* Bu mərhələdə orqanizmdən maddənin təmizlənməsi həyata keçirilir. Əsas məqsəd fiziki asılılığın azaldılmasıdır. Tibbi nəzarət altında həyata keçirilir.[213]

2) *Psixoterapiya (fərdi və qrup terapiyası).* Prof. A. Bekin irəli sürdüyü Koqnitiv-davranışçı terapiya, həmçinin motivasiya artırma terapiyası və 12 addım proqramları (AA/NA) geniş istifadə olunur.[214] Bu yanaşmalar fərdin davranışlarını və düşüncə modelini dəyişdirməyə yönəlmişdir.

3) *Ailə terapiyası və sosial dəstək sistemləri.* Bəzi alimlər hesab edir ki, asılılığı olan şəxslərin reabilitasiya prosesinə ailənin cəlb olunması, sosial əlaqələrin yaradılması və peşə hazırlığı mühüm əhəmiyyət kəsb edir.[215] Fikrimizcə, bu-

---

[213] Kosten, T. R., & O'Connor, P. G. (2003). Management of drug and alcohol withdrawal. The New England Journal of Medicine, 348(18), 1786-1795.

[214] Beck, A. T., Wright, F. D., Newman, C. F., & Liese, B. S. (2011). Cognitive Therapy of Substance Abuse. Guilford Press.

[215] O'Farrell, T. J., & Fals-Stewart, W. (2006). Behavioral couples therapy for alcoholism and drug abuse. Journal of Substance Abuse Treatment, 31(3), 287–295.

raya təhsil, məşğulluq faktorlarının da daxil edilməsi mümkündür.

4) *Farmakoloji müalicə.* Metadon, buprenorfin, naltrekson kimi preparatlar opioid asılılığının müalicəsində istifadə olunur. Bu müalicə üsulu simptomların yüngülləşdirilməsi və relaps riskinin azaldılmasına yönəlib.[216]

Bundan əlavə, asılılığı olan şəxslərə tətbiq olunan psixoloji dəstək (psixoterapiya) proqramları da səmərəli nəticələr verir. Məhkumların psixoloji vəziyyətlərini yaxşılaşdırmaq və onların reabilitasiyasını dəstəkləmək məqsədilə psixoloji dəstək proqramları mövcuddur. Bu proqramlar arasında fərdi və qrup terapiyaları, stress idarəetməsi və emosional sağlamlıq mövzuları üzrə təlimlər daxildir.

Xüsusi vurğulanmaldıır ki, asılılığı olan şəxslərin reabilitasiyasında fərdi və qrup terapiyasının əhəmiyyəti böyükdür.

**Fərdi terapiya** reabilitasiya prosesində dərin şəxsi problemlərin, travmaların, özünə qarşı inamsızlığın və relaps riski daşıyan situasiyaların işlənməsi üçün əvəzolunmaz üsuldur. Xüsusilə CBT və Motivasiya yüksəldici terapiya fərdlərin qərarvermə prosesini, məsuliyyət hissini və davranış modelini dəyişməkdə effektivdir. CBT metoduna əsasən, asılılıq davranışı yanlış düşüncə və reaksiyaların nəticəsidir və bu reaksiyalar təhlil, yenidən qurma və təc-

[216] Mattick, R. P., Breen, C., Kimber, J., & Davoli, M. (2009). Methadone maintenance therapy versus no opioid replacement therapy for opioid dependence. Cochrane Database of Systematic Reviews.

rübə vasitəsilə dəyişdirilə bilər.[217] Fərdi terapiya probasiya müddətində şəxsin emosional dayanıqlığını artırır, törədilmiş cinayətə görə məsuliyyətin dərk edilməsini təmin edir və relapsın qarşısını almağa kömək edir.

**Qrup terapiyası** həm sosial dəstək şəbəkəsinin formalaşması, həm də özünüidentifikasiya və empati hissinin inkişafı baxımından çox önəmlidir. "12 Addım Proqramları" (məsələn, Anonim Narkomanlar – AN, Anonim Alkoqoliklər – AA) kimi özünə kömək qrupları, probasiya dövründə sosial təcrid riski olan şəxslər üçün mühüm psixososial dəstək mənbəyi rolunu oynayır.[218] Qrup terapiyasında iştirak edənlər başqalarının oxşar təcrübələrini dinləməklə özləri ilə barışma mərhələsinə keçə bilir və bu da onların davamlı nizam-intizamlı davranış modelinə keçmələrinə imkan yaradır. Bu üsul, eyni zamanda özünümüşahidə, davranış təhlili və məsuliyyət hissinin paylaşılmasını təşviq edir.[219]

Azərbaycanda asılılığı olan şəxslərin reabilitasiyası ilə bağlı elmi və emprik təhlillər bu sahədə bir sıra fundamental tədbirlərin görülməsini zəruri edir.

1) **Məcburi müalicə imkanlarının məhdudluğu:**

2024-cü ildə alkoqolizm və narkomaniyadan müalicə məqsədilə məcburi tədbirlər təyin edilmiş şəxslərin sayı

---

217 Beck, A. T., Wright, F. D., Newman, C. F., & Liese, B. S. (2011). Cognitive Therapy of Substance Abuse. Guilford Press.

218 Kelly, J. F., Magill, M., & Stout, R. L. (2009). How do people recover from alcohol dependence? Addiction Research & Theory, 17(3), 236–249.

219 Yalom, I. D. (2005). The Theory and Practice of Group Psychotherapy (5th ed.). Basic Books.

artmış, lakin Respublika Narkoloji Mərkəzində bu şəxslərin müalicəsi mümkün olmamışdır. Yeni tikiləcək müəssisənin 200 nəfərlik yeri olsa da, bu da mövcud ehtiyacları tam olaraq qarşılamır.

**2) Müalicə mərkəzlərinin qeyri-rəsmi və tənzimlənməyən fəaliyyəti:**

Azərbaycanda qeyri-rəsmi şəxsi psixoloji reabilitasiya mərkəzləri mövcud olsa da, onların fəaliyyəti qanunvericilik çərçivəsində tənzimlənmir. Bu vəziyyət, sosial imkanları məhdud olan şəxslərin müalicə imkanlarının əlçatanlığını əngəlləyir. Bu cür mərkəzlərin fəaliyyətinin lisenziyalaşdırılması və qanuni tənzimlənməsi və məcburi müalicə təyin edilmiş şəxslərin müalicəsi üçün optimal şərait yaradılmasını zəruri hesab edirik.

**3) Məcburi müalicə sahəsində əməkdaşlıq və maarifləndirmə çatışmazlığı:**

Hesab edirik ki, Ədliyyə Nazirliyi Probasiya xidməti, Səhiyyə Nazirliyi və digər müvafiq qurumlar arasında əməkdaşlığın daha da inkişaf etdirilməsi və probasiya məmurlarının bu sahədə maarifləndirilməsinin təmin edilməsi üçün təlimlərin təşkil edilməsi vacibdir. Qeyd edək ki, **Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 17 sentyabr tarixli 721 nömrəli Sərəncamı** ilə təsdiq edilmiş Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair **2025–2030-cu illər üçün Dövlət Proqramında** da narkotiklərin qanunsuz dövriyyəsinin və narkomanlığın yayılmasının maarifləndirmə yolu ilə

qarşısının alınması, narkotik asılılığından əziyyət çəkən şəxslər üçün psixoloji dəstək proqramlarının hazırlanması, narkomanlığa düçar olmuş şəxslərin müalicəsi və reabilitasiyası istiqamətində yeni üsulların tətbiqi[220] ilə bağlı müddəalar yer almışdır.

**4) Ambulator müalicə sisteminin inkişafı:**

Məcburi müalicənin təşkilində bir problem də ambulator müalicə imkanlarının məhdudluğudur. Hazırda yalnız müəyyən ixtisaslaşdırılmış tibb müəssisələrində bu cür müalicə həyata keçirilir. Ambulator müalicənin genişləndirilməsi və asanlaşdırılması üçün müvafiq dəyişikliklərin edilməsi, eləcə də yeni prosedurların tətbiq edilməsi zəruridir.

**Beləliklə,** asılılığı olan şəxslərin reabilitasiyası yalnız tibbi deyil, sosial, psixoloji və hüquqi yanaşmaların inteqrasiyası ilə mümkündür. Bununla bağlı effektiv nəticə üçün məsələyə kompleks yanaşma tələb olunur. Bu yanaşma aşağıdakılardan ibarətdir:

- Dövlət və özəl sektor əməkdaşlığında reabilitasiya mərkəzlərinin artırılması;

-İctimai maarifləndirmə kampaniyalarının gücləndirilməsi;

- Sosial işçilərin və mütəxəssislərin hazırlığına dair proqramların genişləndirilməsi;

---

[220] Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2025–2030-cu illər üçün Dövlət Proqramı, https://e-qanun.az/framework/60536

- Reabilitasiya sonrası reinteqrasiya dəstəyi: mənzil, məşğulluq və psixososial xidmətlər;

- Qanunvericilikdə asılılıqdan əziyyət çəkən şəxslər üçün alternativ müalicə proqramlarının hüquqi əsaslarla möhkəmləndirilməsi.

Eyni zamanda, Azərbaycanda reabilitasiya proqramlarının inkişafı hələ də bir sıra çətinliklərlə qarşılaşır. Bu çətinliklər arasında:

• Maliyyə və resurs çatışmazlığı: QHT-lər və dövlət təşkilatları üçün maliyyə resursları məhduddur, bu da proqramların səmərəliliyini və miqyasını məhdudlaşdırır.

• Cəmiyyətin mənfi münasibəti: Məhkumların cəmiyyətə reinteqrasiyası üçün müsbət ictimai münasibətlərin olması vacibdir. Lakin sosial stiqma və cəmiyyətdəki mənfi yanaşmalar, onların reinteqrasiyasını çətinləşdirir.

• Peşə təlimləri və iş imkanları: Peşə təlimləri və işəgötürənlər tərəfindən məhkumların qəbul olunması məsələləri hələ də problem olaraq qalır.

**Belə nəticəyə gəlirik ki,** Azərbaycanın reabilitasiya proqramları, asılılığı olan sosial reabilitasiyasına yönəlmiş bir sıra cəhdlərə baxmayaraq, bu sahənin inkişafı üçün daha çox resurs və dəstək tələb olunur. Həm dövlət, həm də qeyri-hökumət təşkilatları bu sahədə birgə işləməli, məhkumların hüquqlarını müdafiə etməli və onların cəmiyyətə reinteqrasiyasını təmin etmək üçün yeni yanaşmalar təqdim etməlidirlər. Bu məsələyə daha dərindən yanaşdıqda, Azərbaycanda reabilitasiya proqramlarının bir neçə ciddi çatışmazlığı olduğu görünür.

**Birincisi,** ölkəmizdə reabilitasiya proqramları əsasən ümumi təhsil və sosial adaptasiya məqsədini güdür, lakin çox vaxt məhkumların fərdi ehtiyaclarını nəzərə almır. Beynəlxalq təcrübə göstərir ki, məhkumların reabilitasiyası effektiv şəkildə yalnız fərdi yanaşmalar vasitəsilə mümkündür. Fərdi yanaşma, məhkumların psixoloji, sosial və emosional ehtiyaclarını qarşılayan spesifik proqramları əhatə edir. Məsələn, məhkumların bəzi qruplarına – narkotik asılılığı olanlar, ailəvi problemləri olanlar, psixoloji travma keçirmiş şəxslər – daha çox dəstək lazımdır. Hətta müxtəlif təhsil səviyyələrində olan məhkumların təhsil proqramları fərqlənməli və onlara uyğun tədris metodları tətbiq olunmalıdır. Əks halda, məhkumlar daha mürəkkəb sosial və psixoloji problemlərlə üzləşir və reabilitasiya prosesi ləngiyir. Tədqiqatlar göstərir ki, fərdi yanaşma tətbiq olunan ölkələrdə, məsələn, Skandinaviya ölkələrində, məhkumların cəmiyyətə reinteqrasiyası və cinayət təkrarı halları əhəmiyyətli dərəcədə azalmışdır. Bunun səbəbi məhkumlara yönəlmiş xüsusi proqramların və fərdi ehtiyaclara uyğun reabilitasiya xidmətlərinin tətbiq edilməsidir.

**İkincisi,** Azərbaycanda reabilitasiya proqramlarında peşə təlimlərinə verilən önəm çox məhduddur. Məhkumların cəmiyyətdə müstəqil həyat sürə bilmələri üçün peşə bacarıqları əldə etmələri çox vacibdir. Bu sahədəki boşluqlar, həmçinin iş bazarına uyğun peşə təlimlərinin olmaması, məhkumların cəmiyyətə reinteqrasiyasını çətinləşdirir. Bir çox məhkumlar azadlığa çıxdıqdan sonra iş tapmaqda

çətinlik çəkirlər və bu vəziyyət yeni cinayətkarlığa yol açan amillərdən birinə çevrilir. Üstəlik, Azərbaycanda məhkumların peşə bacarıqlarını inkişaf etdirmək üçün təklif olunan təlim proqramları məhduddur, bu da onların gələcəkdə əmək bazarında rəqabət qabiliyyətini azaldır. Beynəlxalq təcrübələrdə, xüsusilə Avstraliya və ABŞ-da, cəzaçəkmə müəssisələrində tətbiq olunan peşə təlim proqramları məhkumların iş tapma qabiliyyətlərini artırır. Bununla yanaşı, onların sosial statusunun bərpası və təkrar cinayətkarlığın qarşısının alınması üçün də mühüm amildir.

**Üçüncüsü,** asılılığı olan şəxslərə psixoloji dəstək Azərbaycan reabilitasiya proqramlarında əksər hallarda kifayət qədər nəzərə alınmır. Məhkumlar çox vaxt psixoloji travmalar keçirirlər və cəmiyyətdə bu şəxslərin reinteqrasiyası üçün onlara psixoloji dəstək vacibdir. Bu dəstək, yalnız cinayətkar davranışları dəyişdirməyə deyil, həm də məhkumun ümumi psixoloji vəziyyətini yaxşılaşdırmağa yönəlməlidir. Koqnitiv-davranış terapiyası, dialektik-davranış terapiya (DBT) kimi metodlar, məhkumların emosional vəziyyətini düzəltmək və onların psixoloji dayanıqlığını artırmaq üçün təsirli yanaşmalardır.

Ölkəmizdə asılılığı olan şəxslərin probasiya fəaliyyəti çərçivəsində reabilitasiyası, yalnız nəzarət funksiyası ilə kifayətlənməyib, transformasiyaedici və sosial inteqrasiyaedici bir proses kimi həyata keçirilməlidir. Fərdi terapiya şəxsin psixoloji ehtiyaclarını hədəflədiyi halda, qrup terapiyası sosial uyğunlaşmanı və dəstək mühitini gücləndi-

rir. Beynəlxalq təcrübələr sübut edir ki, bu iki yanaşmanın inteqrasiyası və probasiya əməkdaşlarının davamlı psixo-sosial müdaxilə aparması asılılıqdan azad və təkrar cinayətlərdən uzaq bir həyatın qurulmasında həlledici rol oynayır.

Qrup terapiyalarının Azərbaycanın probasiya fəaliyyətində tətbiqi önəmli hesab edilir. Bu sahədə Türkiyə təcrübəsinin daha dərindən öyrənilməsi, yerli mütəxəsislərin təlimlərə cəlb edilməsi və bu terapiya üsulunun ölkəmizdə tətbiqi zəruridir.

**Dördünsücü,** sosial bacarıqlar asılılığı olan şəxslərin cəmiyyətə reinteqrasiyasını təmin edən vacib amillərdən biridir. Lakin sosial bacarıqların inkişafı ilə bağlı təklif olunan proqramlar çox azdır. Sosial bacarıqların inkişaf etdirilməsi üçün müəyyən proqramlar, məsələn, əlaqə qurma, münaqişə həll etmə, zaman idarəetməsi və digər sosial bacarıqlar, məhkumların azadlığa çıxdıqdan sonra daha uğurlu sosial uyğunlaşmalarına kömək edə bilər.

**Beşincisi,** Azərbaycanda məhkumların cəmiyyətə reinteqrasiyasına dəstək vermək üçün ictimai maarifləndirmə proqramlarına daha çox ehtiyac var. Cəmiyyətin məhkumlara, o cümlədən asılılığı olan çəxslərə qarşı olan neqativ münasibəti onların sosial inteqrasiyasını çətinləşdirir. Sosial stiqma məhkumların yeni cinayət törətmə riskini artırır, çünki onlar cəmiyyətdən təcrid olunmuş hiss edirlər. Bu problemi aradan qaldırmaq üçün maarifləndirmə kampaniyaları və ictimaiyyətin məhkumlara qarşı mü-

nasibətini dəyişdirmək məqsədilə təşəbbüslər həyata keçirilməlidir.

**Nəhayət,** Azərbaycanda asılılığı olan şəxslərin reabilitasiyasını dəstəkləmək üçün probasiya qurumlarının effektiv fəaliyyəti çox əhəmiyyətlidir. Asılığı olan şəxslərə psixoloji, sosial, peşə və s. xidmətlərin gücləndirilməsi və genişləndirilməsi onların cəmiyyətlə əlaqələrinin qurulmasını və reabilitasiyasını asanlaşdırar. Eyni zamanda, asılılığı olan şəxslərin reabilitasiyası, psixoloji və emosional vəziyyətlərinin yaxşılaşdırılması üçün koqnitiv-davranış terapiyası kimi müasir metodlar tətbiq edilə bilər.

## 5.5. Risk qiymətləndirilməsi və fərdi nəzarət planlarının hazırlanması.

Məhkumların yeni cinayət törətmə riskinin qiymətləndirilməsi və fərdi nəzarət planlarının hazırlanması məsələsi həm dünya təcrübəsində, həm də Azərbaycan üçün elmi və təcrübi baxımdan zəruri və əhəmiyyətli hesab edilir. Bu tendensiya həm probasiya, həm də penitensiar sistemlərdə tətbiq olunur. Məsələn, **Kanadada** həm cəzaçəkmə müəssisələrində, həm də probasiya xidmətində risk qiymətləndirməsinin tətbiqi qanunvericilik qaydasında təsbit olunmuşdur. Həmçinin, **Niderlandda** risk qiymətləndirmə aləti (RISc) həm probasiya, həm də penitensiar müəssisələrdə tətbiq edilir.[221]

---

[221] Van der Knaap, L. M., & Nijssen, L. T. J. (2016). Risk assessment in Dutch probation practice. European Journal of Probation, 8(3), 148–164.

Risk qiymətləndirməsi və fərdi nəzarət planlarının tətbiqində **əsas məqsəd** cəmiyyətin təhlükəsizliyinə, yeni cinayətlərin qarşısının alınmasına və ya minimuma endirilməsinə, habelə şəxsin bərpa prosesinə dəstək verməklə, probasiya və penitensiar sistemin effektivliyinin artırılmasıdır.

**Terminologiya:** Azərbaycanda elmi və praktik müstəvidə *"Risk qiymətləndirməsi"* və *"fərdi nəzarət planı"* terminləri yeni anlayışlar olduğu üçün onların elmi izahına ehtiyac duyulur. Bu baxımdan ilk növbədə "risk qiymətləndirməsi" termininə aydınlıq gətirək.

***Risk qiymətləndirməsi.*** Cinayət ədliyyəsi və kriminologiya kontekstində **"risk qiymətləndirməsi"** termini ilk dəfə XX əsrin ortalarından etibarən istifadə olunmağa başlamışdır. Ancaq müasir mənada – yeni cinayət törətmə ehtimalının ölçülməsi məqsədilə sistemli və elmi əsaslarla istifadə olunan risk qiymətləndirmə modeli kanadalı alimlər **Don Andrews və James Bonta** tərəfindən kriminologiya elminə gətirilmişdir. Onların fikrincə, **risk qiymətləndirməsi** fərdin gələcəkdə cinayət törətmə ehtimalını müəyyənləşdirmək məqsədilə həyata keçirilən sistemli və elmi əsaslı analiz prosesidir. Risk əsaslı yanaşma (risk-based approach) müasir probasiya fəaliyyətinin əsas dayaqlarındandır.[222]

**Türkiyəli alim D. Özyörük yazır ki,** probasiya nəzarətində olan şəxsin özünə, ailəsinə, cəmiyyətə və probasiya

[222] Andrews, D. A., & Bonta, J. (2010). The Psychology of Criminal Conduct (5th ed.). Anderson Publishing.

personalına potensial təhlükələrinin, eləcə də residivizim risklərinin müəyyən olunması risk qiymətləndirilməsi adlanır.[223]

Kriminoloji təhlillər və elmi araşdırmalar məhkumların yeni cinayət törətmə riskinin yüksək olduğu hallarda onların bəzən ciddi psixoloji və sosial çətinliklərlə qarşılaşdıqlarını göstərir. Məhkumların bəziləri sərhəd tanımayan davranışlara meylli olurlar və bu da onların yeni cinayət törətmə ehtimalını artırır. Belə hallarda, risk dərəcəsinin düzgün qiymətləndirilməsi, fərdi nəzarət planlarının hazırlanması və reabilitasiya prosesinin müvafiq şəkildə təşkil olunması önəmli addımlardır.

Yeni cinayət riski olan məhkumların düzgün şəkildə qiymətləndirilməsi üçün kriminoloji alətlərdən və metodlardan istifadə edilir. Risk dərəcəsinin qiymətləndirilməsi prosesi məhkumun keçmiş cinayətləri, şəxsi xüsusiyyətləri, psixoloji vəziyyəti və cəmiyyətə olan münasibətini nəzərə alır.

Risk-Need-Responsivity (RNR) modeli risk qiymətləndirməsinin 3 əsas prinsipini təklif edir:

1) **Risk prinsipi:** nəzarətin intensivliyi şəxsin riski ilə proporsional olmalıdır;

2) **Ehtiyac prinsipi:** yalnız kriminogen ehtiyaclar hədəf alınmalıdır (məs., maddə asılılığı, işsizlik, davranış pozuntuları);

[223] Özyörük D. (2025) Probation implemetaion in Türkiye, Edited by Hüseyin Şık, Ph.D., p.39.

3) **Uyğunluq prinsipi:** müdaxilə fərdin öyrənmə tərzinə və motivasiyasına uyğun qurulmalıdır.

Riskin qiymətləndirilməsi üçün ən çox **istifadə edilən alətlər** arasında "Lokal və Qlobal Risk Qiymətləndirilməsi Modeli" (LS/CMI) və "Düzgün Riski Qiymətləndirmək" (SRA) kimi metodlar yer alır. Bu yanaşmalar, risk faktorlarını ətraflı analiz etməyə və yeni cinayət törətmə ehtimalını azaltmağa yönəlmiş xüsusi tədbirlərin müəyyən edilməsinə imkan verir.

**ABŞ** dünyada risk qiymətləndirmə alətlərinin ilk və ən intensiv tətbiq edildiyi ölkədir. Bu ölkədə COMPAS (Correctional Offender Management Profiling for Alternative Sanctions), ORAS, LSI-R, STATIC-99 kimi dinamik qiymətləndirmə alətləri geniş istifadə olunur. ABŞ-da bu alətlər həm probasiya, həm də ilkin həbs qərarlarında (pre-trial detention) tətbiq olunur.[224]

Türkiyəli alim Dr. Efe Can Karabulat yazır ki, psixoloji ölçmə vasitələrinin məcmusu olan COMPAS həm statik, həm də dinamik risk faktorlarını və eyni zamanda cinayətkarın ehtiyaclarını nəzərə alaraq onunla bağlı qiymətləndirmə aparmağa imkan verir. Bu alətdən istifadə etməklə: təqsirləndirilən şəxsin həbsdə saxlanılaraq mühakimə olunmasının zəruriliyi, hansı cəza növünün daha uyğun olacağı və şəxsin şərti azadlığa buraxılmasının məqsədəuyğunluğu barədə qərarlar qəbul edilə bilir. Karabula-

[224] Brennan, T., Dieterich, W., & Ehret, B. (2009). Evaluating the Predictive Validity of the COMPAS Risk and Needs Assessment System. Criminal Justice and Behavior, 36(1), 21–40.

tın fikrincə, Türkiyədə də bu cür proqramların istifadəsi mümkündür. Lakin Türkiyə cinayət ədaləti sistemi bu cür proqramların yalnız cəzanın icrası mərhələsində istifadəsinə daha uyğun bir mühit yaradır.[225]

Risk qiymətləndirməsinin tətbiqi ilə bağlı LSI-R (Level of Service Inventory - Revised) aləti **Kanadada** hazırlanmış və sonradan beynəlxalq miqyasda tətbiq olunmuşdur.

**Böyük Britaniyada** Cinayətkarları qiymətləndirmə sistemi (Offender Assessment System - OASys) adlı risk qiymətləndirmə sistemi tətbiq olunur və bu sistem yeni cinayət riskini, kriminogen ehtiyacları və müdaxilə sahələrini müəyyən edir. Birləşmiş Krallıqda bütün probasiya məmurları OASys alətindən istifadə üzrə xüsusi təlim alır.

Risk qiymətləndirməsi **Azərbaycanda** probasiya fəaliyyətində yeni tətbiq olunmağa başlamışdır. Bu metodun tətbiqi 2024-cü ilin sonlarına təsadüf edir. Ədliyyə Nazirliyinin Probasiya xidməti tərəfindən məhkumların risk qiymətləndirilməsi üçün beynəlxalq standartlara uyğun modellərin tətbiqi ilə bağlı təlimlər təşkil edilir, xarici təcrübə öyrənilir.

Eyni zamanda, Azərbaycan probasiya sistemində probasiya nəzarətində olan şəxslərin fərdi xüsusiyyətləri, davranışları xarakter cizgiləri, sosial münasibətlərə yanaşmaları, emosional sabitlikləri, aqressivlik və ya empatiya səviyyələri, məsuliyyət hissi kimi fərdi psixoloji-sosial xü-

[225] Efe Can Karabulat. Ceza Adaleti Sisteminde Aktüeryal Risk Deşerlendirme Araçları: COMPAS Örneşi Üzerinden Bir Tartışma, https://dergipark.org.tr/tr/download/article-file/4541613

susiyyətlərini müəyyən edtmək üçün sorğu və qiymətləndirmə formaları da tətbiq olunmağa başlamışdır. Professor İ. Durneskunun qeyd etdiyi kimi, bu sorğu və qiymətləndirmə formaları məşğulluq, peşə təlimləri, təhsil, maliyyə yardımları, sosial, dini, hüquqi dəstək, asudə vaxt ehtiyaclarını müəyyən edir.[226]

***Fərdi nəzarət planı.*** Fərdi nəzarət planı (Individual Supervision Plan – ISP) risk qiymətləndirməsinin nəticələrinə əsaslanaraq probasiya nəzarətində olan şəxs üçün hazırlanmış konkret, məqsədyönlü və mərhələli nəzarət və dəstək planıdır. **Fərdi nəzarət planlarının da elmi əsasını** Kanadalı alimlər Don Andreus və James Bonta qoymuşlar. Onlara görə, fərdi nəzarət planı risk səviyyəsinə uyğun müdaxilə strategiyalarını və kriminogen ehtiyacları hədəf almalıdır.

Fərdi nəzarət planı aşağıdakılardan ibarət olur: risk və ehtiyacların təhlili; sosial adaptasiya və reabilitasiya məqsədləri; dəstəkləyici xidmətlərə yönləndirmə (psixoloji yardım, təhsil, peşə hazırlığı); nəzarət müddəti və müdaxilə strategiyaları; davranış monitorinqi və nəticələrin qiymətləndirilməsi. Fərdi plan probasiya məmuru ilə şəxs arasında qarşılıqlı razılıq əsasında hazırlanır və dinamik şəkildə yenilənə bilər.

Professor Faye S. Taxman fərdi nəzarət fərdi planların dinamik, adaptiv və proqnozlaşdırıcı olmasının vacibliyini vurğulayır. O, Proaktiv icma nəzarəti (Proactive Commu-

[226] Durnescu I., Byrne J.M.,Maskey B.Y., and Taxman F.S., (2024) The Routledge handbokk on global community corrections. Routledge.

nity Supervision - PCS) modelini inkişaf etdirərək fərdi planların məqsədini "dəyişikliyə yönəlmiş davranış strategiyaları" kimi izah edir. Burada məqsəd təkcə nəzarət deyil, cinayət davranışını dəyişməyə yönəlmiş dəstək strategiyası yaratmaqdır.[227]

Yaponiyalı alimlər Masahiro Tamura və Kenji Otani yazır ki, Yapon probasiya sistemində fərdi nəzarət planlarını "həyat istiqamətləndirici plan" adlandırırlar. Onların əsərlərində fərdi nəzarət planı sosial məsuliyyət, ailə münasibətləri və fərdi öhdəliklərlə əlaqələndirilir. Fərdi planlar təkcə riskin idarəsi deyil, şəxsin dəyərlərinə və sosial rolu bərpa etməsinə yönəlib.[228]

**Yaponiyada "Həyat istiqamətləndirici plan"** ("Life Guidance Plan") fərdi nəzarətin sosial və mənəvi yönlərini əhatə edir. Şəxsin ailə və iş mühiti, davranış normaları, ictimai məsuliyyəti ön plandadır. Planlar könüllülərlə (hogosha) birlikdə hazırlanır və dəstəklənir.

Türkiyəli alimlər Ali Eryılmaz və Hasan Hüseyin Tekin fərdi planların psixososial yönlərini araşdıraraq göstərirlər ki, planlaşdırma prosesi yalnız hüquqi nəzarət deyil, təkrar inteqrasiya və psixoloji sabitliyin qurulması üçün də əhəmiyyətlidir.[229] Qardaş Türkiyənin probasiya siste-

---

[227] Taxman, F. S. (2008). No Illusions: Offender and Organizational Change in Maryland's Proactive Community Supervision Efforts. Criminology & Public Policy, 7(2), 275–302.

[228] Tamura, M., & Otani, K. (2015). Social Reintegration Through Probation: The Japanese Approach.

[229] Eryılmaz, A. (2018). Denetimli Serbestlik Sürecinde Psikososyal Müdahale. Adalet Dergisi, 158, 45–59.

mində 2011-ci ildə qəbul edilən "Denetimli Serbestlik Hizmetleri Yönetmeliği" fərdi nəzarət planlarının hazırlanmasını hüquqi və metodoloji əsaslarla tənzimləyir. Bundan başqa, NARKO-REHBER, e-Rehabilitasyon kimi rəqəmsal sistemlərlə fərdi planlar izlənilir və risk göstəriciləri daim yenilənir.[230]

**Türkiyədə** e-Reabilitasyon sistemi vasitəsilə fərdi nəzarət planlarının rəqəmsal şəkildə icrası və izlənməsi həyata keçirilir. Psixososial müdaxilə planları, ailə dəstəyi, təlim və məşğulluq proqramları ilə inteqrasiya olunur.

**Niderlandda** RISc (Recidive Inschattings Schalen) risk qiymətləndirməsinə əsaslanan fərdi plan aləti tətbiq olunur. Bu planlar sosial işçilər və probasiya əməkdaşları tərəfindən birgə hazırlanır və ailə, məşğulluq, mənzil, psixoloji vəziyyət kimi 12 sahə üzrə strukturlaşdırılmışdır. Niderlandda probasiya xidməti, ambulator məhkəmə-psixiatriya müəssisələri və yeniyetmələr üçün məhkəmə psixiatriyası sahəsində çalışan mütəxəssislər tərəfindən strukturlaşdırılmış risk qiymətləndirmə (SPJ – Structured Professional Judgment) alətlərinin "ilk istifadəçiləri" arasında yer alır və bu alətlərin geniş şəkildə tətbiqinə səbəb olmuşdur.[231]

**Kanadada** fərdi planlar (LSI-R aləti ilə hazırlanan) proqnozlaşdırıcı və fərdin davranış dəyişməsinə yönəl-

---

[230] T.C. Adalet Bakanlığı (2020). Denetimli Serbestlik Bilgi Sistemi ve Risk Değerlendirme Araçları. Ankara.

[231] Risk assessment in the Netherlands, https://cris.maastrichtuniversity.nl/ws/portalfiles/portal/234203379/De_Ruiter_H18_Risk_Assessment_in_the_Netherlands_2016.pdf

mişdir. Hər plan konkret məqsədlər, icra yolları və monitorinq mərhələləri ilə müşayiət olunur. Fərdi planlar akademik əsaslı, təkrar təhlilə açıq, realistik və nəticəyönlü model hesab edilir.

Beləliklə, risk qiymətləndirməsi və fərdi nəzarət planlarının hazırlanması probasiya fəaliyyətinin birbaşa səmərəliliyinə xidmət etməklə, yeni cinayətlərin qaşısının alınması və reabilitasiya prosesinin daha mükəmməl şəkildə fəaliyyət göstərməsinə səbəb olur. Məhkumların yenidən cinayət törətmə riskinin qiymətləndirilməsi və fərdi nəzarət planlarının hazırlanması, onların reabilitasiyasının və sosial uyğunlaşmasının effektiv şəkildə həyata keçirilməsi üçün həyati əhəmiyyət daşıyır. Risk qiymətləndirməsi hər bir məhkumun xüsusiyyətlərini nəzərə alaraq, daha uyğun reabilitasiya planlarının hazırlanmasını təmin edir. Bununla yanaşı, davamlı nəzarət mexanizmləri, onların cəmiyyətə reinteqrasiyasını asanlaşdırır və yeni cinayət törətmə ehtimalını azaldır. Bütün bu tədbirlər, məhkumların sosial uyğunlaşmalarını gücləndirərək, cəmiyyətdə sağlam və müsbət bir mövqe tutmalarına şərait yaradır. Bu paraqrafda əldə olunan elmi yanaşmaların tətbiqi ilə bununla bağlı aşağıdakı nəticələr məqbul hesab edilər: subyektiv qərarvermənin azaldılması və resursların optimal istifadəsi; risk qrupundakı şəxslərə daha intensiv müdaxilə və dəstək; yeni cinayətkarlıq səviyyəsinin azalması; hüquqi və sosial aspektlərin uzlaşdırılması. Azərbaycan üçün bu sahədə beynəlxalq modellərə əsaslanan yerli alət-

lərin hazırlanması, təlim keçmiş sosial işçilərin cəlbi, rəqəmsal nəzarət platformalarının tətbiqi tövsiyə edilə bilər.

### 5.6. Məhkəməyədək məruzənin xüsusiyyətləri və növləri

Məhkəməyədək məruzə (pre-sentence report) ilə bağlı bəzi elmi və praktiki nüanslara toxunmaq zəruridir. Çünki ölkəmizdə gələcəkdə tətbiq olunması vacib olan faktorlardan biri bu məsələ ilə bağlıdır.

**Məhkəməyədək məruzə** məhkəməyə, xüsusilə də hakimə, hökm çıxarmazdan əvvəl təqsirləndirilən şəxsin, o cümlədən yektinlik yaşına çatmayanların şəxsiyyəti, sosial vəziyyəti, cinayətin motivləri və reabilitasiya potensialı haqqında obyektiv məlumat təqdim edən sənəddir. Bu institut alternativ cəzaların, o cümlədən probasiyanın tətbiqinə dair əsaslandırılmış qərar qəbuluna şərait yaradır.

**Məhkəməyədək məruzənin 2 əsas növü vardır:** 1) Sürətli və ya qısa məruzə; 2) Standart və ya geniş məruzə.

**Sürətli** təqdim olunan **məhkəməyədək məruzə** qısa müddətdə hazırlanır və əsasən daha sadə cinayət işlərində, təcili qərar verilməsi tələb olunan hallarda məhkəməyə təqdim olunur ki, bunun da əsas funksiyası hakimin cəza təyinində ilkin, lakin yetərli sosial və hüquqi məlumat əldə etməsini təmin etməkdir.

**Standart** qaydada təqdim olunan **məhkəməyədək məruzə** isə daha ətraflı və geniş sosial-hüquqi məlumatları əhatə edir, mürəkkəb, ağır və ya çoxfaktorlu cinayət işlərində hazırlanır. Burada təqsirləndirilən şəxsin sosial və-

ziyyəti, psixoloji xüsusiyyətləri, risk və ehtiyaclarının təhlili, həmçinin alternativ cəzaların məqsədəuyğunluğu barədə detallı tövsiyələr verilir.

BMT-nin Tokio Qaydalarında (1990) qeyd edilir ki, əgər sosial araşdırma hesabatlarının hazırlanması imkanı mövcuddursa, məhkəmə orqanı səlahiyyətli və müvafiq orqan və ya vəzifəli şəxs tərəfindən tərtib olunmuş məruzədən istifadə edə bilər. Həmin məruzə təqsirləndirilən şəxsin cinayət davranışı və hazırkı hüquq pozuntusu ilə bağlı sosial xarakterli məlumatları ehtiva etməlidir. Həmçinin, cəzanın təyin olunması mərhələsində nəzərə alınmalı tövsiyələr və məlumatlar da məruzədə əks olunmalıdır. Məruzə faktlara əsaslanan, obyektiv və qərəzsiz olmalı, ifadə edilən fikir və mülahizələr aydın şəkildə olmalıdır. Məhkəməyədək hazırlanan məruzə cəzanın fərdiləşdirilməsi üçün əsas vasitədir və şəxsin həyat şəraiti və sosial davranışı haqqında məlumat verməlidir.[232]

Prof. J.V. Roberts yazır ki, "məhkəməyədək məruzə" anlayışı elmə ilk dəfə XX əsrin əvvəllərində, xüsusilə İngiltərə və ABŞ hüquq sistemində daxil olmuşdur. Bu sistemin hüquqi əsasları ilk dəfə Böyük Britaniyada 1907-ci ildə Cinayətkarların probasiyası haqqında Qanunla (Probation of Offenders Act), daha sonra isə ABŞ-da 1925-ci ildə Federal Probasiya Qanunu (Federal Probation Act) kimi

---

[232] United Nations Standard Minimum Rules for Non-custodial Measures (The Tokyo Rules), https://www.ohchr.org

qanunvericilik aktlarında öz əksini tapmışdır.[233]ABŞ və Birləşmiş Krallıqda bu sənədin hazırlanması ilkin olaraq probasiya xidmətlərinin əsas funksiyalarından biri kimi formalaşmış, daha sonra isə müasir cinayət ədliyyəsində müstəqil hüquqi instituta çevrilmişdir.

Con F. Klaus qeyd edir ki, məhkəməyədək məruzənin məqsədi məhkəmənin sorğusu əsasında təqsirləndirilən şəxs barədə məlumat təqdim etməkdir. Bu məlumatlar hakim tərəfindən hökm çıxarılmamışdan əvvəl cəza tədbirlərinin müəyyənləşdirilməsi zamanı nəzərə alınır.[234]

Ümumiyyətlə, ədəbiyyatlardakı mövqeləri ümumiləşdirsək, məhkəməyədək məruzənin əsas məqsədlərinə bunları aid etmək olar: cinayət kontekstində təqsirləndirilən şəxsin şəxsiyyətinin və həyat şəraitinin öyrənilməsi; hakimin ədalətli və fərdiləşdirilmiş cəza təyin etməsinə yardım; alternativ sanksiyaların (probasiya, ictimai işlər və s.) tətbiq imkanlarının qiymətləndirilməsi; reabilitasiya və sosial reinteqrasiya üçün tövsiyələrin verilməsi.

Məhkəməyədək məruzənin probasiya sistemlərində tətbiq mexanizmləri və hazırlanması aşağıdakı mərhələləri əhatə edir:

1) Məlumat toplama mərhələsi təqsirləndirilən şəxslə müsahibə, ailə üzvləri və işəgötürənlərlə əlaqə, hüquq-

---

[233] Roberts, J.V. (2002). Pre-sentence Reports in Sentencing Practice. Oxford University Press.

[234] Handbook on Probation Services, Guidelines for Probation Practitioners and Managers prepared by Jon F. Klaus, Publication No. 60, Rome / London March 1998, p.32.

mühafizə orqanlarının sənədləri və əvvəlki cinayət təcrübəsini əhatə edir.

2)Risk və ehtiyacların qiymətləndirilməsi mərhələsində residivizm riski müəyyən edilir.

3)Tövsiyələrin hazırlanması mərhələsində reabilitasiya və alternativ cəza tədbirlərinə dair konkret təkliflər verilir.

4) Məhkəməyə təqdimat mərhələsində isə nəticələr məhkəməyə yazılı şəkildə təqdim olunur və bəzən probasiya əməkdaşı məhkəmə iclasında iştirak edərək izahat verir.

İndi isə bir sıra xarici ölkələrdə məhkəməyədək məruzələrin xüsusiyyətləri və hazırlanma texnologiyalarına nəzər salaq.

**Böyük Britaniyada** məhkəməyədək məruzələr Milli Probasiya Xidməti tərəfindən hazırlanır və hakimlər üçün məcburi istinad sənədi hesab edilir. Bu ölkədə məhkəməyədək məruzələr cəza siyasətinin mühüm elementlərindən biridir və məhkəmənin fərdiləşdirilmiş, ədalətli hökm çıxarmasına yardım göstərmək məqsədi daşıyır.

Bu institut ilk dəfə İngiltərədə yarandığı üçün onun fəlsəfəsinə və məzmununa diqqət yetirilməsi faydalı olardı. Böyük Britaniyada məhkəməyədək məruzələr probasiya və ədalət mühakiməsi sisteminin "körpü mexanizmi" hesab olunur. Bu, həm cəza siyasətinin humanistləşdirilməsinə, həm də ictimai təhlükəsizliyin təmin olunmasına xidmət edir. Bu üsulun tətbiqində əsas tendensiya hakimə cəzanın yalnız hüquqi deyil, həm də sosial və reabilitasiya aspektlərini nəzərə alaraq qərar verməsinə imkan yaratmaqdır. Digər tərəfdən, bu zaman təqsirləndirilən şəxsin

şəxsiyyəti, sosial vəziyyəti və həyat tərzi barədə məlumatlar əldə edilir, cinayət törətməsinə təsir edən amillərin (ailə, mühit, asılılıq, işsizlik və s.) təhlili aparılır, habelə yeni cinayət riskləri və ictimai təhlükəlilik dərəcəsinin qiymətləndirilməsi mümkün olur və nəticədə məhkuma cəmiyyət üçün daha faydalı ola biləcək alternativ cəzalar verilir.

**Türkiyədə** məhkəməyədək məruzələr "Sosyal İnceleme Raporu" adlanır[235] və "Denetimli Serbestlik Müdürlükləri" tərəfindən hazırlanır, alternativ cəzaların tətbiqi üçün əsas sənəd hesab edilir. Onun əsas məqsədi məhkəməyə və ya icraedici orqanlara haqqında qərar veriləcək şəxsin (məhkum, uşaq, gənc və ya probasiya nəzarətində olan fərdin) sosial şəraiti, psixoloji vəziyyəti, ailə və mühit faktorları barədə obyektiv məlumat təqdim etməkdir. Türkiyədə bu vasitədən xüsusilə uşaqlar haqqında çıxarılan qərarlarda istifadə olunur.

Bu məruzənin hazırlanması aşağıdakı mərhələlərdən ibarətdir:

1) Məlumat toplanması - şəxsin ailə vəziyyəti, yaşayış şəraiti, təhsil və əmək tarixi, sosial əlaqələri öyrənilir. Bundan başqa, onu əhatə edən mühit, dost çevrəsi və sosial şəbəkələri barədə məlumat toplanır. Daha sonra isə psixoloji xüsusiyyətləri, davranışı və risk faktorları araşdırılır.

---

[235] Ceza ve Güvenlik Tedbirlerinin İnfazı Hakkında Kanun, https://www.mevzuat.gov.tr/mevzuat?MevzuatNo=5275&MevzuatTur=1&MevzuatTertip=5

2) Peşəkar qiymətləndirmə - probasiya məmurları, psixoloq, sosial işçi və pedaqoqların iştirakı ilə şəxsin yenidən cinayət törətmə ehtimalı, sosial adaptasiya potensialı və müdaxilə ehtiyacları dəyərləndirilir.

3) Məruzənin hazırlanması - əldə olunan məlumatlar obyektiv və rəsmi formada sənədləşdirilir, şəxsin vəziyyətinə uyğun sosial və psixoloji tədbirlər, reabilitasiya proqramları və probasiya nəzarəti barədə tövsiyələr verilir.

Türkiyədə bu institutdan hakimlər hökm çıxararkən və ya alternativ cəza tədbirlərinə qərar verərkən istifadə edirlər. Eyni zamanda, bu ölkədə probasiya nəzarətində olan şəxslərin fərdi nəzarət planı hazırlanarkən əsas baza kimi, habelə qanun pozuntusu törətmiş azyaşlıların sosial mühitini və reabilitasiya ehtiyaclarını müəyyənləşdirmək üçün bu rapor xüsusi əhəmiyyət kəsb edir.

Məhkəməyədək məruzə institutu **Qırğızıstan** qanunvericiliyində də nəzərdə tutulub. **Məhkəməyədək probasiya** adlanan bu institut təqsirləndirilən şəxsə tətbiq olunur və onun şəxsiyyətinin sosial-psixoloji tədqiqindən ibarətdir. Tədqiqatın nəticəsi üzrə probasiya məruzəsi və ya məhkəməyədək məruzə hazırlanır. Məhkəmə təqsirləndirilən şəxs barəsində probasiya məruzəsinin hazırlanması barədə göstəriş verir. Proses sosial-psixoloji tədqiqat formasında aparılır və informasiyanın toplanması və qiymətləndirilməsinə əsaslanır. Bu zaman aşağıdakı məlumatlar toplanmalıdır: probasiya müştərisinin sosial statusu; ailəsi və digər sosial əlaqələri; yaşayış və məişət şəraiti; təhsili; yaşayış yeri, işi, peşəsi və məşğuliyyəti; sağlamlıq vəziy-

yəti; meylləri və vərdişləri; alkoqol, narkotik, psixotrop maddələrdən asılılıq və ya psixi pozuntuların olub-olmaması; çətin həyat vəziyyətinə səbəb olan digər hallar. Məlumatların toplanması xarakteristikaların, rəylərin, arayışların, izahatların əldə olunması, dövlət orqanlarının məlumat bazalarından istifadə edilməsi, akt və digər sənədlərin tərtibi yolu ilə həyata keçirilir. Təqsirləndirilən şəxs probasiya məruzəsinin  hazırlanması zamanı müdafiəçisi, həyat yoldaşı və ya yaxın qohumları vasitəsilə yazılı şəkildə məlumat təqdim etmək hüququna malikdir. Toplanmış məlumat əsasında təqsirləndirilən şəxsə cəmiyyətə təcrid olunmadan tətbiq edilə biləcək cəza və cinayət-hüquqi tədbirlərlə bağlı tövsiyələr hazırlanır və probasiya məruzəsi tərtib edilir. Əgər təqsirləndirilən şəxs qeydiyyatda olduğu ünvanda yaşamırsa, məlumatlar natamam və ya mövcud deyilsə, yaxud o vəfat etmişsə – probasiya məruzəsi tərtib edilmir. Bu halda probasiya orqanı əsaslandırılmış rəy təqdim edir. Probasiya məruzəsinin tərtib edilməməsi barədə qərarın hazırlanma müddəti məhkəmə göstərişinin daxil olduğu gündən etibarən 30 təqvim gününə qədərdir.[236]

Beləliklə, məhkəməyədək məruzənin hazırlanmasında əsas məqsəd təqsirləndirilən şəxsin obyektiv qiymətləndirilməsini, yeni cinayət riski və kriminogen tələbatların müəyyən edilməsini, həmçinin cəmiyyətdən təcrid olunmadan islah imkanlarının qiymətləndirilməsini təmin etməkdir.

---

[236] Закон Кыргызской Республики о пробации от 24 февраля 2017 года № 34, https://cbd.minjust.gov.kg

# VI FƏSİL

# PROBASİYA SAHƏSİNDƏ BƏRPAEDİCİ ƏDLİYYƏNİN (RESTORATİVE JUSTİCE) ROLU VƏ ƏHƏMİYYƏTİ

*6.1. Bərpaedici ədliyyənin anlayışı, mahiyyəti və növləri.*

*6.2. Bərpaedici ədliyyənin tarixi.*

*6.3.Zərərçəkmiş və cinayət törətmiş şəxslər arasında mediasiyasının (Victim/Offender Mediation) məqsədləri.*

*6.4. Azərbaycanda probasiya sahəsində bərpaedici ədliyyənin tətbiqi perspektivləri.*

## 6.1. Bərpaedici ədliyyənin anlayışı, mahiyyəti və növləri

Bərpaedici ədliyyə (Restorative Justice) son dövrlər dünyanın, o cümlədən ölkəmizin elmi dairələrində müzakirə olunan və praktiki tətbiq edilən paradiqmalardandır. Ona görə də, bu kitabda ilk növbədə bərpaedici ədliyyənin anlayışı, tarixi və xarici ölkələrin praktikasında, habelə müasir beynəlxalq hüquqda mahiyyəti və tətbiqi məsələlərinin araşdırılmasını zəruri hesab edirik.

Ədəbiyyatlarda "bərpaedici ədliyyə" termini ilə bağlı iki cür təriflər formalaşmışdır: **doktrinal təriflər** və beynəlxalq hüquqi sənədlərdə təsbit olunmuş rəsmi **normativ təriflər.**

Kanadanın Ontario Universitetinin alimləri **Prof. Y. Dandurand və Prof. T. Kurtun fikrincə,** "bərpaedici əd-

liyyə cəmiyyətin, zərərçəkmiş şəxslərin və cinayətkarların ehtiyaclarını tarazlaşdırmaqla cinayət davranışına cavab vermək üsuludur".[237] Bu doktrinal tərifdə iki mühüm elementə diqqət yetirilir: birincisi, bərpaedici ədliyyə təkcə zərərçəkmişin hüquqlarının bərpası ilə bağlı institut deyil, o həm də cinayətkarların ehtiyaclarını nəzərə alan cavab tədbiridir. Bu tərifdə ikinci element isə, bərpaedici ədliyyənin zərərçəkmiş şəxslərlə cinayətkarlar arasında tarazlaşdırrma və ya balanslaşdırma funksiyası ilə bağlıdır.

Avstraliya Milli Universitetinin professoru **Con Breitveytin fikrincə**, bərpaedici ədliyyə zərərçəkmişlərin, hüquq pozan şəxslərin və icmaların maraqlarını bərpa edir. Bu o ideyanı özündə əks etdirir ki, cinayət zərər yetirdiyi halda, bərpaedici ədliyyə şəfaverici xarakter daşıyır. [238] Professorun bu fikirlərinə əsaslanaraq deyə bilərik ki, ***"bərpaedici ədalət konsepsiyası"*** cinayətin yalnız hüquq qaydasının pozuntusu kimi deyil, həm də şəxsi və ictimai münasibətlərə zərər yetirən bir hadisə olduğunu qəbul edir. Bu yanaşmaya görə, cinayət nəticəsində yaranan sosial və emosional zərərin aradan qaldırılması məqsədilə bərpaedici ədliyyə prosesi zərərçəkmişin, hüquq pozanın və cəmiyyətin iştirakını təmin etməli, onların maddi və mənəvi maraqlarının bərpasına yönəlməlidir.

[237] Prof. Y. Dandurand and Prof. Curt T. Griffiths, Handbook on Restorative Justice Programmes, New York, 2006, p. 6

[238] J. Braithwaite. Restorative justice, https://johnbraithwaite.com/restorative-justice/

Beləliklə, bərpaedici ədliyyə ***"cinayət zərər yetirir, ona görə də ədalət sağaltmalıdır"*** prinsipinə əsaslanaraq, hüquqi reaksiyanı bir növ mənəvi-şəfaverici və əlaqələri bərpaedici bir vasitə kimi təqdim edir.

**Kardiff Universitetinin professoru D. Miers** bərpaedici ədliyyə termininə bir neçə alternativ anlayışlar təklif edir: "icma ədliyyəsi" (community justice), reparativ ədliyyə (reparative justice), "pozitiv ədliyyə" (positive justice), "ünsiyyət ədliyyəsi" (relational justice) və s.[239] Lakin müasir ədəbiyyatlarda bu terminlərdən yalnız biri "icma ədliyyəsi" qismən istifadə edilir. Elmi və praktiki müstəvidə isə "bərpaedici ədliyyə" termini daha geniş yayılmışdır.

"Bərpaedici ədliyyə" termini qeyri-adi dərəcədə geniş təfsir edilir. Belə ki, bu anlayış: cinayət ədliyyəsi kontekstində zərərçəkmiş-cinayətkar arasında dialoqu; təşkilati kontekstlərdə münaqişələrin həlli üzrə seminarları; peşə kollektivlərində komanda qurma sessiyalarını; nikah məsləhəti və xidmətləri, uşaqları ilə pis rəftar edən valideynlərə öyüd-nəsihət verməni; təhqiredici ifadələrə görə üzr istənilməsi[240] və s. elementləri əhatə edir.

**Bərpaedici ədliyyənin "atası"** - "bərpaedici ədliyyə" konsepsiyasının banisi hesab olunan **Prof. Dr. Hovard Zehrin fikrincə,** bərpaedici ədliyyə cinayətin vurduğu zərərin aradan qaldırılmasına, habelə bu prosesə fərdlərin və

---

[239] Miers D. An International Review of Restorative Justice, London, 2001, p. 88.

[240] Crime Reduction Research Series, Crown Copyright 2001, p.4.

icma üzvlərinin cəlb edilməsinə diqqət yetirir. O yazır ki, bərpaedici ədliyyə anlayışı cinayət işlərində maraqlı tərəflərin dairəsini yalnız dövlət və təqsirləndirilən şəxslə məhdudlaşdırmır, eyni zamanda zərərçəkənləri və icma üzvlərini də bu prosesə daxil edir. Bu zaman xüsusi diqqət zərərçəkmişlərin ehtiyaclarına yönəldilir. Cinayətdən zərər çəkənlərin ehtiyac duyduğu informasiya həqiqətin açıqlanması, səlahiyyətləndirmə və kompensasiya kimi məsələlər çox zaman diqqətdən kənarda qalır. Bərpaedici ədalət nəzəriyyəsi və təcrübəsi məhz bu ehtiyacları ciddi şəkildə nəzərə almaq təşəbbüsündən doğmuşdur.[241] Zehr qeyd edir ki, ***bərpaedici ədliyyə zərərin tanınması, məsuliyyətin qəbul olunması və zərərin aradan qaldırılması prosesidir.*** Onun fikrincə, bərpaedici ədliyyə yalnız cinayətə cavab vermək vasitəsi deyil, eyni zamanda sosial münasibətləri bərpa etməyə yönəlmiş fəlsəfi və mədəni yanaşmadır.

**Minnesota Universitetinin professoru Mark Umbreit** bu modelin əsas elementlərini belə müəyyənləşdirir: zərər çəkmişin ehtiyaclarının tanınması; cinayətkarın məsuliyyət daşıması; cəmiyyətin iştirakının təmin olunması; barış və reabilitasiya proseslərinin təşviqi.[242] Probasiya kontekstində professorun fikirləri ilə tam razılaşaraq qeyd etmək lazımdır ki, bərpaedici ədliyyə reabilitasiya prosesinin tər-

---

241 Howard Zehr, Little Book of Restorative Justice, https://www.ojp.gov/ncjrs/virtual-library/abstracts/little-book-restorative-justice

242 Umbreit, M. S. (2001). The handbook of victim offender mediation: An essential guide to practice and research. Jossey-Bass.

kib hissəi olmaqla, onun əsas missiyası tərəflər arasında barışığın əldə olunmasına yönəlməlidir.

Elmi ədəbiyyatlarda bərpaedici ədliyyənin nəzəri əsası kimi **"yumşaq ədalət nəzəriyyəsi" (Soft Justice Theory)** çıxış edir. Belə ki, bu nəzəriyyə ənənəvi sərt cəza modellərindən fərqli olaraq, daha humanist, bərpaedici və sosial ədalətə əsaslanan yanaşmanı müdafiə edir. Yumşaq ədalət nəzəriyyəsi konkret bir şəxs tərəfindən tam şəkildə formalaşdırılmış doktrina olmasa da, onun əsas prinsipləri bəzi alimlərin işlərində öz əksini tapmışdır. Bu nəzəriyyənin görkəmli nümayəndələrindən biri olan prof. Hovard Zehr bərpaedici ədliyyənin nəzəri tərəflərini təqdiq edərək yumşaq ədalət prinsiplərinin təşviqində mühüm rol oynamışdır.

Fikrimizcə, **bərpaedici ədliyyə** cinayət nəticəsində pozulmuş sosial münasibətlərin və ədalət balansının bərpasına yönələn hüquqi və etik yanaşmadır. Onun əsas prinsipi yalnız cinayətkarın cəzalandırılması deyil, həm də zərərçəkmişin, təqsirləndirilənin və cəmiyyətin maraqlarının bərabər şəkildə bərpasıdır.

Bərpaedici ədliyyə ilə bağlı son illər beynəlxalq hüquqda, xüsusilə Avropa hüququnda **rəsmi normativ təriflərə** də rast gəlmək mümkündür.

AŞ Nazirlər Komitəsinin bərpaedici ədliyyə ilə bağlı üzv dövlətlər üçün 2018-ci il Tövsiyəsinin (№ CM/Rec(2018)8) II maddəsinin 3-cü bəndində qeyd edilir: **"Bərpaedici ədliyyə"** cinayət nəticəsində zərər çəkmiş şəxslərə və bu zərərə görə məsuliyyət daşıyanlara, sərbəst

razılıq verdikləri halda, təlim keçmiş və qərəzsiz üçüncü tərəfin (mediatorun) köməyi ilə cinayətdən irəli gələn məsələlərin həllinə yönəlmiş prosesdir.[243]

Ənənəvi cəza ədliyyəsi modeli əsasən cinayətin dövlətə qarşı törədilən hüquq pozuntusu kimi qiymətləndirilməsinə və cəzanın tətbiqinə yönəlib. Bərpaedici ədliyyə isə alternativ və daha humanist bir yanaşma təklif edir: bu modeldə cinayət ilk növbədə, insanlara və münasibətlərə zərər vuran hadisə kimi dəyərləndirilir. **Bərpaedici ədliyyənin əsas məqsədi** cinayətin törədilməsi nəticəsində zərər çəkmiş tərəflər, cinayətkar və cəmiyyət arasında ədalətli və şəffaf münasibətin qurulmasıdır.

Bərpaedi ədliyyə üzrə Avropa Forumu bərpaedici ədliyyə anlayışını qanun pozuntusunun aradan qaldırılması, həmçinin ədalətin təmin olunması məqsədilə zərərçəkmişləri cəlb etməklə zərərin və ya zərərin vurulma riskinin aradan qaldırılması və razılığın əldə olunması üçün bir yanaşma kimi müəyyən edir [244].

Bərpaedici ədliyyə cinayət törətmiş şəxslə zərərçəkmiş arasında mediasiya, ailə, qrup iclaslarından və sair tədbirlərdən ibarət olub, həm ədalət mühakiməsinin istənilən mərhələsində, həm də penitensiar və probasiya sistemlərində tətbiq olunur.

---

[243] AŞ Nazirlər Komitəsinin bərpaedici ədliyyə ilə bağlı üzv dövlətlər üçün 2018-ci il Tövsiyəsinin (№ CM/Rec(2018)8) II maddəsinin 3-cü bəndi

[244] Manual on Restorative Justice- values and standards for practice. EFRJ, https://www.euforumrj.org

Avropada çoxsaylı milli sistemlər müxtəlif nəticələrlə bərpaedici ədliyyənin tətbiqi istiqamətində xeyli səylər göstərmişlər. Avropa Şurası ilk olaraq 1999-cu ildə öz üzv dövlətləri arasında cinayət işlərində mediasiyanı tətbiq edərək bərpaedici ədliyyə ilə bağlı məlumatlılığı artırmağa çalışmışdır.[245] Daha sonra 2018-ci ildə onu cinayət işlərində bərpaedici ədliyyə mühakiməsinə genişləndirilmişdir. AŞ Nazirlər Komitəsinin bərpaedici ədliyyə ilə bağlı üzv dövlətlər üçün 2018-ci ildə qəbul etdiyi Tövsiyəsinə (№ CM/Rec(2018)8) əsasən bərpaedici ədliyyə cinayət prosesinin istənilən mərhələsində tətbiq oluna bilər.[246]

Bu fikirlərə əsaslanaraq, cinayət prosesinin mərhələləri baxımından bərpaedici ədliyyənin tətbiq imkanlarını nəzərdən keçirmək olar. Və ya başqa sözlə bunları bərpaedici ədliyyənın tətbiq mərhələləri də adlandıra bilərik. Bu mənada **bərpaedici ədliyyənin 4 əsas tətbiq mərhələsi** fərqləndirilə bilər: 1) Cinayət təqibinə qədər mərhələ; 2) Məhkəməyə qədər mərhələ; 3) Məhkəmə mərhələsi; 4) Məhkəmədən sonrakı mərhələ.

**Cinayət təqibinə qədər mərhələdə** bərpaedici ədliyyə əsasən mediasiya və barışıq proqramları vasitəsilə tətbiq olunur. Məqsəd cinayət təqibinə başlamadan tərəflərin razılığa gəlməsini təmin etməkdir. Məsələn, Kanada, Norveç

---

[245] Recommendation No. R (99)19 of the Committee of Ministers to Member States concerning Mediation in Penal Matters.

[246] Recommendation CM/Rec(2018)8 of the Committee of Ministers to Member States concerning Restorative Justice in Criminal Matters, https://search.coe.int/cm?i=09000016808e35f3#

və Yaponiya təcrübəsində müəyyən növ cinayətlərdə polis və ya prokuror səviyyəsində mediasiya təşəbbüsü reallaşdırılır ki, bu halda məqsəd "cinayətə reaksiya" deyil, "zərərin aradan qaldırılması" olur.

**Məhkəməyədək mərhələdə,** yəni təqsirləndirilən şəxsin məsuliyyətə cəlb olunması mərhələsində bərpaedici yanaşma xüsusilə probasiya və təqibdən şərti azadetmə qərarları ilə əlaqələndirilə bilər. Avropa Şurasının R(99)19 saylı Tövsiyəsi bu mərhələdə bərpaedici mexanizmlərin tətbiqini cinayət ədalət sisteminin legitim hissəsi kimi qəbul edir.

**Məhkəmə baxışı zamanı bərpaedici ədliyyə** hakimin qərarına inteqrasiya olunmuş şəklində istifadə edilə bilər. Hakimlər qərar çıxararkən zərərçəkmişin razılığı və barışıq sazişi əsasında cəzanı yüngülləşdirə və ya alternativ tədbir təyin edə bilərlər. Yeni Zelandiyada Gənclər Ədliyyəsi Modeli bu yanaşmanın məhkəmə mərhələsində tətbiqinin klassik nümunəsidir.

Məhkəmədən sonrakı mərhələdə (icra və reabilitasiya mərhələsi) cəzanın icrası dövründə bərpaedici ədliyyə probasiya nəzarəti, reinteqrasiya proqramları və zərərin ödənilməsi təşəbbüsləri vasitəsilə həyata keçirilə bilər. Avropa Probasiya Qaydaları bu mərhələdə bərpaedici elementlərin sosial adaptasiyanın əsas tərkib hissəsi olduğunu vurğulayır. Buraya həmçinin penitensiar sistemdə də tətbiq olunan bərpaedici ədliyyə aiddir ki, bunun da nəticəsində vaxtından əvvəl şərti azadlığa buraxılma mümkün olacaqdır.

2021-ci il dekabrın 13-14-də İtaliyanın AŞ Nazirlər Komitəsində sədrliyi çərçivəsində Venesiyada keçirilmiş Avropa ədliyyə nazirlərinin konfransında bərpaedici ədliyyənin tətbiqi, cinayət qurbanları və cinayətkarlar arasında barışığa nail olunması, məhkum edilmiş yetkinlik yaşına çatmayanların reinteqrasiyası kimi məsələlər müzakirə olunaraq nazirlər tərəfindən təqdimatlar edilmiş, [247] bununla bağlı dövlətlərə müvafiq tövsiyələr verilmişdir.

Bərpaedici ədliyyə əsas səbəblərin aradan qaldırılmasında və bir çox müasir sosial problemlərin həlli yollarının tapılmasında öz effektivliyini nümayiş etdirir. Bu sistem sosial münasibətlər qurmaq, bu münasibətləri bərpa etmək, antaqonist fərdlər və ya qruplar arasında qarşılıqlı anlaşma yaratmaq və başqalarının hislərinə, ehtiyaclarına və dəyərlərinə hörmət etmək üçün şəxsi məsuliyyəti gücləndirmək missiyasını həyata keçirir. Bu mexanizm insanları ədalətsizliyi aradan qaldırmaq, zərəri bərpa etmək, dialoq və razılaşma yolu ilə iztirabları azaltmaq üçün bir araya gətirməklə təhlükəsizlik və əmin-amanlığı bərpa edir. Bərpa prosesləri sosial inteqrasiyaya səbəb olur, ədalət, təhlükəsizlik, sülh şəraitində yaşama, təhsil, sosial inkişaf, ailə dəstəyi, uşaq hüquqları və uşaqların rifahı, habelə təşkilat və icma həyatı kontekstlərində uyğun və effektiv bir mexanizmdir.

Ona görə də, bütün bu məqsədlərə nail olunması üçün **bərpaedici ədliyyənin bir sıra mühüm prinsipləri** formalaşmışdır:

[247] https://www.justice.gov.az/news/3179

1) Cinayət insanlar arasında münasibətlərin pozulmasıdır. Cinayət qurbanlara, icmalara və cinayətkarlara zərər verir və hər şeyi yoluna qoymaq üçün öhdəliklər yaradır. Bərpaetmə vurulmuş zərərin aradan qaldırılması və cəmiyyətdə münasibətlərin yenidən bərpası deməkdir.

2) Zərərçəkənlər və cəmiyyət bərpaedici ədalət mühakiməsi prosesində mərkəzi rol oynayır. Bütün tərəflər cinayətə reaksiyanın bir hissəsi olmalıdır - qurban (əgər o, iştirak etməyi seçərsə), cəmiyyət və cinayətkar.

3) Bərpaedici ədalət mühakiməsi prosesinin əsas məqsədi qurbanlara kömək etmək və ehtiyacları həll etməkdir. Qurbanın mövqeyi cinayət nəticəsində dəyən zərərin necə bərpa olunacağını müəyyən etmək üçün açardır.

4) Bərpaedici ədalət mühakiməsinin ikinci dərəcəli məqsədi cəmiyyəti mümkün qədər bərpa etməkdir. Yəni cinayət hadisəsi nəticəsində pozulmuş ictimai harmoniyanı, ictimai balansı və sosial münasibətləri bərpa etməkdir. Cinayət yalnız fərdlər arasında deyil, cəmiyyətin bütövlüyü və dəyərlər sistemi üzərində də mənfi təsir yaradır. Cinayətkar törətdiyi əmələ görə zərərçəkənlər və cəmiyyət qarşısında şəxsi məsuliyyət daşıyır. Bərpaedici ədalət mühakiməsi prosesində iştirak edən tərəflər fəaliyyət üçün tərəfdaşlıq yolu ilə zərərin aradan qaldırılması üçün məsuliyyəti bölüşürlər. Cəmiyyət həm qurbanlar, həm də cinayətkarlar da daxil olmaqla, bütün üzvlərinin rifahı üçün məsuliyyət daşıyır.

Bu mənada prof. H. Zehr qeyd edir ki, "bərpaedici ədliyyə cəmiyyətin pozulmuş toxumasını yenidən bərpa etməyə yönəlmiş münasibətlər sistemidir."[248]

5) Bütün insanların ləyaqəti və dəyəri vardır. Qurban və cinayətkar hər ikisi hörmət və ləyaqətlə irəliləməyə qadirdir və mümkün qədər daha geniş ictimaiyyətə yenidən inteqrasiya olunurlar.

**Bərpaedici ədliyyənin məqsədləri aşağıdakılardan ibarətdir:** ictimai asayişi, dinc yanaşı yaşamı və zədələnmiş münasibətləri bərpa edir; cinayətkar hərəkət və hərəkətsizliyi qəbuledilməz hesab edir və icma dəyərlərini bir daha təsdiqləyir; zərərçəkmiş şəxsləri dəstəkləyərək, onlara sahib çıxır, onların ehtiyaclarını həll edir; bütün aidiyyəti tərəflərin məsuliyyəti öz üzərinə götürmələrini təşviq edir; bərpaedici, perspektivli nəticələr müəyyən edir; fərdi dəyişikliyi təşviq etməklə yeni cinayətin qarşısını alır; cinayət törətmiş şəxsləri və onların cəmiyyətə reinteqrasiyasını asanlaşdırır.[249]

**Bərpaedici ədliyyədə ikinci mühüm məsələ təqsirləndirilən şəxsin məsuliyyəti məsələsidir.** Burada məsuliyyət həmin şəxsin öz hərəkətlərinin nəticələrini dərk etməsi və bu səhvləri düzəltmək üçün cəhd etməsi və müəyyən addımlar atması ilə mümkündür. İcmalar da cinayətdən təsirlənir və "ikinci zərərçəkənlər" kimi prosesə cəlb olunmalıdırlar. Onların da narahatlıqları nəzərə alınmalı, icti-

[248] H.Zehr The Little Book of Restorative Justice, 2015

[249] Handbook on Restorative justice programmes, New York, 2006, p.10

mai həmrəyliyin və qarşılıqlı məsuliyyətin qurulmasına şərait yaradılmalı, üzvlərinin rifahı üçün məsuliyyət daşımağa təşviq edilməlidirlər.

Bərpaedici ədliyyənin məqsədləri cinayətdən ən çox təsirlənən şəxslərin qərarvermə prosesində iştirakını təmin etmək, ədaləti daha şəfalı və transformativ bir hala gətirmək və gələcəkdə cinayətlərin yenidən törədilmə ehtimalını azaltmaqdır. Bu məqsədlərə çatmaq üçün aşağıdakı şərtlər təmin olunmalıdır:

- Zərərçəkmişlər prosesə aktiv şəkildə cəlb olunmalı və nəticədən razı qalmalıdırlar;
- Təqsirləndirilən şəxslər hərəkətlərinin başqalarına necə təsir etdiyini dərk etməli və məsuliyyəti üzərinə götürməlidirlər;
- Yaranmış zərərin və cinayətin törədilmə səbəblərinin aradan qaldırılmasına yönəlik tədbirlər həyata keçirilməlidir;
- Zərərçəkmiş və təqsirləndirilmiş şəxslərin cinayət prosesinin nəticəsində "natamamlıq" deyil, emosional və sosial "tamamlanma" (closure) hissi qazanması təmin edilməli, bu isə onların cəmiyyətə uğurlu reinteqrasiyasına xidmət etməlidir.

**Bərpaedici ədliyyənin** dünyada ən populyar **3 növü tətbiq olunur:**

- Zərərçəkmiş və cinayət törətmiş şəxs arasında - mediasiya və dialoq,
- Ailəvi qrup görüşləri,
- Dairələrin qurulması.

Prof. H. Zehr bərpaedici ədliyyənin müxtəlif modellərini fərqləndirir: zərərçəkmiş-təqsirləndirilən konfransları, ailə qrup konfransları, dairəvi məsləhətləşmələr (circles), alternativ yönləndirmə proqramları (diversion programs), keçid proqramları (transitional programs).[250]

Bərpaedici ədliyyəyə müxtəlif nöqteyi-nəzərdən yanaşmaq olar. Bu, ilk növbədə, arzuolunmaz sosial münaqişələrin (məsələn, məktəb zorakılığı və ya digər cinayət halları) həllində daha səmərəli nəticələrin əldə olunmasına yönəlmiş bir proses kimi dəyərləndirilə bilər. Şübhəsiz ki, bərpaedici ədliyyənin tərəfdarlarının əsaslandığı empirik sübutlar çox zaman zərərçəkmişlərin təqsirləndirilən şəxslə bərpaedici görüşün baş tutması faktından - cinayətkarın sonrakı davranışından asılı olmayaraq - məmnunluq hissi keçirməsinə istinad edir. Bu prosesin özü tərəflər arasında müxtəlif qarşılıqlı əlaqə ilə xarakterizə oluna bilər ki, bunlara konfrans (müxtəlif sayda iştirakçılarla) və vasitəçilik (adətən tərəflərlə məhdudlaşır və vasitəçi yardım edir) bariz nümunələrdir. Proses kimi vasitəçilik tez-tez münaqişə potensialını daşısa da (məsələn, əmək haqqı sövdələşməsi) heç bir şeyin bərpasını nəzərdə tutmayan digər kontekstlərdə istifadə olunur. Cinayətə cavab olaraq bərpaedici ədliyyəni müdafiə edənlərin bir çoxu prosesi özlüyündə yaxşı bir şey kimi qiymətləndirir.[251]

[250]Howard Zehr, Little Book of Restorative Justice, https://www.ojp.gov/ncjrs/virtual-library/abstracts/little-book-restorative-justice

[251] Crime Reduction Research Series, Crown Copyright 2001,p.4.

**Bərpaedici ədliyyə prosesinin 3 əsas elementi var:** 1) Qarşılaşma; 2) Bərpa; 3) Transformasiya (dəyişiklik).

Bərpaedici ədliyyənin müstəqil mexanizm olaraq bu üç əsas elementi (qarşılaşma, bərpa və transformasiya) bərpaedici ədliyyənin məqsədləri baxımından bir-biri ilə əlaqəli anlayışlardır və hər bir element fərdi xarakterə malik olmaqla, olduqca vacib hesab edilir. Bu elementləri birlikdə cinayət qurbanlarının, cinayətkarların və cəmiyyət üzvlərinin yaşaya biləcəyi rifah və bütövlüyə doğru yönələn bir yol qismində təsəvvür etmək olar. Qarşılaşma bərpaya, bərpaetmə isə transformasiyaya, dəyişikliyə səbəb olur.

Yəni, bərpaedici ədliyyə cinayət və ya konflikt nəticəsində zərərçəkənləri və zərərə görə məsuliyyət daşıyanları ünsiyyətə cəlb edərək, konkret insidentdən təsirlənən hər kəsə zərərin aradan qaldırılmasında və irəliyə doğru müsbət yol tapmaqda yardımçı olmağa imkan verir. Əslində bərpaedici təcrübəyə malik olmaq universal əhəmiyyəti ilə fərqlənən daha geniş sahəni əhatə edir və bu təcrübə insanların effektiv və müsbət ünsiyyət qurmasına imkan verməklə münaqişənin qarşısını almaq, əlaqələr qurmaq və zərəri aradan qaldırmaq üçün hər yerdə istifadə edilə bilər. Bərpaedici təcrübə məktəblərdə, uşaq xidmətlərində, iş yerlərində, xəstəxanalarda, icmalarda və cinayət mühakimə sistemində getdikcə daha çox istifadə olunur. Bu, fərdlərə və qruplara bir məsələ ilə bağlı qarşılıqlı anlaşmanı təkmilləşdirmək və birgə ən yaxşı həll yoluna nail olmaq üçün birlikdə işləməyə imkan verir.

Bərpaedici ədliyyənin əsasını təşkil edən üç sütun aşağıdakılardır:

1. Zərər və ehtiyaclar;
2. Öhdəliklər;
3. İştirakçılıq.

Bərpaedici ədliyyə cinayət hüququ sahəsində son onilliklərdə formalaşmış və klassik cəza ədaləti modelinə alternativ kimi təqdim edilən mühüm yanaşmalardan biridir. Bu konsepsiya cinayəti hüquqa deyil, ilk növbədə insana və ictimai münasibətlərə qarşı törədilmiş zərər kimi dəyərləndirir və bu zərərin bərpasını hüquqi müdaxilənin əsas məqsədi kimi müəyyənləşdirir.[252]Bərpaedici ədliyyənin əsas fərqli xüsusiyyəti dövlət mərkəzli cəza modelindən fərqli olaraq zərərçəkmişin, təqsirləndirilənin və cəmiyyətin maraqlarını tarazlaşdıran iştirakçı və şəfalı yanaşmadır.[253]

İrlandiya Milli Universitetinin araşdırmaçısı İ.Marder müasir bərpaedici ədliyyənın fəlsəfəsini izah edərək yazır ki, "ənənəvi cinayət ədalət mühakiməsi ilə bərpaedici ədliyyə arasındakı dixotomiyanı aşa bilən mədəni dəyişiklik"[254] baş vermişdir. Marderin "mədəni dəyişiklik" yanaşmasını ənənəvi cinayət mühakimə icraatı ilə bərpaedici ədliyyə arasında sintez və ya birləşdirici yanaşma da he-

[252] Zehr, H. (2002). The Little Book of Restorative Justice. Good Books.
[253] Johnstone, G., & Van Ness, D. W. (Eds.). (2007). Handbook of Restorative Justice. Willan Publishing.
[254] I. Marder, 'The New International Restorative Justice Framework : Reviewing Three Years of Progress and Efforts to Promote Access to Services and Cultural Change', The International Journal of Restorative Justice (2020).

sab etmək olar. Onun vurğuladığı "mədəni dəyişiklik" hüquq sistemində təkcə normativ deyil, həm də düşüncə tərzindəki dəyişməni nəzərdə tutur. Yəni, cinayətə və cinayətkara yalnız cəza obyekti kimi deyil, həm də sosial münasibətlərin iştirakçısı kimi baxmaq meyli güclənmişdir. Müasir dövrdə bəzi ölkələrdə bu iki yanaşma tamamilə qarşı-qarşıya qoyulmur. Əksinə, məhkəmə sistemində bərpaedici elementlərə (mediasiya, barışıq prosedurları, zərərçəkmişlə görüşlər, alternativ cəza tədbirləri) geniş yer verilir. Beləliklə, ənənəvi cəza sistemi ilə bərpaedici mexanizmlər arasında körpü yaranır.

Bu mənada professor J. Diqnan qeyd edir ki, müasir cinayət ədliyyə sistemləri getdikcə daha çox repressiv və intiqam yönümlü yanaşmalardan insan yönümlü, barışdırıcı və sosial ədalət əsaslı modellərə doğru yönəlməkdədir. Bu transformasiyanın nüvəsində isə bərpaedici ədliyyə və onun tətbiqi forması olan cinayət işləri üzrə mediasiya dayanır.[255]

Van Ness və Strong yazırlar ki, bərpaedici ədliyyə modeli cinayət hadisələrinə yanaşmada ənənəvi "dövlət – cinayətkar" diadasından fərqli olaraq, "cinayətkar – zərərçəkmiş – cəmiyyət" üçbucağını əsas götürür və zərərin aradan qaldırılmasına yönəlmiş dialoq əsaslı münasibətləri təşviq edir.[256] Bu fikirlərdən də göründüyü kimi, üçbucaq modeli bərpaedici ədliyyənin cəmiyyətə gətirdiyi yeni

---

[255] Dignan, J. (2005). Understanding Victims and Restorative Justice. Open University Press. https://www.researchgate.net

[256] Van Ness, D., & Strong, K. (2015). Restoring Justice: An Introduction to Restorative Justice (5th ed.). Routledge.

perspektivi və humanist xarakteri açıq şəkildə göstərir: cinayət hadisəsi sadəcə hüquq pozuntusu deyil, sosial münasibətlərin zədələnməsidir və bu zərərin bərpası yalnız dövlətin deyil, bütün maraqlı tərəflərin birgə iştirakını tələb edir. Burada əsas məqsəd yalnız cinayətkarın cəzalandırılması deyil, həm də yaranmış maddi, psixoloji və sosial zərərin kompensasiyasıdır. Bu yanaşma həmçinin, tərəflərin gələcəkdə daha sağlam münasibətlər qurmasına və cinayətkarın cəmiyyətə reinteqrasiyasına xidmət edir.

Bərpaedici ədalət sistemlərinin əsas prinsipi maraqlı tərəflərin – yəni zərərçəkmiş şəxslərin, hüquq pozuntusu törədən şəxslərin və ictimaiyyətin nümayəndələrinin cinayətin nəticələrinin aradan qaldırılması prosesində aktiv iştirakını təmin etməkdir.[257]

**Bərpaedici ədliyyənn aşağıdakı prinsipləri** vardır:

- **Könüllülük və razılıq:** Proses yalnız tərəflərin könüllü iştirakı ilə həyata keçirilə bilər və tərəflər istənilən mərhələdə iştirakdan imtina edə bilərlər.[258]

- **Bərabərlik və hörmət:** Tərəflər arasında dialoq qarşılıqlı hörmət və ehtiyacların nəzərə alınması prinsiplərinə əsaslanmalıdır.

- **Prosedur ədalətliliyi və konsensus:** Qərarlar iştirakçıların razılığı ilə kollektiv şəkildə qəbul edilməlidir.

---

[257] Bazemore, G., & Umbreit, M. (2001). A Comparison of Four Restorative Conferencing Models. Juvenile Justice Bulletin.

[258] UNODC. (2020). Handbook on Restorative Justice Programmes. United Nations Office on Drugs and Crime.

- **Məxfilik və etibarlılıq:** Tərəflər arasında aparılan danışıqlar məxfi xarakter daşımalı, bu məlumatlar tərəflərin razılığı olmadan açıqlanmamalıdır.
- **Əlçatanlıq:** Cinayətin növü və törədilmə yerindən asılı olmayaraq, bərpaedici ədliyyə hər kəs üçün əlçatan olmalıdır.
- **Zərərin bərpası:** Məqsəd cinayət nəticəsində yaranmış zərərin fərdlərə, münasibətlərə və cəmiyyətə yönəlmiş mənəvi və maddi aspektlərinin aradan qaldırılmasıdır.[259]

Bərpaedici ədliyyənin beynəlxalq tətbiq təcrübələri onun artıq probasiya sistemlərində səmərəli və faydalı bir institut olaraq dünyada geniş yayılmasını şərtləndirmişdir.

**Kanada** bərpaedici ədliyyə modelinin qabaqcıl tətbiq olunduğu ölkələrdəndir. Xüsusilə yerli (aborigen) icmalarla işləməkdə istifadə olunan "dairələr" və "konfrans" kimi metodlar yerli dəyərlərlə hüquqi prosedurların sintezini təmin edir. Bu ölkədə xüsusilə yeniyetmələrə yönəlik bərpaedici yanaşmalar qanunla təsbit olunmuşdur.[260]

**ABŞ-da** bərpaedici ədliyyə geniş tətbiq olunsa da, daha çox icma əsaslı təşəbbüslər şəklindədir. Minnesota, Vermont və Kaliforniya ştatlarında məktəb və penitensiar sistemlərdə alternativ mexanizmlər formalaşdırılmışdır.

---

[259] Braithwaite, J. (1989). Crime, Shame and Reintegration. Cambridge University Press.

[260] Department of Justice Canada. (2020). Restorative justice programs. https://www.justice.gc.ca/eng/cj-jp/rj-jr/index.html

İcma və bərpaedici ədliyyə üzrə Milli Assosiasiya bu təcrübənin genişlənməsinə töhfə verir.[261]

**Böyük Britaniyada** bərpaedici ədliyyə Bərpaedici Ədliyyə Şurası ("Restorative Justice Council") tərəfindən koordinasiya olunur. 2013-cü il tarixli Cinayət və məhkəmələr haqqında Qanunla ("Crime and Courts Act 2013") bərpaedici ədliyyənin məhkəməyə qədər və məhkəmədən sonra tətbiq imkanları yaradılmışdır. Bərpaedici ədliyyə proqramları polis bölmələrində, məktəblərdə, hətta həbsxanalarda geniş tətbiq olunur.[262]

Avropa ölkələri ilə yanaşı bəzi Şərq ölkələrində də bərpaedici ədliyyə institutunun tətbiqinə rast gəlinir.

**Yaponiyada** zərərçəkmiş-cinayətkar mediasiyası ("victim-offender mediation") və **"Naikan" introspektiv reabilitasiya modeli** tətbiq olunur. Bu model özünütanıma və empatiya yaratmaq üzərində qurulub. Əsasən buddist-sintoist etik dəyərlər çərçivəsində formalaşan bu sistem cinayətkarın mənəvi korreksiyası məqsədini daşıyır.[263] İntrospeksiya (özünütanıma) modelində əsas hədəf cinayətkarın öz hərəkətlərinə dərindən nəzər salması, bu hərəkət-

---

[261] National Association of Community and Restorative Justice (NACRJ). (2023). Restorative justice initiatives. https://www.nacrj.org

[262] Restorative Justice Council. (2022). Restorative justice in the criminal justice system. https://restorativejustice.org.uk

[263] Suzuki, M., & Tanimoto, K. (2010). Restorative justice in Asian context: Naikan as a method for offender rehabilitation in Japan. In J. Shapland (Ed.), Handbook of restorative justice (pp. 103–118). Willan Publishing.

lərin digər şəxslərə təsirini anlamasıdır. Bu introspektiv proses cinayətkarı "mən nə etdim?", "kimlərə təsir göstərdim?", "nəyi düz edə bilərdim?" kimi suallar üzərində düşünməyə vadar edir. Cinayətkar sadəcə qanunu pozduğunu başa düşmək yox, həm də insan münasibətlərində törətdiyi zərəri hiss edir. Bu baxımdan Naikan ("daxili baxış") buddist-sintoist dəyərlərə söykənən özünütanıma və mənəvi korreksiya metodudur. Cinayətkar introspektiv suallar əsasında düşünməyə yönləndirilir. Naikan reabilitasiyası psixoloji introspeksiya ilə etik-mənəvi dəyişimi birləşdirərək şəxsin daxili aləmini transformasiya etməyi hədəfləyir.

Ənənəvi cəza tədbirlərində əsas vurğu cəzalandırmaya yönəlirsə, Naikan modelində əsas məqsəd şəxsi islah və daxili dəyişiklikdir. Bu, cinayətkarın yalnız sosial qaydalara əməl edən şəxsə çevrilməsini deyil, həm də vicdanlı, empatiya qabiliyyətinə malik fərd kimi yenidən formalaşmasını nəzərdə tutur.

Beləliklə, yapon introspektiv modeli bərpaedici ədliyyənin və müasir probasiya yanaşmalarının ruhuna yaxın hesab edilə bilər. Çünki o, cinayətkarı yalnız cəmiyyətə qaytarmaq yox, həm də onun mənəvi inkişafını təmin etmək, zərərçəkmişlə empatiya quraraq sosial harmoniyanı bərpa etmək məqsədini daşıyır.

**Sinqapurda** İcma ədliyyə mərkəzi ("Community Justice Centre") və Uşaqlar üçün Bərpaedici məhkəmə Konfransı ("Juvenile Court Restorative Conferencing") proqramları tətbiq olunur. Burada əsas məqsəd yeniyetmələrin

sosial adaptasiyası və ailə institutunun prosesə cəlb olunmasıdır. Prosesdə könüllü məsləhətçilər, sosial işçilər və psixoloqlar fəal iştirak edir.[264]

Bəs dünyada bu qədər geniş tətbiq olunan **bərpaedici ədliyyənin üstünlükləri** nədən ibarətdir?

1) *Zərərin tanınması:* Ənənəvi model cinayətkarı cəzalandırsa da, zərərçəkənin psixoloji, sosial və mənəvi ehtiyaclarını qarşılamır. Bərpaedici model bu ehtiyacları diqqət mərkəzinə alır.

2) *Sosial inteqrasiya:* Cəzanın tətbiqindən fərqli olaraq, bu model cinayətkarın cəmiyyətə qaytarılmasına yönəlir.

3) *Yeni cinayətlərin azalması:* Empirik tədqiqatlar göstərir ki, bərpaedici ədliyyə proqramlarında iştirak edən şəxslər arasında residiv cinayətkarlıq əhəmiyyətli dərəcədə aşağı düşür.[265]

Beləliklə, bərpaedici ədliyyə modeli qlobal ədalət mühakiməsi sisteminə yeni nəfəs gətirmişdir. Beynəlxalq təcrübələr göstərir ki, bu model təkcə alternativ cəza üsulu deyil, həm də barışıq və sosial harmoniyanın bərpasına xidmət edən kompleks yanaşmadır. Azərbaycanda da bərpaedici ədliyyənin qanunvericiliyə inteqrasiyası və icma əsaslı pilot layihələrin təşviqi bu sahədə mühüm irəliləyişlərə səbəb ola bilər.

---

[264] Restorative justice practices in Singapore.
https://www.mlaw.gov.sg

[265] Latimer, J., Dowden, C., & Muise, D. (2005). The effectiveness of restorative justice practices: A meta-analysis. The Prison Journal, 85(2), 127–144. https://doi.org/10.1177/0032885505276969

Yekun olaraq, bərpaedici ədliyyə ilə bağlı yuxarıda qeyd edilən elmi anlayışlara əsaslanaraq fikrimizcə, bərpaedici ədliyyəyə belə bir anlayış verilə bilər: **Bərpaedici ədliyyə cinayət törətmiş şəxslə zərər çəkmiş arasında dialoq yaratmaqla, zərərin aradan qaldırılmasını və barışığı təmin edən reabilitasiya vasitəsidir.**

## 6.2. Bərpaedici ədliyyənin tarixi

Bərpaedici ədliyyə yeni institut kimi Kanadada meydana gəlmişdir. Bu məsələnin tarixi konteksti Kitçener təcrübəsi ilə bağlıdır.

Bərpaedici ədliyyənin ilk praktik tətbiqi nümunəsi 1974-cü ildə Kanadanın Ontario əyalətinin Kitçener şəhərində baş vermiş hadisə ilə əlaqələndirilir. İki yeniyetmə – Russell Kelli və onun dostu alkoqolun təsiri altında 22 nəfərin əmlakına zərər yetirmiş, avtomobil təkərlərini kəsmiş, ev və nəqliyyat vasitələrinin şüşələrini sındırmışdılar. Ənənəvi cinayət ədliyyəsi sistemində bu əməllər həbs və ya digər sərt cəzalarla nəticələnə bilərdi. Lakin həmin dövrdə məsələ ilə məşğul olan probasiya məmuru Mark Yantzi və sosial işçi David Vorth alternativ bir yanaşma təklif etdilər: təqsirləndirilən şəxslərin zərərçəkənlərlə birbaşa görüşməsi, üzr istəməsi və ziyanın kompensasiya olunması.[266] Bu model "Kitçener Təcrübəsi" (Kitchener-Waterloo Experiment) kimi tanındı və bərpaedici ədliyyənin başlanğıcı hesab edildi. Bu keysə görə yeniyetmələr

---

[266] Peachey, D. (1989). The Kitchener Experiment. In M. Wright & B. Galaway (Eds.), Mediation and criminal justice: Victims, offenders and community (pp. 14-25).

həbs olundu, lakin həbsxanaya getmək əvəzinə, probasiya məmurunun təklif etdiyi fərqli cəzaya uyğun olaraq cinayətkarlar zərərçəkənlərlə görüşməklə, üzr istəyir və itkilərə görə kompensasiya verilirdi. Hakim bu tövsiyəni qəbul etdi. “Biz etdiklərimizə görə məsuliyyəti öz üzərimizə götürdük. İndi biz özümüz-özümüzü məsuliyyətə cəlb edirik və zərəri aradan qaldırmaq istəyirik” - Kelli məhkəmədəki çıxışında bəyan etdi. Bərpaedici ədliyyənin ilk nümunəsi hesab edilən bu iş cinayətkarı cəzalandırmaqdansa, cinayətin vurduğu zərərin bərpasını üstün tutur. Yeniyetmələrin məsuliyyəti könüllü şəkildə qəbul etməsi və zərəri ödəmək üçün təşəbbüs göstərməsi bu yanaşmanın humanist və cəmiyyət yönümlü mahiyyətini ortaya qoydu. Bu hadisə zərərçəkmişin emosional və maddi ehtiyaclarını təmin edən, eyni zamanda, təqsirləndirilənin transformasiyasını dəstəkləyən yeni bir ədalət modelinin tətbiqinə yol açdı.[267]

Bərpaedici ədliyyənin bir çox dəyərləri, prinsipləri və adətləri yerli mədəniyyətlərlə uzlaşsa da, bugünkü bərpaedici ədliyyə hərəkatının tarixi Kitçener təcrübəsi ilə başladı. "Kitçener təcrübəsi"ndən sonra 1970-ci illərin sonundan 1980-ci illərin əvvəllərinə qədər Şimali Amerika və Avropanın  bir sıra yurisdiksiyalarında bu istiqamətdə müxtəlif proqramlar həyata keçirilməyə başlanılmış, lakin bu təşəbbüslər miqyas və say baxımından kiçik olduğundan,  daha böyük sistemlərə az təsir edə bilmişdir.

[267] Zehr, H., & Mika, H. (1998). Fundamental Concepts of Restorative Justice. Contemporary Justice Review, 1(1), 47–56.

"Kitçener Təcrübəsi"nin uğurla nəticələnməsi qısa müddət ərzində bu yanaşmanın digər hüquq sistemlərində də tətbiqinə səbəb oldu.[268] Zamanla yeniyetmələrin iştirakı ilə məhdudlaşmayan bu proqramlar daha geniş miqyasda – yetkin şəxslər, məhkumlar və icma üzvlərini də əhatə etməyə başladı.

Beləliklə, bərpaedici ədliyyə yeni sahə kimi Şimali Amerikada məhkəmə prosesinə alternativ yanaşma kimi ortaya çıxmış, mübahisələrin alternativ həlli mexanizmi olaraq milli tendensiyaya çevrilmişdir. Bu konsepsiya cinayət mühakimə icraatında zərərçəkmiş şəxslərin iştirak səviyyəsinin artırılması və ziyanın kompensasiyası mexanizmlərinin tətbiqi vasitəsilə onların hüquqlarının müdafiəsini təmin etməyə yönəlmiş sosial-hüquqi hərəkat kimi formalaşmışdır.

1994-cü ildə Amerika Hüquqşünaslar Assosiasiyası zərərçəkmiş və cinayət törətmiş arasında mediasiya proqramını təsdiq etdikdən sonra bərpaedici ədliyyə ilk dəfə cinayət törətmiş şəxslərə və yetkinlik yaşına çatmayanlara tətbiq olunurdu. Əlavə dəstək Zərərçəkmişlərin Milli Təşkilatının "Bərpaedici ictimai ədliyyə: hərəkətə çağırış" adlı monoqrafiya nəşr etdikdən sonra oldu. Bundan sonra BMT, Avropa Şurası və Avropa İttifaqı bərpaedici təcrübələri təşviq etməyə başladılar.

Bərpaeidici ədliyyənin tarixi inkişafı fərqli yurisdiksiyalarda formalaşan tətbiq modelləri ortaya qoydu:

---

[268] Van Ness, D. W., & Strong, K. H. (2015). Restoring Justice: An Introduction to Restorative Justice (5th ed.). Routledge.

- Zərərçəkmiş-təqsirləndirilən vasitəçiliyi (Victim–Offender Mediation);
- Ailə qrup konfransları (Family Group Conferences);
- İcma dairələri (Community Circles);
- Diversiya və probasiya əsaslı proqramlar.[269]

Bu proqramlar təkcə cəzanın icrasına yönəlmir, həm də cinayətin törədilmə səbəblərinin təhlilini və zərərçəkmişlə təqsirləndirilən şəxs arasında sosial münasibətlərin bərpasını hədəfləyir.

2024-cü il etibarilə bərpaedici ədliyyə hərəkatının başlanmasından 50 il ötmüşdür. Bu müddət ərzində Kanada başda olmaqla bir çox ölkədə ədalət sistemi bu yanaşmadan ciddi şəkildə təsirlənmiş və reformlara səbəb olmuşdur. Artıq bərpaedici ədliyyə təkcə alternativ mexanizm deyil, bəzi yurisdiksiyalarda məhkəmə prosesinin ayrılmaz tərkib hissəsi kimi qəbul edilir.[270]

**Bərpaedici ədliyyə cəzanı əsas məqsəd kimi yox, bərpa və reinteqrasiya vasitəsi kimi dəyərləndirir.** Məhz bu xüsusiyyəti ilə bərpaedici ədliyyə müasir hüquq nəzəriyyəsində humanist və sosial ədalət yönümlü yanaşmaların simvoluna çevrilmişdir.

[269] Bazemore, G., & Umbreit, M. (1995). Rethinking the sanctioning function in juvenile court: Retributive or restorative responses to youth crime. Crime & Delinquency, 41(3), 296-316.
[270] Latimer, J., Dowden, C., & Muise, D. (2005). The effectiveness of restorative justice practices: A meta-analysis. The Prison Journal, 85(2), 127-144.

Beləliklə, bərpaedici ədliyyənin tarixi təcrübəsi göstərir ki, hüquq yalnız cəza və inzibati sanksiya mexanizmi deyil, həm də zərərin tanınması, kompensasiyası və tərəflər arasında münasibətlərin bərpası üçün bir vasitədir. 1974-cü ildə Kanadada baş vermiş lokal hadisə, sonradan qlobal hüquqi və etik hərəkatın əsasını təşkil etmiş və cinayət ədliyyəsinə münasibətdə köklü dəyişikliklərə yol açmışdır.

### 6.3. Zərərçəkmiş və cinayət törətmiş şəxslər arasında mediasiya (Victim/Offender Mediation): mahiyyəti, növləri və məqsədləri

Cinayət hadisəsi təkcə qanunun pozulması deyil, eyni zamanda fərdlərarası münasibətlərin və cəmiyyətin bütövlüyünün zədələnməsi ilə nəticələnən bir prosesdir. Ənənəvi ədliyyə modeli bu münasibətlərə deyil, daha çox hüquqi normanın pozulmasına fokuslandığı üçün, zərərçəkmiş və cinayətkar arasında əlaqəni, dialoqu və barışmanı nəzərə almır. Bu boşluğu dolduran mexanizmlərdən biri zərərçəkmiş və cinayətkar arasında mediasiya (Victim/Offender Mediation) modelidir.

Biz bu paraqrafda həm elmi ədəbiyyatlarda, həm də beynəlxalq təcrübədə qeyd olunan məsələ ilə bağlı mülahizələri bölüşəcəyik.

Cinayət hüquq pozuntuları zamanı ən geniş tətbiq olunan bərpaedici ədliyyə növü zərərçəkmiş və cinayətdə təqsirləndirilən şəxs arasında mediasiyadır. Elmi və normativ mənbələrdə bu mediasiya növü həm **"zərərçəkmiş və cinayətkar arasında mediasiya"**, həm də **"cinayət işlə-**

**ri üzrə mediasiya"** (*cinayət mediasiyası*) terminləri ilə ifadə edilir.

Bərpaedici ədliyyə üzrə tanınmış alim Dr. M.S. Umbreit yazır ki, **zərərçəkmiş və cinayətkar arasında mediasiya** – zərərçəkmiş şəxslə cinayətkar arasında könüllü, strukturlaşdırılmış və neytral şəraitdə aparılan dialoq prosesidir. Bu proses vasitəsilə tərəflər cinayətin nəticələrini, səbəblərini və mümkün kompensasiya yollarını müzakirə edə bilirlər.[271]

Bu mediasiyanın **əsas məqsədləri** aşağıdakılardır:

- *Zərərin tanınması və kompensasiyası.* Mediasiya zərərçəkmişə cinayət nəticəsində yaranmış mənəvi, emosional və maddi zərərlərin tanınması və bərpası imkanı verir.[272]

- *Məsuliyyətin qəbul etdirilməsi.* Cinayətkar öz hərəkətlərinin nəticələrini birbaşa zərərçəkmişin dilindən eşidərək məsuliyyət hissini qavrayır. Bu, təkcə hüquqi deyil, həm də etik və psixoloji məsuliyyət daşımaq anlamına gəlir.

- *Barışıq və reinteqrasiya.* Mediasiya prosesi tərəflər arasında barışıq yaratmaqla cinayətkarın cəmiyyətə reinteqrasiyasına yardım edir.

Prof. Riçard Delqado bu mediasiya növünü **"cinayət mediasiyası" (criminal mediation) adlandırır.** Onun fikrincə, cinayət mediasiyası bərpaedici ədliyyənin konkret

---

[271] Umbreit, M. S., Coates, R. B., & Vos, B. (2004). Victim offender mediation: A model for justice and healing. Criminal Justice Press.

[272] Latimer, J., Dowden, C., & Muise, D. (2005). The effectiveness of restorative justice practices: A meta-analysis. The Prison Journal, 85(2), 127–144. https://doi.org/10.1177/0032885505276969

tətbiq formasıdır və mülki hüquqda geniş tətbiq olunan mediasiya mexanizmlərinin cinayət hüququna uyğunlaşdırılmış variantıdır.[273] Burada əsas məqsəd hüquq pozuntusu törətmiş şəxsin məsuliyyətini dərk etməsi və zərərçəkmişlə münasibətlərin bərpasıdır.

Tədqiqatlar göstərir ki, cinayət mediasiyası bir sıra hüquq sistemlərində, xüsusilə də hüquq pozuntusu törətmiş gənclərə münasibətdə yeni cinayətlərin qarşısını almaqda effektiv vasitə kimi çıxış edir.[274]

Zərərçəkmiş və cinayətkar arasında mediasiyanın **(cinayət mediasiyasının) praktiki baxımdan 3 növü** fərləndirilir:

1) **İcma əsaslı model** – yerli ənənələrə əsaslanan sosial dəyərlər sistemini əks etdirir və cəmiyyətin hüquq pozuntularına kollektiv cavabını təmin edir.

2) **Zərərçəkmiş-cinayətkar modeli** – xüsusilə azyaşlılar, məişət zorakılığı və yol-nəqliyyat hadisələrində tərəflər arasında birbaşa barışıq yaratmağa yönəlib.

3) **Qeyri-rəsmi model** – daha çox iqtisadi və kommersiya cinayətlərində tətbiq olunur və bəzən məhkəmə prosesi əvəzinə sərfəli alternativ kimi çıxış edir.

Cinayət işlərində mediasiyanın tətbiqi bəzi ölkələrin qanunvericilik sistemlərində artıq təsbit edilmişdir. Məsələn, Almaniya, Hollandiya və Norveç kimi ölkələrdə me-

---

[273] Delgado, R. (2000). Alternative Dispute Resolution: A Critical Reappraisal. Harvard Civil Rights–Civil Liberties Law Review.
[274] Sherman, L. W., & Strang, H. (2007). Restorative Justice: The Evidence. The Smith Institute.

diasiya məhkəməyə qədər, məhkəmə zamanı və məhkəmədən sonra tətbiq edilə bilər.[275]

**Almaniyada** "Cinayətkar və zərərçəkmiş arasında barışdırma" adlanan mediasiya modeli rəsmi şəkildə Cinayət Məcəlləsinə inteqrasiya edilmiş və məhkəmə icraatını əvəz edə bilər.[276]

Artıq yuxarıda da qeyd etdiyimiz kimi, **Kanadada** zərərçəkmiş və cinayətkar arasında mediasiya proqramları 1970-ci illərdən etibarən tətbiq olunmağa başlamış və bərpaedici ədliyyə proqramlarının əsas hissəsinə çevrilmişdir. Bu proqramlar çərçivəsində yeniyetmələr və yetkinlər üçün mediasiya imkanları yaradılıb.[277]

**ABŞ-da** Minnesota və Indiana ştatları bu sahədə qabaqcıl təcrübəyə malikdir. Bu ölkədə İcma və Bərpaedici ədliyyə üzrə Milli Assosiasiya (National Association of Community and Restorative Justice) cinayət mediasiyası proqramlarının standartlaşdırılması və təlimi ilə məşğuldur.[278]

Ən maraqlı modellərdən biri **Yaponiya** modelidir ki, biz bir qədər əvvəldə bu məsələyə toxunmuşduq. Belə ki,

---

[275] Dünkel, F., Grzywa-Holten, J., & Horsfield, P. (2015). Restorative Justice and Mediation in Penal Matters in Europe. Forum Verlag Godesberg.

[276] Weitekamp, E. G. M., & Kerner, H. J. (2002). Restorative justice: Theoretical foundations. Willan Publishing.

[277] Department of Justice Canada. (2020). Restorative justice programs. https://www.justice.gc.ca

[278] National Association of Community and Restorative Justice (NACRJ). (2023). Programs & resources. https://www.nacrj.org

Yaponiyada cinayət mediasiyası *introspektiv reabilitasiyaya* əsaslanır və bu, özünütanıma və empatiya yaratmaq üzərində qurulur, bu zaman etik dəyərlərə üstünlük verilir, cinayətkarın mənəvi korreksiyası əsas götürülür.

İntrospektiv termini latınca "intro" (içəri) və "spectare" (baxmaq) sözlərindən yaranıb. **İntrospektiv reabilitasiya –** cinayət törətmiş şəxsin öz düşüncələrinə, hisslərinə və daxili vəziyyətinə yönəlmiş, öz daxili aləmini, psixoloji və emosional vəziyyətini analiz etməsinə əsaslanan reabilitasiyadır. Yəni bu, cinayət törətmiş şəxsin özünü dinləməsi, daxili aləminə yönəlməsi, nə hiss etdiyini və niyə hiss etdiyini anlamağa çalışması deməkdir. Keçmiş davranışların və hisslərin analiz edilməsinə əsaslanan Yapon Naikan introspektiv metodu özünü təhlil etməyə əsaslanan düşüncə üsuludur.

Təbii ki, cinayət mediasiyasının praktiki tətbiqi zamanı müəyyən çətinliklər və risklər də qaçılmazdır. Belə ki, cinayət mediasiyasının məcburi olmaması əsas prinsipdir, lakin bəzi hallarda hüquqi təzyiq hissi könüllülük prinsipini pozur.

Eyni zamanda, bəzi alimlər hesab edirlər ki, güc balansının pozulduğu hallar (məsələn, məişət zorakılığı) mediasiya üçün təhlükəli ola bilər.[279] Yəni, məişət zorakılığı kimi hallarda, zərərçəkmiş şəxs uzunmüddətli qorxu, psixoloji asılılıq və sosial təzyiq altında olduğundan, mediasiya prosesində real və sərbəst iradəsini ifadə etmək imkanına

---

[279] Daly, K. (2006). The limits of restorative justice. In D. Sullivan & L. Tifft (Eds.), Handbook of restorative justice (pp. 134–145).

malik olmaya bilər. Belə vəziyyətdə "razılıq" formal xarakter daşıya və zorakılığın davam etməsinə şərait yarada bilər. Bu isə əlbəttə, bütövlükdə bərpaedici ədliyyənin mahiyyətinə, könüllülük, bərabərlik və təhlükəsizlik prinsiplərinə ziddir.

Beləliklə, zərərçəkmiş və cinayətkar arasında mediasiya bərpaedici ədliyyənin əsas alətlərindən biri kimi həm tərəflərin ehtiyaclarını qarşılayır, həm də sosial harmoniyanı gücləndirir. Beynəlxalq təcrübə göstərir ki, bu mediasiya təkcə cinayətə cavab vermək vasitəsi deyil, həm də preventiv və sosial faydalı hüquqi mexanizmdir. Fikrimizcə, Azərbaycanda xüsusilə bu modelin normativ bazasının formalaşdırılması və pilot layihələrin həyata keçirilməsi hüquq sisteminin humanistləşdirilməsinə töhfə verə bilər. Ölkəmizdə cinayət mediasiyasının tətbiqi zamanı Yaponiya modelini daha faydalı hesab edirik. Ümumiyyətlə, ölkəmizdə bərpaedici ədliyyə və cinayət mediasiyası mexanizmlərinin hüquqi baxımdan daha geniş tətbiqi üçün ilk növbədə müvafiq qanunvericiliyin təkmilləşdirilməsini və mediasiya institutunun cinayət hüququ kontekstində təsbit olunmasını zəruri hesab edirik. Eyni zamanda, cinayət işləri üzrə peşəkar mediatorların hazırlanması, bu sahədə ictimai maarifləndirmə və QHT və dövlət qurumlarının dəstəyi mühüm amillərdəndir.

## 6.4. Bərpaedici ədliyyə proqramları

Restorativ ədliyyə proqramları əsasən məhkumların keçmişdəki cinayətlərini etiraf etmələrini, bu cinayətlərə görə zərərçəkmiş şəxslərə təzminat ödəmələrini və sosial baxımdan yenidən cəmiyyətə inteqrasiya olmalarını hədəfləyir.

Bu yanaşmanın əsas məqsədi hüquqi cəzanın sərt tətbiqindən fərqli olaraq, məhkumların məsuliyyətlərini anlamalarına, zərər çəkmiş tərəflərlə üzləşmələrinə və pozulmuş sosial əlaqələri bərpa etmələrinə imkan yaratmaqdır. Bərpaedici ədliyyə cinayətkarın dəyişməsi və sosial adaptasiyasına təsir edən psixoloji və sosial faktorları da nəzərə alır.

Bu konsepsiyanın praktikada necə tətbiq edildiyini və müxtəlif ölkələrdə hansı formada həyata keçirildiyini daha aydın təsəvvür etmək üçün bərpaedici ədliyyə modelinin beynəlxalq nümunələrinə nəzər salmaq faydalı olar.

**Yeni Zelandiya bərpaedici ədliyyə proqramlarının dünyada ilk tətbiq olunduğu ölkələrdən biridir.** Yeni Zelandiya Yeniyetmələrinin Cinayət Prosesləri (Youth Court) sistemi, kiçik yaşlı cinayətkarların cinayətlərini qurbanlarla birbaşa müzakirə etmələrinə və təzminat ödəmələrinə imkan verir. Bu proqramın məqsədi gənclərin cəmiyyətdən kənarlaşdırılması yox, sosial cəhətdən cəmiyyətə uyğunlaşdırılmasıdır. Gənclər bu prosesdə həm cinayətin cəmiyyətə verdiyi ziyanı daha yaxşı anlayır, həm də öz hərəkətlərinin nəticələrini qəbul edirlər. Bu yanaşma

yeni cinayətlərin qarşısını alır və gənclərin cəmiyyətə reinteqrasiyasını dəstəkləyir. [280]

Bərpaedici ədliyyənin vətəni sayılan **Kanadada** restorativ ədliyyə cəmiyyətə xidmət və təzminat ödənişi kimi əsas komponentləri özündə birləşdirən bir yanaşmadır. Kanada restorativ ədliyyə təşkilatları cəmiyyətin hər üzvünü, o cümlədən qurbanları və cinayətkarları bir araya gətirərək, cinayətin təsirlərini və buna qarşı görülməsi lazım olan addımları müzakirə edir. Bu proqramda cinayətkarlar öz cinayətləri üzərində düşünmək və qurbanlardan üzr istəmək üçün dialoqa daxil olurlar. Eyni zamanda, zərər çəkən tərəflər də öz hisslərini ifadə etmək və hadisənin onlara necə təsir etdiyini başa düşmək imkanı əldə edirlər.[281]

**Birləşmiş Krallıqda** restorativ ədliyyə tətbiqləri çoxşaxəlidir. Səhiyyədə bərpaedici ədliyyə (Restorative Justice in Health) proqramı xəstəxanalarda zorakılığa uğramış və ya təcavüzə məruz qalmış şəxslərlə işləyən insanları bir araya gətirir. Bu proqramlarda həm qurbanlar, həm də təcavüzkarlar arasında emosional dəstək və üzləşmə prosesi həyata keçirilir. Cinayətkarlar öz hərəkətlərinin nəticələrini daha yaxşı başa düşür, qurbanlar isə daha yaxşı şəfa tapır.[282]

---

280 O'Driscoll, S. J. (2008). Youth justice in New Zealand: A restorative justice approach to reduce youth offending. UNAFEI Resource Material Series No. 75.

281 Restorative Justice. https://www.justice.gc.ca

282 https://restorativejustice.org.uk/blog/embedding-restorative-justice-nhs-blame-healing

**ABŞ-da** bərpaedici ədliyyə proqramları xüsusilə məktəblərdə tətbiq olunur. Bu proqramlar şagirdlər arasında mübahisə və zorakılıq halları baş verdikdə tərəfləri bir araya gətirərək hadisənin həllini və bağışlanmanı təşviq edir. Məktəblərdə tətbiq olunan bu yanaşmaların effektivliyi, şagirdlərin sosial bacarıqlarını inkişaf etdirməsi və gələcəkdə zorakılıq hallarını azaltması ilə özünü göstərir.[283]

***Bərpaedici ədliyyə proqramlarını hansı sahələrə tətbiq etmək olar?*** Bərpaedici Ədliyyə Forumunun mövqeyinə görə bərpaedici ədliyəni aşağıdakı sahələr üzrə tətbiq etmək olar: zorakı ekstremizm, həbs, cinsi zorakılıq, ekoloji ədliyyə, yuvenal ədliyyə, bərpaedici icma (şəhərlər) ilə əlaqədar yaranan mübahisələr.

Əlbəttə, bütövlükdə cəmiyyətdə, təşkilatlarda, məktəblərdə, ailələrdə və ədalət mühakiməsi sistemində, insanların zərər gördüyü və böyük ictimai təhlükə olmayan hər yerdə bərpaedici ədliyyə mövcud ola bilər. Bərpaedici ədalətin dəyərləri, prinsipləri və təcrübələri müasir Avropanın, o cümlədən ölkəmizin üzləşdiyi bir çox sosial, mədəni və şəxsi problemlərə uyğundur. Xüsusilə, oğurluq və zorakılıq, başqasının irqinə, mədəniyyətinə, dininə, cinsinə və ya cinsiyyətinə nifrət, zorakı ekstremizm və ya terrorizm, küçə zorakılığı və iğtişaşlar kimi ümumi cinayətlər əhalinin əksəriyyət təbəqələrində qorxu və qəzəb doğurur. Bu zərərlərin çoxu məktəblərdə və məhəllə-

---

[283] Payne, A. A., & Welch, K. (2021). Restorative Justice in U.S. Schools: An Updated Research Review. WestEd. Retrieved from https://www.trorc.org

lərdə yaşanır. Cinayət mühakimə sistemi və digər tənzimləyici sistemlər (məsələn inzibati, mülki və s.) əlbəttə ki, qaydaların və qanunların pozulmasına cavab verir. Onlar da çox cinayəti törədənə diqqət yetirməyə meyillidirlər. Onlar zərər və münaqişə nəticəsində yaranan sıxıcı emosiyaları həll etmək üçün mübarizə aparırlar. Bundan əlavə, sistem sosial münasibətlər və birlik qurmaq, müxtəlif mədəniyyətlərə malik insanların bir-birini görüb başa düşmələrinə imkan yaratmaq, vətəndaşlar arasında daha böyük hörmət və qarşılıqlı öhdəliklər yaratmaq üçün nəzərdə tutulmayıb.

Beləliklə, bərpaedici ədliyyə proqramlarının mahiyyəti ondan ibarətdir ki, bu yanaşmalar cəzanı sadəcə hüquqi sanksiya kimi deyil, ictimai harmoniyanın və ədalət balansının bərpası vasitəsi kimi dəyərləndirir. Bu proqramlar zərərçəkmişin emosional və sosial ehtiyaclarının ödənilməsini, təqsirləndirilənin məsuliyyət hissinin formalaşdırılmasını və tərəflər arasında qarşılıqlı anlaşmanın bərpa olunmasını hədəfləyir. Bərpaedici ədliyyə təkcə cinayətə hüquqi reaksiya vermir, həm də cəmiyyətin mənəvi toxumasını gücləndirən, insan yönümlü bir ədalət modelini təcəssüm etdirir.

## 6.5. Azərbaycanda probasiya sahəsində bərpaedici ədliyyənin tətbiqi perspektivləri

Bərpaedici ədliyyə institutu (o cümlədən cinayət işləri üzrə mediasiya) Azərbaycanda həm elmi-nəzəri, həm də təcrübi olaraq yeni institut hesab edilir. Ölkəmizdə bu sa-

hədə ilk elmi araşdırımalar bir qədər öncə başlasa da, praktiki addımlar Ədliyyə Nazirliyinin Probasiya xidməti tərəfindən 2025-ci ildə atılmağa başlamışdır. Lakin bu günədək münbahisələrin alternativ həlli mexanizmləri, mediasiya və cinayət işləri üzrə mediasiya özünəmxəsus bir inkişaf yolu qət etmişdir. Ona görə də ilk növbədə Azərbaycanda mübahisələrin alternativ həlli mexanizmləri, o cümlədən mediasiya ilə bağlı inkişaf modellərinə diqqət yetirilməsini zəruri hesab edirik.

***Mübahisələrin alternativ həlli mexanizmləri.*** Azərbaycanda ədalət mühakiməsi sistemində yeni alternativ mexanizmlərin, o cümlədən mediasiya institutunun tətbiqi ilə bağlı mühüm nailiyyətlər əldə edilmiş, ötən illər ərzində mübahisələrin alternativ həlli mexanizmlərinin inkişafı üzrə ardıcıl tədbirlər görülmüşdür.

Sahibkarlığın inkişafı üçün mediasiyanın tətbiqini təşviq etmək məqsədilə Azərbaycan Respublikasının Prezidentinin Fərmanı ilə milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri təsdiq edilmişdir. Fərmana əsasən, həmçinin xarici dövlətlərin qabaqcıl təcrübəsi nəzərə alınmaqla ölkəmizdə səmərəli beynəlxalq arbitraj prosedurlarının təşviqinə dair tədbirlər görülür.[284]

Ölkəmizdə 29 mart 2019-cu ildə "Mediasiya haqqında" Qanun qəbul edilmiş, bununla da mülki işlər və kommersiya mübahisələrinin, ailə və əmək, eləcə də inzibati hüquq münasibətlərindən irəli gələn mübahisələrin məhkə-

[284] Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi, https://e-qanun.az/framework/57112

mədən kənar həlli mexanizmləri yaradılmışdır.[285] Təcrübəli mediatorlar hazırlanmış, mediatorlardan ibarət Mediasiya Şurası formalaşmış və mediasiya təşkilatları fəaliyyətə başlamışdır.

Ötən illər ərzində Avropa İttifaqının maliyyə dəstəyi ilə birbaşa və regional, həmçinin beynəlxalq təşkilatlar vasitəsilə Ədliyyə Nazirliyi ilə bir sıra layihələr icra edilmiş, onların əhəmiyyətli hissəsi  mübahisələrin alternativ həlli mexanizmlərinin tətbiqi və inkişafı ilə bağlı olmuşdur. Layihələr çərçivəsində Avropa ölkələrinin təcrübəsi öyrənilmiş, yol xəritəsi və normativ sənədlərin layihələri hazırlanmış bundan əlavə nazirliyin nümayəndələri 2018-ci ildə Minsk şəhərində Belarus Respublikasının Xarici İşlər Nazirliyinin və BMT-nin Beynəlxalq Ticarət Hüququ üzrə Komissiyasının (UNCITRAL) birgə təşkilatçılığı ilə Beynəlxalq Arbitraj və Mediasiya üzrə konfransda, 2019-cu ildə Tbilisidə keçirilmiş "Beynəlxalq arbitraj" üzrə regional seminarda və Gürcüstan Beynəlxalq Arbitraj Mərkəzinin illik arbitraj günlərində, daha sonra Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı Səfirliyinin dəstəyi ilə Vaşinqton şəhərində və Şimali Karolina Ştatında "Kommersiya və əqli mülkiyyət hüquqları" mövzusunda təşkil edilmiş "Açıq Dünya Proqramı"nda yaxından iştirak etmişlər. ABŞ səfəri çərçivəsində Şimali Karolina Ştatının bir sıra məhkəmələrində, "Campbell" və "Wake Forest" universi-

[285] Mediasiya haqqında Azərbaycan Respublikasının Qanunu, https://e-qanun.az/framework/41828

tetlərinin hüquq fakültələrində, həmçinin həmin Ştatın Mübahisələrin Həlli Komissiyasının üzvləri ilə görüşlər keçirilmişdir. Qeyd olunmalıdır ki, sonuncu adıçəkilən universitetin unikallığı ondan ibarətdir ki, hüquq fakültəsinin binasında real kommersiya məhkəməsi fəaliyyət göstərir və tələbələr təhsil aldıqları zaman məhkəmənin işi ilə əyani tanış olmaq imkanı əldə edirlər. Həmçinin, müxtəlif ölkələrdə mübahisələrin alternativ həlli mexanizmlərinin inkişafında xüsusi rolları olan professorlar xanım Yas Banifatemi, Emmanuel Galliard, Frank Laney eləcə də Şimali Karolina Ali Məhkəməsinin sədri Paul Nevbay və digər hüquqşünaslarla Gürcüstanda və ABŞ-da görüşlər keçirilmişdir. Hazırda ölkəmiz UNCITRAL-da müşahidəçi qismində təmsil olunur.

***Bərpaedici ədliyyənin fəlsəfəsi və probasiya sistemində tətbiqi.*** Müasir dünyada ədliyyə sahəsində və ədalət mühakiməsi sistemində yeni yanaşmalar, insan hüquqları və azadlıqları kontekstində sivil prosedurlar həyata keçirilir, insanların çağdaş sosial ehtiyacları nəzərə alınmaqla mövcud cinayət mühakiməsinə qarşı alternativ olaraq mübahisələrin daha çevik və səmərəli həlli mexanizmləri ortaya qoyulur. Belə müasir yanaşmalardan biri də Avropa hüquq sistemi, o cümlədən Azərbaycan hüquq və ədliyyə sistemi üçün yeni olan bərpaedici ədliyyədir (Restorative Justice).

Yuxarıdakı paraqraflarda da qeyd etdiyimiz kimi, bərpaedici ədliyyədə zərərçəkmiş və cinayət törətmiş şəxs arasında mediasiya və dialoq, ailəvi qrup görüşləri, eləcə

də dairələrin qurulması metodlarından daha geniş istifadə olunur. Bütün bu prosedurların məqsədi zərərçəkmişlə cinayət törətmiş şəxslərin birbaşa dialoqunun təşkilindən, yəni onları törədilmiş cinayət və ya qanun pozuntusu ilə əlaqədar üz-üzə gətirilməsindən ibarətdir. Bu prosesdə tərəflərin onlara xidmət göstərən ən azı ümumi bir vasitəçisi olur, vasitəçilər əvvəlcədən tərəflərin hazırlığı ilə məşğul olurlar. Bu görüşlərin məqsədi əsasən nə baş verdiyini bilməkdən, onun təsirinin müəyyənləş-dirilməsindən, ümumi anlaşmaya gəlməkdən və adətən vurulmuş zərərin necə ödəniləcəyi barədə razılığın əldə olunmasından ibarət olur.

Azərbaycan praktikasında tətbiq perspektivləri baxımından bərpaedici ədliyyənin 3 növü üzərində bir daha dayanmaqda fayda vardır.

*Zərərçəkmiş və cinayəti törətmiş şəxslər arasında mediasiya* ən köhnə prosedur olmaqla, adətən mülkiyyət əleyhinə olan cinayətlər və yüngül xəsarətlər zamanı istifadə olunur. Bu prosedurda zərərçəkmiş və cinayəti törətmiş şəxsdən, eləcə də vasitəçidən savayı kiçik sayda dəstək verən şəxslərin (valideyn və dostlardan) müşayiətindən istifadə olunur.

*Ailəvi qrup görüşləri (FGC Family Group Conference)* cinayət törətmiş yetkinlik yaşına çatmayanları rəsmi ədalət mühakiməsindən yayındırmaq məqsədilə yaranmışdır. Mediator vasitəsilə təşkil olunan bu rəsmi görüşdə dəstək verən tərəflər, yəni ailə üzvləri, qonşular, dostlar, polis və sosial işçilər iştirak edə bilər, bu görüşdə cinayət törətmiş

yetkinlik yaşına çatmayanın müdafiəsi və problemin həlli məqsədilə tədbirlər görülər. Bu yanaşma qanun pozuntusu törətmiş şəxsə məsuliyyətinin öz üzərinə götürülməsi və davranışının düzəldilməsinə imkan yaradır.

Beynəlxalq praktikada mövcud olan "Dairələr"in yaradışması müxtəlifliyi ilə diqqəti çəkir. "Barışdırıcı dairə", "zərərin bərpası dairəsi" və "cəzanın təyin edilməsi dairəsi" iştirakçıların sayı və növü Ailəvi görüşlərdə olduğu kimi olur. Bununla belə cəmiyyətin daha geniş dairələri, yəni maraqlı tərəfləri, cinayət işləri üzrə ədalət mühakiməsi sisteminin təmsilçiləri və ya əlavə vasitəçilər cəlb olunurlar. Bu prosesdə hər bir dairə iştirakçısı özünü təqdim edir, həmçinin dairə ilə əlaqəsi barədə məlumat verir, cavabdeh, eləcə də maraqlı tərəflər hadisə baş verməmişdən əvvəl, törədilmə zamanı və sonra nə olduğunu izah edir, eləcə də bununla bağlı öz hislərini və sair məsələləri bildirirlər. Dəstək verən tərəflər məsələ ilə bağlı öz fikirlərini ifadə edir, vasitəçilər isə prosesi idarə etmək üçün suallar ünvanlayırlar. Dairə yanaşması bir sıra ölkələrin orta məktəblərində də tətbiq olunur.

Bərpaedici dairələr (restorative circles) və konfranslar icma əsaslı barışdırıcı mexanizmlərdir. Onlar münaqişədə olan tərəfləri – zərərçəkmişi, hüquq pozucunu və icma üzvlərini – bir araya gətirərək dialoq vasitəsilə zərərin aradan qaldırılması və reinteqrasiya prosesini dəstəkləyirlər.[286] Bu mexanizmlər xüsusilə məktəblərdə, həbsxanalar-

[286] Pranis, K. (2005). The Little Book of Circle Processes: A New/Old Approach to Peacemaking. Good Books.

da və məhəllə səviyyəsində tətbiq olunaraq sosial münasibətlərin sağlamlaşdırılmasına xidmət edir.[287]

*Zərərçəkmişlə cinayət törətmiş şəxs arasında dialoq* (Victim-offender dialogue) yuxarıda qeyd olunan mediasiya metodundan irəli gəlir, bu yanaşma sağlamlığa ağır zərər vurmada, adam öldürmədə, nəqliyyat vasitələrinin istismarı qaydalarının pozulması nəticəsində ölüm baş verdikdə və sair ağır cinayət zamanı istifadə olunur.

Yeni yanaşmalardan biri də ABŞ-ın Şimali Karolina Ştatında 2011-ci ildən tətbiq olunmağa başlayan Məhkumların Bərpası üzrə Mediasiya Proqramıdır (Prisioner Re-Entry Mediation Program).[288] Bu proqram mübahisələrin alternativ həlli mexanizmlərinin yalnız məhkəmə prosesini önləmək üçün deyil, həm də cinayətlərin residivinin qarşısının alınmasında da istifadənin mümkünlüyünü göstərir.

Bu proqram çərçivəsində azadlığa çıxmasına bir ilə yaxın müddət qalmış məhkumların qarşı tərəflə barışığın və inamın yaradılması yolu ilə könüllü və konfidensial görüşü təşkil olunur. Bu proqrama məhkumun ailə üzvləri, əvvəlki işə götürəni və mənsub olduğu dini icmanın üzvləri kənar iştirakçı kimi cəlb oluna bilərlər. Bu proqrama həmçinin yaşayış sahəsi ilə təminat, məşğulluğun təmin edilməsi, müstəqilliyin və məsuliyyətin artırılması, ailəyə

---

[287] Zehr, H., & Mika, H. (2003). Fundamental Principles of Restorative Justice. In M. Wright (Ed.), Restorative Justice: Critical Issues.
[288] Alternative Dispute Resolution in North Carolina. Elizabeth P.Manley

reinteqrasiya kimi tədbirlər daxil edilə bilər. Bununla əlaqədar tərəflər son məqsədə çatmaq üçün hər bir məsələ ilə bağlı əhatəli plan hazırlayırlar. Müstəqil hazırlanmış yekun müqavilə yol xəritəsi kimi tərəflər arasında sağlam münasibətləri və məhkumun cəmiyyətə reinteqrasiyasını təmin edir. Proqram üç dənə iki saatlıq mediasiya sessiyalarından ibarət olur, onun iki sessiyası cəzaçəkmə müəssisəsində, üçüncü sessiyası isə azadlıqda aparılır.

Proqramın məqbul olunması kriteriyaları məhkumun 12 ay ərzində cəzaçəkmə müəssisəsindən azad olunmasını və ya icma əsaslı korreksiya proqramlarında iştirakını ehtiva edir.

Dövlətlərdən asılı olaraq, habelə təşkilatı baxımdan bərpaedici ədliyyə cinayət törətmiş şəxslə zərərçəkmiş arasında mediasiyanın, bərpaedici, ailə, qrup iclaslarından və sair tədbirlərdən ibarət olur, eyni zamanda penitensiar və probasiya sistemlərində da tətbiq olunur.

Bu sahədə mühüm praktiki və konseptual məsələlər Avropa Şurası çərçivəsində də həyata keçirilməkdədir. Şuranın Nazirlər Komitəsinin bərpaedici ədliyyə ilə bağlı üzv dövlətlər üçün 2018-ci ildə qəbul etdiyi Tövsiyəsinə (№ CM/Rec(2018)8) əsasən bərpaedici ədliyyə cinayət prosesinin istənilən mərhələsində tətbiq oluna bilər.[289] Ümumiyyətlə, bu sahənin cəmiyyətimizdə də maraq doğurması və əhəmiyyətli hesab edilməsi səbəbindən son illərdə öl-

[289] Recommendation CM/Rec(2018)8 of the Committee of Ministers to member States concerning restorative justice in criminal matters, https://www.cep-probation.org

kəmiz tərəfindən bərpaedici ədliyyənin elementləri geniş şəkildə öyrənilməyə başlanılıb, bu istiqamətdə bəzi təşkilati və institusional fəaliyyətlər həyata keçirilir. Bu sahədə bir sıra beynəlxalq tədbirlərdə, o cümlədən elmi və işçi konfrans və forumların işində yaxından iştirak edilir, bu institutun faydalı tərəflərinə dair məlumatlar və bilgilər təhlil edilib araşdırılır.

2021-ci il AŞ Avropa ədliyyə nazirlərinin Venesiya konfransında bərpaedici ədliyyənin tətbiqi, zərəçəkmişlər və cinayətkarlar arasında barışığa nail olunması, məhkum edilmiş yetkinlik yaşına çatmayanların reinteqrasiyası kimi məsələlər müzakirə edilmişdir[290].

Avropa ədliyyə nazirlərinin qeyd olunan konfransında "Cinayət işlərində bərpaedici ədliyyənin rolu haqqında Venesiya Bəyannaməsi" qəbul edilmiş, tərəflər üçün bir sıra öhdəliklər müəyyən edilmişdir. Bu sənədə əsasən üzv dövlətlər bərpaedici ədliyyə sahəsində milli qanunvericilik vasitəsilə cinayət işlərində AŞ-nın Bərpaedici ədliyyə haqqında 2018-ci il tarixli 8 saylı Tövsiyəsinin həyata keçirilməsi üçün milli fəaliyyət planları hazırlamaq, bütün maraqlı tərəflər üçün müvafiq bərpaedici ədalət mühakiməsinə çıxış hüququ, yetkinlik yaşına çatmayanlar üçün bərpaedici ədalət mühakiməsinin geniş tətbiqinin təşviq edilməsi məsələləri müəyyən edilmişdir. Bundan əlavə, bərpaedici ədalət mühakiməsinin, onun prinsip və üsullarının, cinayətkarların reinteqrasiyası və s. kimi məsələlərin

[290] https://www.justice.gov.az/news/3179

həyata keçirilməsini stimullaşdırmaq, bərpaedici ədliyyə üzrə aidiyyəti vəzifəli şəxslər üçün təlimlərin keçirilməsi, tədris proqramlarına bu məsələnin daxil edilməsi və bərpaedici ədalət mühakiməsinin rolu və faydalarının geniş ictimaiyyətə çatdırılmasına yönəlmiş layihələr vasitəsilə hüquqi maarifləndirmə tədbirlərinin həyata keçirilməsi Bəyannamənin mühüm müddəalarından hesab edilir. Eyni zamanda, sənədə əsasən bu mövzuda bilik, qabaqcıl təcrübə və həqiqi elmi tədqiqatlar mübadiləsini asanlaşdırmaq üçün hazırda milli qanunvericiliklə əhatə olunan və üzv dövlətlərin hökumətləri tərəfindən həyata keçirilən bərpaedici ədalət mühakiməsi modellərinin hərtərəfli öyrənilməsini həyata keçirmək, "Avropa Şurasının bərpaedici ədalət mühakiməsi üzrə Yüksək Səviyyəli Prinsipləri"ni işləyib hazırlamaq qarşıda duran əsas çağırışlardan hesab olunur.

Qeyd edilməlidir ki, dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə mütərəqqi hüquqi islahatlar kontekstində bərpaedici ədalət mühakiməsinin tətbiqi ilə bağlı Azərbaycan təcrübəsi bu gün artıq formalaşır, yeniyetmə məhkumların cəmiyyətə reinteqrasiyası üzrə görülən müxtəlif institusional və praktiki tədbirlər həyata keçirilir, bu sahədə AŞ-nın yuxarıda qeyd edilən sənədləri tətbiq olunur.

Ədliyyə Nazirliyinin "Beynəlxalq əməkdaşlıq" barədə 30.12.2021-ci il tarixli Kollegiya Qərarına əsasən Avropa ədliyyə nazirlərinin konfransında qəbul edilmiş Venesiya Bəyannaməsinin icrası üzrə aidiyyəti tədbirlər görülməsi tapşırılmışdır. Bu tapşırıqlara əsasən bərpaedici

ədliyyə üzrə bir sıra mühüm işlər görülür, həm ədliyyə orqanlarının nümayəndələri, həm də vətəndaş cəmiyyətinin təmsilçiləri tərəfindən beynəlxalq tədbirlərdə və forumların işində aktiv fəaliyyətlər həyata keçirilir.

***Avropa Bərpaedici Ədliyyə Forumu ilə əməkdaşlıq.*** Bərpaedici ədliyyə sahəsində nüfuzlu qurumlardan biri olan Avropa Bərpaedici Ədliyyə Forumu (EFRJ) ilə ölkəmiz yaxından əməkdaşlıq edir. Bu Forum bütün Avropada və ondan kənarda bərpaedici ədliyyə sahəsində fəaliyyət göstərən mütəxəssisləri, dövlət qurumlarının əməkdaşlarını və alimləri özündə birləşdirən beynəlxalq şəbəkədir. 2000-ci ildə yaradılmış Forum Avropanın ən böyük təsisatlarından biridir, təxminən 400-dən çox üzvü, o cümlədən 80-ə yaxın təşkilatı əhatə edir. Forumun Katibliyi Belçika Krallığının Löven (Leuven) şəhərinin Löven Kriminologiya İnstitutunun (LINC) binasında yerləşir[291].

2022-ci ilin 22-25 iyun tarixlərində İtaliyanın Sassari şəhərində Forumun "Sərhədsiz ədliyyə: Ünsiyyət və məkan vasitəsilə bərpaedici əlaqələr" adlı 11-ci konfransında dünyanın 42 ölkəsindən 347 nümayəndə təmsil olunmuşdur. Konfransda dünyanın bir sıra ölkələrindən mütəxəssislər, mediatorlar, eləcə də müxtəlif dövlət qurumlarının nümayəndələri bərpaedici ədliyyənin əhəmiyyəti və öz təcrübələri barədə çıxışlar etmişlər. Tədbir çərçivəsində bir sıra görüşlər keçirilmiş, o cümlədən konfransda iştirak edən İtaliyanın ədliyyə naziri xanım Marta Kartabia ilə gö-

[291] www.euforumj.org

rüşdə bərpaedici ədliyyəni Avropada təşviq edən Venesiya Bəyannaməsi ilə bağlı tərəfimizdən görülmüş işlər haqqında qısa məlumat verilmişdir. Eyni zamanda, Avropa Bərpaedici Ədliyyə Forumunun İdarə Heyətinin hazırki sədri Tim Çapman və ilk sədri İvo Aertsenlə, İdarə Heyətinin üzvü Maya Çoçua, eləcə də təşkilatın icraçı direktoru Edit Törzslə görüş keçirilmiş, ölkəmizdə aparılan məhkəmə-hüquq islahatları, o cümlədən yuvenal ədliyyə sahəsində görülmüş işlər haqqında məlumat verilmiş, qarşı tərəf məlumatları maraqla qarşılamış və bərpaedici ədliyyənin Azərbaycanda təşəkkül tapması, həmçinin Forumla əlaqələrin inkişaf etdirilməsi ilə əlaqədar fikir mübadiləsi aparılmışdır.

***Azərbaycan milli qanunvericiliyində bərpaedici ədliyyənin elementləri.*** Baxmayaraq ki, Azərbaycan milli qanunvericiliyində bərpaedici ədliyyə institutu təsbit olunmayıb, lakin ölkəmizdə bununla əlaqədar bir sıra işlər görülmüş, o cümlədən Probasiya xidmətində və Ədliyyə Akademiyasında təlimlər keçirilmiş, bu sahədə beynəlxalq standartlar, yetkinlik yaşına çatmayanlar tərəfindən törədilən hüquq pozuntularının profilaktikası, bərpaedici ədalət mühakiməsi, yayındırma xidmətləri, uşaqlara münasibətdə cinayət təqibinin və məhkəmə baxışının həyata keçirilməsinin xüsusiyyətləri və digər mövzulara xüsusi diqqət yetirilmiş, beynəlxalq təşkilatların iştirakı ilə birgə layihələr icra olunmuşdur.

Bundan başqa, Azərbaycan Respublikası Ali Məhkməsinin "Yetkinlik yaşına çatmayanların cinayətləri barədə

işlər üzrə məhkəmə təcrübəsi haqqında" 30 iyun 2008-ci il tarixli qərarına əsasən məhkəmələr yetkinlik yaşına çatmayanın CM-nin 72 (Səmimi peşmanlıqla bağlı cinayət məsuliyyətindən azad etmə) və 73-cü (Zərərçəkmiş şəxslə barışmaqla bağlı cinayət məsuliyyətindən azad etmə) maddələrində nəzərdə tutulan əsaslarla cinayət məsuliyyətindən azad edilməsinin mümkünlüyü məsələləri də diqqətdən yayınmamalıdır[292]. İlk dəfə böyük ictimai təhlükə törətməyən cinayət törətmiş yetkinlik yaşına çatmayan şəxsin təqsirini könüllü etiraf etməsi, səmimi peşmançılığı, zərərçəkmişlə barışması bir qayda olaraq onun cinayət məsuliyyətindən azad edilməsi üçün əsas kimi götürülməli hallar ölkəmizin praktikasında mövcud olan bərpaedici ədliyyənin elementlərindəndir.

Bu sahədə BMT-nin Uşaq Fondu ilə (UNICEF) səmərəli fəaliyyət həyata keçirilmiş və bu qurum bərpaedici ədliyyənin təşviq edilməsi ilə bağlı ölkəmizdə mühüm işlər görmüşdür. Qurumun yuvenal ədliyyə sahəsində islahatlara dəstək məqsədilə probasiya və mediasiya xidmətləri üzrə beynəlxalq standartların Ədliyyə Nazirliyinə və digər maraqlı tərəflərə təqdim olunması üçün qiymətləndirmə və tövsiyələri özündə əks etdirən hesabatında bərpaedici ədliyyə konsepsiyasının tərkibi olan mediasiyanın tətbiqi ilə bağlı beynəlxalq təcrübə və onun ölkəmizdə inkişafı ilə bağlı təkliflər hazırlanmış, xüsusilə yuvenal ədliyyə sahəsində bərpaedici ədalət mühakiməsi və islahet-

[292] ttps://supremecourt.gov.az/post/view/166

mə elementlərini ehtiva edən bir sıra mühüm məsələlərə diqqət yetirilmişdir.

Ədliyyə Nazirliyi, UNICEF-in Azərbaycandakı Nümayəndəliyi və Ümidli Gələcək Sosial Təşəbbüslər İctimai Birliyi ilə birgə əməkdaşlıqda Probasiya xidmətinin qeydiyyatında olan, həmçinin Penitensiar xidmətin müvafiq müəssisələrində saxlanılan yetkinlik yaşına çatmayanların asudə vaxtlarının səmərəli təşkili və sosial psixoloji vəziyyətlərinin yaxşılaşdırılması, həmçinin Azərbaycanda uşaqların cəzaçəkmə müəssisəsinə düşməsinin qarşısının alınması məqsədilə sosial-psixoloji fəaliyyəti genişləndirmək üçün xüsusi təlimlər təşkil etməklə cinayət törətmiş uşaqların reabilitasiya və reinteqrasiya istiqamətində işlər görülür. Bundan əlavə bu yaxınlarda bərpaedici ədliyyənin müəyyən elementlərini özündə ehtiva edən birgə işlərə başlanılaraq Probasiya xidmətinin qeydiyyatında olan və Penitensiar xidmətin Tərbiyə müəssisəsində, eləcə də istintaq təcridxanalarında saxlanılan yetkinlik yaşına çatmayan məhbusların törədikləri cinayət işləri öyrənilərək onlara peşəkar vəkillər tərəfindən hüquqi yardım göstərilir, onların zərərçəkmişlərlə barışığına nail olunması, ziyanın ödənilməsi və sair zəruri tədbirlər görülür.

Uşaq hüquqları sahəsində digər bir mühüm yanaşma yayındırma fəaliyyətidir (diversion), qanunvericiliymizdə nəzərdə tutulmasa da, artıq uzun müddətdir ki, Daxili İşlər Nazirliyinin və UNICEF-in Azərbaycandakı Nümayəndəliyinin dəstəyi ilə Ümidli Gələcək Sosial Təşəbbüslər İctimai Birliyi tərəfindən Azərbaycanda cinayətə meylli yet-

kinlik yaşına çatmayanlar müəyyən edilərək onların yayındırılması həyata keçirilir. Yayındırma konsepsiyası BMT-nin "Uşaq Hüquqları haqqında" Konvensiyası (UHK) və digər beynəlxalq standartlarla tam uzlaşır, belə ki, onun məqsədi uşaqları mümkün qədər uzun müddətə rəsmi ədalət mühakiməsi sistemindən kənarda saxlamaqdır. Əsasən məhkəmə araşdırılmasından öncə tətbiq olunan yayındırma xidmətləri kriminal davranışın təməl səbəblərini aradan qaldırmaq üçün fəal müdaxilə tədbirlərini ehtiva edir. Yayındırma qanunla münaqişədə olan uşaqları formal hüquqi prosedurlardan kənarlaşdırmaqla insan hüquqlarının müdafiəsi şərti ilə onların rəsmi araşdırmanın neqativ nəticələrindən qorunması məqsədilə hazırlanmış xüsusi prosedur və proqramların hazırlanmasından ibarətdir. Onun tərkib elementlərinə sosial qiymətləndirmə və planlaşdırma, uşaqların ehtiyacları əsasında xidmətlərin göstərilməsi, nəticələrin təhlili və qiymətləndirilməsi daxildir.

Qeyd olunmalıdır ki, AR CM-nin 80-1-ci maddəsinə əsasən zərərçəkmiş şəxslə barışmaqla, cinayət nəticəsində vurulmuş ziyanı və ya əldə edilmiş gəliri tamamilə ödəməklə bağlı cəza çəkməkdən azad etmə məsələsi öz əksini tapmışdır. Belə ki, həmin maddəyə uyğun olaraq, məhkum edilmiş şəxs cəza çəkdiyi dövrdə cinayət məsuliyyətdən azad etmə ilə bağlı cinayət qanununun müvafiq maddələrində nəzərdə tutulmuş şərtləri yerinə yetirdikdə cəza çəkməkdən azad edilir. Lakin qeyd olunan müddəanın cəza-icra mərhələsində, o cümlədən probasiya sistemində

zərəçəkmişlə cinayət törətmiş şəxs arasında mediasiyanın tətbiqi və bunun üçün prosesual mezanizmlərin müəyyən olunması məqsədilə AR Cəzaların İcrası Məsəlləsinə də daxil edilməsi zəruri hesab olunur. Həmçinin qeyd olunmalıdır ki, Cəzaların İcrası Məsəlləsinin 167-ci maddəsində (Cəza çəkməkdən azad etmənin əsasları) cəza çəkməkdən azad etmənin əsasları müəyyən edilsə də, CM-nin 80-1-ci maddəsində nəzərdə tutulan halllar bu maddədə öz əksini tapmamışdır.

Hazırda probasiya qeydiyyatında olan şəxslərə verilmiş cəzalar üzrə hökm və ya qərarlarda zərərçəkmişin olduğu, lakin barışığın olmadığı cinayətlər üzrə Cinayət Məcəlləsinin 178-ci (dələduzluq), 127-ci (qəsdən sağlamlığa az ağır zərər vurma), 128-ci (qəsdən sağlamlığa yüngül zərər vurma) 221-ci (xuliqanlıq), 179-cu (mənimsəmə və ya israf etmə), 263-cü (yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarını pozma), 306-cı (məhkəmənin hökmünü, qərarını, yaxud digər aktını icra etməmə) maddələri üzrə mediasiyanın tətbiqi zəruri olan işlər mövcuddur.

Beynəlxalq təcrübə öyrənilməklə Cinayət Məcəlləsinin ümumi hissəsində cinayət məsuliyyətindən azad etməni nəzərdə tutan stimullaşdırıcı normalar kimi qəbul edilən 72, 73, 73-1 və 73-2-ci maddələrdə istinad olunan xüsusi hissənin müvafiq maddələrinin (cinayət tərkiblərinin) əhatə dairəsinin genişləndirilməsi məqsədəuyğun hesab edilə bilər.

***Problemin həlli yolları və təkliflər:*** Elmi termin olaraq bərpaedici ədliyyə cəmiyyətin, zərərçəkmişlərin və cina-

yətkarların ehtiyaclarını tarazlaşdırmaqla cinayət davranışına cavab vermək üsulu  kimi nəzərdən keçirilir.

AŞ Nazirlər Komitəsi 2018-ci ildə bərpaedici ədliyyə ilə bağlı üzv dövlətlər üçün xüsusi bir sənəd qəbul etmişdir. Bu sənəd CM/Rec(2018)8 saylı Tövsiyə adlanır və bərpaedici ədliyyə proseslərinin təşviqini və tətbiqini dəstəkləmək üçün nəzərdə tutulmuşdur. Həmin sənədə əsasən, beynəlxalq hüquqi normativ termin kimi, "bərpaedici ədliyyə" cinayət nəticəsində zərər çəkmiş şəxslərə və bu zərərə görə məsuliyyət daşıyanlara, sərbəst razılıq verdikləri halda, təlim keçmiş və qərəzsiz üçüncü tərəfin (mediatorun) köməyi ilə cinayətdən irəli gələn məsələlərin həllinə yönəlmiş proses  hesab edilir.

Bundan əlavə, AR ədliyyə nazirinin də 2021-ci ilin dekabrın 13-14-də iştirak etdiyi Avropa ədliyyə nazirlərinin konfransında qəbul edilmiş Cinayət işlərində bərpaedici ədliyyənin rolu haqqında Venesiya Bəyannaməsi bununla bağlı tərəflər üçün bir sıra öhdəliklər müəyyən edir:

- AŞ-nın Bərpaedici ədliyyə haqqında 2018-ci il tarixli 8 saylı Tövsiyəsinin həyata keçirilməsi üçün milli fəaliyyət planları hazırlamaq;
- Bütün maraqlı tərəflər üçün bərpaedici ədliyyəyə çıxış hüququ;
- Yetkinlik yaşına çatmayanlar üçün bərpaedici ədliyyənin geniş tətbiqinin təşviq edilməsi;
- Bərpaedici ədliyyənin, onun prinsip və üsullarının, cinayətkarların reinteqrasiyası və s. kimi məsələlərin həyata keçirilməsini stimullaşdırmaq;

- Bərpaedici ədliyyə üzrə aidiyyəti vəzifəli şəxslər üçün təlimlərin keçirilməsi, tədris proqramlarına bu məsələnin daxil edilməsi;

- Bərpaedici ədliyyənin rolu və faydalarının geniş ictimaiyyətə çatdırılmasına yönəlmiş layihələr vasitəsilə hüquqi maarifləndirmə tədbirlərinin həyata keçirilməsi;

- Bu mövzuda bilik, qabaqcıl təcrübə və həqiqi elmi tədqiqatlar mübadiləsi, bərpaedici ədalət mühakiməsi modellərinin hərtərəfli öyrənilməsi;

- "Avropa Şurasının bərpaedici ədalət mühakiməsi üzrə Yüksək Səviyyəli Prinsipləri"ni işləyib hazırlamaq.

Qeyd olunmalıdır ki, AR Ədliyyə Nazirliyinin "Beynəlxalq əməkdaşlıq" barədə 30.12.2021-ci il tarixli Kollegiya Qərarına əsasən Avropa ədliyyə nazirlərinin konfransında qəbul edilmiş Venesiya Bəyannaməsinin icrası üzrə aidiyyəti tədbirlər görülməsi tapşırılmışdır.

Bütün bu qeyd edilənləri nəzərə alaraq bərpaedici ədliyyənin Azərbaycanda tətbiqi ilə bağlı aşağıdakılar zəruri hesab edilir:

1) AŞ Nazirlər Komitəsinin bərpaedici ədliyyə ilə bağlı üzv dövlətlər üçün 2018-ci ildə qəbul etdiyi Tövsiyəsinə (№ CM/Rec(2018)8) əsasən bərpaedici ədliyyə cinayət prosesinin istənilən mərhələsində tətbiq oluna bilər.

Bu səbəbdən də, bərpaedici ədliyyənin inkişafı ilə bağlı tədbirlərin davam etdirilməsi, bununla bağlı qanunvericilikdə dəyişikliklərin edilməsi, zərərçəkmiş şəxslərin müəyyən olunaraq mediasiya prosesinə cəlb olunması ilə bərpaedici ədliyyənin probasiya sistemində tətbiqi məqsədə-

uyğun hesab edilir. Bununla bağlı ölkəmizdə 2025-ci ildə bərpaedici ədliyyənin probasiya sistemində pilot qaydada praktiki tətbiqini reallaşdırmaq mümkündür.

2) Bərpaedici ədliyyəyə çıxış hüququnun və cinayət işləri üzrə mediasiyanın milli qanunvercilik qaydasında təsbit olunması;

Ona görə də ilk növbədə Cəzaların İcrası Məsəlləsinin 167-ci maddəsi (Cəza çəkməkdən azad etmənin əsasları) və 170-ci maddəsinə (Məhkumun cəzadan vaxtından əvvəl azad edilməsi və ya cəzanın çəkilməmiş hissəsinin daha yüngül cəza növü ilə əvəz edilməsi, habelə cəzanın çəkilməsinin təxirə salınması qaydaları) CM-nin 80-1-ci maddəsində nəzərdə tutulan halların (zərərçəkmiş şəxslə barışmaqla, cinayət nəticəsində vurulmuş ziyanı və ya əldə edilmiş gəliri tamamilə ödəməklə bağlı cəza çəkməkdən azad etmə halı) əlavə olunmalı və onun icra mexanizmi (cəzanı icra edən müəssisə və ya orqanın bu işin təşkili ilə bağlı görəcəyi hərəkətlər, zəruri hallarda mediatorların cəlb edilməsi, məhkumların barışıq əldə etmək üçün mediatorlara müraciət etmək hüququnun yaranması, mediatorların zərərçəkmişlərə əlçatanlığı və sair) müəyyən edilməlidir.

Digər tərəfdən Mediasiya haqqında Qanunun 3-cü maddəsinə (Mediasiyanın tətbiq dairəsi) cinayət işləri üzrə mediasiyanın tətbiqinin əlavə edilməsi də məqsədəmüvafiq hesab edilir.

3) Bərpaedici ədliyyənin yetkinlik yaşına çatmayanların cinayət işləri üzrə tətbiqinin vacibliyi;

4) Bərpaedici ədliyyə üzrə davamlı maarifləndirmə tədbirlərinin təşkili. Qeyd olunmalıdır ki, 2024-cü ilin noyabr ayında Probasiya xidməti tərəfindən bərpaedici ədliyyənin tətbiqi mövzusunda mediatorlar üçün 2 təlim keçirilib. Təlimlərdə bərpaedici ədliyyənin konseptual və praktiki məsələləri, cinayət işlərində mediasiyanın tətbiqi, zərərçəkmişlə cinayət törətmiş şəxs arasında mediasiyasının məqsədləri və bu mexanizmin ölkəmizin probasiya sistemində tətbiqi perspektivləri, probasiya və mediasiyasının ümumi cəhətləri, habelə mediasiya qanunvericiliyinin mühüm məqamları mövzusunda çıxışlar olub. Həmçinin, təlimdə Azərbaycan Universitetinin tələbələri – Probasiya könüllüləri "Sosial işin mahiyyəti və sosial işçinin rolu", "Bərpaedici ədliyyə və mediasiya prosesində sosial işin rolunun gücləndirilməsi", "Bərpaedici ədliyyədə sosial dəstək sistemləri: Sosial işçilərin iştirakı və əməkdaşlıq" mövzularında təqdimatla çıxış ediblər. Bununla bağlı tədbirlərin, seminarların, maaarifləndirmə işlərinin həyata keçirilməsi, xarici ölkələrin təcrübəsinin öyrənilməsi, xarici expertlərin iştirakı ilə layihələrin işlənib hazırlanması, video-roliklərin hazırlanması, habelə bu mövzunun probasiya məmurlarının təlim proqramına daxil edilməsi nəzərdə tutulur.

5) Eyni zamanda, bərpaedici ədliyyə sahəsində beynəlxalq qurum olan Bərpaedici Ədliyyə üzrə Avropa Forumu (EFRJ) ilə qarşılıqlı əməkdaşlığın gücləndirilməsi, bərpaedici ədliyyənin cinayət işlərinə tətbiqinə yönəlmiş birgə layihələrin təşviq edilməsi, habelə bu qurumla əlaqələrin genişləndirilməsi əhəmiyyətli hesab edilir.

Gələcəkdə probasiya sistemində bərpaedici ədliyyənin, o cümlədən zərərçəkmişlə cinayət törətmiş şəxs arasında mediasiyasının tətbiqi sosial ədalətin bərpasına nail olunması, probasiya qeydiyyatında olan şəxslərə verilmiş cəzalar üzrə hökm və ya qərarlarda zərərçəkmişin olduğu, lakin barışığın olmadığı işlərin sayının azalmasına səbəb olacaq. Bu, həmçinin müvafiq qanunvericiliyə dəyişikliklərin edilməsi üçün təkliflər hazırlanacaq, habelə bu yeniliyin probasiya sistemində tətbiqi məhkumların sosial adaptasiya və reabilitasiyasının daha səmərəli nəticələr verməsinin təminatı kimi çıxış edəcək.

Ədliyyə Nazirliyinin Probasiya xidməti tərəfindən 2024-cü ildə zərərçəkmiş şəxslərin hüquqlarının bərpası (bərpaedici ədliyyə) üzrə bir sıra təlimlər keçirilmiş, bərpaedici ədliyənin Azərbaycanda tətbiqi prosesinə başlanılmışdır.

Probasiya xidməti və Mediasiya Şurası tərəfindən "Probasiya sistemində bərpaedici ədliyyənin tətbiqi" mövzusunda mediatorlar üçün təlimlərdə bərpaedici ədliyyənin və ölkəmizdə bu mexanizmin tətbiqinin əhəmiyyəti vurğulanıb. Probasiya qeydiyyatında olan şəxslərin işləri üzrə barışıq əldə edilməsi məqsədilə mediatorların iştirakı ilə keçirilən bu layihənin ilk dəfə keçirildiyi və pilot layihə olduğu qeyd edilib. Ümumilikdə təlimlərdə 30 mediator iştirak edib. Təlimçilər bərpaedici ədliyyənin konseptual və praktiki məsələləri, cinayət işlərində mediasiyanın tətbiqi, zərərçəkmişlə cinayət törətmiş şəxs arasında mediasiyasının məqsədləri və bu mexanizmin ölkəmizin probasi-

ya sistemində tətbiqi perspektivləri, probasiya və mediasiyasının ümumi cəhətləri, habelə mediasiya qanunvericiliyinin mühüm məqamları ilə bağlı təqdimatlarla çıxış ediblər.[293]

Zərərçəkmiş şəxslərin hüquqlarının müdafiəsi üçün 2025-ci ildən pilot qaydada ölkəmizdə ilk dəfə Probasiya xidməti tərəfindən bərpaedici ədliyyənin (cinayət törətmiş şəxslə zərərçəkmiş arasında mediasiya) tətbiqinə başlanılmış, nəticədə 4 barışıq sazişi bağlanmışdır.

Beləliklə də, məhkəmə ilk dəfə cinayət işləri üzrə mediasiya yolu ilə barışıq sazişi əsasında şəxsi çəkilməmiş cəzadan azad edib. Səbail Rayon Məhkəməsində məhkumun azadlığın məhdudlaşdırılması cəzasının çəkilməmiş hissəsindən vaxtında əvvəl azad olunması ilə əlaqədar Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Bakı şəhər Probasiya İdarəsinin təqdimatına baxılıb. 22 aprel 2025-ci il tarixdə məhkumla zərərçəkmiş arasında barışıq sazişi bağlanıb. Bundan sonra zərərçəkmiş şəxs notarial qaydada təsdiq edilmiş ərizə ilə müraciət edərək, məhkumla barışdığını və cinayət nəticəsində ona dəymiş ziyanın tam olaraq ödənildiyini göstərib. Məhkəmə məhkumla zərərçəkmiş şəxs arasında ailə münasibətləri zəminində yaranmış mübahisənin mediatorun vasitəçiliyi ilə barışıq sazişi bağlandığını və zərərçəkmiş şəxsə dəymiş ziyanın tam ödənilməsini nəzərə alaraq, məhkumun azadlığın məhdudlaşdı-

[293] Mediatorlar üçün bərpaedici ədliyyə ilə bağlı təlimlərə başlanılıb, https://justice.gov.az/news/3846

rılması cəzasının çəkilməmiş hissəsindən vaxtında əvvəl azad olunmasına dair qərar qəbul edib.[294]

Səbail Rayon Məhkəməsinin 01.05.2025-ci il tarixli qərarından sonra Xəzər Rayon Məhkəməsinin 13.05.2025-ci il tarixli qərarları ilə 2 məhkum cəzadan azad olunmuşdur. Hazırda digər məhkumlar və zərərçəkmişlər arasında barışıq sazişlərinin bağlanması istiqamətində iş davam etdirilir.[295]

Beləliklə, hazırda bərpaedici ədliyyənin tətbiqi və yayındırma fəaliyyətinin inkişafı, bu sahədə beynəlxalq təcrübənin və xarici ölkə qanunvericiliyinin öyrənilməsi üzrə fəaliyyətlər, habelə Azərbaycanın Bərpaedici ədliyyə üzrə Avropa Forumu ilə səmərəli əməkdaşlığı davam etdirilir.

---

[294] Məhkəmə ilk dəfə cinayət işləri üzrə mediasiya yolu ilə barışıq sazişi əsasında şəxsi çəkilməmiş cəzadan azad edib, https://fed.az/az/huquq/mehkeme-ilk-defe-cinayet-isleri-uzre-mediasiya-yolu-ile-barisiq-sazisi-esasinda-sexsi-cekilmemis-cezadan-azad-edib-230660

[295] AR Ədliyyə Nazirliyinin Probasiya xidmətinin 2025-ci ilin birinci yarımilinə dair hesabatı, Bakı 2025.

# VII FƏSİL

# PROBASİYA FƏALİYYƏTİ ÜZRƏ BƏZİ XARİCİ ÖLKƏLƏRİN TƏCRÜBƏSİ

*7.1. Niderland Krallığı.*
*7.2. Amerika Birləşmiş Ştatları (ABŞ).*
*7.3. Böyük Britaniya*
*7.4. Latviya.*
*7.5. Türkiyə.*
*7.6. Yaponiya.*

## 7.1. Niderland Krallığı.

Niderland Krallığı dünyada 200 illik probasiya tarixi olan olan ölkələrdən biridir. Ona görə də probasiya fəaliyyəti üzrə xarici ölkələrin təcrübəsindən danışarkən ilk növbədə Niderland təcrübəsinə və qanunvericiliyinə istinad edilməsini zəruri hesab edirik.

**Niderlandda probasiya sistemi 1823-cü ildə təsis edilmiş** "Məhkumların Əxlaqi İslahı üzrə Niderland Cəmiyyəti" ilə bağlıdır. Əvvəlcə bu qurum əsasən həbsxanalardakı şəraitə və məhkumların cəmiyyətə qayıtdıqdan sonra onlara yardım göstərilməsinə diqqət yetirirdi. 1886-cı ildə şərti azadlığa buraxılma (probasiya əsasında azadlığa buraxılma) institutu tətbiq olunmağa başlandı. Daha sonra isə həmin dövrdə Niderland cəmiyyətini xarakterizə edən

dini sütunlar (konfessional struktur) çərçivəsində yerli probasiya təşkilatları yaradıldı.

Bu ölkədə probasiya sosial adaptasiya və bərpaedici ədliyyə institutları kriminoloji və hüquqi sistemlərdə özü-məxsus kaloriti ilə seçilir. Niderlandın bu sahədə həm qabaqcıl təcrübəsi, həm də zəngin qanunvericiliyi mövcuddur.

Niderlandda probasiya fəaliyyəti əsasən "Reclassering Nederland" (Probasiya xidməti) tərəfindən həyata keçirilir. Bu qurum həm dövlət, həm də qeyri-hökumət statusunda olan hüquqi strukturlarla əməkdaşlıq edir.

Probasiya xidməti 3 özəl təşkilatdan ibarətdir və hər birinin öz Müşahidə Şurası mövcuddur. Probasiya sahəsində siyasi məsuliyyət Ədliyyə Nazirliyinə aiddir. Həmin 3 probasiya təşkilatı demək olar ki, 100% Ədliyyə və Təhlükəsizlik Nazirliyi tərəfindən maliyyələşdirilir.[296]

Niderlanda bu sahəni tənzimləyən iki qanun vardır. Niderland Cinayət Məcəlləsi şərti məhkumluq və probasiya tədbirlərini tənzimləyir, eyni zamanda 2011-ci ildə qüvvəyə minmiş "Penitentiar Sistem haqqında Qanun" probasiya nəzarətində olan şəxslərin hüquqlarını və vəzifələrini müəyyən edir.

Niderlandda probasiya nəzarətində olan şəxslərin sosial reabilitasiyası sistemli və multidissiplinar yanaşmalarla aparılır. Tlburq Universitetinin professoru Anton van

---

[296] Probation in Europe The Netherlands, Marco de Kok, Leo Tigges, Anton van Kalmthout. https://www.cep-probation.org/wp-content/uploads/2020/09/Probation-in-Europe-the-Netherlands.pdf

Kalmthout yazır ki, Niderlandda probasiya xidmətləri mütəmadi risk qiymətləndirməsi və fərdi dəstək planlarına əsaslanır.[297] "Terugdringen Recidive" proqramı çərçivəsində məhkumların yeni cinayət riski azaldılır. Sosial bərpa proqramları ilə təhsil, məşğulluq və psixososial dəstək təmin olunur.[298]

Probasiya əsasən yetkinlik yaşa çatmış cinayət törətmiş şəxslərə (18 yaş və yuxarı) yönəlib. 18 yaşdan aşağı cinayət törətmiş şəxslər üçün ayrıca bir xidmət mövcuddur. Probasiya xidməti cinayət prosesinin bütün mərhələlərində- istintaqdan başlayaraq cəzanın icrasına və cəzanın bitməsindən sonrakı mərhələyə qədər fəaliyyət göstərir. Buna görə də, Probasiya xidməti cinayət ədalət sistemində yalnız prokurorluq, məhkəmələr, həbsxanalar və s. üçün deyil, eyni zamanda cinayət törətmiş şəxslər üçün də davamlı və sabit bir amildir.

Probasiya xidmətinin əsas vəzifələri aşağıdakılardır:

- məhkəmə orqanları üçün əvvəlcədən cəza və digər məsləhət xarakterli hesabatların hazırlanması;
- məhkəmə və ya prokuror tərəfindən tətbiq edilən cəza, tədbir və ya xüsusi şərtlərə nəzarətin həyata keçirilməsi (bu zaman şəxslərə cinayətdən uzaqlaşma (desistensiya) prosesində dəstək verilir);
- davranış yönümlü təlim proqramlarının icrası;

---

[297] Van Kalmthout, A.M. (2007). Probation Systems in the European Union. Nijmegen: Wolf Legal Publishers.

[298] Boone, M., & Moerings, M. (2007). Re-integratie in Nederland. Delikt en Delinkwent, 1(1), 43-65.

- ictimai işlərin icrası və bu işlərə nəzarət.

Məsləhət xarakterli hesabatların hazırlanması və probasiya nəzarəti həm istintaq mərhələsində, həm də cəzanın icrası mərhələsində həyata keçirilir.[299]

Yeri gəlmişkən qeyd edək ki, Niderlandın probasiya təcrübəsi Azərbaycan üçün də önəm kəsb edir. Bu səbəbdən də Niderland Krallığının Probasiya xidmətinin rəhbər şəxsləri 2025-ci ilin senytabr ayında Azərbaycana səfərləri çərçivəsində Ədliyyə Nazirliyində olublar. Səfərin məqsədi son illər Azərbaycanda probasiya sahəsində həyata keçirilən islahatlarla yaxından tanış olmaq, habelə ölkəmizdə probasiya fəaliyyətinin inkişafına dəstək verilməsindən ibarətdir. Keçirilmiş görüşlərdə tərəflər arasında ədliyyə, o cümlədən probasiya sahəsində əməkdaşlığın inkişafına dair fikir mübadiləsi aparılıb, son dövrlərdə ölkəmizdə probasiya sahəsində həyata keçirilən islahatlar, xidmətin yeni strukturu, cəzaların icrasına nəzarətin artırılması ilə yanaşı, məhkumların sosial adaptasiyası və reabilitasiyası istiqamətində görülən ardıcıl tədbirlər barədə qonaqlara məlumat verilib. Niderlandın probasiya təcrübəsi, bu sahədə keçirilən davamlı təlimlər, probasiya nəzarətində olan şəxslərə göstərilən sosial-psixoloji xidmətlər barədə təqdimatlar edilib, Probasiya xidmətinin Avropa Probasiya Konfederasiyasına (CEP) üzv qəbul edilməsi, ölkəmizdə probasiya sahəsində əldə olunan nailiyyətlər, yeniliklər

---

[299] https://www.cep-probation.org/wp-content/uploads/2020/09/Probation-in-Europe-the-Netherlands.pdf

və innovativ dəyişikliklər, qlobal trendlərə uyğunlaşma, institusional və qanunvericilik tədbirləri ilə bağlı ətraflı müzakirələr aparılıb.[300]

Beləliklə, Niderlandın probasiya sahəsindəki qanunvericiliyi və institusional təcrübəsi göstərir ki, cəzalandırma ilə yanaşı reabilitasiya və cəmiyyətə inteqrasiya da cinayət siyasətinin əsas hədəflərindəndir. Bu model həm hüquqi baxımdan insan hüquqlarının qorunmasına, həm də kriminoloji baxımdan yeni cinayət hallarının azalmasına xidmət edir.

### 7.2. Amerika Birləşmiş Ştatları (ABŞ).

Probasiyanın tarixindən danışarkən biz yuxarıda probasiyanın institusional və hüquqi elementlərinin məhz Amerika Birləşmiş Ştatlarında formalaşması ilə bağlı təhlillər apardıq. ABŞ-da probasiya və reabilitasiya sistemi cinayət ədliyyəsinin mühüm tərkib hissəsi kimi cəzanın icrasını cəmiyyət daxilində təmin etməklə yanaşı, ictimai təhlükəsizliyin qorunmasına və cinayətkarların yenidən cəmiyyətə qazandırılmasına yönəlmiş kompleks hüquqi və institusional mexanizmlərə əsaslanır.

Bu paraqrafda zəngin tarixə malik olan ABŞ-da probasiya xidmətinin hüquqi bazası, sosial adaptasiya və reabilitasiya proqramları, eləcə də tətbiq edilən elmi əsaslı yanaşmalar təhlil edilir.

---

[300] Niderland Probasiya xidmətinin nümayəndələri Ədliyyə Nazirliyində olublar, https://justice.gov.az/news/3979

Kaliforniya Universitetinin professoru J. Petersilia yazır ki, ABŞ probasiya sistemi həm federal, həm də ştat səviyyəsində fəaliyyət göstərir və probasiya ictimai təhlükəsizliyin təminində, resosializasiya və yeni cinayət hallarının qarşısının alınmasında əsas vasitələrdən biri hesab olunur.[301]

ABŞ-da probasiya nəzarətini həyata keçirən əsas orqan **Probasiya və Məhkəməyəqədər Xidmətlər İdarəsidir (*Probation and Pretrial Services*).** Bu qurum 1925-ci ildə Prezident tərəfindən Probasiya Aktının imzalanması ilə yaradılmışdır. İdarənin əməkdaşları məhkəməyəqədər xidmətlər, cəza təyinetmədən əvvəl araşdırmalar və məhkumluqdan sonrakı nəzarət üzrə federal məhkəmə sistemi üçün məsuliyyət daşıyırlar. İdarənin heyətinə probasiya və məhkəməyəqədər xidmət əməkdaşları, onların köməkçiləri və informasiya texnologiyaları, büdcə planlaşdırılması, insan resursları və inzibati dəstək sahələrində çalışan digər peşəkar şəxslər daxildir. **Probasiya** və məhkəməyəqədər xidmət əməkdaşları **federal məhkəmələrin "gözləri və qulaqları"** hesab olunurlar. Onlar federal cinayətlərdə ittiham olunan və ya məhkum edilmiş şəxsləri araşdırır və onlara nəzarət edirlər.

Probasiya məmurları aşağıdakı fəaliyyətləri həyata keçirirlər: 1) Hakimlərə məhkəməyəqədər azadlıq və cəza təyinetmə ilə bağlı qərarların qəbulunda yardım etmək

[301] Petersilia, J. (1997). Probation in the United States. Crime and Justice, 22, 149–200.

məqsədilə araşdırmalar aparırlar. 2) İctimai təhlükəsizliyə riskləri azaltmaq və insanların həyatında uzunmüddətli müsbət dəyişiklikləri təşviq etmək üçün ən yaxşı mövcud sübutlardan istifadə etməklə azadlığa buraxılma və həbs qərarları, habelə nəzarət tədbirlərinə dair qərarların qəbulunu əsaslandırırlar. 3) Azadlığa buraxılmış şəxslərin cəmiyyətə reinteqrasiyasını dəstəkləyirlər və onların məhsuldar həyata keçidini asanlaşdırmaq məqsədilə təcili və ya keçid mərhələsi üçün mənzillə təmin olunmasına, narkotik və psixi sağlamlıq müalicəsi, məşğulluq təlimləri və digər zəruri ehtiyacların ödənilməsinə yardım edirlər.[302]

1925-ci il Federal Probasiya Aktına əsasən, məhkəmələr cinayət törətmiş şəxsləri azadlıqdan məhrum etmədən, müəyyən şərtlərlə azadlıqda saxlayaraq nəzarət altında saxlamaq hüququ qazanmışdır. Federal və ştat səviyyəsində fərqli hüquqi rejimlər mövcuddur: Federal səviyyədə probasiya xidmətləri ABŞ Məhkəmələri üzrə İnzibati İdarə (Administrative Office of the U.S. Courts) tərəfindən idarə olunur. Ştat səviyyəsində isə hər bir ştatın özünəməxsus qanunvericiliyi və idarəetmə modeli vardır.[303]

Probasiya geniş tətbiq olunmasına baxmayaraq, tez-tez kəskin tənqidlərin obyektinə çevrilir. O, cinayətə qarşı "yumşaq yanaşma" imici ilə əlaqələndirilir və nəticədə cəmiyyətin geniş dəstəyindən məhrumdur. Probasiya çox

[302] Probation and Pretrial Services, https://www.uscourts.gov/about-federal-courts/probation-and-pretrial-services

[303] Tonry, M. (2009). The Oxford Handbook of Crime and Public Policy. Oxford University Press.

vaxt cinayət qurbanlarına laqeyd münasibət göstərən, zorakı və təhlükəli cinayətkarların real təhlükəsini nəzərə almadan sırf reabilitasiya ideyasına söykənən bir sistem kimi təqdim olunur.

Cəmiyyət arasında formalaşmış bu mənfi (bəzi mütəxəssislərin fikrincə, yanlış) imic səbəbindən probasiya orqanları dövlət büdcəsindən kifayət qədər maliyyə vəsaiti əldə edə bilmir. Bütün ölkə üzrə probasiya xidmətləri ştat və yerli hökumətlərin cəza icrası üçün ayırdıqları maliyyənin 10 faizindən azını alır, halbuki bu xidmətlər cəza sistemi nəzarətində olan şəxslərin üçdə ikisinə nəzarət edir.[304]

Maliyyələşmənin qeyri-kafi olması nəticəsində probasiya çox vaxt real nəzarət demək deyil. Böyük şəhərlərdə cinayət törətmiş şəxslər bəzən 100-dən artıq işdən ibarət yüklü iş siyahısı ilə bir məmura təhkim olunur və bu halda görüşlər ayda bir dəfədən artıq keçirilmir, işə düzəlmə və ya müalicədə irəliləyişlər isə, demək olar ki, izlənilmir. Əgər təkrar həbsetmə baş vermirsə, şəxslər təyin olunan şərtləri tam yerinə yetirməsələr və ya məhkəmə xərclərini ödəməsələr belə, probasiyanı "uğurla" başa vurmuş sayılırlar.[305] Belə bir "nəzarət" həm ədalət sistemini gülünc vəziyyətə salır, həm də ciddi təhlükə doğuran cinayətkarların nəzarətsiz qalmasına səbəb olur.

---

304 Petersilia, J. (1995b). Expanding options for criminal sentencing. Santa Monica, CA: RAND.

305 Langan, P. A. (1994). Between Prison and Probation: Intermediate Sanctions. U.S. Department of Justice, Bureau of Justice Statistics.

Bununla belə, cari proqramların yetərsiz qəbul edilməsinə baxmayaraq, probasiya anlayışı özü cəlbedici və əhəmiyyətli bir model kimi dəyərləndirilir. Amerikalı hakim B. Roberts bu barədə belə demişdir: *"Probasiyada heç bir problem yoxdur. Problem onun tətbiqindədir".*[306]

**ABŞ probasiya sistemində sosial adaptasiya və reabilitasiya fəaliyyəti** də özünün spesifik cəhətləri ilə seçilir. Çünki, probasiya sisteminin əsas funksiyalarından biri də nəzarətdə olan şəxslərin sosial adaptasiyasını və yenidən cəmiyyətə inteqrasiyasını təmin etməkdir. Bu məqsədlə aşağıdakı əsas istiqamətlərdə proqramlar həyata keçirilir:

*1. Yenidən cəmiyyətə dönüş (Reentry) proqramları.* 2008-ci ildə qəbul edilən Second Chance Act çərçivəsində keçmiş məhkumlar üçün sosial xidmətlər, peşə hazırlığı, mənzil və psixoloji dəstək proqramları həyata keçirilir.

*2. Narkotik və alkoqoldan asılılıqla mübarizə proqramları (Substance abuse treatment).* Probasiya nəzarətində olan şəxslərin əhəmiyyətli hissəsi narkotik və alkoqol asılılığından əziyyət çəkdiyi üçün onlar üçün müalicə və terapiya proqramları icbari xarakter daşıya bilər.[307]

*3. Peşə və məşğulluq proqramları.* Cinayət törətmiş şəxslərin təkrar hüquq pozuntularına meylini azaltmaq üçün onlara məşğulluq imkanlarının yaradılması ABŞ təcrübə-

[306] Klein, A. R. (1997). Alternative Sentencing, Intermediate Sanctions, and Probation. Cincinnati, OH: Anderson Publishing Co. s. 72

[307] Taxman, F. S., & Belenko, S. (2011). Implementing Evidence-Based Practices in Community Corrections and Addiction Treatment. Springer.

sində əsas strategiyalardan biridir.[308] "İnteqrasiya olunmuş Reinteqrasiya və Məşğulluq Strategiyaları" üzrə konsept sənədi, probasiya nəzarətində olan və ya həbsxanadan azadlığa buraxılan, məşğulluğa ehtiyacı olan bütün yetkin şəxslərə xidmət göstərmək imkanlarının məhdudluğu problemini həll etmək məqsədilə hazırlanmışdır. Sadəcə olaraq, resurslar yetərli deyil və hər kəsi əhatə etməyə çalışmaq əsasən qeyri-effektiv nəticələr verə bilər. Bundan əlavə, bəzi şəxslər daha intensiv xidmət və proqramlara ehtiyac duyduğu halda, digərləri isə daha yüngül müdaxilə və nəzarətlə daha yaxşı nəticə göstərirlər. Bu konsept sənədi, siyasətçilərə, sistem administratorlarına və praktik mütəxəssislərə resursların düzgün şəxslərə, uyğun müdaxilə formaları ilə və doğru zamanda yönəldilib-yönəldilmədiyini birgə şəkildə müəyyən etməyə yardımçı ola bilər.

**ABŞ-da 2 əsas reabilitasiya modeli** mövcuddur.

1. **Risk-Needs-Responsivity (RNR) modeli.** Bu model cinayətkarın riski, fərdi ehtiyacları və müdaxiləyə cavab vermə qabiliyyəti nəzərə alınaraq fərdi yanaşma tətbiqini nəzərdə tutur. Risk-Ehtiyaclar modeli haqqında yuxarıdakı paraqraflarda daha geniş bəhs etmişdik.

2. **Koqnitiv-davranış terapiyası modeli (Cognitive-Behavioral Therapy-CBT).** Bu metod şəxsiyyət pozuntularını, davranış pozuntularını və impulsiv qərar qəbulet-

[308] Integrated Reentry and Employment Strategies. Reducing Recidivism and Promoting Job Readiness, https://csgjusticecenter.org

mə meyillərini dəyişmək məqsədi daşıyır və reabilitasiya proqramlarının effektivliyi üçün geniş tətbiq olunur.[309] Bu terapiya növü psixoloji müalicə üsuludur və fərdin düşüncə tərzini (koqnitiv) və davranışlarını dəyişdirməyə yönəlib. Bu aşağıdakı prinsiplərə əsaslanır:

- İnsanların hiss və davranışları onların düşüncələrindən qaynaqlanır;
- Mənfi və qeyri-real düşüncələr emosional və davranış pozuntularına səbəb olur;
- Bu düşüncələrin müəyyənləşdirilməsi və dəyişdirilməsi nəticəsində davranışlar da dəyişə bilər.

Koqnitiv-davranış terapiyası probasiya nəzarətində olan şəxslərin impulsiv və antisosioal davranışlarını dəyişmək, aqressiyanı azaltmaq və yeni cinayət riskini aşağı salmaq məqsədilə geniş istifadə olunur.

Koqnitiv-davranış terapiyası ABŞ-ın federal və ştat proqnozlaşdırma sistemlərində əsas müalicə strategiyası ("core treatment strategy") kimi qəbul edilir. Federal Probasiya İdarəsi CBT proqramlarını yüksək riskli cinayətkarlar üçün məcburi hesab edir.

Araşdırmalar göstərir ki, elmi əsaslı probasiya və reabilitasiya proqramları cinayət təkrarını əhəmiyyətli dərəcədə azaldır. Xüsusilə reentry proqramlarında iştirak edənlərin cəmiyyətə daha uğurlu inteqrasiya etdiyi və iş tapma imkanlarının artdığı sübut olunmuşdur.[310]

---

309 Latessa, E. J., & Lowenkamp, C. (2006). What works in reducing recidivism? University of St. Thomas Law Journal, 3(3), 521–535.

310 Petersilia, J. (2003). When Prisoners Come Home: Parole and Prisoner Reentry. Oxford University Press.

**ABŞ-da psixoloji dəstək və peşə təlimləri** ilə bağlı tədqiqatlar da bu yanaşmaların effektivliyini təsdiq edir. Məsələn, National Institute of Justice tərəfindən həyata keçirilən araşdırmalarda qeyd olunur ki, məhkumların psixoloji dəstək alması və peşə bacarıqlarının inkişafı yeni cinayətlərin qarşısını alır. Tədqiqatlar göstərir ki, məhkumların mental sağlamlıq məsələlərinə fokuslanmaq və onları peşə təlimlərinə cəlb etmək, həm sosial uyğunlaşmalarını sürətləndirir, həm də cinayət törətmə ehtimallarını azaldır.[311]

ABŞ təcrübəsi göstərir ki, yalnız hüquqi nəzarət deyil, həm də sosial və psixoloji reabilitasiya, fərdi ehtiyaclara uyğun müdaxilə proqramları probasiya nəzarətinin effektivliyini artırır. Azərbaycanda probasiya sisteminin təkmilləşdirilməsi zamanı bu təcrübələrdən istifadə edilməsi məqsədəuyğundur.

## 7.3. Böyük Britaniya

Birləşmiş Krallıq dünyanın ən qədim probasiya ənənələrinin daşıyıcısı olan ölkə hesab edilir. Elmi dairələrdə probasiyanın ilk rüşeymlərinin məhz bu ölkədə formalaşması ilə bağlı mövqelər hakimdir. Bu səbəbdən də biz bu praqrafda Böyük Britaniyada (xüsusilə İngiltərə və Uelsdə) probasiya, sosial adaptasiya və reabilitasiyanın institusional və qanunvericilik aspektlərini təhlil edəcəyik.

[311] https://nij.ojp.gov/topics/corrections/recidivism

Svans Universitetinin kriminologiya üzrə professoru P.Raynor və Şeffild Universitetinin professoru G. Rrobinson yazır ki, Böyük Britaniyada probasiya sistemi 19-cu əsrin sonlarından etibarən formalaşmış və zamanla qanunvericilik və institusional baxımdan təkmilləş-dirilmişdir.[312]

Xüsusi vurğulamaq lazımdır ki, **"Probasiya" anlayışı ("Probation") 1876-cı ildə ilk dəfə məhz Böyük Britaniyada istifadə edilmişdir**. Həmçinin, həmin ildə "police court missionaries" (polis məhkəmə missionerləri) vasitəsilə məhkumlara mənəvi dəstək verilməyə başlanmışdır. Bu isə təbii ki, reabilitasiyanın ilkin forması kimi qəbul edilə bilər.

Böyük Britaniyada probasiya fəaliyyəti ilə bağlı ilk qanun 1907-ci ildə qəbul edilmişdir. Belə ki, Cinayətkarların probasiyası (sınaq müddəti) haqqında Aktla (1907 Probation of Offenders Act) rəsmi şəkildə bu ölkədə probasiya institutu yaradılmış və "probation officer" – probasiya məmuru vəzifəsi qanunla təsbit edilmişdir. 2019-cu ildə Böyük Britaniyada Milli Probasiya Xidməti (National Probation Service – NPS) əhəmiyyətli islahat mərhələsindən keçdi. Bu islahatların əsas məqsədi probasiya xidmətlərini birləşdirmək və cinayətkarların idarə olunması və reabilitasiya proqramlarının səmərəliliyini artırmaq idi.[313]

---

312 Raynor, P., & Robinson, G. (2005). Rehabilitation, Crime and Justice. Palgrave.

313 Ministry of Justice (2019). "The future of probation: The Government response to the consultation"

İngiltərə və Uelsdə probasiya sisteminin əsasını aşağıdakı hüquqi Aktlar (Qanunlar) təşkil edir:

1) 2007-ci il tarixli Cinayətkarların idarə olunması Aktı – probasiya və korreksiya xidmətlərinin təşkilinə dair hüquqi əsasları müəyyən edir.

2) 2003-cu il tarixli Cinayət ədliyyəəsi Aktı – Alternativ cəza tədbirləri və məhkəmə nəzarəti müddəaları bu qanunda yer alır.

3) 2012-ci il tarixli Hüquqi Yardım, Hökm çıxarılması və Cinayətkarların Cəzalandırılması Aktı – elektron nəzarət, xidmətlər və alternativ cəzaları tənzimləyir.

4) 1974-cü il tarixli Məhkumların reabilitasiyası Aktı – məhkumluğun silinməsi və reabilitasiya hüquqlarını müəyyən edir.[314]

Birləşmiş Krallıqda probasiyaya məsul qurum **Əlahəzrətin Həbsxana və Probasiya Xidməti** (*His Majesty's Prison and Probation Service – HM Prison and Probation Service*) İngiltərə və Uelsdə korreksiya xidmətlərinə cavabdeh olan Ədliyyə Nazirliyinin icraedici agentliyidir. Bu xidmət 2004-cü ildə Milli Probasiya Xidməti və Əlahəzrətin Həbsxana Xidmətinin baş qərargahlarının bir hissəsinin, eləcə də Daxili İşlər Nazirliyinin bəzi mövcud funksiyalarının birləşdirilməsi ilə Milli Cinayətkarların İdarə Olunması Xidməti (National Offender Management Service – NOMS) adı ilə yaradılmışdır. 2017-ci ildə agentliyin bəzi

[314] www.legislation.gov.uk

funksiyaları Ədliyyə Nazirliyinə keçmiş və qurum yeni ad alaraq indiki strukturda fəaliyyətə başlamışdır.

Əlahəzrətin Həbsxana və Probasiya Xidməti (HMPPS) aşağıdakı strukturlardan ibarətdir:

1) Əlahəzrətin Həbsxana Xidməti (HM Prison Service);

2) Probasiya Xidməti (The Probation Service);

3) Gənclərin Saxlanma Xidməti (The Youth Custody Service);

4) Baş qərargah (idarəetmə və strateji rəhbərlik funksiyalarını həyata keçirən mərkəzi qurum).[315]

Burada əsas qurum olan **Probasiya Xidməti** cəmiyyət içində cəzalarını çəkən şəxslərə nəzarət etməklə yanaşı, ictimaiyyətin təhlükəsizliyini təmin etmək məqsədilə risklərin idarə olunmasında mühüm rol oynayır. İngiltərə və Uelsin 12 bölgəsində yerləşən çoxsaylı məntəqələrdə fəaliyyət göstərən **Probasiya Xidməti aşağıdakı sahələrə cavabdehdir:** cəza planlaşdırılması, akkreditə olunmuş proqramlar, intervensiyalar və ödənişsiz ictimai işlər.

Xidmət polis, həbsxanalar və məhkəmələrlə sıx əməkdaşlıq edərək, məhkumların cəmiyyət üçün potensial risk səviyyəsini qiymətləndirir və onların reabilitasiyaya yönəlmiş uyğun cəza planını tövsiyə edir.

Probasiya xidmətinin əsas missiyası cəzanın idarəetməsidir (Sentence Management). **Britaniya probasiyasında icra olunan cəzanın 3 əsas məqsədi var:** ictimaiyyətin təhlükəsizliyinin qorunması, həmin şəxslərin məsuliyyətə

[315] About HM Prison and Probation Service, https://prisonandprobationjobs.gov.uk/about-hmpps/

cəlb olunmasının təmin edilməsi, onların reabilitasiyasına dəstək verilməsi.

Bu məqsədə çatmaq üçün probasiyada olan şəxslərlə əməkdaşlığa əsaslanan işgüzar münasibətlər qurulur, beləliklə aşağıdakılar mümkün olur:

- Şəxsin risk səviyyəsini, ehtiyaclarını, güclü tərəflərini və sosial vəziyyətini qiymətləndiririk və onların konkret ehtiyaclarına uyğun intervensiya tədbirləri seçilir;
- Digərləri üçün ciddi zərər riski yarandıqda bu riski idarə etmək, bu zaman mütəxəssislər və digər təşkilatlarla birgə işləyərək məlumat və bilik mübadiləsi aparmaq;
- Probasiyada olan şəxslərin davranışlarını dəyişməyə və müsbət dəyişiklik üçün motivasiya yaratmağa təşviq etmək.

**Sosial adaptasiya və reabilitasiya proqramları.** Əslində Birləşmiş Krlallıq uzun bir probasiya tarixinə malik olmasına baxmayaraq reabilitasiya sisteminə yeni qədəm qoyub. Belə ki,  bu ölkədə 2013-cü ildə Transformasion Reabilitasiya Proqramı (Transforming Rehabilitation Programme) qəbul edilmiş, [316] bu sahədə əhəmiyyətli struktur islahatlar həyata keçirilmiş, özəl sektorun iştirakı artırılmışdır. Bu strateji sənədin qəbul edilməsində əsas məqsəd qanunu pozan şəxslərin təkcə cəza alması deyil, həmçinin mentor dəstəyi və reabilitasiya xidmətləri ilə də təmin

[316] Transforming Rehabilitation. A Strategy for Reform, https://consult.justice.gov.uk/digital-communications/transforming-rehabilitation/results/transforming-rehabilitation-response.pdf

olunmasıdır ki, həyatlarını düzəldə bilsinlər və bir daha cinayət törətməsinlər.

Beləliklə, Britaniyada olan yüksək yeni cinayət səviyyələri fonunda (ildə təqribən 600,000 cinayət törədilir, azad edilənlərin təxminən yarısı yenidən cinayət törətmişdir) bu sənəd olduqca əhəmiyyətli hesab edilir. Orada qeyd olunur ki:

- Məhkumlar həbsdən çıxdıqdan sonra da dəstəklənməlidir, yəni "həbsxana qapısından cəmiyyətə" keçid mərhələsində ardıcıllıq təmin olunmalıdır;
- Qısa müddətli cəza alan şəxslər hazırda heç bir dəstək almır, halbuki onların təkrar cinayət törətmə halları ilə mübarizə aparmaq üçün reabilitasiyaya ehtiyacları var;
- İctimai təhlükəsizliyin təmin edilməsi əsasdır və bu istiqamətdə əsas rol ictimai sektorun üzərinə düşür;
- Qeyri-hökumət sektoru (vətəndaş cəmiyyəti təşkilatları) mentorluq və məhkumların həyatını dəyişdirməkdə mühüm rol oynaya bilər;
- Əgər bu təşəbbüslər yerli əməkdaşlıqlara əsaslanmasa və mənzil təminatı, məşğulluq, narkotikdən müalicə və psixi sağlamlıq xidmətləri kimi bütün dəstək sahələrini bir araya gətirməsə görəcəyimiz heç bir iş uğurlu olmayacaq.[317]

---

[317] Chris Grayling, Lord Chancellor and Secretary of State for Justice, Transforming Rehabilitation: A Strategy for Reform, https://consult.justice.gov.uk/digital-communications/transforming-rehabilitation/results/transforming-rehabilitation-response.pdf

Böyük Britaniyada probasiya sisteminin əsas məqsədi yalnız cəza çəkmə deyil, məhkumun cəmiyyətə inteqrasiyasını dəstəkləməkdir. Bu məqsədlə aşağıdakı sahələrdə proqramlar tətbiq edilir:

1. *Təhsil və peşə təlimləri.* "Education and Employment Strategy for Prisoners and Probation" adlı strategiya çərçivəsində işə hazırlıq, yazı, oxu, sayma bacarıqları və peşə kursları təşkil olunur.[318]

2. *Sağlamlıq və psixososial dəstək.* Məhkumların əqli və psixoloji sağlamlığına dəstək məqsədilə Milli sağlamlıq mərkəzi (National Health Service) ilə əməkdaşlıq çərçivəsində terapevtik xidmətlər göstərilir.

3. *Asılılıqla mübarizə proqramları* (Substance Misuse Programmes). Alkoqol və narkotik asılılığı olan şəxslər üçün "Narkotik asılılığından reabilitasiya üzrə məcburi proqram" ("Alcohol Treatment Requirement") və "Alkoqol asılılığı üzrə məcburi müalicə proqramı" ("Drug Rehabilitation Requirement") kimi məcburi proqramlar tətbiq edilir.[319]Bunlar məhkəmə tərəfindən alternativ cəza və ya probasiya şərtləri kimi təyin olunan tədbirlərdir. Məqsəd məhkumun asılılıq problemini aradan qaldırmaqla onun yenidən cinayət törətmə riskini azaltmaq və sosial reinteqrasiyanı təmin etməkdir. Bu proqramlar əsasən narkotik

---

[318] Education and Employment Strategy 2018, https://www.gov.uk/government/publications/education-and-employment-strategy-2018

[319] McNeill, F. (2019). Probation, Rehabilitation and Re-entry. European Journal of Probation, 11(3), 235–251.

maddələrdən və ya alkoqoldan asılı olan şəxslərin reabilitasiyası, onların yenidən cəmiyyətə inteqrasiyasına yönəlir. Xüsusilə, probasiya sistemində bu proqramlar reabilitasiya yanaşmasının mühüm hissəsidir.

**Asılılıqla mübarizə proqramlarının əsas məqsədi:** asılılıq davranışlarını dəyişdirmək, psixoloji və tibbi dəstək göstərmək, sağlam həyat tərzinə keçidi təşviq etmək, yeni cinayətlərin qarşısını almaqdır. Tədqiqatlar göstərir ki, asılılıqla mübarizə proqramlarında iştirak edən şəxslərin yeni cinayət törətmə ehtimalı 25-40% azala bilər. Eyni zamanda, sosial və psixoloji vəziyyətlərində irəliləyişlər müşahidə olunur, intihara meyil, aqressiv davranış və ailə zorakılığı hallarının azalmasına təsir edir.[320]

4. *İctmai işlər (Community Payback).* Cəmiyyətə faydalı ictimai işlər – məsələn, parkların təmizlənməsi, ictimai binaların bərpası – azadlıqdan məhrumetməyə alternativ olaraq geniş tətbiq olunur. **Böyük Britaniyanın probasiya təcrübəsində ictimai işlər cəzası maraqlı məsələlərdəndir.** *Community Payback* (cəmiyyətə faydalı ödənişsiz iş) adlanan bu cəza növü İngiltərə və Uels məhkəmələrinin çıxardığı cəmiyyət içi cəza qərarlarına və şərti cəza hökmlərinə əlavə oluna bilər. Probasiyada olan şəxslər ən uyğun ictimai iş layihələrinə və ya iş yerlərinə yönləndirilir, onlar bu fəaliyyətlər zamanı nəzarətdə saxlanılır. Bu layihələrə aşağıdakılar daxil ola bilər: bağ sahələrinin təmiz-

[320] National Audit Office Annual Report 2010, https://www.nao.org.uk/corporate-information/national-audit-office-annual-report-2010/

lənməsi, ictimai binaların təmiri və yenidən rənglənməsi, ağac əkmə, çay və çimərliklərin təmizlənməsi, oyuncaqların hazırlanması və ianə olunmuş ağac materiallarından mebelin bərpası və istehsalı.[321]

2014–2021-ci illər arası dövrdə aşağı riskli cinayətkarların reabilitasiyası özəl sektor tərəfindən idarə edilən İcma reabilitasiya şirkətlərinə tapşırılmışdır. Lakin 2021-ci ildən etibarən bu model ləğv edilərək probasiya xidmətləri yenidən dövlətləşdirilmişdir.[322] Əslində probasiya xidmətlərinin yenidən dövlətləşdirilməsi strategiyasının təsbit olunduğu Transformasion Reabilitasiya Proqramı islahatlarından sonra Britaniyada vahid dövlət probasiya sistemi yaradılmışdır.

Birləşmiş Krallıqda probasiya xidmətlərinin tətbiqi və psixoloji dəstəyin rolu üzərində aparılmış çoxsaylı tədqiqatlar bu yanaşmaların cinayətlərin azalmasına və yeni cinayətkarlığın qarşısının alınmasına kömək etdiyini göstərir. Məsələn, Cənubi Uelsin Probasiya İdarəsi (South Wales Probation Service) tərəfindən aparılan tədqiqatlar göstərib ki, məhkumların reabilitasiya proqramları daxilində psixoterapevtik və sosial dəstək alması, onların cinayət törətməyə meylini azaldır. Həmçinin, peşə bacarıqlarının inkişafı, məhkumların gələcəkdə iş tapmalarını asanlaşdıra-

[321] What the Probation Service does, https://prisonandprobationjobs.gov.uk/about-hmpps/probation-service/

[322] HM Inspectorate of Probation (2021). The Quality of Probation Services Post-Reform.

raq onların cəmiyyətə reinteqrasiyasını sürətləndirir. Bu yanaşma, cəza sistemində tətbiq olunan rehabilitasiya və resosializasiya proqramlarının əsas elementlərindən biridir.[323]

Beləliklə, Böyük Britaniyanın probasiya sistemi tarixi təcrübə, qanunvericilik və reabilitasiya yönümlü yanaşmaları ilə nümunəvi sayılır. Sistemin güclü tərəfi fərdiləşdirilmiş yanaşma və ictimai təhlükəsizliyin bərabər şəkildə nəzərə alınmasıdır.

### 7.4. Latviya.

Latviya probasiya sistemi post-sovet məkanı ölkələri içərisində ən modern probasiyalardan biridir. Eyni zamanda, bu ölkənin probasiya sistemi institutsional və funksional tətbiqi baxımından Avropa ölkələri arasında da nümunəvi hesab edilə bilər.

Latviyada probasiya fəaliyyətini Ədliyyə Nazirliyinin tabeliyində fəaliyyət göstərən **Dövlət Probasiya Xidməti** həyata keçirir. Bu qurum 2003-cü ildə təsis olunmuş və fəaliyyəti **2003-cü il tarixli Dövlət Probasiya Xidməti haqqında Qanunla** tənzimlənir. Bu qanun probasiya xidmətinin hüquqi əsaslarını, səlahiyyətlərini və vəzifələrini müəyyən edir.

Bundan başqa, Latviyada probasiya fəaliyyəti aşağıdakı **əsas normativ sənədlərlə** də tənzimlənir:

---

323 https://assets.publishing.service.gov.uk/media/62e41079d3bf7f75b02b3481/Wales_HMPPS_Reducing-Reoffending-plan.pdf

- *Cinayət Məcəlləsi* – alternativ cəza növləri və probasiya müddətində hüquq pozuntularına görə tədbirlər müəyyən edir.

- *Cinayət Prosesusl Məcəllə* – probasiya çərçivəsində mediativ və bərpaedici mexanizmlərin tətbiqini nəzərdə tutur.

-*Cəzaların İcrası Məcəlləsi* – azadlıqdan məhrumetmədən alternativ cəza formalarının icrası qaydalarını müəyyən edir.[324]

2003-cü il Dövlət Probasiya Xidməti haqqında Qanunun 6-cı maddəsinə görə Probasiya Xidməti aşağıdakı əsas funksiyaları yerinə yetirir:

- Məhkəməyə əvvəlcədən hesabatların hazırlanması (pre-sentence reports),

-Məhkum olunmuş şəxslərin cəmiyyətə reinteqrasiyası üçün fərdi planların hazırlanması,

- Alternativ cəza tədbirlərinin icrası (ictimai iş, probasiya nəzarəti, elektron monitorinq və s.),

- Zərərçəkmişlə iş, o cümlədən bərpaedici ədalət proqramlarının tətbiqi.

- Probasiya proqramlarının hazırlanmasını və lisenziyalı proqramların həyata keçirilməsini təmin etmək;

- Cəzaların icrasını təşkil etmək;

[324] Council of Europe, Recommendation CM/Rec(2010)1 on the Council of Europe Probation Rules; Latvian Criminal Law (1998), Sections 55–64.

- Uşaqlara təhsil haqqında məcburi tədbirlərin tətbiqi ilə bağlı cinayət işləri və digər işlər üzrə barışıq işlərinin təşkil edilməsi və idarə edilməsi;

- Şərti məhkum edilmiş və ya şərti olaraq həbs müəssisələrindən vaxtından əvvəl azad edilmiş şəxslərə nəzarət etmək;

- Cinayət cəzasının tətbiq edildiyi şəxslərə nəzarət etmək - probasiya nəzarəti.[325]

Eyni zamanda, Probasiya xidmətinə probasiya proqramlarının lisenziyalaşdırılması və həyata keçirilməsi vəzifələri də həvalə edilmişdir. Probasiya proqramları Ədliyyə Nazirliyi tərəfindən yaradılan lisenziya komissiyası tərəfindən lisenziyalaşdırılır. Dövlət Probasiya Xidməti probasiya müştərisinin risk və ehtiyacların qiymətləndirilməsi və ya dəstək ehtiyacları və resurslarının qiymətləndirilməsi üzrə probasiya proqramlarının həyata keçirilməsini təmin etməlidir. Həmçinin, Dövlət Probasiya Xidməti penitensiar müəssisələrlə əməkdaşlıq edərək əxlaq və cinsi inzivasiyaya qarşı cinayət məsuliyyətinə cəlb edilmiş və penitensiar müəssisələrdə cəza çəkən şəxslər üçün sınaq proqramını, habelə penitensiar müəssisələrdə cəza çəkən məhkum gənclərin sosial davranışla bağlı korreksiyası proqramını həyata keçirir.

***Latviyada sosial adaptasiya və reabilitasiya mexanizmləri.*** Latviya probasiya sistemi reabilitasiya yönümlü fəaliyyətə xüsusi önəm verir. Əsas məqsəd məhkumların

[325] https://m.likumi.lv/ta/id/82551-valsts-probacijas-dienesta-likums

cəmiyyətə uğurlu reinteqrasiyası və təkrar cinayətkarlığın qarşısının alınmasıdır. Bu məqsədlə aşağıdakı proqramlar həyata keçirilir:

a) *Fərdi qiymətləndirmə və reabilitasiya planı.* Hər bir probasiya nəzarətində olan şəxs üçün risk və ehtiyac əsaslı qiymətləndirmə aparılır və fərdi reabilitasiya planı hazırlanır. Bu plan davranış korreksiyası, iş tapmaq, təhsil almaq və sosial bacarıqların inkişafı kimi elementləri əhatə edir.

b) *Psixososial müdaxilə proqramları.* Ailə zorakılığı, aqressiv davranış, narkotik asılılığı və digər antisosial meyllərlə mübarizə üçün ixtisaslaşmış proqramlar tətbiq edilir.

c) *Zərərçəkmiş və cinayət törətmiş şəxsin mediasiyası.* Latviyada bərpaedici ədliyyə yanaşması çərçivəsində könüllü mediasiya proqramları həyata keçirilir. Bu proqramlar vasitəsilə zərərçəkmişin emosional və hüquqi ehtiyacları nəzərə alınmaqla cinayətkarla görüşlər təşkil olunur.[326]

**Latviyada könüllülük institutu** geniş təşviq olunur və könüllülərin hüquqi statusu 2003-cü il Qanunu ilə müəyyən olunmuşdur. Belə ki, könüllü fəaliyyətin əsas məqsədi Dövlət Probasiya Xidmətinin funksiyalarının həyata keçirilməsində əlavə dəstək təmin etməkdir. Könüllülər probasiya orqanlarının müəyyən etdiyi tapşırıqların icrasında, eləcə də tədqiqat, analitik təhlil, ictimai nəzarət və barışıq (cinayət işləri üzrə mediasiya) proseslərinin təşkili sa-

[326] Van Kalmthout, A.M., Durnescu, I. (2008). Probation in Europe. Nijmegen: Wolf Legal Publishers.

həsində iştirak edə bilərlər. Bu fəaliyyət, cəmiyyətin probasiya sistemində daha geniş iştirakına və ictimai təhlükəsizliyin təmin olunmasına xidmət edir.

Dövlət Probasiya Xidməti ilə könüllü fəaliyyət müqaviləsi bağlayan şəxs aşağıdakı meyarlara cavab verməlidir:

- 18 yaşına çatmış və onun barəsində qəyyumluq və ya himayəçilik müəyyən edilməmiş olmalıdır;
- Dövlət dilini sərbəst və peşəkar səviyyədə bilməlidir;
- Könüllü fəaliyyətdə iştirak etmək istəyi olmalıdır;
- Probasiya müştərisi (yəni probasiya nəzarətində olan şəxs) olmamalıdır;
- Əxlaqa və cinsi toxunulmazlığa qarşı cinayət törətmiş olmamalı, belə bir cinayətə görə məsuliyyətə cəlb olunmamış olmalıdır (cinayət işinin başlanması və ya xitamından asılı olmayaraq);
- Qəsdən ağır və ya xüsusilə ağır cinayət törətdiyinə görə cəzalandırılmamış olmalıdır. Bu kateqoriyadan olan şəxslər yalnız Dövlət Probasiya Xidmətinin həmin şəxsin könüllü fəaliyyəti ictimai maraqlara zidd deyilsə, fəaliyyətə cəlb olunmasına dair müsbət qiymətləndirməsindən sonra istisna təşkil edə bilər;
- Probasiya mediasiyası və barışıq proseslərinin təşkili sahəsində fəaliyyət göstərən könüllü şəxs, razılaşma (mediasiya) üzrə nəzəri biliklərə və praktik bacarıqlara malik olmalıdır;
- Könüllü şəxsin, xüsusilə yetkinlik yaşına çatmayanlarla işləyəcəyi hallarda, uşaq hüquqlarının müdafiəsi sa-

həsində mövcud qanunvericiliyin tələblərinə uyğunluğu təmin olunmalıdır.

Könüllü fəaliyyət iştirakçısı ilə Dövlət Probasiya Xidməti arasında yazılı müqavilə bağlanılır və həmin müqavilədə tərəflərin hüquq və vəzifələri, tapşırıqların mahiyyəti, icra müddəti və digər şərtlər ətraflı şəkildə göstərilir. Könüllünün könüllü fəaliyyət çərçivəsində icra etdiyi tapşırıqların yerinə yetirilməsi ilə bağlı çəkdiyi zəruri xərclərin ödənilməsi qanunvericiliklə nəzərdə tutulur və bu məbləğ Ədliyyə Nazirliyi tərəfindən müəyyən olunur. Könüllü fəaliyyətin icrasına cəlb olunmaq üçün şəxs Dövlət Probasiya Xidməti tərəfindən müəyyən olunmuş təlimləri keçməli və xüsusi sertifikat almalıdır. Bu sertifikat barışıq proseslərinin təşkili və idarə olunmasında iştirak üçün hüquqi əsas yaradır. Əgər şəxs barışıq vasitəçisinin etik prinsiplərini pozarsa və ya özü haqqında yalan məlumat verərsə, yaxud fəaliyyət zamanı yaşayış yerinin və şəraitinin təşkilinə dair təminatlara əməl etməzsə, onun sertifikatı Dövlət Probasiya Xidməti tərəfindən ləğv edilə bilər. Sertifikatın ləğv edilməsi ilə bağlı qərar mübahisələndirilə bilər. Lakin bu qərarın məhkəmədə və ya müvafiq komissiyada apellyasiya olunması həmin şəxsin fəaliyyətini dayandırmır – yəni ləğvetmə qərarı qüvvədə qalır.[327]

Cinayət ədliyyə sistemində səmərəli idarəetmənin və ictimai iştirakçılığın təmin olunması məqsədilə bir çox Avropa ölkələrində probasiya xidmətləri yanında məsləhətçi

[327] https://m.likumi.lv/ta/id/82551-valsts-probacijas-dienesta-likums

və ya konsultativ şuralar yaradılmışdır. Latviyada belə institusional baxımdan maraqlı qurum **Dövlət Probasiya Xidmətinin Məsləhət Şurasıdır**. Bu struktur mərkəzi icra hakimiyyəti, hüquq-mühafizə, məhkəmə və vətəndaş cəmiyyətinin institusional əməkdaşlığına əsaslanan koordinasiya modelini təcəssüm etdirir. Bu şura həm dövlət, həm də qeyri-dövlət aktorlarının əməkdaşlığına əsaslanaraq, probasiya siyasətinin formalaşması, icrası və qiymətləndirilməsi proseslərinə töhfə verir.

Dövlət Probasiya Xidmətinin Məsləhət Şurası dövlət, yerli özünüidarəetmə orqanları, hüquq-mühafizə və ədliyyə strukturları, habelə vətəndaş cəmiyyətinin nümayəndələrindən ibarət çoxtərəfli platformadır. Şura aşağıdakı üzvlərdən ibarətdir:

- Rayon məhkəməsinin nümayəndəsi – məhkəmə sisteminin təcrübə və mövqeyini nəzərə almaqla hüquqi balansın təmin edilməsi məqsədi daşıyır.

- Baş Prokurorluğun nümayəndəsi – ittihamçılıq və cinayət təqibi orqanı kimi prokurorluğun iştirakı cəzaların icrası və nəzarətin əlaqələndirilməsində əhəmiyyətlidir.

- Ədliyyə Nazirliyinin nümayəndəsi – probasiya siyasətinin formalaşmasına cavabdeh əsas icra orqanı kimi Şurada təmsil olunur.

- Latviya Yerli və Regional Hökumətlər Assosiasiyasının nümayəndəsi – cəmiyyətə reinteqrasiya tədbirlərində yerli idarəetmənin funksional iştirakını təmin edir.

- Dövlət Probasiya Xidmətinin nümayəndəsi – Şuranın daimi üzvü və əlaqələndirici strukturudur.

- Həbsxana İdarəsinin nümayəndəsi – azadlıqdan məhrumetmə ilə probasiya tədbirləri arasında koordinasiyanın qurulmasına şərait yaradır.

- Dövlət Polisinin nümayəndəsi – hüquq-mühafizə orqanı kimi risklərin və ictimai təhlükələrin profilaktikasında mühüm tərəfdaşdır.

- Qeyri-hökumət təşkilatının nümayəndəsi – fəaliyyət sahəsi sosial kənarlaşdırma riski daşıyan əhali qruplarına yönəlmiş dəstək və xidmətlərin göstərilməsi ilə bağlı olan ən azı bir QHT nümayəndəsinin iştirakına şərait yaradılır.

Probasiya xidmətinin yerli qurumlarında da alternativ olaraq yerli qurumların nümayəndələrindən ibarət belə bir ictimai nəzarət sistemi- probasiya məsləhət şuraları fəaliyyət göstərir.

Beləliklə, Latviyada probasiya sistemi müasir hüquqi və sosial yanaşmaların inteqrasiyası ilə formalaşmış, ictimai təhlükəsizliyin təmin olunmasına və yeni cinayətkarlığın qarşısının alınmasına yönəlmiş kompleks mexanizmlərlə təchiz edilmişdir. Bu model, həm normativ çərçivə, həm də praktik reabilitasiya və adaptasiya strategiyaları baxımından Azərbaycan üçün nümunə ola bilər. Gələcəkdə sistemin rəqəmsallaşdırılması və süni intellekt əsaslı risk qiymətləndirmə alətləri ilə təkmilləşdirilməsi də gözlənilir.

## 7.5. Türkiyə.

20 illik tarixi olan Türkiyənin probasiya sistemi Şərq ölkələri içərisində ən dayanqılı və müasir probasiya sistemlərindən biri hesab edilə bilər.

Türkiyədə probasiya sistemi **20 iyul 2005 qüvəyə minmiş 5402 saylı Probasiya xidməti haqqında Qanunla** yaradılmış və 10 noyabr 2021-ci ildə həmin qanuna edilmiş əlavə ilə Probasiya xidmətləri haqqında Əsasnaməyə uyğun olaraq bu ölkədə probasiya sistemi öz funksiyalarını uğurla həyata keçirir. Ümumiyyətlə, Türkiyənin probasiya sistemi həm Şərq ölkələri, həm də Avropa ölkələri işərisində özünün tarixi keçmişi, unikal təbiəti, müasir kaloriti və effektiv fəaliyyəti ilə diqqəti cəlb edir.

Türkiyənin Probasiya üzrə Dairə Başkanlığının rəhbəri Dr. Hüseyin Şıkın redaktorluğu ilə 2025-ci ildə dərc olunmuş Dr. Deniz Özyörükün müəllifi olduğu "Türkiyədə probasiyanın həyata keçirilməsi" *("Probation implemetaion in Türkiye")* kitabında Türkiyənin probasiya tarixinə və müasir dövrdə reabilitasiya yönümlü institusional fəaliyyətinə qısa ekskurs edilir. Orada qeyd olunur ki, Türkiyədə probasiya ilk dəfə cinayət ədliyyə sistemində 2005-ci ildən tətbiq olumağa başlamış, tarixi baxımdan isə Osmanlı dönəminə aid edilməklə cəza qanunlarında "sürgün" (*nefy*) cəzasından qaynaqlanır.[328] Bu cəza əslində İslam hüquq normalarından təsirlənmiş və müəyyən bir şəxsin yaşadığı yerdən uzaqlaşdırılması və başqa bir bölgəyə

[328] Özyörük D. (2025) Probation implemetaion in Türkiye, Edited by Hüseyin Şık, Ph.D., p.5.

göndərilməsi formasında tətbiq edilirdi. cəmiyyətin təhlükəsizliyi üçün potensial təhlükə yaradan şəxslərə tətbiq olunan bu cəzanın məqsədi şübhəli və ya cinayət törətmiş şəxsin ictimai nizamı pozmasının qarşısını almaq, tərbiyəvi funksiyası – fərdin mühitini dəyişməklə, onun davranışını islah etmək idi. Yəni bu cəza dini-mənəvi kontekstdə "tənbeh" və "islah" məqsədi güdürdü.

Osmanlı hüququnda bu cəza bəzən müvəqqəti, bəzən isə ömürlük ola bilərdi və şəxsin öz yaşadığı mühitdən uzaqlaşdırılaraq müəyyən əraziyə sürgün olunması dövlətin ictimai asayişi və siyasi sabitliyi təmin etmək məqsədilə səlahiyyətli olduğu idarəvi və cəza tədbirlərindən biri kimi çıxış edirdi.[329]

Osmanlı hüquq sistemində nefy cəzası müasir dövrdə tətbiq olunan probasiya tədbirlərinin erkən forması kimi qiymətləndirilə bilər. Bu cəza növü idarəvi, fərdi və sosial təhlükəsizlik yönümlü yanaşmalarla həyata keçirilmiş və sosial sabitliyin təminatında mühüm alət olmuşdur. Sürgün ölüm və ya həbs cəzasının alternativi kimi tətbiq olunurdu ki, müasir dövrdə probasiya da azadlıqdan məhrumetməyə alternativ mexanizm kimi çıxış edir. Müasir Türkiyə probasiya sistemi bu tarixi təcrübəni daha hüquqi, şəffaf və insan mərkəzli formada davam etdirir.

Türkiyədə probasiya xidmətləri Ədliyyə Nazirliyinin Cəza və Həbs Evləri Baş İdarəsinin (Ceza və Tevkifevleri Genel Müdürlüğü) Probasiya üzrə Dairə Başkanlığının

[329] Cin, H. (1996). Osmanlı Ceza Hukuku. İstanbul: Beta Yayınları.

nəzdində fəaliyyət göstərən **Denetimli Serbestlik Müdürlükləri** vasitəsilə həyata keçirilir. Bu qurumların əsas səlahiyyətləri aşağıdakılardır:

- Məhkəmə qərarlarının icrası və probasiya nəzarəti;
- Risk və ehtiyacların qiymətləndirilməsi;
- Fərdi təqib və dəstək proqramlarının hazırlanması;
- Təlim, məşğulluq və psixososial yardım fəaliyyətlərinin həyata keçirilməsi və s.[330]

Türkiyədə probasiya qurumları ikili tabelik münasibətlərinə uyğun fəaliyyət göstərirlər. Belə ki, Türkiyənin Denetimli Serbestlik Müdürlüyü Ədliyyə Nazirliyinin tabelində olan qurumdursa, yerli probasiya qurumları isə bilavasitə Baş savcılıqlara (prokurorluqlara) tabeli fəaliyyət göstərirlər.

Probasiya üzrə Dairə Başkanlığı müdirdən, hakimlərdən, şöbə müdirlərindən, probasiya ekspertlərindən, probasiya məmurlarından və Elektron monitorunq mərkəzinin əməkdaşlarından ibarətdir.

İnstitusional baxımdan Türkiyədə probasiya sahəsində maraqlı olan qurumlardan biri **Ədliyyə Nazirliyi yanında fəaliyyət göstərən Məşvərət Şurasıdır**. Şuraya ədliyyə nazirinin müavini sədrlik edir və iclasları ildə bir dəfədən az olmayaraq keçirilir. Bu qurumun üzvləri sırasına penitensiar və probasiya qurumlarının rəhbərləri ilə bərabər, məşğulluq, təhsil, ailə, qadın, uşaq, əmək, əlilliyi olan şəxslərlə bağlı dövlət qurumlarının rəhbərləri, habelə universitetlə-

[330] TC Adalet Bakanlığı (2022). Denetimli Serbestlik Genel Müdürlüğü Faaliyet Raporu.

rin hüquq, sosial iş, sosiologiya, psixologiya fakultələrinin, habelə vəkillik qurumunun nümayəndələri və digər şəxslər daxildir.

Ümumiyyətlə, **Türkiyədə probasiya icraatının 4 əsas forması vardır:** qiymətləndirmə və planlama prosesi, icra prosesi, reabilitasiya prosesi, nəzarət və ya monitorinq prosesi.

***Sosial adaptasiya və reabilitasiya proqramları.*** Türkiyədə probasiya nəzarətində olan şəxslərin cəmiyyətə inteqrasiyası üçün aşağıdakı sahələrdə reabilitasiya tədbirləri həyata keçirilir:

1. Təhsil və peşə təlimləri. Təhsildən yayındığı müəyyən edilən şəxslər üçün açıq təhsil proqramları, peşə kursları, yetkinlik təhsili təşkil olunur.

2. Psixososial dəstək. Psixoloq, sosial xidmət mütəxəssisləri və məsləhətçilər tərəfindən psixoloji qiymətləndirmə, qrup terapiyaları və ailə məsləhətləri verilir.

3. Könüllü və toplum işi proqramları. Probasiya müddətində ictimai faydalı işlərə cəlbetmə cəza əvəzinə sosial faydanın təmin olunmasına yönəlir. Məs., yaşlılara xidmət, təmizlik, baxım işləri kimi fəaliyyətlər.

4. Asılılıqdan qurtulma proqramları. Alkoqol və narkotik asılılığı olan şəxslər üçün (Alkol ve Madde Tedavi Merkezi) əməkdaşlıq çərçivəsində reabilitasiya proqramları həyata keçirilir.[331]

---

[331] Çetin, E. (2020). Madde Bağımlılığı ile Mücadelede Denetimli Serbestlik Uygulamaları. Türk Kriminoloji Dergisi, 11(1), 51–64.

Araşdırmalar göstərir ki, sosial reabilitasiya tədbirlərinə cəlb olunan şəxslərin yeni cinayət törətmə ehtimalı əhəmiyyətli dərəcədə azalır. 2019-2021-ci illər arasında probasiya nəzarətində olan şəxslərin yalnız 8.5%-i yenidən cinayət törətmişdir.[332]

Türkiyədə reabilitasiya fəaliyyəti aşağıdakı formalarda həyata keçirilir: fərdi intervyular, qrup işləri, seminarlar, peşə təlimləri və hobbi kursları, asidə vaxtın təşkili.

Maraqlı təcrübələrdən biri də qrup işləri və ya qrup terapiyaları şəklində böyüklər və uşaqlar üçün tətbiq olunan reabilitasiya proqramlarıdır. Onlara aiddir: Siqaret, alkoqol, narkotik və psixoaktiv maddələrdən sui-istifadə barədə maarifləndirmə Proqramı (SAMBA), Həyatını dəyiş Proqramı (HAYDE), Asılılıqla mübarizə üzrə ailə təhsili Proqramı (BAMAP), Uşaqlar üçün aqressiyanın qarşısının alınması üzrə Müdaxilə Proqramı, Addım-addım dəyişilik Proqramı və s.[333]

Ümumiyyətlə, Türkiyə probasiya sistemi regional miqyasda qabaqcıl təcrübələrdən sayılır. Hüquqi baza möhkəm olsa da, sosial adaptasiya və reabilitasiya sahəsindəki fəaliyyətlərin daha da dərinləşdirilməsi və koordinasiyalı yanaşmaların tətbiqi vacibdir.

---

[332] Yıldız, A. (2020). Denetimli Serbestlikte Risk Değerlendirme ve Suçun Tekrarı. Kamu Yönetimi Araştırmaları Dergisi, 6(2), 89–107.
[333] Özyörük D. (2025) Probation implemetaion in Türkiye, Edited by Hüseyin Şık, Ph.D., p.42.

Bəzi tədqiqatçılar qeyd edirlər ki, səmərəli reabilitasiya üçün probasiya işçilərinin iş yükü, maddi resurslar və ixtisaslı kadr çatışmazlığı problemləri də mövcuddur.[334]

Bu mənada fərdiləşdirilmiş müdaxilə planlarının genişləndirilməsi, ctimai təşkilatlarla əməkdaşlığın artırılması, probasiya işçiləri üçün müntəzəm təlim proqramlarının təşkili və tədqiqat əsaslı qərarvermə mexanizmlərinin inkişaf etdirilməsi zəruri hesab edilir.

Qardaş Türkiyənin probasiya təcrübəsi xüsusilə Azərbaycan üçün əhmiyyətli hesab edilir. Qeyd edək ki, 2025-ci ildə Türkiyənin probasiya təcrübəsinin öyrənilməsi məqsədilə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Probasiya xidmətinin bir qrup əməkdaşı Türkiyədə təlim səfərində iştirak etmişlər. [335]

Türkiyə probasiya təcrübəsinin öyrənilməsindən və araşdırmalarımızın nəticəsi olaraq, ölkəmizin probasiya fəaliyyətində gələcəkdə tətbiqi faydalı hesab olunan əsas məqamlar bunlardır:

1) 2005-ci ildə yaradılmış Türkiyə probasiya sistemi 20 illik müddət ərzində davamlı inkişaf yolu keçmiş, Cəza və Həbs Evləri Baş İdarəsinin tabeliyində formalaşan Probasiya İdarəsinin hazırda Türkiyə ərazisində 149 yerli proba-

---

[334] Demir, M. & Uzun, S. (2022). Denetimli Serbestlik Personelinin Karşılaştığı Sorunlar ve Çözüm Önerileri. Sosyal Bilimler Enstitüsü Dergisi, 15(3), 112–130.

[335] Azerbaycan Cumhuriyeti Adalet Bakanlığı Heyeti Ceza ve Tevkifevleri Genel Müdürlüğünü Ziyaret Etti, https://cte.adalet.gov.tr

siya qurumu fəaliyyət göstərir. Həmin qurumlarda ümumi işçi sayı isə 6000 (altı min) nəfər təşkil edir.

2) Türkiyənin probasiya sistemində sosial işçi, psixoloq və pedaqoqların fəaliyyəti üstünlük təşkil edir, həmçinin probasiya sahəsində könüllülük fəaliyyəti təşviq olunur. Ölkənin 150-yə yaxın universiteti ilə probasiya sahəsində əməkdaşlıq haqqında memorandumlar imzalanmışdır.

3) Türkiyədə də probasiya nəzarətində olan şəxslərin əksəriyyətini narkotik istifadəçiləri təşkil edir. Şəxsin stasionar müalicə alması vacib hesab edilərsə, bu zaman o, müalicə və reabilitasiya üçün xəstəxanaya yerləşdirilir və mütəmadi olaraq izlənilir. Əlavə olaraq, onların əvvəl narkotik istifadəçisi olmuş, daha sonra müalicə alaraq sağalmış şəxslərlə görüşləri, sağalmış şəxslərin faktiki narkotik istifadəçilərinə xidmət göstərməsi təşkil edilir.

4) Probasiya nəzarətində olan şəxslərin sosial adaptasiyası, ictimai işlərə cəlb edilməsi və narkotik asılılığı olan şəxslərin müalicə proqramlarının icrasına, onların reabilitasiyasına xüsusi əhəmiyyət verilir. Törətdiyi cinayətdən asılı olmayaraq onlarla sosial adaptasiya yönümlü fəaliyyətlər həyata keçirilir. Bütün fəaliyyət "UYAP" adlı elektron sistem[336] (https://uyap.gov.tr) vaistəsilə həyata keçirilir. Belə ki, yönləndirmələr, şəxsin fərdi inkişaf planı və onun haqqında olan bütün məlumatlar həmin proqramda öz əksini tapmışdır.

[336] https://uyap.gov.tr

5) Şəxslərin reabilitasiyası məqsədi ilə Ailə və Sosial Xidmətlər Nazirliyi, Səhiyyə Nazirliyi, Türk İş, Yaşılay və başqa qurumlarla qarşılıqlı əməkdaşlıq edilir. Probasiya nəzarətinə götürülmüş şəxslərin qiymətləndirilməsi və psixoloji seanslar müvafiq ərazidə yerləşən idarədə həyata keçirilir. Əgər şəxsin idarəyə gəlməsi çətin və ya mümkünsüzdürsə, ilkin qiymətləndirmə səyyar formada şəxsin evində aparılır və ya onlayn formada keçirilir.

6) Psixoloji seanslarla yanaşı, məhkum edilmiş şəxslərin məşğulluq problemlərinin həllinə çalışılır. Özəl sektorda çalışan şəxslərlə əlaqələr qurulur və probasiya qeydiyyatında olan şəxslərin işlə təminatına dəstək olmağa çalışılır. Uşaqlar və böyüklər üçün müxtəlif peşə kursları var. Şəxslər həmin kursları bitirdikdən sonra müvafiq sertifikatlarla təmin edilir.

7) Ölkənin müvafiq qanununa görə, dövlət qurumları da daxil olmaqla, bütün qurumlarda işçi sayının 2%-ni cəzaçəkmə müəssisəsindən azad edilmiş və ya probasiya nəzarətində olan şəxslər təşkil etməlidir.

8) Probasiya nəzarəti altında olan şəxslərin ictimai işlərə cəlb edilməsinə maraq böyükdür. Belə şəxslərin əməyindən daha çox dövlət qurumlarında, məktəblərdə istifadə edilir.

9)Türkiyə təcrübəsində zərərçəkmiş şəxslərin hüquqlarının qorunması ilə bağlı məsələyə də xüsusi diqqət yetirilir. Zərərçəkmiş şəxslərə (məsələn, məişət zorakılığı qurbanlarına) xüsusi aparat (telefona bənzər) verilir. Həmin qurğu məhkumun üzərində olan elektron qolbaqla əlaqə-

ləndirilir. Məhkum zərərçəkmiş şəxsə yaxın ərazidə olduğu zaman həm müvafiq dövlət qurumuna məlumat daxil olur, həm də məhkumla təmasının olmaması üçün bu barədə zərərçəkmişə məlumat verilir.

10) Uşaqlara qarşı daha həssas yanaşılır və onların psixososial reabilitasiyasına xüsusi əhəmiyyət verilir. Belə ki, Probasiya idarəsində ayrıca Uşaqlarla iş şöbəsi fəaliyyət göstərir. Probasiya nəzarəti tətbiq edilmiş uşaqlarla görüşlərin və psixoloji seansların onlayn aparılmasına üstünlük verilir. Nəzarətə götürülmüş uşaqların ailələrində və məktəblərində qiymətləndirmə aparılır, onlar barədə rəy toplanılır. Məhkəməyə qədər istintaq təcridxanalarında olan uşaqların özü və ailəsi ilə, oxuduğu məktəbin heyəti ilə uşaqla bağlı qiymətləndirmə aparılır və məhkəməyə rəy verilir. Hakimlər uşaqlara ünvanlamaq istədiyi sualı sosial işçiyə ünvanlayır və həmin sual uşağa sosial işçi tərəfindən verilir.

11) Psixososial reabilitasiya telefonla və ya onlayn formada da aparılır. Həmçinin yaradılmış onlayn psixoloji xidmət şöbəsində psixoloqlar tərəfindən cəza çəkən şəxslərlə onlayn psixoloji konsultasiya aparılır.

12) Şəxs məhkum olduğu və cəzaçəkmə müəssisəsinə daxil olduğu gündən etibarən onunla sosial işçi qiymətləndirmə aparır və onun üçün fərdi inkişaf planı tərtib edilir. Onun müəssisə daxilində görəcəyi işlərlə bağlı reabilitasiya proqramı hazırlanır.

13) Ümumilikdə cəzaçəkmə müəssisəsində olan şəxslərin məşğulluğunun təmin edilməsi prioritetdir. Belə ki, cə-

zaçəkmə müəssisələrində müxtəlif məşğulluq proqramları mövcuddur. Bunlara heyvandarlıq, əkinçilik, əl işi, istehsal da daxildir. Cəzaçəkmə müəssisələrinin daxilində yaradılmış və işçiləri məhkumlar olan müəssisələrdə ətir, mebel, ayaqqabı, geyim və digər əşyalar istehsal olunur və satışa çıxarılır. Satışdan qazanılan gəlir dövlət nəfinə keçirilir.

14) Açıq tipli cəzaçəkmə müəssisəsinin daxilində yaradılmış restoranın 2024-cü ildə 2,5 milyon dollar gəlir əldə etdiyi bildirildi. Əlavə olaraq "sosial marketlər" mövcuddur ki, həmin marketlərə QHT-lər və digər fiziki və hüquqi şəxslər tərəfindən müxtəlif geyimlər verilir. Aztəminatlı ailə olduğu təsdiq edilən şəxslər belə marketlərdən ehtiyaclarına uyğun ödənişsiz şəkildə istifadə edirlər.

15) Müəssisələrin daxilində yaradılmış xüsusi kabinetlərdə məhkum əvvəlcədən müəyyən edilmiş şəxslərlə (ailəsi, dostları və qohumları) görüntülü formada danışa bilir.

16) Asılılıqla mübarizə proqramlarından biri olan "Hüzur Köy" - Narkomaniya ilə mübarizə və Sosial Adaptasiya Mərkəzində psixoloq, sosioloq və sosial işçilər tərəfindən xidmət göstərilir, benefsiarlar mərkəzin əkin sahələrində bağçılıq, müxtəlif sənətlər və əl işləri ilə məşğul olurlar.

17) Probasiya xidməti tərəfindən elektron nəzarət vasitələri icarəyə götürülməklə həmin vasitələrin yerlərə çatdırılması və yerində texniki xidmətin göstərilməsi şirkət tərəfindən həyata keçirilir. Bu da probasiya xidmətini əla-

və iş yükündən azad etməklə cəza icra edən qurum kimi bilavasitə fəaliyyət istiqamətləri ilə məşğul olmasına zəmin yaradır.

18) Türkiyə təcrübəsində probasiya nəzarətində olan şəxslərə sosial xidmət məcburi xarakter daşıyır. Məhkum edilmiş şəxs onun üçün tərtib edilmiş fərdi inkişaf planına uyğun hərəkət etmir və ya seanslarda iştirak etmirsə, o, üzərinə düşən vəzifələri yerinə yetirməmiş sayılır və cəzası ağırlaşdırıla bilər.

19) Ölkəmizdə probasiya sahəsində işləmək üçün hüquq təhsili tələb edilirsə, Türkiyədə isə müvafiq sahədə çalışmaq üçün sosiologiya, sosial iş, psixologiya, pedaqoqika təhsili tələb edilir.

20)Türkiyədə məhkuma elektron nəzarət vasitələrinin (ENV) tətbiq olunub-olunmaması barədə qərar Probasiya xidməti tərəfindən kollegial qaydada (Probasiya xidmətində təsis edilmiş Komissiya tərəfindən) qəbul edilir və bu zaman mövcud ENV-lərin sayı və risklər nəzərə alınır.

### 7.6. Yaponiya

Şərq ölkələri içərisində Yaponiya probasiya sistemi özünün unikallığı ilə seçilir. Bu ölkədə cinayətkarların cəmiyyətə reinteqrasiyasını təşviq edən mütərəqqi və ictimai iştiraka əsaslanan bir model mövcuddur.

Yapon probasiyasını unikal edən **2 əsas element** var. **Yapon probasiyasının ilkin mühüm elementi** probasiyada könüllülük institutunun daha geniş tətbiqi ilə bağlıdır. Bu sistemin əsasını könüllü probasiya əməkdaşlarının işti-

rakı, yüksək səviyyədə ictimai dəstək və reabilitasiya yönümlü proqramlar təşkil edir. **Yapon probasiyasının ikinci mühüm elementi** bu sistemdə reabilitasiya tendensiyasının üstünlük təşkil etməsidir. Bu ölkədə institutsional baxımdan da əksər qurumların reabilitasiya yönümlü olması diqqət çəkir.

**Yaponiyada reabilitasiya xidmətləri Ədliyyə Nazirliyi tərəfindən təşkil olunur** və idarə edilir. Cinayətkarlarla icma əsaslı tədbirlərin həyata keçirilməsinə cavabdeh olan dörd dövlət qurumu mövcuddur:

1) Ədliyyə Nazirliyinin Reabilitasiya Bürosu; 2) Milli Reabilitasiya Komissiyası;

3) Regional Şərti Azadetmə Şurası;

4) Probasiya İdarəsi.

Probasiya idarələri cinayətkarların icma əsaslı reabilitasiya tədbirlərini birbaşa həyata keçirən əsas qurumlar hesab olunur. Yaponiyada 50 probasiya idarəsi, 3 filial və 29 yerli ofis fəaliyyət göstərir.[337]

**Milli Reabilitasiya Komissiyası** Ədliyyə Nazirliyinin nəzdində fəaliyyət göstərir. Komissiya konkret şəxslə bağlı xüsusi əfv, cəzanın dəyişdirilməsi, icra edilmədən azad olunma və ya hüquqların bərpası barədə tövsiyələr verir, şərti azadetmə şuralarının qərarlarının araşdırılması və in-

---

[337] Minoura S. Volunteer Probation Officers in Japan, Volunteer Probation Officers and Offenders Rehabilitation, https://www.kouseihogo-net.jp/hogo/hogoshi/pdf/volunteerprobationofficersandoffendersrehabilitation.pdf

zibati qərarların qəbul edilməsi və digər məsələləri həll edir.

Bu ölkədə **2007-ci ildən Cinayətkarların Reabilitasiyası haqqında Qanun** (Offender Rehabilitation Act) qüvvədədir. Qanunun məqsədi cinayət törətmiş şəxslərə və yetkinlik yaşına çatmayan hüquq pozucularına münasibətdə müvafiq davranış tədbirlərinin tətbiq olunması, onların təkrar hüquq pozuntularına yol verməsinin qarşısının alınması, sağlam və ictimai cəhətdən faydalı fərdlər kimi cəmiyyətə uyğunlaşmalarına kömək etmək, eyni zamanda onların özlərini islah etmələrini və reabilitasiya olunmalarını dəstəkləməkdir.[338]

Probasiya nəzarətinin təyin olunması, şərti azadlıq və nəzarət mexanizmləri Yaponiya Cəza Məcəlləsi və Cinayət Prosessual Məcəlləsi ilə müəyyən olunur.

Prof. J.V.Roberts Yapon probasiya sistemini **hibrid model** adalndırır. Bu ikili struktur – peşəkar və könüllülərdən ibarət hibrid model – digər ölkələrə nümunə göstərilir. [339] İkili sistemə görə Yaponiyada Peşəkar probasiya məmurları (Professional Probation Officers) və Könüllü probasiya məmurları (Volunteer Probation Officers) institutları formalaşmışdır.

**Peşəkar probasiya məmurları** dövlət məmurlarıdır və əsasən ciddi risk daşıyan şəxslərlə işləyirlər.

---

338 Offender Rehabilitation Act（Act No. 88 of 2007, https://www.japaneselawtranslation.go.jp/en/laws/view/3319/en#je_ch1

339 Roberts, J.V. (2022). “Community-based Sentences in East Asia: The Case of Japan”. Asian Journal of Criminology, 17(1), pp. 56–72.

**Könüllü probasiya məmurları** isə icma əsaslı nəzarəti həyata keçirir və reabilitasiya prosesində mühüm rol oynayır. 2020-ci ildə Yaponiyada təxminən 47,000 könüllü probasiya məmuru fəaliyyət göstərirdi.[340] "**Hogoshi**" **kimi tanınan bu könüllü probasiya məmurları** peşəkar probasiya məmurları ilə birlikdə işləyən, cəmiyyətin üzvü olan könüllülərdir (*əsasən yaşlı nəslin nümayəndələrindən təşkil olunub*) və cinayət törətmiş şəxslərin yenidən cəmiyyətə inteqrasiyasını dəstəkləməklə yanaşı, cinayətlərin qarşısının alınmasına da töhfə verirlər.

Hogoshilər adətən təqaüddə olan şəxslər, özəl sahibkarlar, dini liderlər və ya yerli icmalarda nüfuzlu fərdlər olurlar. Onlar sıravi vətəndaşlar və müsbət nümunə təqdim edən qonşular olaraq, reabilitasiya prosesində iştirak edən şəxslərə örnək kimi çıxış edirlər.

**Könüllülər ədliyyə naziri tərəfindən təyin edilir** və yarımştat dövlət qulluqçuları kimi fəaliyyət göstərirlər. Onlar probasiya və ya şərti azadlıqda olan şəxslərə birbaşa dəstək, rəhbərlik və cəmiyyət tərəfindən qəbul edilmə mühiti təqdim etməklə Yaponiyada yeni cinayətlər törətmə səviyyəsinin aşağı olmasına əsaslı töhfələr verirlər.

Ümumiyyətlə, könüllü probasiya məmurları Yaponiya probasiya sisteminin ən geniş şəbəkəsidir və bu şəxslər cəmiyyətin müxtəlif təbəqələrindən olan, xüsusi təlim almış və ictimai etimad qazanan şəxslərdir.

[340] UNAFEI (2020). Volunteer Probation Officers and Community Involvement in Offender Rehabilitation in Japan.

Yapon probasiyasında **könüllülük institutunun tarixi** də maraqlıdır. Professor Satoshi Minoura yazır ki, Könüllü Probasiya məmurları sisteminin yaranma tarixi hələ 1880-ci illərə qədər gedib çıxır. 1888-ci ildə keçmiş məhkumlar üçün yaşayış yeri təmin edən özəl bir təşkilat (yarım-açıq müəssisə – halfway house) yaradılmışdı. Bu təşkilat, keçmiş məhkumlara məsləhət və yardım göstərmək məqsədilə prefektura üzrə təxminən 1,700 könüllü işçi təyin etmişdi. Daha sonra bu cür təşkilatlar digər bölgələrdə də yaradıldı və könüllülərin sayı artmağa başladı. Bu könüllü işçilər 1939-cu ildə "Hüquqi Reabilitasiya Xidməti Haqqında Qanun"un (Juridical Rehabilitation Services Act) qəbul olunması ilə rəsmi olaraq "probasiya məmurları" kimi tanındılar. Həmin dövrdə təxminən 13,000 **reabilitasiya məmuru** təyin edilmişdi.[341]

Könüllük modeli vasitəsilə cəmiyyətin iştirakçılığı gücləndirilir. Bu model probasiya nəzarəti altında olan şəxslərin cəmiyyətə daha tez və uğurla inteqrasiya olunmasına imkan yaradır. Bəzi tədqiqatlara görə, bu model sayəsində təkrar cinayətkarlıq səviyyəsi aşağıdır.[342]

Yaponiyada təxminən 900 probasiya əməkdaşı olduğu halda, 47,000-ə yaxın hogoshi fəaliyyət göstərir. Əməkdaş sayının məhdudluğu səbəbindən, hər bir müştəriyə təfər-

---

[341] Minoura S. Volunteer Probation Officers in Japan, Volunteer Probation Officers and Offenders Rehabilitation, https://www.kouseihogo-net.jp/hogo/hogoshi/pdf/volunteerprobationofficersandoffendersrehabilitation.pdf

[342] UNAFEI (2017). Rehabilitation and Reintegration of Offenders in Japan.

rüatlı dəstək vermək çətin olur. Buna görə də hogoshilər bu missiyanın mühüm hissəsini öz üzərlərinə götürürlər. Əgər probasiya idarəsi kifayət qədər böyükdürsə, xüsusi cinayət növləri üzrə qrup proqramları da keçirilir. Müxtəlif müştərilər probasiya əməkdaşının aparıcılığı ilə bir araya toplanır. Bəzən bərpa prosesindən keçmiş şəxslər də bu proqramlarda iştirak edir. Bizim proqramlarımızın bir hissəsi narkotik asılılığından qurtulmaq, digərləri isə cinsi cinayətlərin təkrarını önləmək məqsədi daşıyır. Bu proqramlar Koqnitiv Davranış Terapiyasına (CBT) əsaslanır və zehni-davranışsal dəyişiklikləri təşviq edir. Təlimlər mühazirə, iş dəftərləri, özünüifadə, qrup dəstəyi və emosional paylaşım elementlərini birləşdirir. Narkotik asılılığına görə proqramda iştirak edənlər həmin gün qısa narkotik testindən keçməlidirlər. 18 yaşdan aşağı şəxslər üçün bu proqramlar fərdi şəkildə həyata keçirilir. Könüllülər eyni zamanda müştərilərin evlərinə baş çəkir, onların yaşayış şəraiti və ailə münasibətləri ilə tanış olurlar. Həmçinin hələ də həbsdə olan şəxslərin ailələri və potensial işəgötürənləri ilə görüşür, azadlığa buraxıldıqdan sonrakı sosial mühitin hazırlanması ilə məşğul olurlar.[343]

**Yaponiyada sosial adaptasiya tədbirləri üç əsas istiqamətdə həyata keçirilir:**

*a) Yenidən sosiallaşdırma proqramları.* Azadlığa buraxılan şəxslər üçün fərdi ehtiyaclara uyğunlaşdırılmış təhsil, peşə

[343] A day in the life of a probation officer from Japan, https://www.cep-probation.org/a-day-in-as-a-probation-officer-from-japan/

hazırlığı və psixososial dəstək proqramları təşkil edilir. Bu proqramlar Halfway Houses adlanan yarım-açıq müəssisələrdə həyata keçirilir.

*b) Məşğulluq və peşə hazırlığı.* Ədliyyə Nazirliyi ilə əmək bazarının müxtəlif iştirakçıları (məsələn, işəgötürən assosiasiyaları) arasında əməkdaşlıq çərçivəsində keçmiş məhkumlara iş yerləri təqdim olunur. Bu təşəbbüs "Cooperative Employers Program" adı ilə tanınır.[344]

c) *Psixoloji və sosial dəstək.* Müxtəlif QHT-lər və könüllü təşkilatlar vasitəsilə psixoloji məsləhət, ailə münasibətlərinin bərpası və zərərçəkmişlərlə münasibətlərin normallaşdı-rılması üçün xidmətlər göstərilir.

**Beləliklə,** Yaponiyada probasiya və reabilitasiya sistemi hüquqi sabitlik, icma əsaslı nəzarət və səmərəli sosial dəstək mexanizmləri ilə diqqət çəkir. Ümumlikdə yapon cəmiyyətində  reabilitasiyaya dair pozitiv bir münasibət vardır. Lakin könüllülərin yaşlanması və yeni nəsil könüllülərin çatışmazlığı, həmçinin peşəkar məmurların sayının azlığı da hiss edilir. Könüllü əsaslı modelin uğuru Azərbaycan üçün praktiki və nəzəri nümunə kimi çıxış edə bilər. Bununla belə, sistemin davamlı inkişafı üçün könüllülərin sayı və keyfiyyətinin artırılması, müasir texnologiyaların inteqrasiyası və beynəlxalq təcrübənin öyrənilməsi vacibdir.

[344] 1. Ministry of Justice Japan (2023). Probation System in Japan. Available at: https://www.moj.go.jp

# NƏTİCƏ

Kitabda probasiya, sosial adaptasiya, reabilitasiya və bərpaedici ədliyyə ilə bağlı elmi və praktiki məsələlərin təhlilindən aşağıdakı yekun nəticələri mümkün və faydalı hesab edirik.

İlk növbədə probasiyaya verilmiş müxtəlif akademik və normativ anlayışları nəzərə alaraq, fikrimizcə probasiya belə bir tərif verilə bilər: Probasiya cinayət törətmiş şəxsin cəmiyyətdən təcrid olunmadan sınaq müddətinə verilməsi ilə ona nəzarət edilməsinə, sosial adaptasiya və reabilitasiyasına yönəlmiş sosial, psixoloji, hüquqi və s. tədbirlərin məcmusudur. Bu tərifdən çıxan nəticəyə görə probasiya: 1) alternativ cəza növüdür; 2) şəxsin cəmiyyət daxilində qalmaqla sınaq müddətidir; 3) məhkum üzərində həyata keçirilən nəzarətin bir növüdür; 4) sosial adaptasiya, psixoloji reabilitasiya və hüquqi-prossesual tədbirlər məcmusudur.

Hesab edirik ki, ölkəmizdə xüsusi cinayət probasiyasının tətbiqi məsələsində baxılması da faydalı olar. Çünki, bu zaman hakim məhkumun yenidən cinayət törətməməsi üçün xüsusi şərtlər müəyyən edəcək. Məsələn, asılılığı olan şəxslər üçün fərdi və qrup terapiyalarına və ya təlimlərə qatılma və ya internetlə, kibercinayətlərlə bağlı cinayət törətmiş şəxslərə münasibətdə kompüterə sahibliyin qadağan oluması və ya internetə çıxışın məhdudlaşdırılması və s.

Probasiyanın tarixi inkişafı onun sadəcə alternativ cəza forması deyil, sosial reinteqrasiya aləti kimi formalaşdığını sübut edir. Bu institut zaman-zaman fərqli formalarda inkişaf etsə də, onun məqsədi dəyişməz qalmışdır: cəmiyyətə təhlükə yaratmayan, lakin islah potensialı olan şəxslərin cəza çəkməkdən azad edilməsi və nəzarət altında reabilitasiyası. Müasir dövrdə isə probasiya rəqəmsal nəzarət texnologiyaları və fərdiləşdirilmiş sosial proqramlarla daha da təkmilləşdirilmiş və humanistləşdirilmişdir.

Probasiya nəzarətində olan şəxslərin hüquqları və vəzifələri onların reabilitasiyası və cəmiyyətə inteqrasiyası baxımından əsaslı hüquqi və praktik əhəmiyyətə malikdir. Azərbaycan qanunvericiliyi beynəlxalq standartlarla uyğunlaşdırılsa da, hüquqların icrası və nəzarət mexanizmlərinin səmərəliliyini artırmaq üçün institusional və metodoloji təkmilləşdirmələrə hələ də zərurət mövcuddur. Eyni zamanda, bu istiqamətdə beynəlxalq təcrübənin öyrənilməsi də faydalı ola bilər.

Azərbaycan Respublikasında Probasiya xidmətinin təşkili və inkişafı prosesi 2017-ci ildən həyata keçirilən institusional islahatlarla başlansa da, probasiyanın funksiya və səlahiyyətləri məsələsinin təhlili onu deməyə əsas verir ki, bu gün probasiyanın nəzarət funksiyası ilə yanaşı onun sosial adaptasiya və reabilitasiya funksiyasına xüsusi diqqətin ayrılması daha zəruri hesab edlilir.

Probasiya nəzarətində olan şəxslərin sosial adaptasiyası təkcə fərdi uyğunlaşma prosesi deyil, həm də sosial sistemin dayanıqlılığını və sabitliyini təmin edən əsas mexa-

nizmlərdən biridir. Xüsusilə, məhkumların sosial adaptasiyası onların reabilitasiyasını və cəmiyyətə uğurlu inteqrasiyasını təmin etmək üçün vacibdir. Bu məqsədlə, Azərbaycanda da Probasiya xidmətinin gücləndirilməsi, sosial işçilərin və psixoloqların bu prosesə cəlb olunması və peşə təlimlərinin artırılması reabilitasiya prosesinin səmərəliliyini artıracaqdır. Bu gün probasiya sistemlərində ən uğurlu sosial adaptasiya modeli və bu işin effektiv təşkili yalnız nəzarət mexanizmləri vasitəsilə deyil, həmçinin fərdi dəstək, təhsil, məşğulluq və sosial əlaqələrin gücləndirilməsi ilə mümkündür.

Azərbaycanın probasiya fəaliyyətində son illərdə sosial adaptasiya məsələlərinə daha çox diqqət ayrılmağa başlanmışdır. Bu sahədəki yeniliklər cəmiyyətə yenidən reinteqrasiya olunmaq istəyən məhkumlara xüsusi yanaşmanı nəzərdə tutur. Hazırda Probasiya xidməti məhkumların sosial adaptasiyasını dəstəkləyən islahatlar və layihələr həyata keçirir.

Bu gün Azərbaycanda probasiyada məhkumların adaptasiya, reabilitasiya və reinteqrasiyası kimi amillər prioritet hesab edilir. 2024-cü ilin ortalarından başlayaraq islahatlar hüquqi formallıqdan praktik reabilitasiyaya yönəlmişdir. 04 oktyabr 2024-cü il tarixində Probasiya xidmətində Sosial adaptasiya və reabilitasiya şöbəsinin yaradılması bu istiqamətdə dönüş nöqtəsi oldu və sistemin cəza yönümlü nəzarətdən reinteqrasiyaya keçidini simvollaşdırdı.

Probasiya fəaliyyətində reabilitasiyanın uğurlu olması üçün dövlət və qeyri-hökumət təşkilatları, sosial işçilər, hüquqşünaslar, psixoloqlar və işəgötürənlər birgə fəaliyyət göstərməlidir. Qabaqcıl ölkələrdə tətbiq olunan reabilitasiya proqramları sabiq məhkumların əmək bazarına daxil olmasını, psixoloji və sosial dəstək almasını və onların cəmiyyətə yenidən inteqrasiya olunmasını təşviq edir. Reabilitasiyanın effektiv təşkili cinayətkarlıq səviyyəsinin azalmasına, sosial nizamın qorunmasına və ümumi ictimai təhlükəsizliyin güclənməsinə mühüm töhfə verə bilər.

Xarici ölkələrin probasiya təcrübəsi göstərir ki, yalnız hüquqi nəzarət deyil, həm də sosial və psixoloji reabilitasiya, fərdi ehtiyaclara uyğun müdaxilə proqramları probasiya nəzarətinin effektivliyini artırır. Azərbaycanda probasiya sisteminin təkmilləşdirilməsi zamanı bu təcrübələrdən istifadə edilməsi məqsədəuyğundur.

# İSTİFADƏ EDİLMİŞ MƏNBƏ VƏ ƏDƏBİYYAT SİYAHISI:

***Azərbaycan dilində:***


1. Azərbaycan Respublikası Cəzaların İcrası Məcəlləsi, https://e-qanun.az
2. Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Probasiya xidməti haqqında Əsasnamə, https://e-qanun.az
3. Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Probasiya xidmətinin 2025-ci ilin birinci yarımilinə dair hesabatı, Bakı 2025.
4. Allahverdiyev R. F. (2025) Psixoaktiv maddə istifadəçilərinin sosial-psixoloji reabilitasiyası.
5. Ədliyyə Nazirliyinin Probasiya xidməti əməkdaşlıq əlaqələrini genişləndirir, https://justice.gov.az
6. Ədliyyə Nazirliyindən yeni yaradılan Probasiya Xidməti haqqında açıqlama, 17-02-2017, https://aia.az
7. Ədliyyə Nazirliyinin Probasiya xidməti Avropa Probasiya Konfederasiyasına üzv qəbul edilib, https://justice.gov.az
8. Ədliyyə Nazirliyinin Probasiya xidmətinin 2024-cü il üzrə Hesabatı, Bakı, 2025.
9. Əliyev, C. (2021). “Avropa Şurasının Probasiya Standartlarının Azərbaycan Hüququnda Tətbiqi”. Azərbaycan Hüquq Jurnalı, №4.
10. Əliyev, E. “Cinayət hüququnda alternativ cəza tədbirləri”, Bakı, 2020.

11. Məmmədov, N. "Cinayət cəza hüququnda probasiya institutunun inkişafı", 2021.
12. Hümmətova A.A. Probasiya xidməti cəza siyasətinin humanistləşdirilməsinin göstəricisi kimi. Magistr Dissertasiya İşi. Bakı 2020.
13. Həsənova Ü. Stiqmatizasiyaya uğramış vətəndaşların cəmiyyətdə rastlaşdıqları işsizlik problemi, "Sosiologiya. sosial psixologiya. siyasət", 2022 Cild 2, N 1.
14. Həsənov, Ə. (2018). "Probasiyanın tətbiqi və institusional inkişafı: Azərbaycan təcrübəsi", Hüquq və Dövlət, №1, s. 45-57.
15. Quliyeva, N. (2019). "Probasiyanın hüquqi və institusional əsasları", Azərbaycan Hüquq Jurnalı, №2.
16. Mediatorlar üçün bərpaedici ədliyyə ilə bağlı təlimlərə başlanılıb, https://justice.gov.az
17. Məhkəmə ilk dəfə cinayət işləri üzrə mediasiya yolu ilə barışıq sazişi əsasında şəxsi çəkilməmiş cəzadan azad edib, https://fed.az
18. Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, https://president.az

19. Dövlət Probasiya Xidməti Qanunu, https://m.likumi.lv

***Türk dilində:***

20. Azerbaycan Cumhuriyeti Adalet Bakanlığı Heyeti Ceza ve Tevkifevleri Genel Müdürlüğünü Ziyaret Etti, https://cte.adalet.gov.tr
21. Cin, H. (1996). Osmanlı Ceza Hukuku. İstanbul: Beta Yayınları.
22. Çağrı Sevinçli, (2021) Türk ceza adalet sisteminde, Denetimli Serbestlik, İstanbul Ticaret Üniversitesi, səh.18.
23. Çetin, E. (2020). Madde Bağımlılığı ile Mücadelede Denetimli Serbestlik Uygulamaları. Türk Kriminoloji Dergisi, 11(1), 51–64.
24. Denetimli Serbestlik Nedir? https://www. tkshukuk.com/denetimli-serbestlik-nedir/
25. Demir, M. & Uzun, S. (2022). Denetimli Serbestlik Personelinin Karşılaştığı Sorunlar ve Çözüm Önerileri. Sosyal Bilimler Enstitüsü Dergisi, 15(3), 112–130.
26. Özyörük D. (2025) Probation implemetaion in Türkiye, Edited by Hüseyin Şık, Ph.D., p.5.
27. Efe Can Karabulat. Ceza Adaleti Sisteminde Aktüeryal Risk Deşerlendirme Araçları: COMPAS Örneşi Üzerinden Bir Tartışma, https://dergipark.org.tr

28. Özbek, V. Ö., Doğan, K., Bacaksız, P., Tepe, İ. N., & Erdem, M. Z. (2022). Ceza Hukuku Genel Hükümler (16. Baskı). Ankara: Seçkin Yayıncılık.
29. TC Adalet Bakanlığı (2022). Denetimli Serbestlik Genel Müdürlüğü Faaliyet Raporu.
30. Ceza ve Güvenlik Tedbirlerinin İnfazı Hakkında Kanun, www.mevzuat.gov.tr
31. Eryılmaz, A. (2018). Denetimli Serbestlik Sürecinde Psikososyal Müdahale. Adalet Dergisi, 158.
32. T.C. Adalet Bakanlığı (2020). Denetimli Serbestlik Bilgi Sistemi ve Risk Değerlendirme Araçları. Ankara.
33. Yıldız, A. (2020). Denetimli Serbestlikte Risk Değerlendirme ve Suçun Tekrarı. Kamu Yönetimi Araştırmaları Dergisi, 6(2).

***Rus dilində:***

34. Аккулев А.Ш. Отдельные вопросы пробации// Научный журнал: Вестник Евразийского гуманитарного института 2010. №4. С. 41-47.
35. Гумбатов, М. Г. Пробация в Азербайджанской Республике и перспективы ее развития / М. Г. Гумбатов // Уголовно-исполнительное право. – 2019. – Т. 14(1–4), № 2.
36. Ривз Х. Великобритания: забота о пострадавших // Преступление и наказание, 1993. №4/5.
37. Садыков А.У. Перспективы института пробации в России, https://wiselawyer.ru

38. Тыныбеков Н.Т. Практика применения пробации в зарубежных странах, https://cyberleninka.ru

***İngilis dilində:***

39. A day in the life of a probation officer from Japan, https://www.cep-probation.org
40. Abadinsky, H. (2012). Probation and Parole: Theory and Practice. Prentice Hall.
41. About HM Prison and Probation Service, https://prisonandprobationjobs.gov.uk
42. Agan, A., & Starr, S. (2017). Ban the Box, Criminal Records, and Statistical Discrimination: A Field Experiment. The Quarterly Journal of Economics, 133(1).
43. Andrews, D. A., & Bonta, J. (2010). The Psychology of Criminal Conduct. Routledge.
44. Andrews, D. A. (2017). The Psychology of Criminal Conduct (6th Edition). Routledge.
45. Alternative Dispute Resolution in North Carolina. Elizabeth P.Manley
46. Bazemore, G., & Umbreit, M. (1995). Rethinking the Sanctioning Function in Juvenile Court: Retributive or Restorative Responses to Youth Crime. Crime & Delinquency, 41(3).
47. Bazemore, G., & Umbreit, M. (2001). A Comparison of Four Restorative Conferencing Models. Juvenile Justice Bulletin.
48. Ban the Box: U.S. Cities, Counties, and States Adopt Fair Hiring Policies, https://www.nelp.org

49. Britannica Dictionary Definition of Probation, https://www.britannica.com
50. Braithwaite, J. (1989). Crime, Shame, and Reintegration. Cambridge University Press.
51. Boone, M., & Moerings, M. (2007). Re-integratie in Nederland. Delikt en Delinkwent, 1(1).
52. Beck, A. T., Wright, F. D., Newman, C. F., & Liese, B. S. (2011). Cognitive Therapy of Substance Abuse. Guilford Press.
53. Beck, A. T. (1967). Depression: Clinical, Experimental, and Theoretical Aspects. Harper & Row.
54. Brennan, P. A., & Van Brunschot, E. A. (2013). Crime, Stigma, and the Reentry of Ex-Offenders: A Critical Examination of the Societal Impacts of the U.S. Criminal Justice System. Social Issues, 59(4).
55. Brennan, T., Dieterich, W., & Ehret, B. (2009). Evaluating the Predictive Validity of the COMPAS Risk and Needs Assessment System. Criminal Justice and Behavior, 36(1).
56. Carter, M. M., Giguere, R., & Pullen, S. (2007). Managing Offenders with Mental Illness: A Guide for Probation Officers. National Institute of Corrections.
57. Council of Europe. (2010). Recommendation CM/Rec(2010)1 on the Council of Europe Probation Rules. https://search.coe.int

58. Council of Europe. (2000). Recommendation No. Rec(2000)22 of the Committee of Ministers to member states on improving the implementation of the European rules on community sanctions and measures. https://rm.coe.int/16804fa427
59. Council of Europe. (1992). Recommendation No. R(92)16 of the Committee of Ministers to member states on the European Rules on Community Sanctions and Measures. https://rm.coe.int/16804f20c1
60. Council of Europe, Recommendation CM/Rec(2010)1) https://rm.coe.int
61. Commentary on the United Nations Standard Minimum Rules for Non-Custodial Measures (The Tokyo Rules), United Nations, New York, 1993.
62. Clear, T. R., Cole, G. F., & Reisig, M. D. (2016). American Corrections. Cengage Learning.
63. Council of Europe – Criminal Law Reform Projects. Probation and Post-Prison Assistance [2019]. https://www.coe.int
64. CEP – Confederation of European Probation (2023). About Us. https://www.cep-probation.org
65. Canton, R. (2011). Probation and Human Rights. European Journal of Probation, 3(1).
66. Corrigan, P. W., & Penn, D. L. (2001). Lessons from Social Psychology on Disrupting the Stigma of Mental Illness. American Psychologist, 56(9).

67. Cognitive-Behavioral Therapy Efficacy for Reducing Recidivism Rates of Moderate- and High-Risk Sexual Offenders: A Scoping Systematic Literature Review, https://pubmed.ncbi.nlm.nih.gov/27117001/
68. Council of Europe, 2010, Rule 58
69. CM/Rec(2010)1 - Recommendation of the Committee of Ministers to member states on the Council of Europe Probation Rules, https://search.coe.int
70. Confederation of European Probation. (2018). Probation in Europe – Key Principles.
71. Cullen, F. T. (1994). Social support as an organizing concept for criminology. Justice Quarterly.
72. Crime Reduction Research Series, Crown Copyright 2001.
73. Chris Grayling, Lord Chancellor and Secretary of State for Justice, Transforming Rehabilitation: A Strategy for Reform, https://consult.justice.gov.uk
74. Davis, R. C. (2015). Psychological support for ex-offenders: Strategies and outcomes. Journal of Offender Rehabilitation, 54(6).
75. Daly, K. (2006). The limits of restorative justice. In D. Sullivan & L. Tifft (Eds.), Handbook of restorative justice.
76. Durnescu, I., & McNeill, F. (2013). Understanding penal practices. Routledge.
77. Durnescu, I. (2013). Probation training in Europe: Comparative overview. CEP Report.

78. Dünkel, F., Grzywa-Holten, J., & Horsfield, P. (2015). Community Sanctions and Measures in Europe. Universität Greifswald.
79. Dünkel, F., Grzywa-Holten, J., & Horsfield, P. (2015). Restorative Justice and Mediation in Penal Matters in Europe. Forum Verlag Godesberg.
80. Dirk van Zyl Smit, D., & Appleton, C. (2016). Life Imprisonment: A Global Human Rights Analysis. Harvard University Press.
81. Delgado, R. (2000). Alternative Dispute Resolution: A Critical Reappraisal. Harvard Civil Rights–Civil Liberties Law Review.
82. Department of Justice Canada. (2020). Restorative justice programs. https://www.justice.gc.ca
83. Department of Justice Canada. (2020). Restorative justice programs. https://www.justice.gc.ca
84. Dignan, J. (2005). Understanding Victims and Restorative Justice. Open University Press.
85. Definition of probation from the Cambridge Academic Content Dictionary, Cambridge University Press, https://dictionary.cambridge.org
86. Definition of Probation, https://legaldictionary.net/probation/
87. Durkheim, É. (1893). De la division du travail social. Paris: Alcan.
88. Education and Employment Strategy 2018, https://www.gov.uk/government/publications/education-and-employment-strategy-2018

89. Effects of Individual and Group Cognitive-Behavioral Therapy for Male Prisoners in Iran, https://www.ojp.gov
90. European Committee for the Prevention of Torture and Inhuman or Degrading Treatment or Punishment (CPT) Standards. https://www.coe.int/en/web/cpt
91. Faith-Based Initiative, https://bobbyscott.house.gov
92. Farrall, S. (2002). Rethinking What Works with Offenders: Probation, Social Context and Desistance from Crime. Willan Publishing.
93. Farrall, S. (2011). Rethinking what works with offenders. Willan Publishing.
94. Feeley, M. M. (1992). The Process is the Punishment: Handling Cases in a Lower Criminal Court. Russell Sage Foundation.
95. Graham, H. & McIvor, G. (2015). "Electronic Monitoring in the Criminal Justice System." European Journal of Probation, 7(2), 135–150.
96. Goffman, E. (1963). Stigma: Notes on the Management of Spoiled Identity. Prentice-Hall.
97. Guide to Group Work Programmes & Individual Interventions 2024, https://www.pbni.org.uk
98. Harris, R. (1995) Reflections on comparative probation. In: K. Hamai, R. Villé, R. Harris, M. Hough and U. Zvekic (eds.) Probation Round the World. A Comparative Study. London and New York: Routledge.

99. Harris, A. (1995). Origins of the English Probation System. The Howard Journal of Criminal Justice, 34(3).
100. Handbook on Probation Services, Guidelines for Probation Practitioners and Managers prepared by Jon F. Klaus, Publication No. 60, Rome / London March 1998,
101. Handbook on Restorative justice programmes, New York, 2006.
102. HM Inspectorate of Probation (2021). The Quality of Probation Services Post-Reform.
103. Howard Zehr, Little Book of Restorative Justice, https://www.ojp.gov
104. Hughes, C. E., & Stevens, A. (2010). What can we learn from the Portuguese decriminalization of illicit drugs? British Journal of Criminology, 50(6).
105. History of Probation, https://legaldictionary.net
106. History of Probation, http://www.nyc.gov
107. Hucklesby, A. (2011). Understanding Offenders' Compliance: A Case Study of Electronically Monitored Curfews. European Journal of Probation, 3(1).
108. Hucklesby, A. (2013). Electronically Monitored Punishment: International and Critical Perspectives. Routledge.; Nellis, M. (2009). Surveillance, Rehabilitation and Electronic Monitoring: Getting the Issues Clear. Criminology & Criminal Justice, 9(1).

109. Ioan Durnescu, & Vivian Geiran, (2019) Implementing community sanctions and measures, Council of Europe, p.8.
110. Integrated Reentry and Employment Strategies. Reducing Recidivism and Promoting Job Readiness, https://csgjusticecenter.org
111. Integrated offender management (IOM), https://www.gov.uk
112. Integrated Offender Management, Key Principle, February 2015. https://assets.publishing.service.gov.uk
113. Johnstone, G., & Van Ness, D. W. (Eds.). (2007). Handbook of Restorative Justice. Willan Publishing.
114. J. Braithwaite. Restorative justice, https://johnbraithwaite.com
115. Kim, Y. Y. (2001). Becoming Intercultural: An Integrative Theory of Communication and Cross-Cultural Adaptation. Sage Publications.
116. Knight, C. & Lightowler, C. 2010. Reflections on the Electronic Monitoring of Offenders, Scottish Journal of Criminal Justice
117. Kuhlen, M. (2015). Kriminalpolitik und Strafrecht. Nomos Verlag.
118. Khoroshenko v. Russia [GC] - 41418/04, Judgment 30.6.2015 [GC], https://hudoc.echr.coe.int
119. Klein, A. R. (1997). Alternative Sentencing, Intermediate Sanctions, and Probation. Cincinnati, OH: Anderson Publishing Co.

120. Kosten, T. R., & O'Connor, P. G. (2003). Management of drug and alcohol withdrawal. The New England Journal of Medicine, 348(18).
121. Kelly, J. F., Magill, M., & Stout, R. L. (2009). How do people recover from alcohol dependence? Addiction Research & Theory, 17(3).
122. Latimer, J., Dowden, C., & Muise, D. (2005). The effectiveness of restorative justice practices: A meta-analysis. The Prison Journal, 85(2).
123. Langan, P. A. (1994). Between Prison and Probation: Intermediate Sanctions. U.S. Department of Justice, Bureau of Justice Statistics.
124. Latessa, E. J., & Lowenkamp, C. (2006). What works in reducing recidivism? University of St. Thomas Law Journal, 3(3).
125. Larrauri, E., "Probation in Europe", 2014
126. Lochner, L., & Moretti, E. (2004). The Effect of Education on Crime: Evidence from Prison Inmates, Arrests, and Self-Reports. American Economic Review, 94(1).
127. Link, B. G., & Phelan, J. C. (2001). Conceptualizing Stigma. Annual Review of Sociology, 27(1).
128. Louden, J., Manchak, S., & Kang, T. (2020). Community Corrections and Probation. Journal of Criminal Justice Policy Review.
129. Lewis Diana, What is Probation, https://scholarlycommons.law.northwestern.edu

130. Martin, F., McLeod, K., & Price, D. (2009). Electronic Monitoring in Practice: Examining the Impact on Offender Rehabilitation. Criminal Justice Matters, 78(1).
131. Mackenzie, Doris Layton et al. (2002). The Oxford Handbook of Crime and Criminal Justice. Oxford University Press; Vanstone, Maurice. (2004). Supervision and Surveillance: Probation in the New Millennium. Willan Publishing.
132. Mattick, R. P., Breen, C., Kimber, J., & Davoli, M. (2009). Methadone maintenance therapy versus no opioid replacement therapy for opioid dependence. Cochrane Database of Systematic Reviews.
133. Maruna, S. (2001). Making Good: How Ex-Convicts Reform and Rebuild Their Lives. Washington, D.C.: American Psychological Association
134. Merton, R. K. (1938). Social Structure and Anomie. American Sociological Review, 3(5).
135. Mental Health Effects Facing Recently Released Prisoners, https://www.verywellmind.com
136. McNeill, F. (2006). Desistance, Rehabilitation and Probation. Criminology & Criminal Justice, 6(10.
137. Murray v. the Netherlands [GC], Judgment 26.4.2016, https://hudoc.echr.coe.int
138. Morgenstern, C. (2009, 2016). "European initiatives for harmonisation and minimum standards in the field of community sanctions and measures."

(European Journal of Probation) https://journals.sagepub.com
139. Minoura S. Volunteer Probation Officers in Japan, Volunteer Probation Officers and Offenders Rehabilitation, https://www.kouseihogo-net.jp
140. Ministry of Justice Japan (2023). Probation System in Japan. Available at: https://www.moj.go.jp
141. Ministry of Justice (2019). "The future of probation: The Government response to the consultation" legislation.gov.uk
142. Ministry of Law, Singapore. (2021). Restorative justice practices in Singapore. https://www.mlaw.gov.sg
143. Marder, 'The New International Restorative Justice Framework : Reviewing Three Years of Progress and Efforts to Promote Access to Services and Cultural Change', The International Journal of Restorative Justice
144. Manual on Restorative Justice- values and standards for practice. EFRJ
145. Marlatt, G. A., & Donovan, D. M. (2005). Relapse Prevention: Maintenance Strategies in the Treatment of Addictive Behaviors. Guilford Press.
146. Mills, J. F., Kroner, D. G., & Hemmati, T. (2018). The Role of Mental Health and Risk in Offender Reintegration. Criminal Justice and Behavior, 45(9).
147. Miers D. An International Review of Restorative Justice, London, 2001.

148. McNeill, F. (2019). Probation, Rehabilitation and Re-entry. European Journal of Probation, 11(3).
149. Nellis, M. (2006). "Surveillance, rehabilitation and electronic monitoring: Getting the issues clear." Criminology and Criminal Justice, 6(1), 81–97.
150. Nellis, M., Beyens, K., & Kaminski, D. (2016). Electronically monitored punishment: international and critical perspectives. Routledge.
151. National Audit Office Annual Report 2010, https://www.nao.org.uk
152. National Association of Community and Restorative Justice (NACRJ). (2023). Programs & resources. https://www.nacrj.org
153. Neuroscience of Psychoactive Substance Use and Dependence, https://www.who.int
154. O’Farrell, T. J., & Fals-Stewart, W. (2006). Behavioral couples therapy for alcoholism and drug abuse. Journal of Substance Abuse Treatment, 31(3).
155. O'Driscoll, S. J. (2008). Youth justice in New Zealand: A restorative justice approach to reduce youth offending. UNAFEI Resource Material Series No. 75.
156. Offender Rehabilitation Act, https://www.japaneselawtranslation.go.jp
157. Probation, https://www.legalaid.on.ca
158. Probation, https://www.gov.uk/guide-to-probation
159. Probation, https://legaldictionary.net/probation/
160. Probation is often not thought of as a function of corrections, https://www.studocu.com

161. Probation in Europe The Netherlands, Marco de Kok, Leo Tigges, Anton van Kalmthout. https://www.cep-probation.org
162. Probation and Pretrial Services, https://www.uscourts.gov
163. Petersilia, J. (1995b). Expanding options for criminal sentencing. Santa Monica, CA: RAND.
164. Petersilia, J. (1997). Probation in the United States. Crime and Justice.
165. Petersilia, J. (2003). When Prisoners Come Home: Parole and Prisoner Reentry. Oxford University Press.
166. Paparozzi, M. A., & DeMichele, M. T. (2008). Probation and Parole: Current Issues. Journal of Offender Rehabilitation, 47(3), 226–242.
167. Pratt, J. (2008). Scandinavian Exceptionalism in an Era of Penal Excess. British Journal of Criminology, 48(2).
168. Padgett, K. G., Bales, W. D., & Blomberg, T. G. (2006). Under Surveillance: An Empirical Test of the Effectiveness and Consequences of Electronic Monitoring. Criminology & Public Policy, 5(1).
169. Pager, D. (2003). The mark of a criminal record. American Journal of Sociology, 108(5).
170. Padfield, N., & Dünkel, F. (2020). Release from Prison: European Policy and Practice. Willan Publishing.

171. Payne, A. A., & Welch, K. (2021). Restorative Justice in U.S. Schools: An Updated Research Review. WestEd. Retrieved from https://www.trorc.org
172. Pranis, K. (2005). The Little Book of Circle Processes: A New/Old Approach to Peacemaking. Good Books.
173. Parsons, T. (1951). The Social System. Glencoe, IL: Free Press.
174. Professional insertion: fine employment rate for graduates from management and engineering schools,
175. Raynor, P., "Community Penalties", 2007
176. Raynor & Vanstone, 2007; Rex, 1999
177. Recommendation CM/Rec(2010)1 of the Committee of Ministers to member states on the Council of Europe Probation Rules, https://www.cep-probation.org
178. Recommendation CM/Rec(2010)1 of the Committee of Ministers to member states on the Council of Europe Probation Rules, https://www.cep-probation.org/wp-content/uploads/2018/10/CoE-probation-rules-recommendation.pdf
179. Robinson, Gwen. (2001). Exploring Risk in the Probation Service: Frontline Perspectives. British Journal of Social Work, Vol. 31, No. 5.
180. Radzinowicz, L., & Hood, R. (1986). The Emergence of Penal Policy in Victorian and Edwardian England. Oxford University Press.

181. Roberts, J. V. (2004). The Virtual Prison: Community Custody and the Evolution of Imprisonment. Cambridge University Press.
182. Robinson, G. (2008). Probation, Human Rights and European Law. Willan Publishing.
183. Prof. Y. Dandurand and Prof. Curt T. Griffiths, Handbook on Restorative Justice Programmes, New York, 2006.
184. Peachey, D. (1989). The Kitchener Experiment. In M. Wright & B. Galaway (Eds.), Mediation and criminal justice: Victims, offenders and community (pp. 14-25).
185. Robinson & Crow, "Offender Rehabilitation", 2009.
186. Rawls, J. (1971). A Theory of Justice. Harvard University Press.
187. Roberts, J.V. (2002). Pre-sentence Reports in Sentencing Practice. Oxford University Press.
188. Risk assessment in the Netherlands, https://cris.maastrichtuniversity.nl
189. Recommendation No. R (99)19 of the Committee of Ministers to Member States concerning Mediation in Penal Matters.
190. Recommendation CM/Rec(2018)8 of the Committee of Ministers to Member States concerning Restorative Justice in Criminal Matters, https://search.coe.int
191. Restorative Justice Council. (2022). Restorative justice in the criminal justice system. https://restorativejustice.org.uk

192. Restorative Justice. Justice.gc.ca. Retrieved from https://www.justice.gc.ca
193. Roberts, J.V. (2022). "Community-based Sentences in East Asia: The Case of Japan". Asian Journal of Criminology, 17(1).
194. Raynor, P., & Robinson, G. (2005). Rehabilitation, Crime and Justice. Palgrave.
195. Social Support for Optimal Reintegration of Malaysian Parolees into Community, https://hrmars.com
196. Societal Reentry of Prison Inmates With Mental Illness: Obstacles, Programs, and Best Practices, https://pmc.ncbi.nlm.nih.gov
197. Steurer, S., & Smith, L. (2003). Education Reduces Crime: Three-State Recidivism Study. Correctional Education Association.
198. Suzuki, M., & Tanimoto, K. (2010). Restorative justice in Asian context: Naikan as a method for offender rehabilitation in Japan. In J. Shapland (Ed.), Handbook of restorative justice (pp. 103–118). Willan Publishing.
199. Sherman, L. W., & Strang, H. (2007). Restorative Justice: The Evidence. The Smith Institute.
200. Swedish National Council for Crime Prevention, 2015
201. The positive impacts of family contact for incarcerated people. https://www.prisonpolicy.org

202. The Second Chance Act (Fact Sheet), https://csgjusticecenter.org
203. Taxman, F. S., Shepardson, E. S., & Byrne, J. M. (2004). Tools of the Trade: A Guide to Incorporating Science into Practice. National Institute of Corrections
204. Taxman, F. S., & Belenko, S. (2011). Implementing Evidence-Based Practices in Community Corrections and Addiction Treatment. Springer.
205. Toffler, A. (1970). Future Shock. New York: Random House.
206. Tamura, M., & Otani, K. (2015). Social Reintegration Through Probation: The Japanese Approach.
207. Trotter, C. (2015). Working with Involuntary Clients: A Guide to Practice. Routledge.
208. Transforming Rehabilitation. A Strategy for Reform, https://consult.justice.gov.uk
209. Tonry, M. (2009). The Oxford Handbook of Crime and Public Policy.
210. Umbreit, M. S., Coates, R. B., & Vos, B. (2004). Victim offender mediation: A model for justice and healing. Criminal Justice Press.
211. Umbreit, M. S. (2001). The handbook of victim offender mediation: An essential guide to practice and research. Jossey-Bass.
212. United Nations Standard Minimum Rules for Non-custodial Measures (The Tokyo Rules), https://www.ohchr.org

213. Uggen, C. (2000). Work as a Turning Point in the Life Course of Criminals: A Duration Model of Age, Employment, and Recidivism. American Sociological Review, 65(4).
214. UNODC. (2020). Handbook on Restorative Justice Programmes. United Nations Office on Drugs and Crime.
215. UNODC (2006). Handbook on the Social Reintegration of Offenders. United Nations Office on Drugs and Crime. https://www.unodc.org
216. UNODC Annual Report 2023, https://www.unodc.org
217. Understanding Probation in the Criminal Justice System, https://www.coursesidekick.com
218. Understanding Probation In Criminal Cases, https://processserver.io/understanding-probation-in-criminal-cases/
219. United Nations Standard Minimum Rules for Non-custodial Measures (The Tokyo Rules), https://www.ohchr.org
220. UNAFEI (2017). Rehabilitation and Reintegration of Offenders in Japan.
221. UNAFEI (2020). Volunteer Probation Officers and Community Involvement in Offender Rehabilitation in Japan.
222. Van Kalmthout, A. M., & Durnescu, I. (2008). Probation in Europe. Wolf Legal Publishers.

223. Vanstone, Maurice. (2004). Supervision and Surveillance: Probation in the New Millennium. Willan Publishing.
224. Van Kalmthout, A. M., & Durnescu, I. (2008). Probation in Europe. Wolf Legal Publishers.
225. Vanstone, M. (2004). Supervision and Surveillance: The Probation and Aftercare Service in England and Wales, 1907–1948. British Journal of Criminology, 44(4), 546–564.
226. Van der Knaap, L. M., & Nijssen, L. T. J. (2016). Risk assessment in Dutch probation practice. European Journal of Probation, 8(3).
227. Volkow, N. D., Koob, G. F., & McLellan, A. T. (2016). Neurobiologic advances from the brain disease model of addiction. New England Journal of Medicine, 374.
228. Visher C. A., Travis J. (2003). Transitions from prison to community: Understanding individual pathways. Annual review of sociology 29 (1).
229. Van Zyl Smit, D., & Snacken, S. (2009). Principles of European Prison Law and Policy. Oxford University Press.
230. Van der Laan, P. (2014). "Rehabilitation in the Netherlands: Theory and Practice." European Probation Journal, 6(1).
231. Visher, C. A., Debus-Sherrill, S. A., & Yahner, J. (2017). Employment after Prison: A Longitudinal Study of Releasees in Three States. Justice Quarterly, 34(3).

232. Van Ness, D. W., & Strong, K. H. (2015). Restoring Justice: An Introduction to Restorative Justice (5th ed.). Routledge.
233. Van Kalmthout, A.M., Durnescu, I. (2008). Probation in Europe. Nijmegen: Wolf Legal Publishers.
234. Van Ness, D., & Strong, K. (2015). Restoring Justice: An Introduction to Restorative Justice (5th ed.). Routledge.
235. Van Kalmthout, A.M. (2007). Probation Systems in the European Union. Nijmegen: Wolf Legal Publishers.
236. Visher, C., & Travis, J. (2003). Transitions from prison to community: Understanding individual pathways. Annual Review of Sociology, 29.
237. Ward, T., & Maruna, S. (2007). Rehabilitation: Beyond the Risk Paradigm. Routledge.
238. Weber, M. (1922). Wirtschaft und Gesellschaft. Tübingen: Mohr Siebeck.
239. W.P.Statsky, West Legal Thesaurus/Dictionary, Special Deluxe Edn,1985.
240. What is Probation: Top 5 Essential Facts in 2024, www.jedplatform.com
241. What are drug courts? https://ntcrc.org/what-are-drug-courts
242. What Works - Effective Recidivism Reduction and Risk Focused Prevention, CO Division of Justice, 2008, https://www.prisonlegalnews.org

243. What the Probation Service does, https://prisonand-probationjobs.gov.uk/about-hmpps/probation-service/
244. Weitekamp, E. G. M., & Kerner, H. J. (2002). Restorative justice: Theoretical foundations. Willan Publishing.
245. Yalom, I. D. (2005). The Theory and Practice of Group Psychotherapy (5th ed.). Basic Books.
246. Zehr, H. (2002). The Little Book of Restorative Justice. Good Books.
247. Zehr, H., & Mika, H. (1998). Fundamental Concepts of Restorative Justice. Contemporary Justice Review, 1(1).
248. Zehr, H., & Mika, H. (2003). Fundamental Principles of Restorative Justice. In M. Wright (Ed.), Restorative Justice: Critical Issues.
249. https://www.justice.gov.az/news/3179
250. https://www.euforumj.org
251. ttps://supremecourt.gov.az/post/view/166
252. https://assets.publishing. service.gov.uk/media/ 62e41079d3bf7f75b02b3481/Wales_HMPPS_Reducing-Reoffending-plan.pdf
253. https://cyberleninka.ru/journal/n/yuridicheskaya-nauka
254. https://chatgpt.com/c/6866329f-8db0-8009-8440-b1a321200561
255. https://www.coursehero. com/file/38928276/ Discus-sion-2- WEEK-4-CRJ-303docx/

256. https://www.cep-probation.org/wp-content/uploads/2020/09/Probation-in-Europe-the-Netherlands.pdf
257. https://nij.ojp.gov/topics/corrections/recidivism
258. https://restorativejustice.org.uk/blog/embedding-restorative-justice-nhs-blame-healing
259. https://journals.sagepub. com/doi/ 10.1177/20662203177 00553?icid=int.sj-abstract.similar-articles.1
260. https://throughthegate.co.uk/

“Elm və təhsil” nəşriyyatının direktoru:
**İNAL MƏMMƏDLİ**

**Dizayner:** Zahid Məmmədov
**Texniki redaktor**: Rövşanə Nizamiqızı

Çapa imzalanmış 12.11.2025
Şərti çap vərəqi 23,5. Sifariş № 569
Kağız formatı 60x84 1/16. Tiraj 200

**Kitab “Elm və təhsil”** nəşriyyat-poliqrafiya müəssisəsində nəşr olunmuşdur.
E-mail: elm.ve.tehsil@mail.ru
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev 8 /4